AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 1

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2020

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Əsgər Rəsulov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Həbib Zərbəliyev, f.ü.e.d., prof. İlham Tahirov, f.ü.e.d., prof. Tofiq Hacıyev, f.ü.e.d., prof. Sevil Mehdiyeva, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, f.ü.f.d., dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2020, № 1

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2020

www. filologiyameseleleri.net

DİLÇİLİK

AFAQ AĞAYEVA
Filologiya elmləri doktoru, professor
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
e-mail: afag.agayeva 58@ gmail.com

GÖRÜŞMƏ ETİKETLƏRİ

(Texniki ali məktəblərdə Azərbaycan dili və nitq mədəniyyəti məşğələləri üçün nəzəri material)

Xülasə

Əvvəllər insanlar salamlaşarkən sanki xüsusi bir rəqs ifa edirdilər. Onlar buna məcbur olurdular.

Sonra papağı çıxartmaq adəti həmin ritualı (ənənəni) əvəz etdi. Amerikalı tədqiqatçı A. Şefflen yazır ki, salamlaşma zamanı bir sıra proseslər özünü göstərir:

1) Salamlaşan şəxs göz və sifətlə istiqamət götürür.
2) Onun qaşları dartılır.
3) Müxtəlif sözlərdən istifadə edir.
4) Jestlərdən istifadə edir. Məsələn, ovucla salamlaşır.

Salamlaşmanın növləri müxtəlif xalqlarda fərqlənir. Məsələn, ruslarda salamlaşmanın 40 növü var. M. Kaşğari oğuzların salamlaşması haqqında maraqlı məlumalar verir. Azərbaycanda salamlaşmanın müxtəlif formaları var:

-Salam, nə var, nə yox?

-Sağlığın. Salamatçılıqdır.

Belə dialoqlar hörmət ifadə edir. Bəs papağa əl toxundurmaq adəti necə yaranıb? O zaman cəngavərlər küçədə gedərkən tanış adamları görəndə dəbilqələrini qaldırıb üzlərini göstərirdilər. Yəni ki, mən filankəsəm.

Azərbaycanda salamlaşma etiketləri hələ “Kitabi-Dədə Qorqud dastanları”ndan bizə miras qalıb.

(Daha sonra məqalədə salamlaşma etiketlərinin mənası haqda məlumat verilir).

Açar sözlər: nitq, etiket, salam, qeyri-verbal, kommunikant.

Riyaziyyatda düzgün beşbucaqlının qurulması, düzgün onbucaqlının bir tərəfinin təyin edilməsi, xüsusən, nifaqorçulara məxsus gizli "Salam" işarəsi olan beşküncklü ulduzun qurulması anlayışları və s. Pifaqor qardaşlarının adı ilə bağlıdır.

Vaxt vardı ki, adamlar görüşən zaman az qala xüsusi mərasim rəqsi ifa etməyə məcbur olurdular. Sonra ayaqların bükülüb-açıldığı dəbdəbəli təzimdən yalnız papağı çıxarmaq adəti qaldı. Bu da, öz növbəsində, barmaqları şərti olaraq, şlyapaya yaxınlaşdırmaq, nəhayət, başı tərpətmək ilə əvəz edildi.

Amerika tədqiqatçısı Albert Şefflen salamlaşma zamanı insanların davranışlarını təhlil edərək, belə nəticəyə gəlmişdir ki, salamlaşma zamanı özünü göstərən başlıca proseslər bunlardır:

1) istiqamət götürmə (gözlərlə və sifətlə);

2) "qaşların dartılması" adlandırılan kinetik hərəkət;

3) salamlaşmanın sözlü (verbal) formulları;

4) ovucun da iştirak etdiyi salamlaşma jesti.

Maraqlıdır ki, salamlaşmanın burada göstərilən ikinci momenti - anı (qaşların dartılması) yalnız kommunikantlar (tərəflər) həqiqətən bir-birini tanıdığı halda özünü göstərir. Bu kinetik hərəkət heç də bir-birinə baxıb, ötüb keçmə hərəkəti deyil, bəlkə, bir-birinə yaxınlaşma siqnalıdır.

Müxtəlif xalqlarda sözlü (verbal) və sözsüz (qeyri-verbal, averbal), salamlaşmanın və vidalaşmanın çox rəngarəng növləri vardır. Məsələn, ruslarda təxminən 40, bəlkə də, daha artıq salamlaşma növü vardır.

Bu müxtəlifliyin səbəbini belə şərh etmək olar: ünsiyyətdə olanların qarşılıqlı əlaqəsinin başlanğıcı kimi salamlaşma hər hansı ünsiyyətin başlıca elementidir. Deməli, müxtəlif ictimai qaydaları olan cəmiyyətlərdə ünsiyyət aktı kimi işlənib, müxtəlif tələblərə cavab verməli olur.

M.Kaşğari oğuzların salamlaşması haqqında yazırdı: "Bir - birini tanımayan iki adam qarşılaşdıqları zaman öncə salamlaşar, sonra "boy kim?" deyə soruşarlar ki, "hansı boydansan?" deməkdir... Beləliklə, biri o birinin boyunu (qəbiləsini) tanımış olur və bundan sonra danışmağa başlar, yaxud durmayıb ayrılarlar (Divanil-luğat-it türk).

Azərbaycan mədəniyyətində "Salam", "Salaməleyküm!", "Sabahınız xeyir!" və s. kimi salamlaşmalar hər kəsə müraciətlə işlədilə bilər. "Ya Allah", "Xoş görmüşük!", "Gün aydın!" kimi vahidlər, əsasən, qeyri-rəsmi şəraitdə ictimai səviyyəcə eyni mövqedə olanlar arasında işləkdir. Saysız-hesabsız sabit ifadə formulları vardır ki, onlar hər dəfə nitqdə yenidən yaradılmır, hazır şəkildə işlədilir. Bununla belə, burada da yeniliklər, müasirlik öz təsirini göstərir.

Bütün salamlaşmalarda, hal-əhval tutmalarda, təbrik və təşəkkürlərdə kontakt-yaradıcı funksiya əsas yer tutur:

– Salam, nə var-nə yox?

– Sağlığın! Salamatçılıqdır...

Belə dialoqlar əslində "mən səni görürəm, sənə diqqət yetirirəm, sənə hörmət edirəm, səninlə ünsiyyətə razıyam" kimi mənaları bildirir. Özü də, bu nitq etiketi ictimai mahiyyət kəsb edir. Bunu nəzərə almadan bir sıra etiketlərin funksiyası düzgün anlaşıla bilməz. "Kefin necədir? İşlərin necədir?" - suallarını verən, heç də həmin şəxsin kefi, işləri haqqında geniş məlumat almaq məqsədi izləmir. Bəzən ziddiyyətlər, in-

cikliklər yaranır: "Halımı soruşur, dərdimə qulaq asmır" - umu-küsüsü hamıya tanışdır.

İngilis etnoqrafı B.Malinovski belə "boş söhbətləri" kontakt-əlaqəyaradıcı ünsiyyət termini ilə qeyd etmişdir.

İşarə ilə salamlaşma. İlk salam ibtidai icma quruluşunda yaranmışdır. Çox qədim zamanlarda insanlar hələ danışa bilmirdilər. Onlar meşədə bir-biri ilə görüşəndə dodaqlarının altında nə isə donquldanırdılar. Mamont ovu zamanı görüşərkən isə əllərindəki nizə və ya daşı yuxarı qaldırmaqla salamlaşırdılar.

Papağı çıxarmaqla salamlaşma. Papağa əl toxundurmaq. Nisbətən sonrakı dövrlərdə başdan - ayağa dəmir zirehə bürünmüş cəngavərlər başlarında dəbilqə və üzlərini örtən dəmir niqabla (üz örtüyü) gəzirdilər. Amma tanış adam görəndə üzlərini göstərmək istəyirdilər. Buna görə də, üzlərini örtən dəmir dəbilqəni çəkmək üçün əllərini başlarına tərəf qaldırırdılar.

Müasir əsgərlərin əllərini gicgahlarına doğru apararaq, "salamlaşma" hərəkəti məhz o dövrdən qalıb. Əvvəllər əllərini dəbilqəyə doğru qaldırırdılar. İndi isə papaqlarına toxundururlar. Baxmayaraq ki, başlarında dəbilqə, üzlərində dəbilqə yoxdur, həmin adətin izləri müasir dövrümüzdə də qalıb.

Papağı çıxarmaq. Romadakı qullar öz ağalarını salamlamaq üçün mütləq papaqlarını çıxarıb, təmiz qırxılmış başlarını onlara göstərməli idilər. Belə baş - həmin şəxsin qul olmasını bildirirdi. Muşketyorlar (Fransada kralın qvardiya süvarisində xidmət etmiş zadəgan - keçmiş əsgərlər) isə təzim etməli idilər. Amma bu zaman başındakı şlyapa yerə düşürdü. Buna görə də onlar belə bir üsuldan istifadə etməyə başladılar: papağı çıxarıb, sonra təzim etmək. İndi papağı, şlyapanı çıxarıb, təzim etmək adəti məhz o vaxtdan qalıb.

Dövlət bayrağını salamlayanda və Himni dinləyəndə də insanlar papaqlarını çıxarırlar. Çünki belə anlarda əlavə jestlərdən və "boş" sözlərdən istifadə etmək məsləhət görülmür!

Sözlə salamlama. Əsl ünsiyyət insanın müraciəti ilə başlanır. Salam vermək, kef - əhval tutmaq müraciətin ilkin şərtidir. Hər bir azərbaycanlı, xüsusən ziyalılar, kimə, harada və necə müraciət etməyi bilməlidir.

Müasir dövrdə yalnız "salam" şəklində deyil, digər ən müxtəlif variantlarda da həmin ifadə tərzi özünü göstərir. "Azərbaycan dilinin izahlı lüğəti"ndə həm "salaməleykum" və "salamunəleyküm", həm "əleykəssalam" və "əleyküməssalam", həm "əleyk", həm də "salam" sözləri lüğət vahidi kimi qəbul edilmişdir.

Xüsusilə, son dövrlər özünəqayıdışla, milli adət-ənənlərə riayətin yüksəlməsi prinsipi ilə əlaqədar hətta ifadənin bütöv variantları daha böyük aktuallıq kəsb etməkdədir. Məsələn, 1995-ci il fevralın 12-də Respublika prezidenti H.Əliyev respublika müəllimlərini qəbul edərkən (1995-ci il fevralın 12-də) onları "salaməleyküm" etiketi ilə salamlamışdı.

Dini dairələrdə bu ifadə ərəbcədə işlənildiyi kimi bütövlükdə "Əssalamü əleyküm və rəhmətullah və bərəkətuhu" (Sizin üzərinizə salam və Allahın mərhəməti və bərəkəti olsun!) tərzində işlədilir.

Salamın cavabını qaytarmamaq, yəni "salam almamaq" ən böyük qəbahətdir. Salam Allahın adlarındandır və ilahinin bütün gücünü, əzəmətini göstərir. Odur ki, İslam dünyasında əslində salama münasibət heç də salam verənə münasibət deyildir, bəlkə, İlahiyə münasibətdir. "Koroğlu" dastanlarındakı bir qoşmada deyilir:

Salam verdim, salam almaz,
Görüm kəssin salam səni.
Ağçasız, pulsuz aşığam,
Pulum yox ki, alam səni.

Allahın min bir adlarından olan "Salam" sözü alqış və ya qarğış məqamında da işlədilir. Həmin qoşmada bunun şahidi oluruq.

Hətta acığı gəldiyi, xoşlamadığı bir şəxs də salam verəndə onu almaq müsəlmanın borcudur. Bu cəhətdən "Kitabi-Dədə Qorqud"da aşağıdakı səhnə diqqətə layiqdir. Dəli Qarcar düşmən bildiyi, öldürmək istədiyi Dədə Qorqudun salamını almalı olur. Əsərdə deyilir: "Dədə Qorqud gəldi, baş endirdi, bağır basdı. Ağız - dildən görklü salam verdi. Dəli Qarcar ağzın köpükləndirdi. Dədə Qorqudun üzünə baxdı. Aydır: – Əleykəssalam! Ey əməli azmış, feili dönmüş..."

"Qurani-Kərimin dördüncü - "Ən-Nisa" surəsinin səksən altıncı ayəsində deyilir: "Sizə salam verildiyi zaman onu daha gözəl alın və ya (eyni ilə sahibinə) qaytarın! Şübhəsiz, Allah hər şeyi hesaba alandır".

Bununla belə, müsəlmanlar arasında da bir sıra hallarda salam almamaq mümkündür. Füzuli "Salam verdim, rüşvət deyildir deyə almadılar" deyərək şikayətlənir.

Bəzən də bir-biri ilə düşmənçilik münasibətində olanlar, nə üstə isə incik düşmüşlər də qarşı tərəfin salamını almamaqla öz təhqiramiz münasibətlərini bildirmiş olurlar. Məsələn, iki qardaşın görüşü:

Sabir: Dadaş, salaməleyküm!

Məşədi Mehdi: Bəh-bəh-bəh... xalqın da qardaşı var, baxıb fərəhlənir, mənim də (H.B.Nəzərli).

Bəzən isə silki mənsubiyyətinə görə ierarxiyanın (vəzifə, mövqe pilləkəninin) yuxarı pilləsində dayananlar nisbətən aşağı təbəqə nümayəndələrinin salamını almağa o qədər də həvəs göstərmirlər. Əlbəttə, bütün göstərilən hallarda psixoloji amilin təsiri də az rol oynamır. Məsələn:

Nurcahan: Salaməleykim, Xırdaxanım, başına dönüm, xeyirdimi?

Xırda xanım: Atam, anam sənə qurban. Xeyir olmamış nə var, a başı batmış (N.Vəzirov).

C.Cabbarlının "Almas" piyesində Hacı Əhməd yaltaq sovet (şura) sədri Baloğlanın salamına cavab verməməklə onu özünə tay tutmadığını, hətta adam yerinə qoymadığını nəzərə çarpdırır:

Baloğlan. Salam əleyküm, Hacı dayı!

Hacı Əhməd. Balam, bəs bu iclası haçan başlayırsınız?

Daha bir sıra psixoloji hallar, şəraitlərlə əlaqədar salamlaşma etiketi müxtəlif şəkillərdə təzahür edə bilər:

Həsənəli bəy. Məni çoxdan gözləyirsən?

Nisə xala. Salaməleyküm, qadan alım, yox, elə indi gəlmişəm.

Həsənəli bəy. (qayğılı) Hə, hə, salam! otur danış!

(H. Nəzərli).

Göründüyü üzrə, əvvəlcə salamı səhnəyə təzəcə daxil olan Həsənəli bəy verməli idi. Həyəcanlı və qayğılı olduğundan salam verməyi unudan Həsənəli bəyin əvəzinə, bu işi Nisə xala görür və onun yadına salamlaşmağı salır. Bəy də istər-istəməz salam almağa məcbur olur.

"Salam" sözünün mənası. "Salam" – ərəb sözüdür. Salim, yəni salamat, sağlam olmaq deməkdir. "Alə" isə ərəbcə yönlük halı bildirir. "Əssəlamun aleykə", yəni sağlamlığı sənə arzu edirəm, həmişə salamat ol. Əs hissəciyi artikldir (sözönü) və dilimizdə heç nə bildirmir.

Əssəlamun sözündəki -un hissəciyi kişi cinsini bildirən sonluqdur. Bu söz tələffüz zamanı dəyişikliyə uğrayaraq "salaməleyk","salammələk" şəklində işlənir. Qarşı tərəf isə sağlamlığı müsahibinə yönləndirərək, əslində belə deyir: Valeyküməssəlami. Bu da "ələk salam", "əleyk salam", "əleykəssalam" variantlarında şifahi nitqdə işlənir.

Ya Allah. Bir sıra hallarda salamlama replikası kimi "Ya Allah!" ifadəsindən istifadə olunur (Allah-taalanın ən gözəl adlarından birinin "Salam" olduğunu yada salaq! Burada hər şey əksinə olur və "Salam"ın arxasında dayanan "Allah" kəlamı işlədilir!). Daha güclü emosiyaların təsiri ilə bu ifadə digər salamlaşma vahidləri ilə birlikdə çıxış edir.

Ədəbiyyat

1.Kaşğari M. Divan. I cild, Daşkənd nəşri.

2. Seyidəliyev N. Azərbaycan dastan və nağıl dilinin frazeologiyası / filol. elm. dok. el. dər. almaq üçün dissertasiya, Bakı, 2007, 201 s..

3.Səmədova K. Nitq davranışında milli-mədəni xüsusiyyətlər / filol. üzrə fəls. dok. el. dər. almaq üçün dissertasiya, Bakı, 1996, 135 s..

4.Süleymanlı İ. Heydər Əliyev və Azərbaycan mədəniyyəti // Elmi Əsərlər. Bakı, 2013,
s.118-119.

5.Ларина Т. Англичане и русские: язык, культура, коммуникация. Москва, «Языки славянских культур», 2013, 360 с..

А.Агаева

Этикеты приветствования
(Теоретический материал для уроков Азербайджанского языка и культуры речи в технических ВУЗ-ах)

Резюме

В древние времена люди при встрече чуть ли не исполняли приватный танец. Они были вынуждены делать это.

Потом появился новый жест: снимать шляпу. Американский исследователь А.Шеффлен пишет, что во время приветствования наблюдаются следующие процессы:

1) Человек направляет глаза и лицо к коммуниканту.

2) Он поднимает брови вверх.

3) Использует слова.

4) Пользуется жестами. Например: протягивает руку.

Виды приветствований имеют некоторую национальную окраску. У русских имеется 40 видов. А.М.Кашгари представляет очень интересную информацию о приветствовании тюркских народов. В Азербайджане встречаются разные формулы при встрече:

-Здравствуй, как дела?

-Слава Богу, здравствуем.

Такие диалоги выражают уважение. А как появился обычай касаться головного убора? Дело в том, что в древние времена рыцари при виде своих знакомых, немного приподнимали шлем и показывали лицо. Они хотели, чтобы знакомые узнавали их.

В Азербайджане формулы приветствования встречались и в древней книге, сделанной из коровьей шкуры (в книге «Деде Коркуд»а).

(Далее в статье разъясняются значения некоторых этикетов приветствования).

Ключевые слова: речь, этикет, приветствие, авербальное, коммуникант.

A.R.Agayeva

Greeting etiquette
(Theoretical material for the lessons of Azerbaijan language and speech culture at technical institutes)

Summary

At ancient times people meeting each other almost performed private dance. They were obliged to do it.

Then a new gesture appeared: to take off the hat. An american researcher A.Shefflen writes that the following processes are observed during the greeting:

1) He directs eyes and face towards the communicant.
2) He raises eyebrows.
3) He uses words.
4) He makes gesture; for example, holds out a hand.

Types of greeting have some national colour. The Russian have 40 types of greeting. A.M.Kashgari presents very interesting information about the greeting of Turkish peoples. While meeting various forms occur in Azerbaijan:

-Hi, how are the things?

-Thank God, we are healthy.

Such dialogues express respect. How did the custom of touching hat appear? The matter is that an ancient times knights meeting familiar people raised their helmets a little and showed faces. They wanted these people to recognize them.

In Azerbaijan greeting formule were met also in ancient book made from a cow skin (in the book "Dede-Korkud"). Then some meanings of greeting etiquettes are explained in the article.

Key words: speech, etiquette, greeting, non-verbal, communicant.

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 01.09.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Yusif Yusifov tərəfindən çapa tövsiyə olunmuşdur

НАРГИЗ СЕИДОВА
Доктор философии по филологии,
заведующая Кафедрой Иностранных Языков
Факультета Международных Отношений и Регионоведения
Азербайджанского Университета Языков

ЛЕКСИЧЕСКИЕ ОСОБЕННОСТИ РЕЧЕВЫХ АКТОВ БЛАГОПОЖЕЛАНИЙ И ПРОКЛЯТИЙ ВО ФРАНЦУЗСКОМ ЯЗЫКЕ

Резюме

В данной стаье рассматриваются лексические особенности проклятий и благопожеланий во французском языке. Язык - сложнейший продукт общественной многовековой жизни народа. Лексический состав французских благопожеланий и проклятий очень хорошо отражает ценностную картину мира носителя языка. Он постоянно обновляется, вместе с происходящими в мире событиями. Особое место в текстах благопожеланий и проклятий следует уделить перформативным и дескриптивным глаголам. Определенная часть текстов французских благопожеланий и проклятий построена при помощи дескриптивных глаголов. В подобных случаях глагол не совпадает с действием, а лишь описывает действие. Также в статье указывается тот факт, что основным компонентом в большинстве благопожеланий является слово Dieu – Бог. Слово «Бог» является ключевым не только в текстах благопожеланий, но и проклятий. Благопожелания и проклятия в рамках устно-речевого дискурса обычно представляются как оппозитивные жанры. Автор статьи не соглашается с данной точкой зрения. Текстам французских благопожеланий и проклятий присущи полифункциональность и интертекстуальность. По этой причине благопожелание не во всех случаях может быть противопоставлено проклятию. Невозможность их противопоставления определяется их различной экспрессивно-модальной направленностью. Также в данном вопросе большую роль играют различные ситуативные аспекты их использования.

Ключевые слова: лексика, семантика, благопожелания, проклятия, язык, перформатив

Отбор лексики и образов, лежащих в основе фанцузских благопожеланий и проклятий, осуществляющейся на протяжении многих веков, раскрывает разные стороны исторического развития французского народа, его национальной культуры, духовного склада и миросозерцания. Способ

концептуализации действительности в некоторых пожеланиях универсален, в некоторых же специфичен.

«Язык - сложнейший продукт общественной многовековой жизни народа, естественно, создает предпосылки для различных точек зрения о сущности научного анализа языка. Однако самым существенным в научном изучении естественных языков следует считать изучение языка в связи с культурой и ее историей, с мышлением и его историей, ибо только в таком случае познается самое важное в сущности языка. Изучая язык, в связи с культурой, в первую очередь аппелируют к показаниям лексики» (1:3). В тисках лексикализованных единиц языка, хорошо сохраняются реликтовые слова - верные свидетели культуры и истории народа.

Е. М. Верещагин и В. Г. Костомаров рассматривают слово как коллективную память носителей языка, зеркало жизни нации, а осваиваемое слово - как ключ к образу жизни соответствующего народа (2: 46).

Лексический состав французских благопожеланий и проклятий очень хорошо отражает ценностную картину мира носителей языка и постоянно обновляется, вместе с происходящими в мире событиями.

Проиллюстрировать сказанное нам помогут слова, обозначающие болезни в текстах проклятий. Эти слова свидетельствуют о том, от каких болезней больше всего страдали в тот или иной период времени. В библейских текстах чаще всего упомянуты la peste – чума: «L'Eternel attachera à toi la peste, jusqu'à ce qu'elle te consume dans le pays dont tu vas entrer en possession» (3:Deutéronome 28:21) – «Пошлет Господь на тебя, чуму доколе не истребит Он тебя с земли, в которую ты идешь, чтобы владеть ею» (4:Второзаконие 28:21). Другие смертельные болезни: consumption - чахотка , de fièvre - горячка, d'inflammati-on-лихорадка, de chaleur brûlante - сильный жар, de desséchement-обезвоживание, de jaunisse - желтуха, gangrene – гангрена:

«L'Eternel te frappera de consomption, de fièvre, d'inflammation, de chaleur brûlante, de desséchement, de jaunisse et de gangrène, qui te poursuivront jusqu'à ce que tu périsses» (4:Deutéronome 28:22) – «Поразит тебя Господь чахоткой, горячкою, лихорадкою, воспалением, обезввоживанием, желтухой и гангреной и они будут преследовать тебя, доколе не погибнешь» (4:Второзаконие 28:22).

В текстах Мольера и Перро, мы видим очень часто употребление считавшегося на тот момент очень опасным заболевания – чумы:

La peste soit du causeur! (5 :205)

La peste soit des gens, avec leurs chiens de hurlements ! (5 :718)

Peste soit du maroufle ! (5 :906)

Peste soit du Boudin ! (6 :72)

Говоря о языковых факторах формирования текста благопожеланий и проклятий следует отметить, что они имеют свои модели пожелания. Предмет или объект желани передается при помощи определенного существительного,

которое можно рассматривать как параметр диктумного содержания текста благопожелания или проклятия. Чаще всего в текстах благопожеланий и проклятий используются слова, выражающие следующие концепты: дом, семья (дети, родители, муж, жена), здоровье (физическое и духовное), благополучие (моральное и материальное).

Особое место в текстах благопожеланий и проклятий следует уделить перформативным и дескриптивным глаголам. Именно они выступают в большей степени маркерами модальности текста. Остановимся на термине «перформативный». Впервые об этом феномене заговорил Дж Остин в своей теории речевых актов. Перформативные высказывания одновременно являются действиями (от английского perform - исполнять, выполнять, представлять, играть роль). По Дж. Остину перформатив может быть, как явным - “эксплицитным”, так и неявным, - “имплицитным”.

Эксплицитный перформатив - это перформатив, в котором “Я” эксплицировано в вербальной форме (7:66), то есть когда выполняемое действие сопровождается описывающими его словами (авторефлексивная выраженность), - и при этом описание действия неотделимо в акте говорения от самого действия.

И.В.Крюкова рассматривает эксплицитные перформативы-проклятия как «как продукты свертывания эмотивных форм выражения тактик изгнания, поругания и злопожелания в синкретичные речевые формулы, необходимые для статусно ориентированного (институционального) общения» (8:58).

Согласно Дж.Остину к базовым эксплицитным перформативам в текстах французских благопожеланий и проклятий можно отнести глаголы bénir «благославлять» и maudire «проклинать» только в первом лице единственного числа:

Среди множества выявленных нами примеров французских благопожеланий и проклятий случаев, где эти глаголы были бы использованы именно в первом лице очень мало. В основном в этих текстах задействованы безличные конструкции beni soit и maudit soit:

Béni sois-tu, Seigneur, toi qui as voulu naître à Bethléem, la maison du pain, pour être le pain de vie des croyants. Gloire à toi dans les siècles! (текст молитвы благопожелания);

Que béni soit le Ciel qui veut bien que je te revoie (5 :89);

Maudit soit le jour où je suis née et maudit le jour où je suis montée sur cette nef ! (9:76);

Maudit soit l’espion ! (9:148).

В этих примерах модальность, которая необходима в конкретной коммуникативной ситуации полностью передана.

Мы считаем, что глаголы bénir «благославлять» и maudire «проклинать» являются перформативными по сути, и не важно в каком они лице употребляются в тексте, своего значения они при этом не теряют.

Недескриптивным высказываниям, лишенным перформативного глагола, дается определение имплицитных перформативов, потому что они отвечают главному критерию перформативности - эквиакциональности (10: 164).

Например, проклятие malheur à votre tête – «горе на вашу голову» можно отнести к имплицитным перформативам, поскольку это выражение грамматически не соответствуют эксплицитному перформативу, здесь нет перформативного глагола, в то время как на уровне действия этот оборот его замещает, выполняя перформативную функцию.

Определенная часть текстов французских благопожеланий и проклятий построена при помощи дескриптивных (или констативных) глаголов. В подобных случаях глагол не совпадает с действием, а лишь описывает действие. В качестве примера можно привести глагол souhaiter – «желать»:

Je vous souhaite tout le bonheur du monde! Je vous souhaite de la santé, du courage, de bons moments dans la vie! Toute l'équipe souhaite à votre équipe une très bonne année (из текстов поздравительных открыток).

Нужно отметить, что во французском языке глагол souhaiter – «желать» встречается только в современных текстах. В ранних текстах, с которыми мы работали, такая конструкция не представлена.

Анализ компонентного состава французских благопожеланий показал, что основным компонентом в большинстве благопожеланий является слово Dieu – Бог. Во многих текстах французских благопожеланий он является незримым участником коммуникации. В лингвокультурном пространстве французского народа Бог всемогущ, он может:

- спасти от любой опасности и зла: Dieu vous sauve, beau sire ! (9:59);

- упокоить душу покинувших мир: Que Dieu reçoive les morts et préserve les vivants ! (9:23);

-вознаградить: Tristan, que Dieu récompense le père qui t'éleva si noblement ! (9:28);

- благославить: Tintagel, s'écria Tristan, béni sois-tu de Dieu, et bénis soient tes hôtes! (9:30)

- придти на помощь: Tristan, Dieu vous soit en aide (9:137)

- уберечь от смерти: Que le Dieu né d'une Vierge vous accompagne et vous défende de la mort ! (9:204)

- успокоить: Le bon Dieu fasse paix à mon pauvre Martin ! (5)

Слово «Бог» является ключевым не только в текстах благопожеланий, но и проклятий, в этих текстах «бог становится медиатором желательности, ему адресованы все тексты, в то же время он выступает как субъект желания. Ценность Бога в мифологическом сознании проецируется и на функционально-

структурную композицию жанра, божественная инстанция выступает как ядро текстовой организации благопожеланий и проклятий. Через отношение к Богу транслируется понимание миропорядка, иерархическая организация социума» (11:180).

Как было сказано ранее, языковая специфика французских благопожеланий проявляется в наличии тропеических средств, которые помогают придать благопожеланию образность. Так, в текстах благопожеланий и проклятий были выявлены случаи употребления:

- метафоры: Ami Roland, que Dieu mette ton âme dans les fleurs!
- сравнения: Que Dieu vous bénisse et vous fasse le nez comme j'ai la cuisse!
- иронии: bénédiction de Saint-Roch.
- эпитета: Que Dieu lui prête longue vie! Que le haut mal le torde de douleur !

Qu'une mort violente l'emporte aujourd'hui même, puisse-t-il pendre à une maudite corde sans que personne ne puisse le défendre! Que la male mort lui crève le cœur!

Среди материалов исследования был зафиксирован типичный случай энантиосемии, где одно значение слова антонимично второму значению: Que Dieu (le diable) te patafiole! - 1) благослави тебя Бог; 2) чтоб тебя черти взяли, разрази тебя Бог!

Осуществить проклятие, как правило, призваны:

Бог: que Dieu t'anéantisse !- да уничтожит тебя Бог! Dieu me damne! – да проклянет меня Бог!

Святые: donner des bénédictions de saint Roch – проклинать; bénédiction de Saint-Roch – проклятие.

Инфернальные сущности: Que le diable l'emporte! - Черт его побери!

Au diable soit le mâcherable tant il pue! - К дьволу отсталого, так он воняет!

Персонифицированные болезни: Que la goutte te crève l'œil! – Чтоб у тебя ослепли глаза от подагры!

Адский огонь: que le feu de l'enfer te brûle ! – чтоб тебя сжег адский огонь!

Часто проклятия теряют свое семантическое значение, выступая в роли синергем, для усиления эмоционального напряжения речи. При их отсутствии текст воспринимался бы совсем иначе, или даже можно было не обратить внимания на произнесенную фразу или речь. Усиление эмоционального напряжения текста или высказывания с помощью проклятий дают основание отнести их к эмотивно-экспрессивным единицам.

Благопожелания и проклятия в рамках устно-речевого дискурса обычно представляются как оппозитивные жанры. Мы не согласны с подобной постановкой вопроса. Текстам французских благопожеланий и проклятий присущи полифункциональность, интертекстуальность, интердискурсивность и интержанровость. По этой причине благопожелание не во всех случаях может быть противопоставлено проклятию. Скажем, пожелание доброго утра, дня,

ночи, недели, года не могут быть противопоставлены по семантике проклятиям-клятвам. Невозможность их противопоставления определяется как их различной экспрессивно-модальной направленностью, так и различными ситуативными аспектами их использования.

Список литературы

1. ЧикобаваА.С. Историзм и лингвистика // ВЯ, N6, 1980, с.З – 12.
2. Верещагин Е. М., Костомаров В. Г. Национально-культурная семантика русских фразеологизмов // Словари и лингвострановедение. - М., 1982, с.89-97.
3. La Bible. Ancien Testament. Traduction oecumenique. Paris. 1975, -837 p.
4. Библия. Книги Священного Писания Ветхого и Нового Завета. Российское библейское общество. М; 2008, -1216 с.
5. Molière. Oeuvres complètes I éditions eBooksFrance. Adaptation d'un texte électronique provenant de la Bibliothèque Nationale de France: http://www.bnf.fr/ 2000.
6. Perrault Ch. Les contes. Version intégrale. Auzou, 222 p.
7. Остин Дж. Избранное. Как производить действия при помощи слов / пер. В.П.Руднева, Смысл и сенсибилии / пер. Л.В.Макеевой. - М. Дом интеллектуальной книги, 1999, - 332 с.
8. Крюкова И.В. Речевой акт проклятия и лексико-грамматические средства его осуществления. Автореф. канд.дисс. Ставрополь, 2011, -20 с.
9. Bédier Joseph. Le Roman de Tristan et Iseut H. Piazza, 1900. -284 p
10. Макаров М. Л. Основы теории дискурса. М.: ИТДГК «Гнозис», 2003,- 280 с.
11. Гак В. Г., Мурадова Л. А., Будницкая И. А Новый большой французско-русский фразеологический словарь. :М, 2006, -1624

N.Seyidova

lexical particularities of speech acts of salvations and damnations in French

Sammary

The article deals with the lexical particularities of damnations and salvations in the French language. Language is the most complicated product of a centuries-old public life. The lexical composition of French salvations and damnations reflects very well the value picture of the world of a native speaker.It is constantly updated, together with the events taking place in the world. A special place in the texts of salvations and damnations should be given to permissive and descriptive verbs. A certain part of the texts of French salvations and damnations are built with the help of descriptive verbs.The verb in such cases does not coincide with the action, but only describes the action. The article also indicates the fact that the main component in

most salvations is the word Dieu - God. The word "God" is key not only in the texts of salvations, but also in damnations.Salvations and damnations within the framework of oral-speech discourse are usually presented as opposite genres. The author of the article does not agree with this point of view. The texts of French salvations and damnations are characterized by multifunctionality and intertextuality. For this reason, salvation is not always opposed to a damnation.The impossibility of their opposition is determined by their different expressive-modal orientation. Also, an important role play the use of various

Keywords: vocabulary, semantics, salvations , damnations, language, performative

N.Seyidova

Fransız dilində mərhəmət və lənət bildirən nitq aktlarının leksik xüsusiyyətləri.

Xülasə

Məqalədə fransız dilində mərhəmət və lənətin leksik xüsusiyyətləri nəzərdən keçirilir. Dil xalqın çoxəsirlik ictimai həyatının mürəkkəb məhsuludur. Fransız dilinə məxsus mərhəmət və lənətin leksik tərkibi bu dilin daşıyıcılarının dünyagörüşünü çox yaxşı əks etdirir, dünyada baş verən hadisələrlə birlikdə daim yenilənir. Mərhəmət və lənət məzmunlu mətnlərdə perfomativ və deskriptiv fellərə xüsusi diqqət yetirmək son dərəcədə əhəmiyyətlidir. Fransız dilinə məxsus mərhəmət və lənət məzmunlu mətnlərin müəyyən hissəsi deskriptiv fellər vasitəsilə qurulmuşdur. Belə hallarda feil hərəkətlə uyğun gəlmir,onu yalnız təsvir edir. Məqalədə belə bir fakt da vurğulanır ki,mərhəmət anlayışının əksəriyyətində əsas komponent kimi Dieu-Tanrı sözü çıxış edir. “Tanrı” sözü yalnız mərhəmət məzmunlu mətnlərdə yox, lənət ifadə edən tekslərdə də əsas rol oynayır.Şifahi-nitq diskursu çərçivəsində mərhəmət və lənət, adətən, oppozitiv janrlar kimi özünü göstərir. Məqalənin müəllifi bu nöqteyi-nəzərlə razılaşmır. Fransız dilinə məxsus mərhəmət və lənət mətnlərinə yarımfunksionallıq və intertekstuallıq səciyyəvidir. Bu səbəbdən də mərhəmət heç də bütün hallarda lənətə qarşı oppozisiya təşkil edə bilmir.Onların əks mövqedə durmasının mümkünsüzlüyü bu anlayışların ekspressiv-modal yönümü ilə şərtlənir. Həmçinin,bu məsələdə onların istifadəsində müxtəlif situativ aspektlər də böyük rol oynayır.

Açar sözlər: leksika, semantika, mərhəmət, lənət, dil, perfomativ

Redaksiyaya daxil olma tarixi: 20.08.2019
Çapa qəbul olunma tarixi: 11.10.2019
Filologiya elmləri doktoru, professor Gülnarə Sadıxova tərəfindən çapa tövsiyə olunmuşdur

RƏHİLƏ HÜMMƏTOVA
ADPU
Filologiya üzrə fəlsəfə doktoru, dosent
nabiyevpn@gmail.com
Üzeyir Hcıbəli 68

TOVUZUN DİALEKT LEKSIKASINDA ALINMA SÖZLƏR

Xülasə

Müasir Azərbaycan ədəbi dilində işlənən sözlərin bir qismi dilimizə başqa dillərdən keçmişdir. Bu sözlər müəyyən səbəblərlə bağlı olaraq müxtəlif dillərdən alınmışdır. Ümumiyyətlə, başqa dillərin heç bir təsirinə məruz qalmayan, başqa dillərlə qarşılıqlı münasibətdə olmayan dil təsəvvür etmək mümkün deyil.

Başqa dillərdən alınan sözlər keçdiyi dildə ya öz formasını olduğu kimi saxlayır, ya da onun fonetik sisteminə, qrammatik quruluşuna uyğunlaşır. Alınma sözlərin bəziləri ədəbi dildən çıxıb, yalnız dialektdə işlənə bilir. Dialektlərdə işlənən sözlərin böyük əksəriyəti mənşəcə fars və ərəb dillərinə məxsusdur. Ədəbi dildən çıxan ərəb-fars sözlərinin müəyyən hissəsi qərb qrupu dialekt və şivələrinə daxil olan Tovuz dialektində də üstün mövqeyi ilə seçilir.

Aparılan müşahidələr onu deməyə əsas verir ki, dialekt və şivələrdə işlənən alınma sözlər fonetik-morfoloji cəhətdən olduğu kimi, leksik-semantik xüsusiyyətlərə görə də dəyişikliyə məruz qalır.

Bir məqalə həcminə uyğunlaşdıraraq verdiyimiz nümunələrdə ərəb-fars sözlərinin mənşə dil və qərb qrupunun bir qolu olan Tovuzun dialekt leksikası ilə müqayisədə bir sıra fonetik, leksik dəyişmələrin izlərini gördük

Açar sözlər: dialekt leksikası, dillərin qarşılıqlı əlaqəsi, alınma sözlər, ərəb-fars mənşəli sözlər, alınmaların dalektdə izləri

Müasir Azərbaycan ədəbi dilində işlənən sözlərin bir qismi dilimizə başqa dillərdən keçmişdir. Bu sözlər müəyyən tarixi faktorlar, məkan və zaman münasibətləri ilə əlaqədar olaraq müxtəlif dillərdən alınmışdır. ” Çox çətin təsəvvür etmək olar ki, bir dil, hətta özünün ən qədim vəziyyətində belə, başqa dilin heç bir təsirinə məruz qalmamış olsun”. (P.A.Çernıx)

Alınma sözlər qeyd etdiyimiz kimi müxtəlif şərait, tarixi faktorlar və səbəblərlə bağlı olur. Bu baxımdan alınma sözlərin dilimizə keçmə səbəblərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1) Zəruri və məcburi alınma sözlər (istilalar, işğallar və ictimai-siyasi və mədəni əlaqələr vasitəsilə keçən sözlər) ;

2) Ədəbi və danışıq dili vasitəsilə alınm sözlər;

3) Vasitəli və vasitəsiz alınma sözlər;

4) Coğrafi şəraitlə bağlı keçən sözlər (ticarət əlaqələri);

5) Obyektiv inkişaf qanunları ilə əlaqədar olaraq başqa dillərdən keçən sözlər. (2. s.216, 218)

Başqa dillərdən alınan sözlər keçdiyi dildə ya öz formasını olduğu kimi saxlayır, ya da onun fonetik sisteminə, qrammatik quruluşuna uyğunlaşır. Onların bir hissəsi dilimizin qanunlarına uyğunlaşmadığına və çətin anlaşıldığına görə dilimizdən çıxmışdır. Söz məhfumla əlaqədar olduğundan bu və ya başqa məhfum köhnəldiyi üçün alınma söz də həmin məhfumla birlikdə köhnəlir və tədricən unudulur.

Alınma sözlərin bəziləri ədəbi dildən çıxıb, yalnız dialektdə işlənə bilir. Dialektlərdə işlənən sözlərin böyük əksəriyəti mənşəcə fars və ərəb dillərinə məxsusdur. Bu fakt onu göstərir ki, Azərbaycan, fars və ərəb dilləri arasındakı qarşılıqlı əlaqələr çox dərin tarixi köklərə bağlıdır. Bu əlaqələr ictimai, siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində olduğu kimi, həmin xalqların dillərində öz əksini tapmışdır. Ərəb-fars dillərinə məxsus sözlərin böyük əksəriyyəti ədəbi dildə işlənsə də, bir qismi yalnız dialektlərdə işlənir. Ədəbi dildən çıxan ərəb-fars sözlərinin müəyyən hissəsi qərb qrupu dialekt və şivələrinə daxil olan Tovuz dialektində də üstün mövqeyi ilə seçilir. Tovuz dialektində işlənən ərəb-fars mənşəli sözlər leksik-semantik, eləcə də qrammatik cəhətdən məişətdə işlənən əşyaların adlarını, peşə, sənət, heyvan, quş adlarını, əlamət, keyfiyyət, zaman, iş, hərəkət və proses anlayışlarını və s. bildirən sözlər qrupunu əhatə edir. Aparılan müşahidələr onu deməyə əsas verir ki, dialekt və şivələrdə işlənən alınma sözlər fonetik-morfoloji cəhətdən olduğu kimi, leksik-semantik xüsusiyyətlərə görə də dəyişikliyə məruz qalır. Leksik-semantik cəhətdən aparılan linqvistik tədqiqat göstərir ki, alınma sözlərdə məna dəyişmələri ya mənanın olduğu kimi saxlanması, ya mənanın daralması və ya genişlənməsi, ya da yeni məna kəsb etməsi ilə xarakterizə olunur. Bu cür semantik dəyişmələr bəzən tək, bəzən də çoxmənalı sözlərdə baş verir.

Qərb qrupu dialekt və şivələrinə daxil olan Tovuz dialekt leksikası üzərində aparılan linqvistik müşahidələrdən belə nəticəyə gəlmək mümkündür ki, ərəb-fars mənşəli sözlərin böyük əksəriyyəti mənşə dilindəki mənasını olduğu kimi saxlamış, müəyyən qismində fonetik,semantik dəyişmələr baş vermişdir. Leksik-semantik cəhətdən dəyişikliyə uğramayan ərəb-fars mənşəli sözlərin Tovuz dialektində işlənmə mənzərəsini izləyək:

Adına\\adna – 1.cümə axşamı, cümə; Gəlsən, **adna** günü gedəx`. 2.ölən şəxs üçün verilən ehsan - Səlim kişinin **adnasına** gedirəm.

Ard – unun tozu; Unun **ardı** qalıf, də:rmana taxıl aparmax lazımdı.

Cəhl (ə) – bilməzlik, avamlıq. Dialektdə **cəhl çəkmək, cəhl etmək** feillərinin tərkibində işlənir: “ didişmək, dava-dalaş etmək” məzmununu verir. Nə qədər **cəhl etdim**, alammadım.

Cuvar – suçu, su nəzarətçisi:

Cuvar vahidi qərb dialekti üçün çox aktivdir. İstər canlı danışıq dilində, istərsə də şifahi xalq ədəbiyyatının xüsusi qolu olan aşıq poeziyasında (qərb) üstün işləklik dərəcəsinə malikdir. Məs.: Deyillər, yanıbdı bizim qardalı,**Cuvar** qardaş, sular, sellər necədi? (A.M.Azaflı)

Fikrimizcə, qərb zonası üçün aktiv olan **cuvar** dialekt vahidi "carramaq" (suya çəkmək, yaxalamaq, durulamaq), "cürdək" (su qabı), "cuyux//cuvux" (sulu) sözləri ilə eynikökdür. Hətta "Azərbaycan dilinin dialektoloji lüğətində "cü:r" sözü İmişli, Salyan şivələrində də "çay, arx" vahidlərinin ifadə etdiyi leksik məna ilə bağlıdır, çayın alçaq, çökək sahili deməkdir. Həmçinin həmin lüğətdə "cüvər//cüvər eləmək" Xaçmaz şivəsində "arxı təmizləmək" anlayışını bildirir. (1. s.83)

Eləcə də klassik ədəbiyyatda fars mənşəli **cü\\cu** (kiçik arx; ləklərə gedən kiçik su yolu) leksik vahidləri, kökü "cü" (su, çay) sözü ilə bağlı "cürə" (bir qurtum, bir udum, bir içim su) sözləri müşahidə edilir:

Arif içilən **cürəyi,** ey xosrovi-xuban,
Alim dilinə düşdüvü sahibnəzər oldu.
(İ.Nəsimi)

Bu Xətai **cu** kənarında nə baxsın sərvə kim,
Qəddi-dilcuyi onun sərvi-rəvandan yaxşıdır.
(Ş.İ.Xətai)

Yeri gəlmişkən, Salyan, Neftçala (şərq qrupu) şivələrində "ənbərəcu" dialekt vahidi işlənir və "tağları sulamaq üçün su yolu" mənasını verir. Göründüyü kimi, sözün ikinci tərkib hissəsi məhz "kiçik arx, çay" məzmununa malik fars mənşəli "cu" leksik vahididir.

Çargül – dördkünc; Ustuya tafşır, çərçivələri çargül eləsin.

Çar-naçar –1.istər-istəməz; 2. çarəsiz; Nağayrım, çar-naçar razılaşmalı oldum. Qalmışam çar-naçar, əlimnən də bir şey gəlmir.

Çəm (f) – 1. yol, üsul, qayda; 2. büküş, qırış; 3. işvə, naz, əzilib-büzülmək.

Dialektdə bir sıra mürəkkəb feillərin tərkibində işlənir: 1. çəmini bilmək - yolunu, üsulunu, qaydasını bilmək; səmtini, yönünü tapmaq; 2. çəm-xəm etmək - əzilib-büzülmək; Uşağın çəmini tut, gör nətəri sözünə baxır.

Çin – oraq; Ayə, yeri çini gəti, otu çalax.

Dəstərçin – əl ilə səliqəli, üst-üstə, sahmanlı yığmaq; A:z, paltarrarı dəstərçin yığsan.

Dıvır\\dıbır – ikillik erkək keçi; Qurbannığa dıvır saxlamışam.

Dıraz – uzun. **Dıraz** sözü dialektə daha çox milli mənşəli **uzun** sözü ilə qoşa işlənir ki, bu da **uzun** sözünün semantikasını qüvvətləndirmiş olur; Uzundıraz Səmədimi deyirsən? Hə, tanıyıram.

Eyhanə\eyhana – bəlkə (modal söz); Eyhana, o vaxta sağ qalmaram.

Əncama (fars) \\ dialektdə hancama – qapı petləsi; Qapıyı elə vurur ki, hancamasından çıxır.

Günəvər – gün düşən yer; Əriştiyi günəvərə sər, tez qurusun.

Xon (fars mənşəli xan sözündəndir, a – o əvəzlənməsi baş verib; mənası **xonça, süfrə, yeməklə dolu məcməyi**): Tərlan gözəlləri, qızıl gülləri, Nadan qucağında, **xonunda** gördüm... Həyat şirinsə də ömrün sonunda, Gözüm yox alçağın qönçə **xonunda**. (A.M.Azaflı) Və yaxud: Gələndə xonumun başını ha dağıtmırsan (Yəni niyə tez-tez gəlib-getmirsən?).

Kəmçiy – yarımçıq. Bir az kəmçiyim qalıf, onu da biçim, gəlirəm.

Kirt – tamam. Məs.: Kirt yarısını saxladım.

Qora – dəyməmiş, turş üzüm. Hələ qoradı, onu yeməx` olmaz.

Lam (ərəb) – ərəb əlifbasında "L" hərfinin adı. Dialektdə **lam qalmaq** - donub qalmaq, susmaq, söz tapa bilməmək (məcazi mənada). Onun hərəkətini görəndə yerimdə lam qaldım.

Latail (fars) \\ **latayır\\late:ir** (dialektdə) – faydasız, xeyirsiz, boş; Qoyasan late:ir-late:ir danışa.

Lağar\\ dialektdə laxar – 1.yöndəmsiz, biçimsiz; 2. yekəqarın, çoxyeyən (məcazi mənada); Laxarın doydusa, heyvanı örüşə apar.

Lığ – 1. palçıq; 2. çox, çoxlu, bol. Yoldan keşməx` olmur, **lığdı.** Yağışdan sonra köbələk **lığ** verir.

Miyana – orta; Miyana dolanışığımız olsa, bəsimizdi.

Nimdaş – işlənmiş, köhnə; Təzə paltar aldığım yadımnan çıxıf, əynimdəkilər də yamanca nimdaşdıyıf.

Peydər (həmişə, daim): Şair, arzum budur, **peydər** yaz-yarat, Əbədi ağlı ol bəşəriyyətin (Aşıq Mikayıl Azaflı)

Sağır – yetim; atasız; yazıq. Olar uşaxlıxdan sağır, boynuburux böyüyüflər.

Sədəf – kiçik düymə; Köynəyin qoluna balaca bir sədəf tix`sən.

Sərək – ağıldan kəm, gic, axmaq; Səhərdən-axşama, qoyasan, sərəx`-sərəx` danışa.

Sərsəri – boş-bekar, orda-burda gəzən; avara, dərbədər; Sayıl, sınqın, sərsərini saya sal, Saqın, sal, sal sarayından sərasər (Aşıq Mikayıl Azaflı)

Sıpa – 1.donuz balası; 2. kök. Yeməx`dən sıpıya dönüf.

Şayəd\\şayət – əgər (şərt bağlayıcısı); Şayət, gedəsi olsan, şər qarışmamış qayıdarsan.

Şax –1.ağacın böyük budağı; 2. quru ağac budaqlarından hazırlanaraq, üstünə müxtəlif hədiyyələr qoyulan, şirniyyatlarla bəzədilən və toyda gəlinin sağdışı tərəfindən bəyə baha qiymətə satılan toy atributlarından biri.

Şətəl –1. əngəl, ziyan, maneçilik; 2. şətəli keçmək - ziyanı dəymək, xatası dəymək; Şətəl sənnən keşməsə, belə sakit durammazdın.

Şil – şikəst, əlsiz-ayaqsız. Şilsənmi, gözün ayağının altına baxsa.

Şüy – ağacın cavan budağı. Şüydən kəsif basırmax lazımdı ki, vaxtında calax eliyəx`.

Tünük – nazik, zərif. Paltarın tünükdü, üşüyərsən.

İlham Tahirov İran və eləcə də Hind-Avropa dillərinin çox böyük arealında işlənən bu sözün Hind - Avropa mənşəli olduğunu, dialekt leksikasına İran dillərindən keçməsini eyni semantik xüsusiyyətə malik olması ilə əsaslandırır. Tədqiqatçı yazır: "Qədim və orta İran dillərində aşağıdakı mənzərəni müşahidə edirik: av.**tanu** -ka "nazik", qədim fars **tanu-** "nazik", orta fars **tanuk** "nazik, zərif", kl. fars **tanuk\\ tunik** "nazik, seyrək, dayaz". Qədim hind dilində **tanu** "nazik, zərif" mənalarından əlavə "arıq" anlamını da bildirmişdir. Müasir İran dillərinin əksəriyyətində eyni semantik çalarlar müşahidə olunur: fars **tonok** "nazik, zərif, seyrək, dayaz", tac. **tunuk** "nazik, zərif", kürd **tünək** "nazik, dayaz" (çay haqqında); seyrək (meşə haqqında)... tat.**tünük** "nazik" və s." (3.s.66)

Qəhətə çıxmaq, qəhət olmaq – yoxa çıxmaq, qıtlıq. Mənbə dildə (ərəb) "qəht" leksik vahidi 1.quraqlıq; 2.aclıq; 3. məhsulun olmaması; 4. qəhətlik, qıtlıq mənalarını verir. Dialektdə həmin mənalara uyğun işlənməkdədir. Həmçinin məcazi mənada da istifadə edilir.

Qut olmaq – qüvvətlənmək, cana gətirmək. Məs.: Yol gedirsən, bir az ye, ürəyinə qut olsun. **Qut** sözü mənbə dildə (ərəb) "yaşamaq üçün yeyilən şey, qida" mənalarındadır. Göründüyü kimi, dialektdə də eyni leksik mənaya malikdir.

Vər – cərgə, cərgələrin arası; biçində bir dəfəyə biçilmiş sahə; qazılmış torpaq xətti: Neçə vər biçifsən, axşama biçif qutararsanmı?

Bəzi alınma sözlərin dialektlərdə semantik dəyişikliyə uğrayaraq işlədilməsi də müşahidə edilən dil faktlarındandır. Belə ki, ərəb-fars dillərinə mənsub olan sözlərin bir qismi öz ilkin mənasını ya müəyyən dərəcədə, ya tamamilə dəyişərək dialekt leksikasında işlənir. Bəzi alınma sözlər isə mənbə dildə bir neçə məna bildirsə də, dialektdə yalnız bir məna ifadə edir. Tovuz dialektində işlənən bu cür faktlara nəzər salaq:

Barxanə – bir dəst mal, tay

Barxana – yorğan-döşək dəsti (yatacaq əşyaların hamısı nəzərdə tutulur).Savağ yaxşı hava olsa, barxanıyı günə verəx`.

Düdəmə (f) – ikibaşlı, hər iki tərəfi iti olan qılınc

Düdəmə (dialektdə) – söyüş; Ə, düdəmə, sən kimə əl qaldırırsan?

Las – 1. ikilaylı qapının laylarından hər biri; 2. eşqbazlıq, dilxoşluq; 3. dişi (heyvan haqqında)

Las – çalınıb yığılmamış ot; bütün; tamailə; Bir quzunun kababını las yi:if durur.

Firəngi (fars) – fransız

Firəngi (dialektdə) -yağ-pendir bıçağı. Firəngiyi qoymağı unudufsan.

Əsfəl (ərəb) – 1. ən alçaq, ən aşağı; 2. səfil; 3. nanəcib, əclaf

Əsfəl (dialektdə) – vacib, *mühüm*, əsas, qabaq, əvvəl və s. Məs.: Hamıdan əsfəl ata,ananın qayğısına qalmaq lazımdır; Ən əsfəl can sağlığıdı.

Cələb (ərəb) – 1.bazara satılmağa gətirilən canlı (kəniz, qul, mal-qara)

Cələv\\f – arıq, sızqa, zəif. Cələf adamı soyux tez tutur.

Xuruş – gurultu-partıltı; hay-küy

Xuruş – yüngülxasiyyət, yerli-yersiz ona-buna sataşan, hər şeyə baş qoşan və s. Də:n, yenə xuruşduğun tutuf.

Şəbeh – qara kəhrəba, aqat, şəvə

Şəbeh – qeyri-adi (həm mənfi, həm müsbət anlamda). Ayə, şəbeh-şəbeh danışma, elə şeymi olar?

Zeh – yay kirişi, qaytan

Zeh – xətt (stəkanda, boşqabda olan qızılı, gümüşü xətlər). Məs.: Çayı stəkanın zehinə qədər süz.

O da məlum oldu ki, bu cür vahidlər müasir dilin aktiv lüğət fondundan çıxsa da, dialekt və şivələrdə öz izlərini saxlamaqdadır. Diaxronik aspektdə aparılan araşdırmalar dil vahidlərinin inkişaf tarixi, dilin lüğət tərkibinin passiv fonduna keçməsinin səbəbləri haqqında daha dolğun məlumatlar verməyə imkan yaradar.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 2007
2. A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. “Nurlan”, Bakı, 2003.
3. İlham Tahirov. Dialekt leksikasında alınma sözlər (şərq qrupu dialekt və şivələrinin materialları üzrə). Bakı, “Nurlan”, 2004
4. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb-fars sözləri lüğəti. I, II cild. “Şərq – Qərb”, Bakı, 2005

Р.Гумматова

Говорящие слова на павлинском диалекте

Резюме

Некоторые слова в современном азербайджанском литературном языке переведены на другие языки. Эти слова приходят из разных языков по определенной причине. В общем, невозможно представить язык, на который не влияют другие языки и который не взаимодействует с другими языками.

Слова из других языков либо сохраняют свою форму на том языке, на котором они находятся, либо адаптируются к их фонетической системе и грамматической структуре. Некоторые из взятых слов вне литературного языка и могут использоваться только на диалекте. Большинство слов, используемых в диалектах, - персидский и арабский. Некоторые арабо-персидские слова из литературного языка также отличаются своим доминирующим положением на диалекте Товуз, который является частью западных групповых диалектов и диалектов. Наблюдения показывают, что диалекты и диалекты часто изменяются с точки зрения лексических и семантических особенностей, как фонетически, так и морфологически.

Я согласен с арабско-персидскими словами в наших изданиях, которые мы адаптировали к тому. В отличие от епархии родного языка и члена западной группы, существует четкий след. Мы увидели траекторию быстрых изменений

Ключевые слова: диалектная лексика, взаимосвязь языков, производные слова, арабо-персидские слова, следы приобретений на местах

R.Hummatova

Speaking words in the tovuz dialect

Summary

Some of the words in modern Azerbaijani literary language have been translated into other languages. These words come from different languages for a specific reason. In general, it is impossible to imagine a language that is not affected by other languages and does not interact with other languages.

Words from other languages either retain their form in the language they are in, or adapt to their phonetic system and grammatical structure. Some of the words taken are out of the literary language and can only be used in the dialect. The majority of words used in dialects are Persian and Arabic. Some of the Arabic-Persian words from the literary language are also distinguished by their dominant position in the Tovuz dialect, which is part of the Western group dialects and dialects. Observations show that dialects and dialects are often altered in terms of lexical and semantic features, both phonetically and morphologically.

I agree with the Arabic-Persian words in our editions that we have adapted to a volume. In contrast to the diocese of a native language and a member of the western group, there is a distinct foo We saw the trajectory of rapid changes

Keywords: dialect vocabulary, interrelation of languages, derived words, Arabic-Persian words, traces of acquisitions in the field

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 01.06.2019
Filologiya üzrə fəlsəfə doktoru Mələk Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

MƏFKURƏ HÜSEYNOVA
ATU-nun dosenti
S.Vurğun, 167
huseynova.10@mail.ru

MÜASİR AZƏRBAYCAN DİLİNİN ÜSLUBLARI

Xülasə

Qeyd edildiyi kimi, ədəbi dil istənilən vəziyyətdə istifadə edilə bilər: rəsmi və qeyri-rəsmi şəraitdə, elmi mühitdə, kütləvi informasiya vasitələrində, bədii ədəbiyyatda, gündəlik həayatda. Ədəbi dilin özəlliklərindən biri də odur ki, o müxtəlif üslublara malikdir. Azərbaycan ədəbi dilində qədim dövrlərdən zəngin üslublar sistemi yaradılmışdır. Azərbaycan ədəbi dilinin bu üslubları mövcuddur: bədii üslub, elmi üslub, qəzet-publisist üslubu, rəsmi-işgüzar üslub. Bütün bu ədəbi üslubların özünəməxsus özəllikləri var və hər biri unikal xüsusiyyətlərə malikdir. Əlbəttə ki, hər uslubun özəllikləri təkcə leksikada deyil, həmçinin də qrammatika, mətn tərtibatında və s. özünü göstərir. Lakin bütün bu dil xüsusiyyətləri hər bir üslubun yerinə yetirdiyi funksiyalar və bu üslubun istifadə olunduğu ünsiyyət sahələri ilə dəqiq müəyyən edilir.

Dilin üslubu dedikdə ümumi üslublar nəzərdə tutulur. Dilin üslubları müxtəlif səbəblər nəticəsində əmələ gəlir. Bu, hər şeydən əvvəl, insan fəaliyyətinin müxtəlif sahələri ilə əlaqədar olaraq bu və ya başqa şəraitdə fikrin ifadə olunması üçün dil vasitələrindən istifadə edilərkən yaranır.

Hər bir üslub dilin milli xüsusiyyətləri əsasında qurulur. Bunların yaranmasında həm yazıçıların, həm də alim, müəllim və digər qrup ziyalıların böyük xidməti olur.

Ədəbi dilin üslubları cəmiyyətin inkişafı ilə əlaqədar olaraq dəyişir və inkişaf edir. Azərbaycan ədəbi dilinin üslubları hər cəhətdən geniş inkişaf etmişdir və indi də bu iş davam edir.

Mədəni nitqə yiyələnmək üçün dilin yalnız leksik-qrammatik normalarını gözləmək kifayət etmir. Bunun üçün nitq, üslubi cəhətdən də düzgün qurulmalıdır. Yəni danışarkən elə sözlər seçilməli, cümlələr elə qurulmalıdır ki, fikir dəqiq və aydın ifadə oluna bilsin. Dilin üslubi imkanlarından danışarkən prof.
Ə. Dəmirçizadə yazır: "Üslub dedikdə biz sözlərin, ifadələrin, qrammatik vasitələrin və fonetik imkanların məqsədəuyğunluq əsasında seçilmiş vahidlər sistemini başa düşürük".

Açar sözlər: Azərbaycan dili, üslub, bədii ədəbiyyat, ünsiyyət, ədəbi dil

Nitq üslubu danışanın (eləcə də yazanın) dil vasitələrindən, onun fonetik, leksik və qrammatik imkanlarından məqsəd və məqama uyğun istifadə edə bilmə tərzi-

dir, sistemidir. Bu istifadə bir sıra amillərlə, şərtlərlə (ünsiyyətin şəraiti, məqsədi, müsahibin marağı, anlama səviyyəsi və s.) bağlı olur və müxtəlif formalar kəsb edir. Danışan və ya yazan işlətdiyi hər bir sözün əhəmiyyətini, onun nəzərdə tutulan fikrin ifadəsi üçün nə dərəcədə yararlı, dəqiq olmasını nəzərə almalıdır.

Həm danışıq, həm də yazıda hər hansı bir söz öz həqiqi mənasından başqa, digər mənalarda da işlənilir. Mənadan doğan forma rəngarəngliyi, ifadə vasitələrinin müxtəlif üslublarda işlənilmə üsulları dilin üslubi imkanları əsasında yaranır ki, bütün bunlar üslubiyyat bəhsində geniş şəkildə öyrənilir.

Üslub nədir? Üslub fərdidir, danışanların hər birinin özünəməxsus nitq üslubu vardır. Bir halda danışan qarşısına müsahibindən nəyisə öyrənmək və ya ona hər hansı əşya, hadisə barədəsə məlumat vermək, başqa bir halda təbiət və cəmiyyətdəki hadisələr, qanunauyğunluqlarla bağlı biliklərini şərh etmək, digər bir məqamda əşya və hadisənin təsvirində müsahibin hisslərinə, duyğularına təsir göstərmək və sair məqsədlər qoyur.

Dilin üslubu dedikdə ümumi üslublar nəzərdə tutulur. Dilin üslubları müxtəlif səbəblər nəticəsində əmələ gəlir. Bu, hər şeydən əvvəl, insan fəaliyyətinin müxtəlif sahələri ilə əlaqədar olaraq bu və ya başqa şəraitdə fikrin ifadə olunması üçün dil vasitələrindən istifadə edilərkən yaranır.

Hər bir üslub dilin milli xüsusiyyətləri əsasında qurulur. Bunların yaranmasında həm yazıçıların, həm də alim, müəllim və digər qrup ziyalıların böyük xidməti olur. Ədəbi dilin xarakterik cəhətlərindən biri də onun müxtəlif üslublara malik olmasıdır. Azərbaycan ədəbi dilində, qədim dövrlərdən başlayaraq, zəngin üslubi sistem yaranmışdır. Ədəbi dilimizin ayrı-ayrı inkişaf mərhələlərində müxtəlif üslublar olmuşdur. Zaman keçdikcə bu üslublar daha da artmış, zənginləşmiş və təkmilləşmişdir. Hazırda Azərbaycan ədəbi dilinin aşağıdakı üslubları vardır. Bədii üslub, elmi üslub, ictimai-publisistik üslub, rəsmi-işgüzar üslub. Bu üslubların həm ümumi, həm də hər birinin özünəməxsus fərqli xarakterik cəhətləri vardır.

I Ədəbi dilin bədii üslubu. Fikrin bədii ifadə və təsvir vasitələri ilə ifadə olunmasına bədii üslub deyilir. Ədəbi dilin bədii üslubu tarixi boyu aparıcı olmuşdur. Bədii üslub bədii əsərlərin (poeziya, nəsr, dramaturgiya) dilidir. Əsas əlamətləri obrazlılıq və emosionallıqdır.

Azərbaycan dili yüzilliklər boyu poeziya dili kimi inkişaf etmişdir. Azərbaycan ədəbi dilində bədii üslub xüsusi yer tutur. Bu üslub tarixən qədim, mahiyyətinə görə isə çox kütləvidir. Bədii üslub ədəbi dilimizin ilk formalaşdığı dövrdən onun əsasını təşkil etmişdir. Bədii üslubun iki forması vardır: nəzm üslubu və nəsr üslubu. Bədii üslubun bu formaları bir sıra cəhətlərinə və əlamətlərinə görə bir-birindən fərqlənir. Məsələn, şeirlə yazılan əsərlərdə müəyyən ölçü olur; belə ki, şeirdə hecalara fikir verilir, qafiyə nəzərə alınır və s. Lakin nəsr əsərlərində isə bu ölçülər hazırkı dövrdə nəzərə alınmır. Bədii üslubun hər iki formasında janrlarla əlaqədar bir sıra üslublar da olur; məsələn, qəzəl üslubu; qoşma üslubu; hekayə üslubu; dram üslubu; satira üslubu və s.

Ədəbi dilin bədii üslubunun özünəməxsus bir sıra xüsusiyyətləri vardır ki, bunlar onu başqalarından fərqləndirir. Həmin fərqlər, əsasən, aşağıdakı sahələrdə özünü göstərir:

Söz seçməkdə. Bədii üslubda yazılan əsərlərdə müxtəlif söz qruplarına müraciət olunur və oradan rəngarəng sözlər seçilib işlədilir. Dildə elə bir söz qrupu ola bilməz ki, bədii üslub oradan istifadə etməsin. Dildə hər nə varsa bədii üslubun ixtiyarındadır.

Sözlərin işlədilməsində. Bədii ədəbiyyatda ayrı-ayrı sözlərdən yeni mənalarda istifadə olunması, onların məcazi məna kəsb etməsi imkanları ilə bağlıdır. Hər bir sözün məcazi mənası dildə müəyyən obrazlılıq əmələ gətirir.

Qrammatik vasitələrin istifadəsində. Bədii üslubda bəzi dil vasitələrinə bədii meyarla yanaşılır. Bu və ya başqa bir vasitə bədii qanunlara müvafiq olaraq bədii zərurət əsasında işlənilir. Bədii üslubda sintaktik fiqurlar – ritorik suallar, bədii nidalar və xitablar çox işlənir. Bu da öz növbəsində onu başqa üslublardan fərqləndirir.

Fonetik materialın istifadəsində. Bədii üslubda dilin səs sistemi bir növ estetik təsir vasitəsinə çevrilir. Xüsusən poeziyada gözəl ahəng, musiqilik səslərlə yaradılır. Eyni zamanda, səslərin fonetik sıralanması vasitəsi ilə bəzən ifadənin təsiri də qüvvətləndirilir. Belə bir vəziyyət, əsasən, bədii üslub üçün xarakterikdir.

Sitatlardan istifadə. Bədii üslubda sitatlardan geniş istifadə olunur. Burada işlənilən hər bir poetik sitat öz vəzifəsinə görə elmi sitatdan fərqlənir. Poetik sitatlar bədii surətlərin nitqini fərdiləşdirmək və s. kimi üslubi cəhətlər üçün işlənilir.

Epiqrafların verilməsində. Bədii üslubda epiqraflara tez-tez müraciət olunur. Hər bir epiqraf mətnin əvvəlində verilərək həmin mətnin məzmunu ilə uyğun gəlir. Bunların vasitəsilə müəllif ifadə olunan fikrin təsirini daha da artırır.

Bədii üslub bütün öz xüsusiyyətləri ilə olduqca obrazlı, emosional və ekspressivdir. Bu üslub başqa üslublara nisbətən xalq danışıq dilinə daha yaxındır. Hazırda Azərbaycan ədəbi dilinin bədii üslubu çox inkişaf etmişdir. Bu üslub ədəbi dilin və xalq danışıq dilinin xüsusiyyətləri əsasında get-gedə daha da təkmilləşir.

II Ədəbi dilin elmi üslubu. Fikrin elmi şəkildə ifadə olunması elmi üslub adlanır. Elmi üsluba eyni zamanda elmi dil də deyilir. Buraya bütün elmi əsərlərin, dərsliklərin, metodik göstəricilərin, monoqrafiyaların dili daxildir. Elmi üslubda obrazlılıq, emosionallıq olmur. Əsas əlaməti məntiqilik, ardıcıllıq, terminlərin olmasıdır. Azərbaycan ədəbi dilində elmi üslub bədii üslubdan sonra formalaşmağa başlamışdır. Bu üslub tarix boyu geniş təkmilləşmə və inkişaf yolu keçirmişdir. Hazırda elmin bütün sahələrinə dair bu üslubda mükəmməl elmi əsərlər yaradılır. Elmi üslubu digər üslublardan fərqləndirən bir sıra xüsusiyyətlər vardır. Həmin xüsusiyyətlər, əsasən, aşağıdakılarla müəyyənləşir.

III Ədəbi dilin ictimai - publisistik üslubu. İctimai və siyasi məsələlərin geniş xalq kütləsinin anlayacağı şəkildə izah edilməsi ictimai-publisistik üslub adlanır. Publisistik üslub qəzet, jurnal, radio, televiziya, mitinq dili, müxtəlif yığıncaqlarda istifadə olunan dildir. Əsas əlaməti kütləvi anlaşıqlılıq, aydın olmasıdır. Bu üsluba

eyni zamanda kütləvi üslub, kütləvi dil də deyilir. Buraya təbliğat, təşviqat məzmunlu, adi məlumat xarakterli və tənqidi məqalələrin, yazılı məruzələrin, qəzet xülasələrinin və s.dili daxildir. İctimai-publisistik üslubun əmələ gəlməsində mətbuatın xüsusi rolu vardır. Buna görə də bu üslubu çox zaman mətbuat üslubu da adlandırırlar. Lakin qeyd etməliyik ki, qəzet və jurnallardakı məqalələrin hamısı publisistik üslubda yazılmır; orada müxtəlif üslubda yazılan materiallar olur. Elə buna görə də bütün məqalələri mətbuat üslubu adı altında başa düşmək düzgün deyildir: mətbuat üslubu başqa anlayışdır. Bunun özü iki yerə bölünür: a) qəzet üslubu b) jurnal üslubu. Bunların isə fərqli cəhətləri vardır. Bu fərqlər hər şeydən əvvəl ondadır ki, qəzetdə mənası gec başa düşülən sözlərə, tərkiblərə yer verilmir. Ancaq jurnalda yeni terminlər, tərkiblər, qısaltmalar və sairə çox işlədilir.

Azərbaycan ədəbi dilinin ictimai-publisistik üslubu əsasən XIX əsrdə milli mətbuatın meydana çıxdığı dövrdən formalaşmağa başlamışdır. Publisistik üslubun yaranması "Əkinçi" ilə (milli mətbuatın əsasının qoyulması ilə) başlamış və inkişaf etmişdir. İctimai-publisistik üslubun janrlara görə müxtəlif qolları olmasına baxmayaraq, bunların hamısının ümumi və digər üslublardan fərqli xüsusiyyətləri vardır. İctimai publisistik üslubun səciyyəvi cəhətləri aşağıdakılardan ibarətdir:

1) Sözün istehza ilə işlədilməsi;
2) Sarkazmlar yaradılması;
3) Frazeoloji vahidlərdən geniş istifadə olunması;
4) Bədii ədəbiyyatdan sitatlar verilməsi;
5) İfşa və tənqid üçün ən kəskin sözlər işlədilməsi.

İctimai-publisistik üslub, ümumiyyətlə, aydın üslubdur. Burada xalq danışıq ünsürləri yox olur. Məsələn, "Kirpi" jurnalındakı məqalələrin əksəriyyətində istənilən qədər xalq ifadə və tərkibləri, adi danışıq dilinə məxsus cümlələr və s. vardır. İctimai-publisistik üslubda yazılan oçerklər bunu bədii üsluba, xülasə və tənqidi məqalələr elmi üsluba, bəzi materiallar isə rəsmi üsluba yaxınlaşdırılır.

IV Ədəbi dilin rəsmi - işgüzar üslubu. Cəmiyyətdə rəsmi münasibətləri bildirmək üçün yazılan dövlət sənədlərinin üslubu rəsmi- işgüzar üslub adlanır. Buraya bütün dövlət sənədlərinin – protokol, akt, nota, əmr, qərar, bəyanat, qətnamə və s. sənədlərin dili daxildir. Rəsmi-işgüzar üslubun inkişafı digər üslublardan nisbətən geri qalmışdı. Bu da həmin üslubun dövlətçilik ənənələrindən asılı olması ilə bağlıdır. Azərbaycan ədəbi dilinin rəsmi üslubu əsasən milli ədəbi dilin sabitləşməsi dövründə formalaşmağa başlamışdır. Sovet dönəmində isə sənədləşmə daha çox rus dilində aparıldığı üçün rəsmi-işgüzar üslub inkişafdan qalmışdı. Müstəqil Azərbaycan dövlətinin yaranması bu üslubun sürətli inkişafına və möhkəmlənməsinə şərait yaratdı.

Rəsmi üslubda yazılan sənədlərdə fikrin konkret şəkildə izahı tələb olunur. Buna görə həmin üslub üçün aşağıdakı cəhətlər xarakterikdir:

a) hər bir məsələ aydın və olduqca qısa izah edilir;
b) artıq və lüzumsuz sözlərə, təkrarlara, bədii vasitələrə yer verilmir;

c) ikimənalılığa, dolaşıqlığa yol verməmək üçün hər bir anlayışa dair dəqiq terminlər seçilir;
d) hər hansı bir məfhumun izahı üçün ədəbi dilin qrammatik normalarına düzgün riayət olunur;
e) ştamp xarakterli xüsusi tərkiblərdən, ifadələrdən geniş istifadə olunur.

Ədəbi dilin üslubları cəmiyyətin inkişafı ilə əlaqədar olaraq dəyişir və inkişaf edir. Azərbaycan ədəbi dilinin üslubları hər cəhətdən geniş inkişaf etmişdir və indi də bu iş davam edir.

Ədəbiyyat

1. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları. // Dərs vəsaiti.- Bakı, 2013
2. Bayramov A., Məhərrəmov Z., İsgəndərzadə M. Azərbaycan dili və nitq mədəniyyəti // Dərs vəsaiti.- Bakı, 2015
3. Həmzəyev M.Ə., Əviraslanova S.F. // Ünsiyyətin psixologiyası.- Bakı, 2007

М. Гусейнова

Стили современного Азербайджанского языка

Резюме

Как уже отмечалось, литературный язык может использоваться в любой ситуации общения: в официальной и неофициальной обстановке, в сфере науки, делопроизводства, в средствах массовой информации, в художественной литературе, в повседневной жизни. Одной из особенностей литературного языка является то, что он имеет разные стили. На литературном языке Азербайджана с древних времен была создана богатая система стилей. Существуют следующие стили Азербайджанского литературного языка: художественный стиль, научный стиль, газетно- публицистический стиль, официально - деловой стиль. Все эти литературные стили имеют, свои специфические особенности и каждый из них имеет свои уникальные характеристики. Разумеется, специфика каждого стиля проявляется не только в лексике, но и в грамматике, в особенностях построения текста и др. Но все эти языковые черты обусловлены именно теми функциями, которые выполняет каждый стиль, и теми сферами общения, в которых этот стиль употребляется.

Языковые стили означают общие стили. Языковые стили возникают по разным причинам. В первую очередь это связано с использованием языковых инструментов для выражения идей в разных или разных контекстах, касающихся разных областей человеческой деятельности.

Каждый стиль основан на национальных особенностях языка. Писатели, ученые, учителя и другие интеллектуалы играют большую роль в их создании.

Стили литературного языка меняются и развиваются по мере развития общества. Стили Азербайджанского литературного языка широко развиты и продолжают работать.

Ключевые слова: Азербайджанский язык, стиль, художественная литература, общение, литературный язык

M.Hyuseynova

Modern Azerbaijani language styles

Summary

As already noted, the literary language can be used in any communication situation: in an official and informal setting, in the field of science, office work, in the media, in fiction, in everyday life. One of the features of the literary language is that it has different styles. Since ancient times, a rich system of styles has been created in the literary language of Azerbaijan. The following styles of the Azerbaijani literary language exist: art style, scientific style, newspaper and journalistic style, officially - business style. All these literary styles have their own specific characteristics and each of them has its own unique characteristics. Of course, the specifics of each style is manifested not only in vocabulary, but also in grammar, in the features of text construction, etc. But all these linguistic features are due to precisely the functions that each style performs and the areas of communication in which this style is used.

Language styles mean general styles. Language styles arise for various reasons. This is primarily due to the use of language tools to express ideas in different or different contexts relating to different areas of human activity.

Each style is based on national characteristics of the language. Writers, scientists, teachers and other intellectuals play a big role in their creation.

The styles of the literary language change and develop as society develops. The styles of the Azerbaijani literary language are widely developed and continue to work.

Key words: Azerbaijani language, style, fiction, communication, literary language

Redaksiyaya daxil olma tarixi: 20.07.2019
Çapa qəbul olunma tarixi: 12.10.2019
Filologiya elmləri doktoru, professor **Natəvan Hacıyeva** tərəfindən çapa tövsiyə olunmuşdur

FIZULİ MUSTAFAYEV
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Tətbiqi dilçilik şöbəsinin aparıcı elmi işçisi,
filologiya üzrə fəlsəfə doktoru, dosent
mustafayev.fizuli8@gmail.com

KİNOSSENARİ VƏ EKRAN DİLİNDƏ MƏNANIN İZAHI

Xülasə

Məqalə kinossenari və ekran dilinin interpretasiyasına həsr edilib. Kinossenarilərdə şeir mətnləri, lirik poeziya və ekran obrazlarının tapılması – kino və poeziyanın arasındakı əlaqələrin aktual aspektlərindən biri kimi nəzəri həmişə məşğul etmiş, bu barədə rəngarəng fikirlər söyləndiyi məqalədə geniş yer tutur.

Sözün yaratdığı obyekti biz ancaq təsəvvürümüzdə görə, ifadə etdiyi mücərrəd mənanı isə yalnız qavraya, qəbul edə bilərik. Kino təsviri isə bizimlə gözlərimiz önündəki görüntülü predmetlərin dili ilə danışır. Odur ki, poetik informasiyanın vizual əvəzləyicisinin axtarışında son məqsəd – təsəvvür olunan və olunmayanların reallığa çevrilməsi barədə məqalədə ətraflı məlumat verilir.

Məqalənin başqa bir yerində qeyd edilir ki, poeziyanın ekran ekvivalentinin axtarışları yeni təsvir ölçüsündə yerləşən ifadə vasitələri tələb edir və bu vasitələr rejissor tərəfindən çevrilmənin birbaşa əyaniliyində, təqliddə yox, təəssüratın obrazlı psixoloji uyğunluğunda, eyniliyində axtarılır.

Filmlərdə istifadə edilən şeir parçaları da məqalədə geniş təhlil olunur.

Açar sözlər: mətn, ssenari, tələffüz, quruluş, qrammatik tələb, nəzəriyyə, leksik tərkib, təhlil

Hələ 1925-ci ildə fransız kino nəzəriyyəçisi Lionel Landi "Hissiyyatın formalaşması" məqaləsində söz sənəti ilə kino sənəti arasındakı fərqlər barəsində yazırdı: "Bu iki sənət arasındakı əsas fərq ondadır ki, kitab zahiri və daxili dünyanı aydın şüur terminləri ilə – birincini bizə xəyala gətirmək, ikincini isə təsəvvür etmək imkanı verərək təsvir edir. Kinoda isə məsələ başqa cürdür: zahiri aləm göstərilir, daxili aləm isə yalnız məkani xarakter daşıyan təzahürlərlə deyilir" [L.Lionel: 1988. 223 s.].

Zahiri və daxili dünyaların poeziyada və kinoda əks olunması ilə bağlı Landinin söylədiyi fikirlərlə isə razılaşmamaq mümkün deyil. Doğrudan da biz sözlə yaradılmış obrazları ya xələl gətirmək, yaxud təsəvvür etmək yolu ilə mənimsəyirik. Kinoda isə zahiri aləm – obyektiv reallıq bizim gözlərimiz qarşısında maddi varlıq, substansiya kimi təzahür edir, qeyri-maddi aləm isə – söz məkanında olduğu kimi tə-

səvvür edilmir; o ya ekranda elə sözlə ifadə olunmalı, ya da onun təsvir ekvivalenti yaradılmalıdır.

Rus tədqiqatçısı İ.Sepman haqlı olaraq yazır ki, "başlanğıc materialına görə incəsənətin kinematoqrafiya və lirik poeziya qədər əks mövqelərdə dayanan növlərini tapmaq çətindir" [S.İris: 1985. 96 s.], çünki "kinonun predmeti reallıq formasında mövcud olan reallıqdırsa, lirik poeziyanın pretdmeti həyəcandır, maddi olmayan, gözlə bilavasitə görülməyən substansiyadır" [S.İris: 1985. 97 s.].

Kinoda hər şey reallıq illüziyası qazanır. Mətnin materialı isə sözdür. Sözlə təsvir arasındakı fərqlərdən biri isə məhz budur ki, "söz həm də mahiyyətcə, təsviri qaydada surəti yaradıla bilməyən, ekranın gözlə görülə bilən vasitələri üçün əlçatmaz olan şeyləri ifadə edə və ötürə bilər" [J.Vedmak: 1987. 58 s.].

Kino mətnindəki sözün təsvir imkanları ilə bağlı görkəmli söz ustaları tərəfindən çeşidli fikirlər söylənilmişdir. Məsələn, dahi söz ustası L.Tolstoya görə sözün təsvir edə bilmədiyi heç nə yoxdur. M.Svetayevaya görə isə sözlə hətta çalınmamış musiqini eşitmək, çəkilməmiş şəkli görmək olar.

Poeziyanın ekran ekvivalentinin axtarışları yeni təsvir ölçüsündə yerləşən ifadə vasitələri tələb edir. Və bu vasitələr rejissor tərəfindən çevrilmənin birbaşa əyaniliyində, təqliddə yox, təəssüratın obrazlı-psixoloji uyğunluğunda, eyniliyində axtarılır...

Aşağıdakı şeir parçalarını poetik dil baxımından müqayisə edək:

Yağış yağır, rəqs eləyir gur damcılar,
Sıra-sıra, inci-inci nur damcılar.
Göydə iki qara bulud çatılaraq,
İldırımlar şaqqıldayır şaraq-şaraq [M.Müşviq: 1978. 29 s.].

Ürəyim incələr yağış yağanda,
Yadıma doğmalar, əzizlər gələr.
Nədənsə gecələr yağış yağanda,
Yuxuma dəryalar, dənizlər gələr [R.Rövşən: 1987. 70, 14 s.].

Sənə yağış göndərəcəm
Axşam saat doqquzda.
Saçına bir gül taxıb
Çıxıb gözlə doqquzda [A.Mirseyid: 1999. 105 s.].

Hər üç şeir mətnində poetik düşüncənin mərkəzində dayanan obraz – yağış obrazıdır. Birinci nümunədə yağışlı günün konkret mənzərəsi – peysaj lövhəsi təsvir olunur. Lirik "mən" sanki pəncərə qarşısında dayanıb yağış yağarkən gördüklərini sözlə rəsm edir və gördükləri onun duyğularında əlavə heç bir assosiasiya doğurmur.

İkinci nümunədə isə vəziyyət bir qədər başqa cürdür. Yağışın laylanı andıran şırıltısı altında uyuyan qəhrəmanın yuxuda doğmalarını, əzizlərini görməsini də ekranda canlandırmaq mümkündür.

A.Mirseyidin şeirində ifadə olunan məzmunu isə ekranda maddi tərzdə qeydə almaq mümkün deyil. Məsələ burasındadır ki, M.Müşfiqdən sitat gətirdiyimiz nümunədə informasiya semantik, A.Mirseyidin şeirində isə estetik səciyyə daşıyır. Müşfiqin şeirində məzmun sözləri semantik mənası ilə birbaşa bağlıdır və nitq bu mənaların zəncirvari həlqəsi kimi başa düşülür. İkinci, xüsusilə üçüncü nümunədə isə informasiya mətnin görünməyən qatında – sözlərin ilkin semantik məzmunundan uzaq sahədə formalaşır.

Yuxumda bir ömür gördüm
pozulmamışdı.
Yuxumda bir yol gördüm
azılmamışdı.
Yuxumda bir şeir gördüm
yazılmamışdı.
Yuxumda bir məzar gördüm
qazılmamışdı [V.Səmədoğlu: 1996. 105, 43 s.].

Lirik qəhrəmanın gördüyü yuxunun sözlə təsviri olan bu mətnin tək saylı misraları ekran obrazına çevrilmə imkanları baxımından son dərəcə şəffafdır. Yuxuda görülən yolu, şeiri, məzarı ekranda əks etdirmək müasir kino dilinin imkanları daxilindədir.

Başqa bur nümunə:
Qumlu sahilin üstüylə
isti sürünür,
heysiz dənizin köksündə
qayıq görünür.
Bir cansız yelkən sallanıb
dor ağacından,
elə bil külək asılıb
dar ağacından... [V.Səmədoğlu: 1996. 199 s.].

Bu şeirin obrazları görünən və görünməyən təsəvvürlərin sintezindən yaranıb. Heysiz dənizin qoynunda qayığın görünməsi, dor ağacından cansız yelkənin sallanması nəinki görünən təsəvvürlərdir, onları maddi mövcudluq faktına – təsvirə çevirmək də mümkündür. Qumlu sahilin üstü ilə istinin sürünməsi, küləyin dar ağacından asılması isə assosiativ duyğuların məhsuludur.

Paradoksal cəhətlərdən biri budur ki, şeirin, hətta başdan-başa görümlü təsəvvürlər semantik planda denotantları olan real predmetlər əsasında qurulması, dilinin təsvir dilinə maksimum yaxınlaşması belə onun ekran faktına asanlıqla çevrilməsini şərtləndirmir. R.Rzanın "Rənglər" silsiləsindən "Ağ işığın sevgi çaları" şeirinə baxaq:

Nənən qurşağı,
Vətən torpağı,
Çiçəkli bahar budağı.

Göyərçin qanadları.
Qüzey qarı.
Bir körpən südə bulaşmış üz-gözü [R.Rza: 1969. 126 s.].

Bu şeirin dili adi danışıq dilinə çox yaxındır. Və ən xarakterik cəhət budur ki, bu şeirdə ifadə olunmuş poetik məzmun onun adından təcrid olunmuş şəkildə heç cür başa düşülmür. Sərlövhəyə çıxarılmış ifadə bu şeirdə işlənmiş 35 sözün hamısının bir yerdə ifadə etdiyi məzmundur. Şeirin quruluşundakı orijinallıq ondadır ki, həmin məzmun sərlövhə şəklində kodlaşdırılır və oxucu həmin koda istinad edərək deduktiv təfəkkür üsulu ilə – ümumi məzmundan həmin məzmunu yozan elementlərə doğru gedir.

Şeirdə diqqəti çəkən ikinci ən mühüm cəhət – görünməyən substansiyanın görünən predmetlərin dili ilə əks etdirilməsidir. Şair "ağ işığım sevgi çaları" kimi mücərrəd anlayışı maddi, real predmetlərin dili ilə əks etdirir.

Müxtəlif şeirləri seçib onları vizual biçimə salmağa cəhd göstərmək olar və hər dəfə şeirin daxili quruluşundan, yazılma tərzindən, dilin metafora səviyyəsindən asılı olaraq, təbii ki, məzmunun vizual ifadəsinin müxtəlif səviyyələri ilə qarşılaşacağıq.

Min Qazaxda köhlən ata,
Yalmanına yata-yata,
At qan-tərə bata-bata
Göy yaylaqlar belinə qalx,
Kəpəz dağdan Göy-gölə bax... [S.Vurğun: 1982. 18, 19 s.].

Bir küçə var şəhərimizdə
Sakit, uzun bir küçə.
Yetmiş addım bu yana.
Yetmiş addım o yana,
Bir siqaret o yana,
Bir siqaret bu yana [V.Səmədoğlu: 1996. 43 s.].

Bir dumanlı yuxu gördüm,
Yuxumdan düşdü bu duman.
Bir ah çəkdim ayılanda.
Ahımdan düşdü bu duman.

Nə o dağın adına yaz,
Nə bu dağın adına yaz,
Ürəyimin çalın-çarpaz
Dağından düşdü bu duman [R.Rövşən: 1987, 114 s.].

Bu nümunələrin timsalında aşkar görmək olar ki, poetik mətndə assosiativlik artdıqca, fikrin ifadə vasitəsi kimi dildə metaforanın, metonimiyanın və onların oksimoron, antiteza, afaz və s. fiqurlarının rolu yüksəldikcə şeirin vizual ölçüləri də bir

növ sıxılır, obrazların məkanı təxəyyülə, təsəvvürə keçir. Hər üç nümunədə bədii nitq subyektin – lirik qəhrəmanın təsvir predmetinə münasibətini bildirir. Birinci nümunədə vurğu daha çox təsvir predmetlərinin özünə yönəldiyindən, diqqət bu predmetlərin lirik qəhrəmanda doğurduğu hislərin əlvanlığını yox, predmetlərin özlərinin vəziyyətinin əksinə verildiyindən mətndə konkretlik, situasiyanın reallığı ön plana keçir: lirik qəhrəman duyduqlarını, hiss etdiklərini yox, gördüklərini təsvir edir.

İkinci mətndə də əvvəldən axıra qədər dərhal gözə çarpan metafora, xüsusi bədii ifadə fiquru yoxdur. Tənqidçi Kirill Razloqovun yazdığı kimi, bu bölgü şərti xarakter daşıyır. Müasir kinoda istər metonimik, istərsə də metaforik nitq elementlərinin sintezindən uğurla istifadə olunur və buna görə də "kinonun struktur tipologiyasını işləyərkən imkan daxilində bütün mümkün kombinasiyaları nəzərə almaq lazımdır" [10, 23].

Lakin biz şaquli – assosiativ nitq tipinin mövcudluğunu qəbul edirik. Bu nitq üzərində qurulmuş ekran mətnləri üçün hadisələrin bir-biri ilə səbəb-nəticə əlaqələri ilə bağlılığı, zaman və məkan ardıcıllığı, ekran görüntülərinin öz referentlərinə oxşarlığı, süjetin başlanğıcdan sona doğru xronoloji inkişafı yox, predmetlərin estetik deformasiyası, subyektiv duyumun yaratdığı assosiasiyalar, qəfil bənzətmələr, qarşılaşdırmalar, əlamətlərin bir-birinin üzərinə köçürülməsi, mətnin səs, işıq və rəng həllinin özünəməxsusluğu, orijinallığı səciyyəvidir.

Ekran sənətində sözün tədqiqi ilə bağlı maraqlı araşdırmalar aparmış rus rejissoru və nəzəriyyəçisi A.Meçert bu barədə yazır: "Kinematoqrafiya üçün dünyanın bədii ifadə vasitəsi və bu zaman yaranan təəssüratların möhkəmləndirilməsi vasitəsi kimi zəruri olmayan söz təsvirin predmeti kimi lazım idi" [A.Meçert: 1968. 271 s.].

Səs forması almış söz hətta təsvirin predmetinə çevrildikdə belə jest, mimika, pantomimo effektləri kimi həm də fikri ifadə vasitəsinə çevrilir. Yəni emosiyalarımızla bağlı fikirlərimiz də daxil olmaqla şifahi nitq fikrin yeganə dəqiq ekvivalentidir. Deməli, fikirlər, həyəcanlar və onların doğurduqlarının vasitəsilə predmetləri əyan etmək üçün nitq əvəzolunmazdır. Hətta hisslərin ən çətin başa düşülən çalarları belə sözlə ifadə olunan fikirdə gerçəkləşir. Kadra daxil edilməyən səsli nitq yazılı poetik mətndəki kimi yalnız ifadə vasitəsidir.

Azərbaycan kinosunda lirik poetik əsərlərin ekranlaşdırılması təcrübəsi o qədər də zəngin deyil. Kinematoqrafçılarımız müxtəlif illərdə G.Hüseynoğlunun "Mücrü" mənsur şeiri əsasında qısametrajlı bədii televiziya filmi, "Leyli və Məcnun" və "Aygün" poemalarının motivlərinə istinadən iki bədii film çəkmişlər.

"Mücrü" filminin təhlilinə keçməzdən əvvəl eyni adlı mənsur şeirin qısa bir parçasına nəzər salaq:

"O gəlin köçəndə anası mücrü də qoydu cehizinin üstünə. "Gəlin mücrüsüz olmaz" dedi.

Nənə yadigarı idi bu balaca, naxışları solğun mücrü, indi də onun qisməti oldu.

O, üzük, qızıl saat və sırğalarını qoyardı mücrüyə. Mücrü paltar dolabında ən yuxarı gözə qalxmışdı. Əzizlənirdi mücrü, sevilirdi mücrü...

Bir gün gəlin ana oldu. Əri hədiyyə ilə evə gəldi. Açıldı mücrü. Cavan ana qızıl boyunbağını qoydu, örtüldü mücrü.

İkinci uşaq dünyaya gəldi, Açıldı mücrü, örtüldü mücrü.

Üçüncü... dördüncü... beşinci....

Açıldı mücrü, örtüldü mücrü...

Doldu mücrü [12, 4].

Bu mətni əsas götürüb təbii ki, bir neçə variantda film çəkmək olardı. Yəni mümkün idi ki, bu mətnin motivləri əsasında ssenari yazılaydı, əsərin fabulası əsas götürülüb məzmun saxlanılmaq şərti ilə süjet ekran üçün yenidən işlənəydi. Bu zaman bəzi motivlər dialoq, personajların nitqi şəklində ifadə oluna bilərdi.

Belə ki, filmdə mətn bir tərəfdən cümlə-cümlə ekran üçün interpretasiya olunur, digər tərəfdən ekran arxasından cümlə-cümlə müəllif nitqi kimi oxunur. Əlbəttə, mətndəki obrazlar assosiativ xarakter daşısaydı, təsvir sırası metaforik obrazlar üzərində qurulsaydı, seçilmiş üsulun münasib olub-olmaması barədə bəlkə də mübahisə etməyə dəyərdi.

Azərbaycan kinematoqrafçılarının çəkdiyi "Leyli və Məcnun" tammetrajlı bədii filmində ara-sıra Füzuli qəzəllərinin səslənməsi bu filmi Füzulinin məşhur poemasının ekranlaşdırılması kimi səciyyələndirməyə imkan vermir. Lakin digər tərəfdən, əsərin dili, ümumi pafosu, müəllif konsepsiyası imkan verir və deyək ki, film tanış motivlərin Füzuli yozumu müstəvisindən kənarda da deyil. Bizcə, burada şairin qəzəllərinin səsləndirilməsinə, yaxud bəzi məqamlarda personajların nitqinin poemadakı poetik frazaların danışıq variantı kimi verilməsinə təsadüfi hal kimi baxmaq güzgün olmaz.

Ona görə də kinossenari yazılarkən bu və digər cəhətlərə kifayət qədər diqqət yetirilməli, nöqsan kimi görünən hallar, qüsur kimi şübhə doğuran məqamlar aradan qaldırılmalı, ekran dilinin interpretasiyası qiymətləndirilməlidir. Ssenaridə isə şeir parçalarının təqdimatı zamanı dil elementlərinin fərqli yozumuna ciddi fikir verilməlidir.

Ədəbiyyat

1. Adil Mirseyid. Bulud adam. Bakı, "Dünya", 1999, səh. 105.
2. А.Мечерт. Реальность мира на экране. Москва. «Искусство», 1968, стр. 271.
3. Gülhüseyn Hüseynoğlu. Mücrü. Bakı, "Gənclik", 1972, səh. 4.
4. Ждан Ведьмак. Эстетика экрана и взаимодействие искусств. Москва. «Искусство», 1987, стр. 58.
5. Ланди Лионел. Из истории французской киномысли. Москва. «Искусство», 1988, стр. 223.
6. Mikayıl Müşfiq. Ədəbiyyat nəğməsi. Bakı, "Yazıçı", 1978, səh. 29.
7. Ramiz Rövşən. Çay üzü daş saxlamaz. Bakı, "Yazıçı", 1987, səh. 70, 114.

8. Разлогов Кирилл. Язык кино и строение фильма. Москва, «Искусство», 1990, стр. 23.
9. Rəsul Rza. Seçilmiş əsərləri. III cild. Bakı, “Azərnəşr”, 1969, səh. 126.
10. Сепман Ирис. Кино и поэзия. В кн.: Зримое слово. Москва. «Искусство», 1985, стр. 96, 97.
11. Səməd Vurğun. Seçilmiş əsərləri. Bakı, “Maarif”, 1982, səh. 18-19.
12. Vaqif Səmədoğlu. Mən burdayam, İlahi. Bakı, “Gənclik”, 1996, səh. 105-43.

Ф Мустафаев

Интерпретация киноссенари и
язык отображения

Резюме

Статья посвящена интерпретации фильма и сценария. Поиск текстов поэзии, лирической поэзии и экранных изображений является одним из актуальных аспектов отношений между кино и поэзией и широко освещался в его статье, которая была отражена в его комментариях.

Субъект, созданный словом, может восприниматься только в том абстрактном значении, которое мы подразумеваем. Описание фильма говорит с языком наших визуальных объектов перед нами. Таким образом, в поиске визуального заменителя поэтической информации конечная цель дается в статье о конечной цели - превращении воображаемого и несуществующего в реальность.

В другом месте отмечено, что поиск поэтических эквивалентов поэзии требует средств выражения в новом измерении, и они ищутся так же, как режиссер направляет преобразование не в симуляции, а в воображаемой психологической значимости впечатления.

Стихи, используемые в фильмах, также широко освещены в статье.

Ключевые слова: текст, сценарий, произношение, структура, грамматическое требование, теория, лексическая композиция, анализ

F.Mustafayev

Interpretation of kinosensory and
language images

Summary

The article is interpreted by the interpretation of the script and the script. Поиск текстов поэзии, лирической поэзии и экранные изображений, is one of the topical aspects of the relationship between cinema and poetry and a great lighting in his footsteps, which was quoted in his comments.

The subject, created by the word, can only get in the volume of the abstraction, which we are submerged. The description of the movie tells us what our visual objects are.

By the way, in the visual visualization of the poetic information in the search for a finite dimension, the finite touch extends to the finite dimension of the imaginary and nonexistent reality in reality.

In another space, the search for poetic equivalents in poetry requires new dimensions in the new dimension, and they want to find out exactly how the director directs the transformation or simulation, and in the imaginary psychological significance of the imprint.

Stihi, used in the film, also broadly embellished in the statue.

Key words: text, script, pronunciation, structure, grammatical requirement, theory, lexical composition, analysis

Redaksiyaya daxil olma tarixi: 20.08.2019
Çapa qəbul olunma tarixi: 14.10.2019
Filologiya elmləri doktoru, professor Ismayıl Məmmədov
tərəfindən çapa tövsiyə olunmuşdur

ALLAHVERDI HACIYEV
Filologiya üzrə fəlsəfə doktoru, dosent
ADPU
Üzeyir Hacıbəyov 34

AZƏRBAYCAN HİDRONİMLƏRİİNİN LEKSİK-QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Azərbaycan ərazisində çoxlu sayda su obyektləri və onlarin hər birinin xususi adlari vardır. Bunlardan əlavə Azərbaycan ərazisindən kənar dünya xəritəsində rast gəlinən bir sıra okean,körfəz,şəlalə və s. su obyektlərinin adları Azərbaycan dilinin müasir onomastik leksikasında kalka yolu ilə yaranmışdır. Məsələn Sakit Okean,Atlantik okeanı, Hind okeanı,Şimal Buzlu okeanı, Meksika körfəzi,İran körfəzi, Neaqara şəlaləsi, Aralıq dənizi,Qara dəniz, Sarı dəniz və s.

Ümumilikdə götürüldükdə Azərbaycan hidronimləri su obyektlərinin müxtəlifliyinə görə aşağıdakı növlərə bölünür:

1.Okeanonim-okean,körfəz,şəlalə və s. Adları
2.Pelaqonim- dəniz adları
3.Limonim-göl,axmaz adları
4.Potamonim- çay adları
5.Helonim- bataqlıq adları

Elmi ədəbiyyatda Xəzər dənizinin adı ilə bağlı zəngin məlumatlara rast gəlinir. Bu məlumatlardan aydın olur ki, indiyədək müxtəlif tarixi mənbələrdə Xəzər dənizinin 60- a yaxın çoxdilli adı meydana çıxmışdır. Məsələn, Avar dənizi, İran dənizi, Türkmən dənizi, Qəzvin dənizi, Xarəzm dənizi, Pəhləvi dənizi və s. Xəzər dənizinə verilmiş bu çoxdilli adlar silsiləsinin əsasıda tarixən Xəzər dənizinin sahillərində yaşamış çoxlu sayda tayfa və qəbilə adları durur.

Azərbaycan hidronimlərinin bir sıra leksik- qrammatik dil xüsusiyyətləri özünü göstərir. 500- dən çox hidronim üzərində aparılan müşahidələr göstərir ki, bu hidronimlərin 99 faizi dil tərkibinə görə xalis Azərbaycan mənşəlidir. Hidronimlərin tərkibində işlənən hidroterminlər isə 100 faiz Azərbaycan dilinə məxsus sözlərdir. Məsələn, çay, su, göl, bulaq, dəniz, axmaz, arx, bataqlıq, şəlalə, quyu və s. Azərbaycan dilində Kür, Araz kimi bir sıra hidronimlər istisna olmaqla yuxarıda misal çəkdiyimiz hidroterminsiz heç bir hidronim yarana bilmir. Məsələn, Hacıqabul gölü, Maralgöl, Göygöl, At gölü və s. Hidronimlərin tərkibində”göl” sözü işlənməsə həmin hidronimlər öz mənalarını dəyişir: Hacıqabul(yer adı), maral (heyvan adı), at(heyvan adı), göy(rəng adı) və s.

Azərbaycan hidronimlərinin tərkibində rəng bildirən sözlərin işlənməsi geniş yayılmış dil hadisəsidir. Məsələm, Ağgöl, Alagöl, Qaragöl, Göygöl, Çilligöl, Ağbulaq, Qarabulaq, Sarıbulaq və s.

Azərbaycan hidronimlərinin təxminən 95 faizi mürəkkəb quruluşlu, yəni çoxkomponentlidir. Mürəkkəb quruluşlu hidronimlərin tərəfləri müxtəlif nitq hissələrindən ibarət olur. Məsələn, Kükürd bulaq, Qoşabulaq, Qarabulaq, Daşbulaq, Əyriçay, İncəçay, Əyrinohur və s.

Müxtəlif hidronimlərin komponentləri arasında müxtəlif tipli sintaktik əlaqə növləri vardır. Məsələn, Daşbulaq, Qarabulaq, Əyriçay (yanaşma əlaqəsi), At gölü, Kükürd bulağı, Kəhriz bulağı,Qanlı Qobu dərəsi çayı, Astara çayı(idarə əlaqəsi).

Açar sözlər: onomastik vahidlər, antroponimlər, etnonimlər, toponimlər

Su obyektləri quruluşuna, həcminə və yaranma tərzinə görə olduqca müxtəlifdir. Burada: a) təbii su obyektləri - okean, dəniz, körfəz, göl, çay, şəlalə, bataqlıq və s., b) süni su obyektləri - kanal, arx, dəryaça, quyu və s. bir-birindən fərqlənir. Elmi ədəbiyyatda eyni cinsli su obyektləri xüsusi terminlərlə adlandırılır.

Azərbaycan ərazisində xırda su obyektlərinin adları (mikrohidronimlər) nəzərə alınarsa, külli miqdardadır. Bura çay, göl, nohur, qobu, bulaq, axmaz, arx, kəhriz və s. daxildir. Təkcə irili-xırdalı çayların miqdarının 700-dən çox olması məlumdur, lakin digər hidronimlərin hətta təxmini sayı haqqında hələ bir fikir irəli sürmək mümkün deyildir, çünki bu adlar indiyədək toplanıb qruplaşdırılmamışdır. Elmi ədəbiyyatda hidronimlərin aşağıdakı növləri haqqında məlumat verilir: okeanonim, pelaqonim, limnonim, potamonim, nelonim.

Okeanonim körfəz, şəlalə və s. adlarını bildirir. Respublikamızın ərazisində heç bir okean, körfəz olmadığını nəzərə alsıq həmin su obyektlərinin adından danışarkən bu məsələyə dərindən yanaşdıqda, Azərbaycan dilinin müasir onomastik leksikasında kalka yolu ilə yaranmış bir sıra okean, körfəz, şəlalə adları mövcuddur. Məsələn, Sakit okean, Atlantik okeanı, Hind okeanı, Şimal buzlu okean, Meksika körfəzi, Hudzon körfəzi, İran körfəzi, Niaqara şəlaləsi və s. Şübhəsiz, bunlar da kalka yolu ilə dilimizin leksik və qrammatik donunu geyir.

Pelaqonim dəniz adlarını bildirir. Respublikamızın ərazisində bir dəniz mövcuddur. Onun adı Xəzərdir. Dilimizdə işlənən başqa dəniz adları okeanonimlər kimi kalka yolu ilə əmələ gəlmişdir. Məsələn, Aralıq dənizi, Mərmərə dənizi, Sart dəniz, Filippin dənizi, Qara dəniz, Çukot dənizi, Yapon dənizi və s.

Xəzərin sahillərində yaşayan azərbaycanlılar müxtəlif dövrlərdə ona bir neçə ad vermişlər - Xəzər dənizi, Bakı dənizi, Abşeron dənizi, Muğan dənizi, Şirvan dənizi, Salyan dənizi və s. Ümumiyyətlə, bu dənizin ətrafmda və ondan uzaqlarda yaşayan müxtəlif xalqların verdikləri adlarla birlikdə Xəzər dənizinin 60-a yaxın çoxdilli adı meydana çıxmışdır. Həmin adlar bunlardır: Kaspi, Vorukşa - geniş hövzə (Avestada), Prud solnse (Homerin əsəriərində), Qirkan dənizi, Gilan dənizi, Cürcan dənizi,

Mcızandaran dənizi, Vrkan dənizi, Təbəristan dənizi, Əl-Baba dənizi, İrkaniya dənizi (Ptolomey), Alban dənizi, Avar dənizi, İran dənizi, Türkmən dənizi, Xvalan dənizi, Qıtz dənizi, Qəzvin dənizi, Saray dənizi, Dərbənd dənizi, Pəhləvi dənizi, Xorasan dənizi, Həştərxan dənizi, Tarm dənizi, Xarəzm dənizi, Abxaz dənizi, Abakıtt dənızi, Bahar Qursum dənizi, Quzğun dənizi, Quren yaxud Qurzem dənizi, Əbəskun dənizi, Keşrud dənizi, Kel dənizi, Xaricilər dənizi, Çekat Daeti dənizi, Çe- rinoye dənizi, Coşğun dəniz, Kiçik dəniz, Si-Xoy dənizi, Qərb dənizi (çinlilər belə adlandırmışlar), Şərq dənizi (assurilər belə adlandırmışlar), Göy dəniz, Kük-. küz dənizi, Ağ dəniz, Qleveşelan dənizi (Marko-Polonun əşərlərində), İpək dənizi, Nelevsşcılan dənizi, Jelyut dənizi, Jeuşelan dənizi, Çekakelan dənizi, Çelkus dənizi, Qekluperar dənizi, Qelebat dənizi və s.

Xəzər dənizinə verilmiş bu adların dil tərkibinin və mənşəyinin araşdırılması bir çox ictimai-siyasi, tarixi hadisələrin aşkara çıxarılmasına kömək göstərə bilər.

Bu adların bir neçəsi (Alban dənizi, Kaspi dənizi, Muğan dənizi, Şirvan dənizi, Dərbənd dənizi, Bakı dənizi, Abşeron dənizi, Salyan dənizi) bilavasitə Azərbaycanın bu dənizə yaxın əyalət və şəhərlərinin adları ilə bağlıdır. Onların bəzilərinin yaranması haqqında az-çox tarixi məlumatlar vardır. Bunlardan əlavə, Xəzər dənizi həm də Xəzərin cənub-qərb hissəsində mövcud olan Gürgan əyalətinin və bu əyalətin adı ilə adlanmış girkan tayfasının adı ilə Gürgan dənizi Xəzərin cənub-qərbindəki Təbəriləni əyalətin adı ilə Təbəriləni dənizi, yenə oradakı Mazandaran əyalətinin adı ilə Mazandaran dənizi, İranın adı ilə İran dənizi, Türkmənistan ərazisində yaşayan türkmənlərin adı ilə Türkmən dənizi, Xəzərin cənub-qərbində dənizdəki Saray adasının adı ilə Saray dənizi, Orta Asiyanın və İranın Xorasan əyalətinin adı ilə Xorasan dənizi, Orta Asiyanın orta əsrlərdəki Xarəzm əyalətinin adı ilə Xarəzm dənizi, Albaniyanın şimal-şərqində eramızın əvvəllərində yaşayan və müxtəlif mənbələrdə mazkut, bazqun və abxaz adlanan tayfanın adı ilə Abxaz dənizi, İranın şimalında Xəzər dənizinin sahilində orta əsrlərdə mövcud olmuş Abesnun limanının adı ilo Abeskun dənizi və s. də adlanmışdır.

Şübhəsiz ki, Xəzərin göstərilən və bundan əlavə də mövcud adlarının tədqiqi Azərbaycan onomastikasında mühüm yer tutur.

Limnonim göl axmaz adlarını bildirir. Azərbaycan ərazisində, təqribən, 250 göl vardır. Bunlardan ən böyükləri Hacıqabul gölü, Böyük-şor gölü, Göy göl, Maral göl, Cindargöl, Acınohur gölü, Ceyranbatan gölü, Qanlı göl və s. su obyektləridir. Bunlardan başqa, çoxlu axmaz, nohur və su obyektləri də vardır ki, bunların spesifik adları mövcuddur. Məsələn, Qarağac axmazı, Qaragüney axmazı, Qovaqlı axmazı, Əlisultanlı axmazı, Ətcələr axmazı, Gilli göl axmazı, Nabad axmazı, Osmanlı axmazı, Cahar axmazı, Şor su axmazı (Saatlı, Sabirabad, İmişli), Əyri nohur (Abşeron), Çağıl nohur (Şamaxı), Baş nohur, Xısınca nohur (Şəki) və s.

Potamonim çay adlarını bildirir. Yuxarıda qeyd etdiyimiz kimi, respublikamızın ərazisində irili-xırdalı 500-dən çox çay vardır. Bunlar rəngarəng ad sisteminə malikdir. Lakin bu adlar içərisində Ağsu, Ağ çay, Qara çay, Quru çay, Qara su, İncə

çay, Əyri çay adları daha geniş yayılmışdır. Çay adları içərisində bugünkü elmimiz üçün maraq doğuran adlara da rast gəlmək olur. Məsələn, Quba, Laçın rayonlarındakı Qaranlıq çayı, Qəbələ rayonundakı Dəmiraparan çayı, Qax rayonundakı Filiz çayı, Qazax rayonundakı İncəsu çayı, Quba rayonundakı Gümüşlü çay, Gədəbəy rayonundakı Kükürdsu çayı və s. bu cəhətdən diqqəti cəlb edir. Göründüyü kimi, həmin adlar suyun tərkibinə görə və ya çay yatağının tərkibinə uyğun şəkildə yaranmışdır. Bizcə, bu adların mənasını açmaqla təbii sərvətlərin izinə də düşmək olar. Adların mənasında ictimai-siyasi, tarixi hadisələr, təbii sərvətlərə dair qiymətli məlumatlar qalır.

Helonim bataqlıq adlarını bildirir. Azərbaycanın müxtəlif ərazisində çoxlu bataqlıqlar vardır. Bunlar adsız deyildir, hər birinin adı vardır. Məsələn, Sarısu bataqlığı, Qobustan bataqlığı və s.

Azərbaycan hidronimlərinin təqdim etdiyimiz qrup və növləri, bu qrup və növlər üzərindəki müşahidələrimiz onların bir sıra spesifik dil xüsusiyyətlərinin olduğunu göstərir.

Hər şeydən əvvəl, leksik xüsusiyyətlər - sözlərin mənşi məsələsi diqqəti cəlb edir. 500-dən çox hidronim üzərində apardığımız təhlil və araşdırmalar göstərir ki, dil tərkibinə görə Azərbaycan hidronimlərinin 99 faizi Azərbaycan dilinin öz sözləri əsasında yaranmışdır. Başqa xüsusi adlar qrupunda bu xüsusiyyət azdır.

Hidronimlərin tərkibində işlənən hidroterminlər isə xalis Azərbaycan sözlərindən ibarətdir: çay, su, göl, bulaq, dəniz, axmaz, arx, bataqlıq, şəlalə, quyu və s. Dilimizdəki Kür, Araz kimi bir neçə sözdən ibarət hidronimlər müstəsna olmaqla belə bir tezis irəli sürmək olar ki, çay, su, göl, bulaq, dəniz və s. sözlər olmadan ayrı-ayrı sözlər hidronim anlayışını ifadə edə bilmir. Çünki yuxarıda qeyd etdiyimiz kimi, hidronimlərin əksəriyyəti toponim, zoonim, etnonim və sair söz qrupları əsasında yaranmışdır. Burada hidronim anlayışını yaradan əsas vasitə hidroterminlərdir. Məsələn, Hacıqabul gölü, Ağgöl, Göygöl, Maralgöl, Zəligöl, Şamııq gölü, At gölü, Mirzə gölü, Talıstan gölü, Qaragöl, Güzgügöl, Qanlı göl, Dəyirman gölü hidronimlərinin tərkibindəki "göl" sözünü işlətməsək, onda Hacıqabul, Şamlıq, Talıstan - yer adları; qanlı, ağ, göy, qara - rəng adları; maral, zəli, at - heyvan adları; Mirzə - şəxs adı; güzgü, dəyirman sözləri hidronim anlayışını ifadə edə bilməyəcək. Bunlar hıdroterminlərə qoşulduqda xüsusiləşir və xüsusi adlar əmələ gətirir.

Hidronimlərin tərkibində işlənən sözlər hər hansı su obyektinin xassəsi, keyfiyyəti, həcmi, quruluşu, dərinliyi, harada yerləşdiyi barədə təsəvvür yaradır. Ağgöl, Alagöl, Qoturgöl, Qaragöl, Göy göl, Çilli göl, Lilligöl, Ağbulaq, Kirəng bulağı, Südlü bulaq, Qarabulaq, Sarıbulaq, Göybulaq, Ağçay, Qarasu, Qotur- çay, Quruçay, Qızılçay, Qaraçay, Qaranlıq çay, Göyçay, Kömür çayı, Qara nohur, Ağ nohur, Qızıl nohur, Göy nohur və s. Hidronimlərin birinci tərəfi, əsasən, rəng bildirən sözlərdən ibarətdir. Hidronimlərin tərkibində rəng bildirən sözlərin işlənməsi Azərbaycan dilinin onomastik leksikasında geniş yayılmış dil hadisəsidir.

Hidronimlər quruluşca da fərqlidir. Azərbaycan hidronimlərinin təqribən 95 faizi mürəkkəb quruluşlu, yəni çoxkomponentlidir. Dilimizdə hidronim əmələ gətirən xüsusi şəkilçi yoxdur.

Mürəkkəb quruluşlu hidronimlərin tərəfləri müxtəlif nitq hissələrindən ibarət olur və bu cəhət hidronimlərin semantikasına müəyyən təsir göstərir.

Hidronimlər bir, iki, üç və daha çoxkomponentli olur. a) Birkomponentli: Araz, Kür, Tərtər və s.; b) ikikomponentli: Kükürd bulaq, Qoşa bulaq, Kəhriz bulaq, Daş bulaq, Qara bulaq, Ulu bulaq, Astara çayı, Dəyirmmn çayı, Dəvəçi çayı, Əyri çay, Zəyəm çayı, İncəçay, Əyrinohur, Çağılnohur, Qabannohur, Ağ-

göl, Göygöl, Atgölü, Əyrigöl, Çöplügöl, Qaragöl, Pənc göl, Qanlı göl, Nohur göl, Qotur göl və s.; c) üçkomponentli: Böyük ala göl, Kiçik ala göl, Böyiik Qarasu gölü, Baş şabalıd çayı və s.; ç) dördkomponentli: Ağ suyun ayağı çayı, Ağ suyun ağzı çayı, Qanlı qobu dərəsi çayı, Qara suyun ağzı çayı və s.

Mürəkkəb hidronimlərin komponentləri arasında müxtəlif tipli sintaktik əlaqə növləri mövcuddur. Ona görə də çoxkomponentli hidronimlər müxtəlif növ birləşmələr əmələ gətirir. Dilimizin sintaktik quruluşunun söz birləşmələrinin tədqiqi baxımından həmin dil faktları maraqlı material verir.

Bəzi hidronimlərin mənşəyinə dair mülahizələr Azərbaycan dilçiliyində hidronimlərin etimologiyası haqqında nadir araşdırmalar aparılmışdır. Mərhum professor Ə.M.Dəmirçizadə, Kaspi, Xəzər, K.Əliyev Xəzərin qədim adları, Q.İbrahimov Samur hidronimi, S.Vəliyev Araz çayının qədim adları. Q.Qeybullayev bir sıra Azərbaycan hidronimlərinin mənşəyinə dair müxtəlif fikirlər söyləmişlər. Ümumiyyətlə, hidronimlərin mənşəyinə dair mülahizə yürütmək üçün birinci növbədə tarixi qaynaqlara və mənbələrə müraciət etmək daha obyektiv fikirlər yürütməyə imkan verir.

Dil tariximizin öyrənilməsində də hidronimlərin mənşəyinin araşdırılması çox qiymətli dil hadisələrinin aşkar olunmasına səbəb olur. Bu baxımdan Araz və Xaçın çay hidronimlərinin mənşəyinə dair mülahizələrimizi bildiririk.

Azərbaycan ərazisində ən qədim hidronimlərdən biri olan Araz müxtəlif dilli mənbələrdə Araksos, Araks, Arras, Eraxs kimi qeyd olunmuşdur. Bu hidronimin mənasının açılmasına bir sıra təşəbbüslər edilmişdir.

Antiq yunan müəllifləri Araz toponiminin yunan dilində arasso «qaçmaq» felindən alındığını «yaran», «dağıdan», «iti axan» kimi izah etməyə çalışmışlar. Arazın şəxs adı ilə əlaqələndirilməsinə də cəhd olunmuşdur. Çay adının qədim fars dilində arvat «qaçmaq», ərəbcə ruz «qaçmaq» feli ilə bağlayanlar da vardır. Araza bu adın yunan və ərəblərin bura kəlməsindən əvvəl verilməsi, onun bu dillərdən alınmasını şübhə altına alır. Araz sözünün fars dilində arvat felindən alınması fikri də inandırıcı deyildir.

Araz hidronimini türk dilləri əsasında izah edilməsinə də səy edilmişdir. A. Rəhimov və İ.Cəfərov Araz sözünü türk dillərində «su, çay», «böyük çay» mənasında işlədildiyini göstərirlər. Doğrudan da, Arazın etimologiyasını türk dillərində axtarmaq daha ağılabatandır- Araz ar və az hissələrinə bölünür və türk dillərində «su,

çay» mənasını verən hidronimlərin yaranmasında geniş iştirak etmişdir. İ. Cəfərov ar və az tərkiblərinin məna çalarlarının izahına cəhd edir, ümumi şəkildə ar tərkibinin müxtəlif mənalarda işlədildiyini qeyd etmiş, «sözün ikinci hissəsinin az tərkibinin mənası isə hələlik məlum deyildir» deməklə kifayətlənmişdir. A. Rəhimov bu tərkiblərin bir sıra məna çalarlarına toxunmuş, nədənsə, onların «su», «çay» mənasında işlədilməsini ən çox fin-uqor dilləri əsasında izah etməyə çalışmışdır. halbuki türkdilli hidronimlərdə ar və az tərkiblərinin çox müxtəlif çalarları vardır. Sözün birinci tərəfi ar «su, çay» mənasını verən sözlərdə - araşan «mineral su, müalicə suyu», arna «kanal», arx, arık «suvarma kanalı», ari «çay qolu», armax «bulaq, çay, su», ardı «böyük çay, sel» və sairədə geniş işlədilir. Bir çox türk dillərində «ar»ın ir variantı olub, Sibir, Monqolustan və Orta Asiyada çay adlarında özünü daha çox göstərir. Türkiyə ərazisində olan bir sıra çayların adını «çay» mənasını verən irmaq komponenti artırılır. Məs.: Qızıl - İrmak, Dəliçə - İrmak, Yeşil - İrmak və s.

Arazın ikinci hissəsi türkdilli hidronimlordə az, uz, us, üz kimi müxtəlif formalarda təzahür edir. As xant və manas dillərində «çay, böyük çay» mənasını verir və Qərbi Sibir çay adlarında (Mras, Oljeras, Taz, Uças və s.) geniş işlədilir. Xantlar böyük çayları - Obu-As, İrtışı-Katanas, Yeniseyi-Koknqas adlandırırlar. Monqol və buryat dillərində «çay, su» mənasında us variantı işlədilir və onların yaşadığı ərazidəki çayların adlarında özünü daha çox göstərir. Orta Asiyada qədim çay yatağı Uzboy adlanır. Qədim türk dilində uz «su», boy isə «çay yatağı» deməkdir. Hal-hazırda bir sıra türk dillərində, o cümlədən Azərbaycai dilində işlədilən su sözü də bu variantlardan biri deyilmi? Türkdilli xalqlarda bir çox çay adlarında «su, çay» mənasını verən üzən variantına təsadüf edilnr, Cənubi Azərbaycanda Xəzər dənizinə tökülən çaylardan birinin aşağı axını Səfirud, yuxarı axını isə Qızıl Yzən .adlanır. E, Sevortyan üz kökünün bir çox türk dillərində «çay, su» mənasında işlədildiyini qeyd edir. L.Budaqov uzən sözünün Azərbaycan, qazax, qırğız dillərində «çay» mənasını verdiyini göstərir. Buradan aydın olur ki, Araz sözünün istər birinci, istərsə də ikinci tərəfi müxtəlif variantlarda işlədilsə də, eyni mənanı («su, çay») verir. Dil quruluşunun faktları da bunu təsdiqləyir: beləki, çoxluq, intensivlik məqamında ya söz təkrarlanır, ya da eyni mənalı sözlərlə bir-birinə calanır. Azərbaycan dilində də belə hallara tez-tez təsadüf edilir.

Bir sıra türk dillərinin dialektlərində araz «su, çay» mənasında işlədilmişdir. Türk və tatar dillərinin dialektlərində arazın «su, çay, sel» mənası verdiyi göstərilir. Azərbaycan dilinin dialekt və şivələrində də araz «çox su, böyük çay» mənasında işlədilmişdir. Cəbrayıl rayonunun Arazboyu kəndlərində böyük kanal, arx, su axarı sadəcə olaraq araz adlandırılır.

Araz sözünün ar və az tərkiblərinin türk dillərində «su, çay» mənasında işlədilməsi çay adınıi türk mənşəli sözlərdən yarandığını, «çoxlu su, böyük çay» mənası verdiyi fikrini irəli sürməyə əsas verir.

Ardıcıl gələn morfoloji göstəricilərin *(i-si, u-su, ı-sı)* hansının qrammatik normativliyə uyğun olması müasir Azərbaycan dilçiliyində dəqiqləşmir. Tədqiqatçılar öz fikirlərini açıq bildirərək belə bir ideyanı irəli sürürlər ki, söz daxilində normativlik baxımından birinci variant qəbul olunmalıdır (biri, səhəri, çoxu və s.). İkinci variantın isə oxşayış prosesinin nəticəsi olduğu vurğulanır. Hətta belə «sadəlövh» formanın dialekt nitqi üçün xarakterik olduğu bildirilir; barədə-barəsində, haqda-haqqında və s. (3, s.157).

Eyni sözün daxilində inkarlıq morfoloji göstəricisinin (-ma,- mə) iki dəfə təkrarı Azərbaycan dili üçün yad deyildir. Məs.: *görməməzlik etmək, saymamazlıq etmək, bilməməzlik etmək, qanmamazlıq, anlaşılmamazlıq, çatışmamazlıq* və s.

Buradakı pleonazm dilə məxsusdur. Bu forma yalnız bir neçə sözdə özünü göstərir. Dilə məxsus pleonazm əsasən danışıq dilinin ədəbi dilə təsiri ilə bağlıdır. Maraqlısı odur ki, Azərbaycan klassik ədəbiyyatında da inkar şəkilçisinin ikiqat quruluşuna təsadüf edilir: Bilməzlik ilə xoş idi halım (M.Füzuli).

Əslində hər cür pleonazm dilin məntiqi cəhəti ilə deyil, subyektiv əlamətlərilə bağlıdır. Pleonazm hadisəsi adətən hissin təsiri ilə meydana çıxır. Bu baxımdan məntiqi-qrammatik pleonazm da, səhv pleonazm da əslində hiss-emosional pleonazmdan törəyir. Hissi pleonazm dil sisteminə daxil olduqda qrammatik pleonazma çevrilir. Bunların arasında bir sıra keçid xarakterli hadisələrin olması da mümkündür.

Emosional pleonazm intensivliklə də bağlıdır. Burada eyni məfhum «bir neçə qat»da qüvvətləndirilə bilər: İnşallah gələrsən, özün öz gözlərinlə görərsən. Burada affektiv cəhəti «görərsən» feili yarada bilmişdir.

Fikrimizcə, ikiqat morfoloji göstəricinin söz tərkibində işlənməsinin dilin tarixi inkişaf qanunauyğunluqları ilə əlaqədar əsl səbəblərini axtarıb tapmaqdansa hansı variantın morfoloji normaya uyğun olması barədə bəzi ideyalar irəli sürmək mənasızdır, araşdırıcını səhvə gətirib çıxarır. Ona görə ki, Azərbaycan dilində *həm biri, kimi, çoxu, sabahı, səhəri, həm də birisi, kimisi, çoxusu, sabahısı* variantı da eyni status qazanmış şəkildə istifadə olunur. Nitq prosesində işlənən həmin formaların heç birinə insanlar qeyri-normal hadisə kimi yanaşmır, o ki qaldı dialekt nitqinə, daha doğrusu, yerli nitq arealına, həqiqətən ayrı-ayrı nitq arealında, xüsusən, Azərbaycan dilinin Qərb nitq arealında sözügedən mənsubiyyət şəkilçisinin ikiqat işlənməsi mümkün hadisədir (müəssisənin sədri, müəssisənin sədrisi). Bizcə, Azərbaycan dilində, ümumiyyətlə, digər dillərdə də özünü göstərən həmin hadisəyə, sadəcə olaraq analogiya kimi yanaşmaq düzgün sayıla bilməz. Həmin hadisəni yaradan səbəblərin özünü müəyyənləşdirmək gərəkdir ki, normativliyin düzgün parametrlərini üzə çıxarmaq mümkün olsun.

İkinci tərəfi «bir» sözü ilə ifadə olunan III növ təyini söz birləşmələrinin ikinci tərəflərinin mənsubiyyət şəkilçiləri birqat, yaxud ikiqat ola bilər (*biri\\birisi*). Birinci tərəf təkrarlanmadan da, əlavəli təkrar iştirak etmədən də bu tərkiblərin ifadə tərzində

müəyyən emosional məqam vardır, yəni danışanın mənfi münasibəti bildirilə bilir: axmağın biri\\birisi, səfehin biri\\birisi, uşağın biri\\birisi.

Bütün bu hallarda müəyyən keyfiyyət bildirən sözlər birləşmənin birinci tərəfi kimi çıxış edir. Özü də bu keyfiyyət daha çox insanlara aid edilir. İnsanın xarici və daha çox daxili qüsurları ifadə olunur. Adətən birici tərəflərlə substantivləşmiş olur.

İkinci tərəfdə işlənən «bir» sözü isə öz adi leksik mənasında- say adı mənasında çıxış etmir. Həmin söz, birləşmələrin birinci tərəfindəki sözlərə ifadə olunmuş və substantivləşmiş mənfi keyfiyyəti şiddətləndirməyə (intensivliyə) xidmət edir. Deməli, belə tərkiblərdə işlənən «bir» sözü artıq say deyil, ədat sayılmalıdır. Ədatlar isə adətən köməkçi nitq hissələri sırasına daxil edilir. Belə olduqda, ikinci tərəfi «bir» ilə ifadə olunan bu kimi tərkibləri söz birləşməsi (yaxud «təyini söz birləşməsi») hesab etmək düzgün deyildir. Məsələn: Gədənin birisi məni aldatmaq istəyir (Ü.Hacıbəyov); Paşa bəyin atası əlləri, dodaqları əsən bir kişi idi. Tamahkarın birisi (Ə.Vəliyev) – cümlələrində qeyd olunan pleonastik ifadələr vasitəsilə obyektiv faktdan əlavə, müəllifin həmin obyektə münasbəti də də təzahür olunur.

Morfoloji göstəricilərin sözün tərkibində artıq işlənməsi təsadüfi hadisə sayılmamalıdır. Bizə elə gəlir ki, dil vahidlərinin işlədilməsində artıqlıq dil və nitqin daxili inkişafından irəli gələn məsələdir. «Hər bir dildə olduğu kimi, Azərbaycan dilində də müəyyən şəkilçilər tarixi inkişaf nəticəsində arxaikləşir və sözün tərkibində leksikləşərək onun ayrılmaz hissəsinə çevrilir. Arxaik şəkilçinin digər allomorfu (variantı) isə normativlik qazanaraq işlənir və onun arxetipinə qoşulur. Nəticədə həmin şəkilçinin pleonazmı yaranır. Dil və nitqdə artıqlıq dildaxili və dilxarici amillərdən çox asılıdır» (2, s.89, 90).

İkiqat mənsubiyyət şəkilçili sözlər isə müasir Azərbaycan dilində norma hüquqlu vahidlər kimi bədii ədəbiyyatda da istifadə edilir: "Hərə bu səsi bir cür qarşıladı: *kimisi* polis müdirinə yumruq göstərir, *kimisi* ağacla qorxudur, *kimisi* gülür, *kimisi* də «kəs səsini» deyə bağırırdı" (M.S.Ordubadi); "Hikmət İsfahani də qəlbən pəhləvi səltənətinin dağılmasını gözləyənlərdən *birisi* idi" (M.İbrahimov); "*Sabahısı* fərman camaata çatdırıldı" (Anar); "*Səhərisi* gün verdilər" (Anar).

Qeyd edək ki, Azərbaycan ədəbi dilində norma və artıqlıq, bir qayda olaraq, bir-birinə əks hadisə olaraq qarşı-qarşıya qoyulur. Belə çıxır ki, bir dil hadisəsi kimi pleonazm ədəbi dilin leksik, morfoloji və sintaktik normalarına ciddi təsir göstərir. Pleonazm hadisəsi norma ilə demək olar ki, əks mövqedə meydana çıxır. Bir sıra stilistik durum nəzərə alınmazsa, ümumiyyətlə, pleonazm hadisəsi ədəbi dilin leksik və qrammatik normalarına mənfi təsirini göstərir. Hətta orfoqrafiyadan da bu təsir yan keçmir.

Bir daha göstərmək lazımdır ki, morfoloji səviyyədə pleonazm şəkilçilərlə qrammatik mənaların ikiqat (üstün, intensiv) təzahüründə özünü büruzə verir. Pleonazmın bu növünün bir hissəsi qrammatik norma çərçivəsində olur, imla qaydalarında da təsbit olunur, başqa bir hissəsi isə dildə sözügedən normaya mənfi təsirini "əsirgəmir". Yuxarıda qeyd etdiyimiz müəyyən qrup sözlərdə (kimisi, birisi, cəmisi,

çoxusu, səhərisi və s.) mənsubiyyət göstəricisinin istifadəsi normativ əlamət kimi qəbul edilə bilər.

Azərbaycan dilinin morfoloji quruluşunda bəzi şəkilçilərin lüzumsuz yerə işlədilməsi halları ilə də qarşılaşmaq olur. Məsələn, *salamatlıq (salamatçılıq), sakitlik (sakitçilik), öhdəlik (öhdəçilik), xoşbəxtlik (xoşbəxtçilik)* və s.

Mötərizə içərisində verilmiş-çı4 şəkilçisi bu tərkibdə artıqlıq, yəni pleonazm yaradır.

Dilin quruluşunda sözügedən hadisə dilin qənaət meyili ilə də üz-üzə dayanır. «Qənaət meyili zamanı morfoloji quruluş imla və tələffüz cəhətdən cilalanır, təkmilləşir, funksionallığı artır. Artıqlıq meyilində isə eyni mənalı və qrammatik funksiyalı dil vasitələri «artıq» işlənir, təkrar olunur» (1, s.4-5).

Ümumiyyətlə, pleonazm xalq danışıq dilinə məxsus emosionallıq, nitqdə mənanı gücləndirmə meyili ilə bağlı ortaya çıxır. Pleonazm bəzi durumlarda ümumiləşərək qrammatik yaxud leksik əlamət qazanır, demək olar ki, dil faktına çevrilir, bəzi hallarda isə yalnız emosional-ekspressivlik məqsədi ilə, ya da sadəcə bir qüsur olaraq, hər iki halda nitq faktı kimi görünür. Ş.Balli pleonazma eyni məfhumun eyni sintaqmda iki dəfə və ya daha çox ifadə olunması kimi baxır və bu cəhətlərinə görə pleonazmı 3 qrupa bölür: 1) zəruri qrammatik pleonazm; 2) üslubi-ekspressiv pleonazm; 3) səhv olaraq işlənən pleonazm (5, s.169).

Bəzi hallarda müxtəlif nitq arealında işlənən cümlələrin tərkibində artıq sözlər işlədilir. Bunlar bir növ üslubi xarakter daşıyır: *Qayalıqda daşlara çırpılan çayın suyunun şırıltısı eşidilirdi. Aydınlıq gecədə ay işığında meşə gözəl görünür. Bakı Vətənimizin ən böyük paytaxt şəhəridir. Bakı şəhəri gözəl şəhərdir. Sevinc yazı taxtasında bir sətir yazı yazdı* və s.

Bu pleonastik səhvlər göstərir ki, hər hansı bitmiş fikri ifadə etmək üçün seçilən sözlər mətndə yerində və dəqiq işlənməlidir.

Beləliklə, belə nəticəyə gəlmək olar ki, pleonazm hadisəsi və nitq arealları birbir ilə sıx şəkildə bağlıdır. Diqqəti çox da cəlb etməyən həmin hadisə dilin kommunikativ vəzifəsinin özündən yaranır və fəaliyyət göstərir. Belə artıqlığın özü hissi-emosional cəhətlərlə və dilin daxili quruluşundan irəli gəlir, spontan xarakter daşıyır. Bu məsələ ilə bağlı araşdırmalarla tanış olanda görmək olur ki, söylənilən mülahizələr arasında əks qütblər özünü göstərir.

Digər bir nəticə də çıxır ki, nitq arealında bu hadisəyə oxşar tavtologiya, diftologiya (ikiləşmə), perissologiya, qoşalaşma və təkrar, dublet və s. hadisələr də müşahidə edilir ki, onların da sərhədlərinin müəyyənləşdirilməsi obyektiv baxımdan çox faydalı ola bilər.

Artıqlıq deyilən bu kimi çoxsaylı hadisələr nitq arealı üçün ümumi olan bir prosesin nəticəsi kimi formalaşmışdır. Bunların ümumiləşdirilməsi və pleonazmın nitq arealında əmələ gəlmə səbəblərinin aydınlaşdırılmasında, sözsüz, bir dilə aid olan yekunu əsas tutmaq olmaz. Həmin hadisənin səbəblərinin aşkar olunmasında ayrı-ayrı dillərə aid nəticələrin ümumiləşdirilməsi zəruri məsələ kimi dilçilik elminin qarşısın-

da duran məsələlərdəndir. Bunun üçün türk dillərinin tarixi inkişaf keçidlərinə əsaslanaraq doğru-düzgün nəticələrə gəlmək olar.

Belə nəticəyə gəlmək olur ki, bu qüsurlar nitq perspektivliyi kifayət dərəcədə olmadıqda, çox zaman təbiət hadisələrinin başvermə ardıcıllıqlarını bilmədikdə və s. özünü göstərir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan ədəbi dilində norma və normalaşma məsələləri. Azərbaycan Elmlər Akademiyasının Dilçilik İnstitutu. Bakı, 1991.
2. Quliyev Ə. Azərbaycan dilində morfoloji pleonazm// Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri. Ədəbiyyat, Dil, İncəsənət, 1987, № 2
3. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Azərnəşr, 1962, 423 s.
4. Асланов В.И. Выступление на региональным совещании по вопросам диалектологии тюркских языков. Т.3. Баку,1960, №24-28
5. Балли Ш. Общая лингвистика и вопросы французского языка. Москва: Изд.: Иностр.лит., 1955, 416 с.
6. Словарь иностранных слов. Москва: Изд.: Русский язык, Издание 18, 1989, 624 с.

Л.Алиева

Речевой ареал и явление плеоназма

Резюме

В статье на материале азербайджанского языка речь идёт о проявлениях «плеоназма» - одного из явлений языковой избыточности, наблюдаемых в речевом ареале. Известно, что данное стилистическое явление получило широкое распространение в речи. Хотя проблема рассматривалась как языковой и речевой факт, однако в данной области все ещё имеются спорные вопросы. Специалисты, говорящие о недостатках культуры речи, особо отмечают данную проблему. Ученые же, рассматривающие проблему с теоретической точки зрения, ищут источник избыточности, являющейся конструктивно-семантическим средством языка, в периоде до возникновения и развития человеческой речи, т.е. на этапе господства генетической речи. Так, по мере того как генетическая речь уступает место нынешней речи, некоторые недостатки устраняются. Однако вместе с тем эти лишние элементы всё ещё остаются в составе слова и выражений, которые мы употребляем. Это наше мнение, выраженное в декларативной форме. Однако происхождение плеоназма можно связать и с эмоционально-аффективной речью. В первобытный период плеонастические выражения употреблялись с выразительной целью создания выразительности. Компоненты с расширен-

ными формами употреблялись в различных целях – для создания повтора, интенсивности, а также и плеоназма.

В настоящей статье мы ограничиваемся высказыванием общих мыслей о данной проблеме, объект исследования которой довольно широк.

На наш взгляд, проблема требует более комплексного исследования, в частности, свойственность данного явления народному языку; проявление плеоназма как одного из типов семантического повтора; такая особенность плеоназма, как семантическое усиление, проявление грамматических значений в этих формах.

Полагаем, что все указанные проблемы должны рассматриваться более широко и в тюркологическом аспекте.

Ключевые слова: норма, речевой ареал, плеоназм, лексическая избыточность, принцип экономии

L.Aliyeva

The speech areal and phenomenon of pleonasm

Summary

The article deals with the pleonasm – one of the phenomena of linguistic redundancy observed in the speech areal. Manifestation of pleonasm is researched on the material of the Azerbaijani language. It is known that this stylistic phenomenon has become widespread in the speech. The issue has been considered as a language and speech fact, there but are still problematic issues in this sphere. The specialist speaking about deficiencies of speech culture emphasize this problem. The scientists considering this problem from the genetic standpoint search for the source of redundancy that is constructive-semantic means of the language in the period before emergence and development of human speech, i.e. on the stage of domination of genetic speech.

So as genetic speech is giving way to the present speech some deficiencies are eliminated. However, these superfluous elements are still in the words and expressions that we use.

This is our opinion in the declarative form. But origin of pleonasm can be connected with the emotional-affective speech. The pleonastic expressions were used with the expressive purpose during the primitive period. The components with the expanded forms were used for different purposes: to create repetition, intensity and at the same time pleonasm.

In the article we limit ourselves only to saying general thoughts about this issue the research object of which is broad enough. The problem demands a more complex research, particularly this phenomenon is a feature of the popular language; pleo-

nasm manifests itself as one of the types of semantic repetition; such a peculiarity of pleonasm as semantic strengthening, manifestation of the grammatical meaning in these forms is to be studied.

In our opinion, all these problems must be considered more widely and in the Turkological aspect.

Key words: norm, speech areal, pleonasm, lexical redundancy, principle of economy

Redaksiyaya daxil olma tarixi: 20.10.2019
Çapa qəbul olunma tarixi: 12.11.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Səidə Abbasova tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLNARƏ CABBAROVA
Filologiya üzrə fəlsəfə doktoru,dosent
SƏHRAYƏ NƏBİYEVA
Xarici Dillər kafedrasının müəllimi
Azərbaycan Dövlət İqtisad Universiteti
H.Əliyev 92.Bakı

AZƏRBAYCAN DİLİNDƏ SİNTAKTİK BİRLƏŞMƏLƏRDƏ İNGİLİS DİLİ MƏNŞƏLİ SÖZLƏRİN LEKSİK-SEMANTİK VƏ MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

Xülasə

Məlumdur ki, Azərbaycan dilinin lüğət təkibində Şərq və Qərb dillərinə mənsub bir çox əcnəbi terminlər işlənir. Onların arasında Qərb dillərinə məxsus ingilis dili mənşəli terminlər xüsusi əhəmiyyət kəsb edir. Onlar dilimizdə bir çox sahələri əhatə etməklə yanaşı, dilimizin lüğət tərkibinin təkmilləşdirilməsində və zənginləşdirilməsində mühüm rol oynayır. İngilis dilinə məxsus söz və terminlər dilimizdə sadə, mürəkkəb və söz birləşmələri şəklində işlənirlər. Təqdim etdiyimiz məqalədə «Azərbaycan dilinin izahlı lüğəti»ndə ingilis dili mənşəli sözlərin sintaktik birləşmələr şəklində işlənən formaları haqqında söhbət açacağıq.

1. Birinci növ təyini söz birləşmələri şəklində işlənən ingilis dili mənşəli terminlər. Bu növ terminlərin heç bir tərəfi şəkilçi qəbul etmir, hər iki tərəf ingilis dilinə məxsus və yaxud bir tərəfi ana dili mənşəli terminlər təşkil edirlər.

Avral-gəmi. Defislə yazılan bu növ təyini söz birləşmələrinin birinci tərəfi ingilis mənşəli, ikinci tərəi isə ana dili sözündən ibarətdir. Sintaktik birləşmə şəklində işlənən bu növ təyini söz birləşməsinin mənası omonimik xüsusiyyətə malik olub, dilimizdə aşağıdakı haldlarda işlənir:

- gəmidə bütün komandanın iştirakı ilə görülən işlər;
- gəmidə ciddi bir işin çox tələsik, başdansovma, eyni zamanda hay-küylə görülməsi və bütün işçilərin bu işi həayta keçirilməsi üçün səfərbər edilməsi.

Bufer-dövlət. Birinci tərəfi ingilis dilinə, ikincitərəfi ana dilinə məxsus terminlərdən ibarət bu növ təyini söz birləşmələri dilimizin ictimai-siyasi sahəsində geniş istifadə edilir. Birinci növ təyini söz birləşməsi şəklində işlənən bu terminin mənası «ərazisi bir-biri ilə rəqabət edən böyük dövlətlər arasında olan hərbi və siyasi cəhətdən zəif olan dövlət»ə deyilir.

Vaqon-restoran. Birinci tərəfi ingilis mənşəli, ikinci tərəfi isə fransız dilinə məxsus olan bu növ təyini söz birləşmələri dilimizin dəmiryol sahəsində geniş istifadə edilərək onun lüğət tərkibində özünəməxsus yer tutmuşdur. Bu termin-söz birləşmə-

sinin mənası dəmiryol qatarlarında restoran üçün ayrılmış xüsusi quruluşa malik olan vaqona deyilir.

Vaqon-vaqon. Reduksiya formasında işlənən bu terminin mənası vaqonlarla, çoxlu vaqon, bir neçə vaqon kimi başa düşülməlidir. Məsələn, S.Rüstəmin şerlərinin birində deyilir: «Buraya ölkənin hər yerindən pambıq vaqon-vaqon, ton-ton göndərilir» və s.

AÇAR SÖZLƏR:İngilis dili,sintaktik birləşmələr,Azərbaycan dili,morfologiya

2. İkinci növ təyini söz birləşməsi tərkibində işlənən ingilis dili mənşəli sözlər heç bir şəkilçi qəbul etmədən mənbə dildə olduğu kimi işləndiyi halda, ana dilinə məxsus söz birləşməsinin ikinci tərəfi nisbət şəkilçisi qəbul edərək işlənirlər. Məsələn, futbol komandası, basketbol oyunu, boks əlcəkləri, vaterpol yarışı və s.

Göründüyü kimi, söz birləşmələri şəklində işlənən bu növ termin-birləşmələrin birinci tərəfi mənbə dilinə mənsub olub, heç bir şəkilçi qəbul etmədiyi halda, ikinci tərəfi ana dilinə məxsus termin nisbət şəkilçisi qəbul edir.(1-s.86-94)

Lakin ikinci növ təyini söz birləşmələrinin dilimizdə elə növünə rast gəlmək olur ki, onların hər iki tərəfi mənbə dilinə mənsub olur. Belə tip birləşmələrə aid aşağıdakı terminləri misal gətirmək olar: tennis kortu, boks rinqi və s.

Bu növ termin – söz birləşmələrində bəzi hallarda birinci tərəf ana dilinə, ikinci tərəf isə ingilis dilinə məxsus olur. Məsələn: çay vağzalı, dəniz vağzalı və s. Mənaları: «paraxodların durduğu yerdə sərnişinlər üçün ayrılmış bina» kimi dilimizdə işlədilir. Həmin sözdən dilimizdə yeni yaranmış neologizm – vağzalı, vağzalı oyunu və s. Termin-söz birləşmələri bu qəbildəndir.

3. Tərkibində ingilis dili mənşəli söz işlənən üçüncü növ təyini söz birləşmələrinin tərəf müqabili dəyişkən olur, belə ki, bəzi termin-söz birləşmələrində birinci tərəf ingilis dili, ikinci tərəf isə ana dilinə məxsus, sözlə və yaxud əksinə, birinci tərəf ana dilinə məxsus, ikinci tərəf isə ingilis dilinə aid terminlər təşkil edir. Bu növ elə termin-söz birləşmələrinə rast gəlmək olar ki, hər iki tərəf ancaq ingilis dili mənşəli sözlərdən ibarət olur.

Qeyd etmək lazımdır ki, üçüncü növ təyini söz birləşmələrində hər iki tərəf ana dilinə məxsus şəkilçilər qəbul edir. Bu tip söz birləşmələrinə aid bir neçə misal gətirək: üzücü doku.

Göründüyü kimi, bu misalda hər iki tərəf şəkilçi qəbul etmiş və buna görə də üçüncü növ təyini söz birləşməsinə aid olan bu terminin birinci tərəfi ana dili, ikinci tərəfi isə ingilis dilinə məxsusdur. Bu termin-söz birləşməsinin mənası «gəmilərin təmir olunduğu karxana» kimi başa düşülür.

Dəmiryolu banketi. Hər iki komponenti şəkilçi ilə işlənən bu qəbildən üçüncü növ təyini söz birləşmələri ingilis dilində omonimik səciyyəyə malikdir, belə ki, onun ilk mənası dəmiryolunun yanlarında onun mühafizəsi üçün düzəldilmiş tələ, səngər və s., ikinci mənası isə «gəimnin göyərtəsində ölçü cihazını bərkitmək üçün

düzəldilmiş dirək» kimi başa düşülür. İngilis mənşəli bu termin öz məna xüsusiyyətlərinə görə fransız dilinə məxsus «banket» (müəyyən şəxsin təşkil etdiyi ziyafət) terminindən fərqlənir.

a)Azərbaycan dilində işlənən ingilis dili mənşəli sözlərin sintaktik məna xüsusiyyətləri

Lakin kataklizmlərə, hansısa sosial,məişət, siyasi xarakterli problemlərə baxmayaraq,bəşəriyyət,dünya inkişaf edir.Biz razılaşmalıyıq ki, bütöv- lükdə intellekt, idrak, şüur və mədəniyyət irəli gedir.Multikulturalizm ümumi bəşər varlığının inkişafının əsaslarından biridir.Bəşəriyyət hər zaman qarşısına məqsəd və hədəflər qoyub.Halhazırda qlobal məqsəd çoxmədəniyyətli cəmiyyət, çoxmədəniyyətli məkən yaratmaqdır.Məlum-dur ki, etnopsixologiya və ya etnik psixologiya adlanan tədqiqat sahəsi millətlərin psixologiyasının öyrənilməsi ilə məşğul olduğuna görə bu elm sahəsinə olan böyük maraq siyasi motivlərlə əlaqədardır.Hətta politologiyada etnik psixologiyanın təsviri ilə yaranmış <Etnopolitologiya> adlı xüsusi bölmə movcuddur.Etnopsixologiya-insanların etnik (mədəni) mənsubiyyəti ilə onların psixologiyası arasındakı əlaqəni öyrənən psixologiya sahəsidir bu elm sahəsi kimə ne təsir göstərmək işini müəyyən etməyə imkan verir.Fitcerald Skott bir məqaləsində yazır: "Çoxdan anlamaq lazımdır ki, bu düyada hər şey ümidsizdir, ancaq onu dəyişmək üçün qətiyyəti istəmək lazımdır. "Sosial elmlər sahəsində çalışan müəlliflərin mübahisələrinə səbəb olan elmi debatlar arasında sivilizasiyaların insan şüurunun, cəmiyyətlərin, eləcə də dövlətlərin inkişafında rolunun mühümlüyü mövzusu xüsusi yer tutur. Samuil Hantinqtonun "Sivilizasiyaların toqquşması" adlı məhşur məqaləsindən sonra bu nəzəriyyə təkcə alimlərin deyil, bir çox nüfuzlu siyasətçilərin də gündəliyində prioritet məsələlərdən birinə çevrildi.Mədəniyyət millətlər arasında qarşudurmanı önləyir, millətlər və insanlar arasında fərq yaradır.Məlum olur ki, bu əsas çağırışlardan biridir. Mədəniyyət bütün mədəni imkanların mübadiləsinə və həmçinin insanlar arasında arasında fikir birliyinin yaranmasına zəmin yaradır, müharibələrin və münaqişələrin səbəb və əsaslarını aradan qaldırır. (4p.-96-114) Münaqişələrin həllinə nəzarət üçün bu mühüm və ən real yanaşmadır.Əlbəttə, bu elə də asan bir iş deyil.Belə ki, bütün bunlar çox hazırlıq, böyük səy və səbr tələb edir.Yaxşı nəticələrə nail olmağın yollarından biri həmçinin mədəni mübadilələrin faydalarından və üstünlüklərindən xəbərdar olmaqdır, bunun üçün də bir çox yollar vardır.İnglis dilindən hərfi tərcümədə multikulturalizm "çoxlu mədəniyyətlər" deməkdir.Multikulturalizm təkcə musiqi və ədəbiyyat sahələrini əhatə etmir, o həm də cəmiyyətin bütün təbəqələrinə təsir edən siyasətə,iqtisadiyyata, dövlət idarəetmə sisteminə, İctimai həyata, elmə və s.təsir edən ictimai fenomendir.Tarixi və mədəniyyəti, hələ multikulturalizm terminin yaranmasından min il qabaq il baş verən mədəniyyətlərin qarşılıqlı zənginləşməsi və dərindən çuğlaşmasının bariz nümunələridir.Görünür ki, qloballaşma dövründə heç bir ölkə multikulturalizmin təsirindən yan keçə bilməz

Ədəbiyyat

1.S.Cəfərov: “Müasir Azərbaycan dilində sintaktik söz birləşmələri”.ADU n.B.1958 il.s.86-94
2.R.C. Cəfərov:”Azərbaycan dilinin terminologiyasında işlənən Qərbi Avropa mənşəli alınma sözlər.Bakı.2006 il.səh:110-112.
3E.Haugen:The analyse of indiguistic horriwing, Lang, 1950.pag:60-63.
4.James, Furnivall, ed.Originals and Analogues of Some of Chaucer’s Canterbury Tales.London: Oxford UP, 1872.Rept.1928.pag:96-114.

G.Djabbarova,S.Nabiyeva

On the word and word combinations in modern english.

Summary

The article deals with the word and word combinations in modern english. Today the main goal of teaching and learninig foreign laguages in the global world is developing language learners' ability to use the target language for communication. The process of teaching English should be based on the communicative - functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented and systematic. It will make to process of teaching oral speech more effective. Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The article is devoted to the role of language functions in the integration and integrity of the text. The processes of integration in the syntax of the texts of Azerbaijani and English fiction are considered. This problem is relevant for linguistics, since the last decades have been marked by the rapid development of text linguistics, whose task is to examine the text from the point of view of its semantic and ideological and artistic unity, identify the principles of organization and use of text speech means, study the functional and stylistic originality of linguistic phenomena in various texts.

Key words:Inglish,syntactic joins,Azerbaijani,morphology,semantic,lexic.

Г.Джаббарова,
С.Набиеваа

Лексико-семантические и морфологические свойств Английских слов в синтактических соединений Азербайджанского языка

Резюме

Статья посвящена роли языковых функций в интервации и целостности текста. Рассматриваются процессы интеграции в синтаксисе текстов азербаиджанской и английской художественной литературы. Данная проблема актуальна для языкознания, поскольку последние десятилетия знаменуются стремительным развитием лингвистики текста, в задачу которой входит рассмотрение текста с точки зрения его смыслового и идейно-художественного единства, выявление принципов организации и использования речевых средств текста, изучение функцианально-стилистического своеобразия языковых явлений в различных текстах. Исследование настоящей темы является актуальным, так как проблемы интеграции текста непосредственно связаны с вопросами организации связной речи, обеспечивающей коммуникативную функцию языка. Таким образом, актуальность настоящего исследования обусловлена возрастающим интересом лингвистов к изучению текста и его категорий; теоретической и практической необходимостью определения текстообразующих единиц; недостаточной разработкой проблемы средств интеграции текста. Анализ выполнен в русле структурно-семантического и функционального направлений коммуникативной лингвистики и лингвистики текста

Ключевые слова: текст, интеграция, художественная литература, лингвистика, процесс, категория, форма.

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 01.06.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent *Adilə Zeynalova* tərəfindən çapa tövsiyə olunmuşdur

AFAQ MƏMMƏDOVA
BDU
Filologiya üzrə fəlsəfə doktoru
Zahid Xəlilov 23
afam129@gmail.com

XARƏZMİN TÜRKCƏLƏŞMƏSİ VƏ XARƏZM TÜRKCƏSİNDƏ YAZILAN ƏSƏRLƏR

Xülasə

İslam dininin yayılmasından əvvəlki Xarəzm haqqında qədim yazılı abidələrdə məlumatlar olduqca azdır. Məqalədə islamdan əvvəlki Xarəzm, Xarəzmşahlar dövlətinin yaranması və Xarəzm bölgəsinin türkcələşməsi haqqında tarixi abidələrdə olan məlumatlar və müxtəlif alimlərin tədqiqat və fikirləri qeyd olunmuşdur. Əsasən ordu dili olan türkcənin, Xarəzm bölgəsinə türk valilərinin təyin edilməsi ilə sürətlə şaxələnməsi tarixi faktdır. Belə ki, monqol dövründən əvvəl Kaşğarın yanında ikinci bir ədəbiyyat mərkəzi olan Xarəzm bölgəsinin, artıq XI əsrdən oğuz, qıpçaq, xalaç, qanqlı və başqa türk tayfaları tərəfindən türkləşdiyini görmək mümkündür.

Beləliklə, Xarəzm ərazisinin türkləşməsindən sonra yaranan yazı dilinə Xarəzm türkcəsi adı verilmişdir. Bölgəyə yerləşən müxtəlif türk tayfalarının hər birinin dil xüsusiyyətləri bu ərazidə meydana gələn dilə öz təsirini göstərmiş və bölgə xalqının etnik quruluşu kimi, yaranan dili də qarışıq bir şəkil almışdır. Məqalədə əlimizə gəlib çatan Xarəzm türkcəsində yazılan əsərlər, onların nüsxələri, müəllifləri, bu abidələrin öyrənilməsi və tədqiq olunması, müasir nəşrləri və s. haqqında da məlumatlar verilmişdir.

Açar sözlər: Xarəzm türkcəsi, türkcələşmə, yazılı abidələr, nüsxə, tənqidi mətn, yeni nəşrlər

XI əsrdən sonra əlimizə gəlib çatan türk yazılı abidələrinin hansı türk tayfa dillərinə aid olduğunu aydınlaşdırmaq həm çətin, həm də mübahisəlidir. Geniş coğrafi areala yayılmış türk tayfalarının hər zaman bir-birləri ilə əlaqədə olduqları məlumdur. Məhz bunun nəticəsində hər hansı bir türk tayfasının dilində az və ya çox digər türk tayfa dillərinə mənsub elementləri görmək mümkündür. Düzdür, müəyyən bir əsərin dilində bir türk tayfa dilinə məxsus elementlər daha qabarıq şəkildə özünü büruzə verə bilər, ancaq ümumilikdə, bütün orta əsr türk yazılı abidələrində bir müştərəklik, ortaqlıq diqqəti cəlb etməkdədir. Bütün bunları nəzərə alaraq, orta əsrlərin başlanğıcından türk yazılı abidələrini yalnız bir türk tayfa dili adı altında verməyib, onları yazıldığı coğrafi bölgə üzrə və ya tarixi şəraitlə bağlı qruplaşdırmışlar. Məsələn, Qaraxanlı türkcəsi, Xarəzm türkcəsi, Məmlük türkcəsi və s.

Orta əsrlərdə əlimizə gəlib çatan ilk türk abidələri İslamiyyət dönəminə aid olduğu üçün, bəzən bu dövrü türk-islam ədəbiyyatı dövrü də adlandırırlar. IX əsrdə ilk türk-islam dövləti olan Qaraxanlı imperiyası qurulur. Etnik baxımdan karluq, yağma, türgiş, arqu, qıpçaq, oğuz kimi müxtəlif tayflardan ibarət olan bu dövlətin coğrafi sərhədləri Şərqi Türküstanla Mavərənnəhr sahələrini aşmışdır (xəritə 1). Bu dövlətin hökm sürdüyü ərazi, 1047-ci ildəki bölünməsindən əvvəl, aşağıdakı kimi idi: şərqdə Şərqi Türküstanın qərb bölgəsi; şimalda Tarqabatay dağları, Balxaş gölü, Aral gölü; qərbdə Qaraqum səhrası, Amudərya çayı; cənubda Hindistan və Hindiquş, Pamir və Qaraqum dağları. Fərganə isə bu ərazinin mərkəzində idi. 1047-ci ildən sonra isə dövlətin qərb bölgəsini Mavərənnəhr ərazisi, Fərqanənin bir hissəsini, Buxara, Səmərqənd və Amudəryanın yuxarı hövzəsi; şərq hissəsini isə qədim adı ilə Şaş (Taşkənd), Talas və İsficab təşkil edirdi (31;62).

(xəritə 1) (48)

Qaraxanlı dövründə ərsəyə gəlmiş əsərlərin dilini Qaraxanlı və ya xəqaniyyə türkcəsi adı altında vermək dilçilikdə məqbul sayılmışdır. Bunlardan Yusif Balasaqunlunun "Qutadğu bilig", Mahmud Kaşğarinin "Divanü-lüğat-it-türk", Ədib Əhməd ibn Yügnəkinin "Ətibətül-həqayiq" və Quran tərcümələrini misal göstərə bilərik (yazılı mənbələrdə Qaraxanlı dövlətində ərsəyə gəlmiş bir neçə başqa əsər haqqında məlumat olsa da, onlar dövrümüzə qədər gəlib çatmamışdır).

XI əsrdə türk-islam dövlətlərindən biri də paytaxtı Gürgənç / Ürgənç (indiki Köhnə Ürgənç şəhəri - Türkmənistanın Daşoğuz vilayəti) şəhəri olan Xarəzmşahlar dövləti (1097-1231) (xəritə 2) idi. Bəzi islam coğrafiyaçıları Xarəzm bölgəsini qərbdə Oğuzların ölkəsi, cənubda Xorasan, şərqdə Mavərənnəhr, şimalda yenə türk torpaqları ilə əhatə olunmuş bir ölkə olduğunu qeyd edirlər (bax: 34;217).

(xəritə 2) (49)

İslam dininin yayılmasından əvvəlki Xarəzm haqqında qədim yazılı abidələrdə məlumatlar dağınıq və azdır. Xarəzm adına I Daranın (e.ə.522-486) əmri ilə Bisütun qayası üzərində tərtib edilmiş kitabədə rast gəlirik. Dara bu kitabəyə hökmranlıq etdiyi ərazilərin adını yazdırmışdır ki, onların içərisində Xarəzm də vardır (47; I sıra, 12-17 sətir).

Daha sonra Herodot (e.ə.484-425) "Tarix" kitabında I Daranın hakim olduğu torpaqları 20 əyalətə böldüyü və qəbilələrə görə vergi təyin etdiyi haqqında məlumat verir, XVI əyalətdə olan parfiyalılar, xorezm (xoresmililer), soqd və arilərin adını çəkir (22;264,266). Həmçinin ələ gəlib çatan "Avesta"da da Xarəzm adı işlədilmişdir (Avesta, Yəşt X, 14).

VII əsrdən isə ərəblər özlərinə tabe etdikləri ərazilərdəki xalqın dininə qarşı ciddi mübarizə apararaq islam dinini yaydıqları üçün, "ərəb istilaçıları bu bölgənin elmi ədəbiyyatını məhv etmiş, alimlərini isə öldürmüş və ya sürgün etmişlər" (38;7). Buna görə də, uzun müddət qədim Xarəzm haqqında yetərli məlumat yox idi. Daha sonralar bölgədə aparılan arxeoloji qazıntılar nəticəsində, çətinliklə də olsa, qədim xarəzmlilər, onların yaşayışı, adət-ənənləri, dinləri haqqında bəzi məsələlər işıq üzü gördü. Əldə olunan qaynaqlardan bilinir ki, qədim xarəzmlilər Amudəryanın aşağı hissəsində yaşamışlar (10;109). "Amudəryanın aşağı hissəsində (daha sonralar Xarəzm adlanan ərazi) irandilli tayfalar yerli tayfalarla qaynayıb-qarışmış və bu qarışma əlbəttə ki, onların mədəniyyətinə, sonrakı inkişafına da təsir etmişdir" (42;265). 1937-ci ildə S.P.Tolstov tərəfindən aparılan arxeoloji qazıntıların nəticələri onların zərdüştlük dininə etiqad etdiklərini göstərməkdədir (38;11). Y.A.Rapoport isə Strabonun xarəzmliləri massaget və sak tayfalarına aid etdiyinə istinad edərək, e.ə. VII-VI əsrlərdə Amudəryanın aşağı hissəsində yaranan Xarəzm dövlətinin qurucularının saklar (Asiya skifləri) ola biləcəyi fikrini qeyd edir (29;56). XI əsrin məşhur alimi Əl-Biruni isə qədim xarəzmlilərin öz əlifbaları, xüsusi təqvimləri, özlərinə xas bayramları olduğu haqqında bilgi verir. "Keçmiş nəsillərin abidələri" adlı kitabında onların xüsusi təqvimləri haqqında məlumat verərkən belə yazır: "onlar (Xarəzm əhalisi-

A.M.) ilin başlanğıcını ölkələrinə məskunlaşma tarixindən başlayırdılar ki, bu da İsgəndərdən 980 il əvvəl baş vermişdir. Daha sonra isə ili Keykavusun oğlu Siyavuşun Xarəzmə gəlişi və Keyxosrovun və onun nəslinin Xarəzmə yerləşərək hakimiyyətini türklərin səltənətinə yaydığı vaxtdan saymağa başladılar. Bu, Xarəzmin məskunlaşmasından 902 il sonra olmuşdur" (3;47). Göründüyü kimi, qədim xarəzmlilər haqqındakı fikirlər müxtəlif və qarışıqdır.

Ümumiyyətlə, bir çox dövlətlər hökmranlıqlarının müəyyən dövrlərində Xarəzm bölgəsini özlərinə tabe etmişlər: Afriqoğulları (305-995), Samanilər (819-999), Qəznəvilər (963-1186), Səlcuqlar (1038-1157) və s. Əvvəllər Səlcuq İmperiyasının vassalı olan Xarəzm bölgəsi, daha sonralar nəinki sadəcə müstəqillik əldə etmiş, həm də demək olar ki, Orta Asiya və Şimali İranda ən güclü dövlət olmuş və hakimiyyətinin son 10 ilində Mavərənnəhr, Xorasan, Mazandaran, Kərman, İraq, Azərbaycan, Sicistan, Qəznə kimi ölkə və bölgələri də öz ərazisinə daxil etmişdir (14;3).

Xarəzmşahlar dövlətinin yaranması 1097-ci ilə təsadüf edir. Belə ki, qeyd edilən ildə Sultan Səncər tərəfindən Qütbəddin Məhəmmədin (Məhəmməd Xarəzmşah) Xarəzm valisi təyin edilməsi ilə Xarəzmşahlar dövlətinin əsası qoyulur. Lakin Xarəzmşahlar sülaləsinin banisi Qütbəddinin deyil, onun atası Anuş Tigin sayılmaqdadır. Oğuzların bəydilli boyundan olan Anuş Tigin Əfqanıstanın Qarcistan (indiki Həzəracat) bölgəsində qul olmuş, səlcuq sərkərdəsi tərəfindən satın alınaraq saraya gətirilmişdir. Sarayda Səlcuq sultanı I Məlikşahın təştdarı (sultanın dəsmal və hamam ləvazimatlarını saxlayan) vəzifəsini tutan Anuş Tigin, daha sonra Xarəzm bölgəsinə vali təyin edilsə də, əslində oranı qıpçaq əsilli Əkinci (İlkinci) bin Qoçqar idarə edirdi. Anuş Tigin haqqında məlumatlar bizə Fəzlullah Rəşidəddinin "Cəmi ət-təvarix" əsərində gəlib çatmışdır (bax:14;6).

Beləliklə, əsasən ordu dili olan türkcə, Xarəzm bölgəsinə türk valilərinin təyin edilməsi ilə sürətlə şaxələnməyə başlayır. Akademik V.V.Bartold Xarəzmin türkcələşməsi haqqında bir neçə fikir söyləyir: "1. İslam dininin ilk dövrlərində Xarəzmdə digər irandillilər tərəfindən anlaşılmayan iran dialektində danışırdılar; bu dildə sadəcə danışmırdılar, hələ XI əsrdə yazırdılar da; 2. lakin fars lüğətlərində "xarəzmcə" adı altında daha çox türk sözləri göstərilir; 3. XIII əsrdə monqol istilası dövründə Xarəzm haqqında tamamilə türk dilli ölkə olaraq danışılır (9;116) Beləliklə, V.V.Bartold Xarəzmin türkcələşməsinin XI-XIII əsrlər arasında baş verdiyini qeyd edir.

N. Hacıeminoğlu da "Harezm türkçesi ve grameri" əsərində V.V.Bartoldun göstərdiyi dövr ilə razı olduğunu bildirir və daha sonra belə yazır: "Monqollar dövründə Xarəzmdən bəhs edən qaynaqlar buranı tamamilə "bir türk məmləkəti" olaraq göstərməkdədirlər.. Xarəzm sahəsində oğuz, xalaç, kimək, bayavat, qıpçaq və əsasən də, qanqlılar kimi müxtəlif tayfalar bir-biri və yerli xalq ilə qarışaraq məmləkəti türkləşdirmişdirlər" (18;3).

J.Eckmann isə Xarəzmin, hələ monqol dövründən əvvəl, Kaşğarın yanında ikinci bir ədəbiyyat mərkəzi olduğunu vurğulayaraq, adı çəkilən ərazinin artıq XI-XII əsrlərdə oğuz və qıpçaq tayfaları tərəfindən türkləşdiyini göstərmişdir (15;1).

Zeki Velidi Togan Qaznəli Mahmudun Xarəzmi işğal edərək, onun idarəsini əmirlərindən Altun Taşa verdiyi, bunun vəfatından sonra oğlu Harunun hakimiyyətə gəldiyi və 1041-ci ildə hakimiyyətin qıpçaq və qanqlı tayfalarından olan əmirlərin əlinə keçdiyi haqqında yazdıqdan sonra fikrini belə tamamlayır: "Beləliklə, Xarəzmdə qaraxanlılarınkından fərqli, oğuzca ilə uzlaşmış bir qanqlı-qıpçaq dili və mədəniyyəti yerləşdi" (35;33).

Xarəzm türkcəsində yazılan əsərlərin Xarəzmşahların süqutundan sonra yazıldığını qeyd edən Aysu Ata "bölgədə Xarəzmşahlar zamanında və ya ondan əvvəl türkcənin nə dövlət dili, nə də ədəbi dil səviyyəsində işlənməsi haqqında əlimizdə qaynaq yoxdur, eyniylə Böyük Səlcuqlular və Qəznəvilərdə olduğu kimi" izahını verir. Türklərin bu dövrlərdə əsasən öz dillərində deyil, daha çox fars və ərəbcə yazdıqlarını vurğulayır (4;13).

Əlimizə gəlib çatan Xarəzmcə yazılmış ən əski nüsxə 1257-ci ilə aiddir. Fikrimizcə bu dövrə istinadən Xarəzmin türkcələşməsini XII-XIII əsrlər deyil, daha öncələrə aid etmək daha məqsədəuyğun olardı. Məsələn, X əsrdə ərəb coğrafiyaçılarının Kılavuz, Karatigin, Baqırkan, Barkan, Çaqıroquz, Karasu, Suburnı, Təmirtaş və s. kimi sözlərin Xarəzmdə yaşamaqda olduğunu qeyd etmələri (bax: 43;4) bölgənin artıq X əsrdə türkləşməsindən xəbər verməkdədir.

Beləliklə, Xarəzm ərazisinin türkləşməsindən sonra yaranan yazı dilinə Xarəzm türkcəsi adı verilmişdir. "XI-XII əsrlərdə istər etnik quruluş, istərsə də siyasi həyat baxımından türkləşən Xarəzm bölgəsində oğuz, qıpçaq və qanqlı tayfalarının oturaq həyata keçmələrinin nəticəsi olaraq türk dilinin şərq qolunu təşkil edən Qaraxanlı (Xaqaniyyə) türkcəsi əsasında, cənub-qərb qolunu təşkil edən oğuz türkcəsi və şimal-qərb qolunu təşkil edən qıpçaq türkcəsinin bu ərazidə qaynayıb qarışmasından yaranan türkcəyə verilən addır (31;133). Bölgəyə yerləşən müxtəlif türk tayfalarının hər birinin dil xüsusiyyətləri bu ərazidə meydana gələn dilə öz təsirini göstərmiş və bölgə xalqının etnik quruluşu kimi, yaranan dili də qarışıq bir şəkil almışdır.

Janos Ekman Xarəzm türkcəsinin Qaraxanlıcadan fərqli bir neçə xüsusiyyətini qeyd etmişdir: kök hecada *ä*-nin *i*-yə keçməsi (*ämdi* > *indi*) ("Nəhcül-fəradis" xaric. Burada daha çox *ä* hakim mövqedədir); dodaq samitindən sonra gələn saitin dodaqlanması (yavız > yavuz); -nin (dişarası *d* - A.M.) qorunması ilə bərabər, çox halda y ilə əvəzlənməsi (a ak - ayak); şühudi keçmiş zamanda I şəxsin cəm şəkilşisi *-dımız / -dimiz* əvəzinnə *-duk / -dük* şəkilçilərinin yayılması; gələcək zamanın *-qum/-güm* və ya *-qum / -güm turur* ilə düzəlməsi və s. (15;1-15).

Xarəzm türkcəsində yazılan əsərlərdən Zamahşarinin "Müqəddimətül-Ədəb", Rəbğuzinin "Qisəsül-ənbiya", İslamın "Muinül-mürid", Kərdərli Mahmudun "Nəhcül-fəradis" əsərlərini və Xarəzm türkcəsində yazılmış bir neçə Qur'an tərcümələrini göstərə bilərik.

Zamahşarinin "Müqəddimətül-Ədəb" əsəri

Əlimizə gəlib çatan Xarəzmcə əsərlərdən ilki Zamahşarinin (Əbülqasım Carullah Mahmud bin Ömər bin Məhəmməd bin Əhməd əz-Zamahşari əl Xarizmi)

(1075-1144) Xarəzmşah hökmdarı Atsız bin Məhəmməd bin Anuş Tiginə ithaf etdiyi "Müqəddimətül-Ədəb" əsəridir. Düzdür, əsərin nüsxələrində yazılma tarixi qeyd olunmamışdır, lakin Atsızın hakimiyyətdə 1127-1156-cı illərdə olduğunu və Zamahşarinin 1144-cü ildə vəfat etdiyini nəzərə alsaq, əsərin 1127-1144-cü illər arasında yazıldığını söyləmək olar. "Müqəddimətül-Ədəb" (ədəbi öyrənməyə giriş) ərəb dilini öyrənmək üçün yazılmış praktik bir lüğətdir. Kitabın ərəbcə söz və cümlələrin fars, monqol, xarəzm, cığatay və osmanlıcaya sətirarası tərcümələrindən ibarət xeyli nüsxəsi mövcuddur. Ancaq Zamahşarinin öz qələmindən çıxan nüsxəsi tapılmadığından, bu sətirarası tərcümənin orijinal dili haqqında məlumat yoxdur. Əsərin bilinən ən qədim nüsxələri Xarəzm türkcəsi və fars dilinə sətirarası tərcümə olunan nüsxələridir (bax: 43;8-9). Lüğətin xarəzmcə sətirarası tərcüməli nüsxələri aşağıdakılardır:

1. Yozqat kitabxanası (№ 396) - köçürülmə tarixi *hicri*:655 / *miladi*:1257 (7;90-93)
2. Berlin Dövlət kitabxanası (№ 66) - 681 / 1282
3. Şüştər nüsxəsi (İranın Şüştər qəsəbəsində Şeyx Məhəmməd Taqinin şəxsi kitabxanası) - XIII əsr (bax:43)
4. İstanbul Universiteti kitabxanası (№ 4655) - 715 /1315
5. Damat İbrahim Paşa kitabxanası (№ 1149) - 738 /1338
6. İstanbul Arxeologiya muzeyi (№ 1619) - 738(40) / 1338(40)
7. Millət kitabxanası (2009) -749 / 1348
8. Britaniya muzeyi (Add7429) - 760 / 1359
9. Yeni Cami kitabxanası, Xədicə Turxan yazması (№ 322) - 769/1367
10. Hacı Beşir ağa (№ 648) - 797 /1394
11. Atıf əfəndi (№ 2768) - 799 / 1397
12. Manisa kitabxanası (№ 2850) - 800/1398
13. Kastamonu kitabxanası (№ 2487)
14. Daşkənd nüsxələri (№ 2699, № 3807)
15. Topqapı Sarayında 3 nüsxə (Əhməd III, № 2243, № 2740, №2741) - XIV əsr
16. Paris Suplement (№ 287) (37;85)
17. Rampur Saray kitabxanası (№ 3810)

"Müqəddimətül-Ədəb"in Şüştər nüsxəsini transkripsiya edib, onun dil xüsusiyyətləri haqqında yazan Nuri Yücə bu əsərin orta türkcə dövründə "Divanü lüğat-it-türk"dən sonra ən zəngin və ən mühüm lüğət tərkibinə sahib olduğunu bildirmişdir. Belə ki, "Divanü lüğat-it-türk"də 8000, "Qutadğu bilig"də 2860, Rayland nüsxəsi "Qur'an tərcüməsi"ndə 2943, anonim "Təfsir"də 2415, "Gülistan tərcüməsi"ndə 3000 olduğu halda, "Müqəddimətül-Ədəb"in lüğət tərkibi 3506 leksik vahiddən (bunlardan 2908 türk mənşəlidir) ibarətdir (43;25).

Müqəddimətül-ədəb əsəri üzərində tədqiqat aparanlardan N.Poppe (28), A.N.Borovkov (13;31-39/98-101), K.Menges (23), Z.V.Toğan (37), A.Zayonçkovski (44), Nuri Yücə (43) və başqalarının adını qeyd etmək olar.

Rəbğuzinin "Qisəsül-ənbiya" əsəri

"Qisəsül-ənbiya" (peyğəmbərlərin qissələri / hekayələri) əsərinin müəllifi, yazılma tarixi və kimə yazıldığı haqqında məlumatları əsərin özündən əldə edirik. Belə ki, müəllif kitabının ilk səhifələridə özünü "Ribat Oğuzluq (Oğuzlu) Burhan oğlu Qazı Nasır" kimi təqdim etmişdir:



(2r20)

Aysu Ata *Ribat Oğuzluq* ifadəsini "oğuzlarla məskunlaşmış Ribat ərazisi" kimi vermişdir (5;XII). N.S.Banarlıya görə, müəllif "Xarəzm ərazisinin Ribat-ı Oğuz qəsəbəsində ya anadan olmuş, ya da orada qazılıq etdiyi üçün, özünə Rəbğuzi təxəllüsünü götürmüşdür" (8;354). Xarəzmdə arxeoloji qazıntılar aparan S.P.Tolstov Çirig-Rabat ("əskəri istehkam") ərazisinin adını çəkərək onun Qızılordadan (Qazaxıstanda şəhər-M.A.) 240 km. qərbdə yerləşdiyi haqqında məlumat vermişdir (38;56).

Peyğəmbər qissələrindən ibarət olan əsər H.710- M.1310-cu ildə yazılmış və Nəsrəddin Toq Buqa bəyə təqdim edilmişdir. "Qisəsül-ənbiya" əsərinin günümüzə bir çox üzü köçürülmüş nüsxələri gəlib çatmışdır. Bunlardan məlum olan ən əski nüsxə (XV əsr olduğu təxmin eidlir) Londonun Britaniya muzeyində (Add.7851) saxlanmaqdadır. Bu nüsxənin 1948-ci ildə K.Qrenbex tərəfindən faksimilesi çap olunmuşdur (17). Daha sonralar bu faksimilidən istifadə edərək Aysu Ata əsəri iki cild halında (I cild - giriş, mətn, tıpkıbasım; II cild - dizin) (5) nəşr etdirmişdir. Ümumiyyətlə, "Qisəsül-ənbiya" haqqında xeyli tədqiqat işləri aparılmış, kitabın müxtəlif dilçilər tərəfindən tənqidi mətni hazırlanmışdır ("Qisəsül-ənbiya" haqqında yazılan biblioqrafiya üçün bax: 20).

Yuxarıda qeyd edilən London nüsxəsindən başqa, əsərin Sankt-Peterburqda bir neçə ("Publiçnaya biblioteka"da: D507, THC71; Rusiya EA Şərqşünaslıq İnstitutunun Sankt-Peterburq bölməsində C245, D43, D44, D45, D46; Saltıkov-Şedrin kitabxanasında THC20), Özbəkistanda yeddi (Özbəkistan EA Biruni adına Şərqşünaslıq İnstitutu fondu №1025, 7397, 1874, 1834, 6246, 6685, 6127), İsveçdə iki (Uppsala Universitesi kitabxanası №578 və 580 və Land Universitetinin kitabxanasında), Paris (Paris Milli kitabxanası №987 və 1012), Tehran (Tehran Universiteti kitabxanası) və Bakıda isə bir əlyazma nüsxələri vardır. Rəbğuzinin "Qisəsül-ənbiya" əsərinin XVI əsrə aid olan Bakı nüsxəsi, Azərbaycan Respublikası EA Əlyazmalar İnstitutunda B-1460 /3085 şifrasi altında qorunub saxlanmaqdadır (19). Tapılan nüsxələrdə əlyaz-

manın üzünün köçürüldüyü tarix bəzilərində göstərilsə də (16-19-cu əsrlər arası), bir çoxunda qeyd edilməmiş və ya tarix olan səhifə naqisdir.

"Qisəsül-ənbiya"nın 2015-ci ildə H.E.Böşoten və J.O'kan tərəfindən nəşr olunmuş kitabını (12) da qeyd etmək lazımdır. Bu nəşrdə əsərin beş əlyazma nüsxəsi ələ alınaraq (London, iki Sankt-Peterburq nüsxəsi, Bakı və Tehran nüsxələri) onun tənqidi mətni hazırlanmışdır.

İslam və *Muinül-mürid*

Xarəzm türkcəsinə aid edilən əsərlərdən biri də hicri 713/ miladi 1313-cü ildə yazılmış dini-təsvvüfi mövzuda olan "Muinül-mürid"dir ki, mənası "müridin kömək-çisi" deməkdir. Sadə dildə yazılan əsərin məqsədi insanlara dini mövzuları asan, anlaşıqlı yolla anlatmaqdır. Yeganə nüsxəsi Bursa yazma və basma əski əsərlər kitabxanasının Orxan Qazi kitablığında (№ 1605) saxlanılmaqdadır. Bu nüsxə on səkkiz risalədən ibarətdir ki, qeyd olunan əsər də 186-211 səhifələri arasında yer almaqdadır. Bu risalələr və "Muinül-mürid" haqqında Z.V.Toğan "Harezmde yazılmış eski türkçe eserler" məqaləsində geniş yer vermişdir. Z.V.Toğan Əbulqazi Bahadır xanın "Şəcəreyi-tərakimə"sində "Muinül-mürid"in Şeyx Şərəf (Şərif) adlı bir Xarəzm alim və şeyxi tərəfindən yazıldığını qeyd etmişdir (46;316). Əsərin sonunda, 402-ci dördlükdə isə müəllif adının İslam, atasının adının Baba İslam olduğunu qeyd etməkdədir:



(32;187)

bu qaç söz ayıtqan atı islam ol	"Bu (bir) neçə sözü söyləyənin adı İslamdır.
tileki axır vəqt iman islam ol	(Onun) arzusu son nəfəsində islam imanıdır.
atam baba islam vəliyyül-vera	Atam yaradılmışların vəlisi Baba İslamdır.
özi zikri tildə tümən islam ol	Özü, zikri dildə minlərcə islamdır.

"Muinül-mürid" 407 dördlükdən ibarətdir və bunlar eyniylə, "türk-islam ədəbiyyatının ilk əsəri olan "Qutadğu-bilig"in 173 yerində, "Atəbətül-həqaiq"in isə başdan sona qədər yazıldığı vəzn və dördlüklərdəndir" (8;356).

Əsərin tədqiqat və nəşrlərinə gəlincə, "Muinül-mürid"in müəllifi və mənbələri haqqında 1976-cı ildə Andras Bodroqliqeti "The autorship and sources of the "Mu'înü'l-mürîd" (11) adlı məqaləsində məlumat vermişdir. Recep Toparlı 1988-ci

ildə (40), daha sonra isə Mustafa Argunşahla birlikdə 2008-ci ildə (39) əsərin elmi tənqidi araşdırması və mətnini nəşr etdirmişdir. Ali Fehmi Karamanlıoğlu isə "Muinül-mürid"i çapa hazırladığı vaxtlarda xəstələnmiş və vəfat etdiyi üçün əsər çap edilməmişdir. Daha sonralar Osman Fikri Sərtkayanın redaktorluğu ilə kitabın mətni, lüğət və faksimilesi (32) nəşr olunmuşdur.

Kərdərli Mahmudun " Nəhcül-fəradis" əsəri

Orta əsrlər türk-islam ədəbiyyatında təfsir, hədis, fiqh elmi haqqında müxtəlif əsərlər ərsəyə gəlmişdir. Bu yazıların əsas hissəsi ərəb və fars dilində yazılsa da, əlimizə türk dilində yazılanlar da gəlib çatmışdır. Bunlardan Kərdərli Mahmud bin Əlinin 1358-ci ildə yazıdğı "Nəhcül-fəradis" (Uştmaxlarnıng açuk yolu "Cənnətlərin açıq yolu") əsərini göstərmək olar. Saray (Qızıl Orda imperiyasının paytaxtı, indiki Həştərxan vilayəti ərazisində) və ya Xarəzmdə qələmə alındığı zənn edilən bu əsər qirx hədis tərcüməsidir.

Əsər dörd bölmədən (fəsildən) ibarətdir, hər bölmədə on hədis işıqlandırılmışdır. Birinci hissənin on hədisi Məhəmməd peyğəmbərin həyatı və ailəsi, möcüzələri, Məkkədən Mədinəyə köçməsi, səhabələrinin müsəlman olması haqqındadır. İkinci fəsildə Əbu Bəkr, Ömər, Osman, Əli, Fatma, Həsən, Hüseyn və başqaları ilə bağlı hadisələr yazılmışdır. Üçüncü hissədə möminlərə uyğun, düz, dördüncü hissədə isə uyğun olmayan, səhv hərəkətlər və əməllər haqqında hədislər vardır. Əsərin hər dörd fəsli bir hədislə başlamış və sonra həmin fəslin türkcə tərcüməsi verilmişdir. Yazının məqsədi xalq arasında dini anlatmaq, onlara din haqqında faydalı məlumatlar vermək olduğu üçün dili sadə və anlaşıqlıdır. Məhz bunun üçün "əsərin asan oxunub anlaşılması bir xalq kitabı olaraq sürətlə yayılmasına və daha müəllifin sağlığında türk dünyasının müxtəlif mərkəzlərində üzünün köçürülməsinə yardım etmişdir" (15;44).

"Nəhcül-fəradis"in bilinən nüsxələri aşağıdakılardır:

1. İstanbul Süleymaniyyə kitabxanası / Yeni Cami (№ 879)
2. Şihabəddin Mərcani nüsxəsi (bu nüsxə daha sonralar itmişdir)
3. Paris Milli kitabxanası (1020)
4. Yalta nüsxəsi (Yaqub Kamal tərəfindən tapılan bu nüsxə də itmişdir) (bax:21)
5. Kazan Dövlət Universiteti (№ 6026)
6. Kazan Dövlət Universiteti (№ 3060)
7. Kazan Dövlət Pedoqoji İnstitutu (№ 12100)
8. Sankt-Peterburq nüsxələri
9. Kastamonu nüsxəsi (3;78-80)

XIX əsrin sonlarında Q.Nasıri tatar dilinin izahlı lüğətində (26) və Ş.Mərcani "Mostafadel ahbar fi ahvali Kazan ve Bolgar kitabında" (24;15-16) *Nəhcül-fəradis* haqqında yazsalar da, onların istifadə etdiyi nüsxə günümüzə gəlib çatmamışdır. 1956-cı ildə Y.Ekman əsərin İstanbul Süleymaniyyə kitabxanasındakı nüsxəsinin faksimilesini çap etdirmişdir (16;444). Kitabının ön sözündə II cildin transkripsiyalı

mətn, III cildin isə lüğət olacağı haqqında yazan məşhur türkoloqun ömrü planlarını həyata keçirməyə yetmədi. Buna görə, II cild Həmzə Zülfüqar və Səmih Tezcan (45), III cild isə Aysu Atanın (6) səyləri nəticəsində işıq üzü gördü. 2014-cü ildə isə yuxarıda qeyd olunan cildlər tək bir kitab halında nəşr olunmuşdur (27).

Xarəzm türkcəsində Qur'an tərcümələri

Ərəb dilində yazılan Qur'anın ərəb dilini bilməyən müsəlmanlar arasında yayılması və izah olunması üçün onun tərcüməsinə ehtiyac yaranmışdır. Hələ VII əsrdən fars dilinə tərcümə olunduğu zənnedilən Qur'anın məlum olan sətiraltı tərcüməsi və izahı X əsrə aiddir (Qur'anın tərcümələri haqqında bax: 1;19 və 25). Qur'anın türk dilinə də bu dövrdə tərcümə edildiyi fikri vardır (36;135). Lakin əlimizə gəlib çatan türk dilində ilk Qur'an tərcüməsi Qaraxanlı dövrünə aid edilir. Bunlar Mançestr Rayland kitabxanasında və İstanbul TİƏM-də (Türk və İslam Əsərləri muzeyi №73) saxlanılmaqdadır.

Xarəzm dövrünə aid, məlum olan sətirarası Qur'an tərcümələrindən biri Həkimoğlu nüsxəsi adlandırılmışdır. İstanbulda Süleymaniyyə kitabxanasının Həkimoğlu Əli Paşa camisi №2-də saxlanılan bu nüsxə 1363-cü ildə istinsah edilmişdir. Bu tərcümə üzərində əsasən Güldən Sağol işləmişdir. Belə ki, "Harezm türkçesi satır arası Kur'an tercümesi" adlı doktorluq işini daha sonralar genişləndirərək 3 cild halında nəşr etmişdir (30). Əsərin mikrofilm arxiv nömrəsi 3587-dir (41;17).

The article deals with the main strategies in developing oral speech in language faculties and working out effective ways of speaking skills.Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented and systematic. It will make the process of teaching oral speech more effective. Some communication situations are associated with a predictable set of spoken exchanges -- a script. Greetings, apologies, compliments, invitations, and other functions that are influenced by social and cultural norms often follow patterns or scripts. So do the transactional exchanges involved in activities such as obtaining information and making a purchase. In these scripts, the relationship between a speaker's turn and the one that follows it can often be anticipated. Instructors can help students develop speaking ability by making them aware of the scripts for different situations so that they can predict what they will hear and what they will need to say in response. Through interactive activities, instructors can give students practice in managing and varying the language that different scripts contain. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of literature. The author emphasizes its role in Linguistics. Since its emergence this notion caught the attention. New researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. The main aim of State program is to form a unique national education by means of ICT and provide qualitative educative opportunity in order to integrate into worldwide education system. One of the main goals of language learning is to acquire the ability to communicate effectively. It will make the process of teaching oral speech more effective.

Key words: communication, innovation, method, technology, speech

К. Фараджбейли

Еффективные пути на формирование устной речи на языковом ВУЗе

Резюме

В данной статье рассматриваются к вопросу стратегии на формирование устной речи на английском языке в условиях языкового вуза. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранном языке. Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно – функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть роль упражнении. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Обучение иностранному языку студентов языковых вузов велось, в основном на основе чтения художественной литературы, студенты же неязыковых вузов читали специальные тексты, соответствующие своей будущей профессии. Таким образом, именно чтение традиционно выступало в качестве цели и средства обучения любому иностранному, в том числе английскому языку. При этом не ставилась задача обучения использованию языка в качестве средства общения. Обучение же речевому общению на иностранном языке в случае наличия времени и энтузиазма со стороны как учителей, так и обучаемых, проводилось на самом элементарном уровне и базировалось, в основном, на так называемых бытовых ситуациях. Основной целью Государственной программы является формирование единой обшенациональной среды образования путём внедрения и использование современных информационно-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образовании. Одной из основных целей изучения языка является овладение умением эффективно общаться на изучаемом языке.

Ключевые слова: коммуникация, инновация, метод, технология, речь

Redaksiyaya daxil olma tarixi: 20.09.2019
Çapa qəbul olunma tarixi: 11.10.2019
Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

ИЛАХА ГУРБАНОВА
Доктор философии по филологическим наукам
Большой научный работник Института Языкознания имени Насими Национальной Академии Наук Азербайджана
gurbanovailahe@gamil.com
Гусейн Джавид ул

СРАВНЕНИЕ ТЕРМИНОВ РОДСТВА В НЕКОТОРЫХ ДИАЛЕКТАХ ТЮРКСКИХ ЯЗЫКАХ

Резюме

В статье исследуются термины родства в разных диалектах тюркских языков. Сравнение проводилось сравнительно-историческим методом. К исследованию также были привлечены статистические данные. Было выяснено, что частота употребления данных терминов в диалектах тюркских языков не одинакова. В некоторых диалектах поколение старше 50-ти, вообще, не понимает их значение. Было заключено, что диалекты остаются зеркалом истории народов и их языков. По мере возрастания влияния на диалектные группы того или иного древнетюркского племенного языка, меняется частота употребления многих терминов. Так, например, термины, обозначающие послебрачное родство: quda и kürəkən, в литературном языке означают зятя и куму. Слово в разных фонетических вариантов было в употреблении с самых древних времен и означало послебрачные родственные узы. Но видимо в какой -то стадии развития тюркских племенных языков, слово постепенно начало выходить из употребления в огузской группе. Но в кыпчакских языках оно продолжало развиваться. Частота употребления лексемы в лабиализованных фонетических вариантах ещё раз подтверждает нашу мысль. Принимая во внимание выше перечисленное, можно сказать, что лексемы quda и kürəkən можно принимать в азербайджанских диалектах, как кыпчакские элементы. Нужно отметить, что исследуемые лексемы по частоте своего употребления распространились именно в тех диалектах азербайджанского языка, где особо чувствуется кыпчакское влияние.

Ключевые слова: тюркский, диалект, язык, родство, термин

Ассоциации связанные с некоторыми понятиями иногда ведут нас в самое далекое прошлое. Во время анализа термина dayı, который означает дядю с материнской стороны, следы нас повели в матриархальный строй древности. При сравнительно-историческом анализе выясняется, что слово во

всех письменных памятниках и в современных тюркских языках означает именно дядю с материнской стороны.

Словарь Махмуда Кашгарского: tagay;турецкий язык: dayı;киргизский язык: tayake,taqa:узбекский язык: toqa; карлукское наречие: toga;гагаузский язык: dayka;язык тюрков, проживающих в Казахстане: tayi;сарыг югорский: ta-ye; казахский язык: tağa

Этот список можно продолжить относительно всех тюркских языков. Только в караногайском говоре ногайского языка, входящего в кыпчакскую группу. В фонетическом варианте tawkey слово означает мать.

Известно, что в морфологии тюркских языков категория пола не нашло место. Анализ родственных терминов показал, что половое различие не нашло место и в лексическом пласте. В семейной иерархии тюркской общины даже понятие брата и сестры различалось по возрасту, но никак не по полу. Но со временем, особенно с приходом ислама всё более и более чувствуется дифференциация между полами в древнетюркском обществе. Дифференциация полов в обществе создает новое отношение к существующим фактам. Конечно, новшество приводило к потребности к новым терминам. Язык за счёт своих внутренних ресурсов начал заполнять пустоту. Слова, означающие некоторые родственные термины, согласно ассоциациям, возникающим при этом, начались пользоваться в новой концепции. В данном случае слово, означающее мать, постепенно начало означать её родственников, особенно мужского пола. Отметим кстати, что в турецком литературном языке ещё крепко сохранилось древняя тюркская система в семейной иерхахии – различать братьев и сестер не по половому, а возрастному признаку.

Изменения в обществе влияли и на лексику тюркского языка. Появлялось пустота в терминах, обозначающих различные полы. Язык за счет внутренних ресурсов наполняет пустоту. Термины – синонимы, обозначающие раньше старших или младших в семье, уже начинают различаться по половому признаку. Но в языке всё оставляет свои следы. Порой один и тот же термин в азербайджанских диалектах выражает различные полы. Например, в дербентском и кубинском диалектах термин aba, может означать и отца и мать или бабушку. Сравним:

Отец	Мать
Гедебек, Куба, Ордубад, Зенгилан	Джебраил, Кахи, Шемкир

Как видно из примеров, даже не важен ареал распространения слова, чтобы оно означало разные полы. Дело в том, что территориально близкие регионы, как, Ордубад, Зенгилан, Джебраил не совпадают по значению. Также вызывает удивление, несовпадение фактов в таких близких городах, как Шемкир и Гедебек. Можно также отметить и термин abay, который тоже сохраняет в себе способность выражать разные полы. Сравним:

Дербент	Шеки, Кахи	Чувашский язык

Бабушка, дедушка лезгинка мать, тетя

Выясняется, что противоречивое выражение полов одним и тем же словом мы наблюдаем в одном том же диалекте. В дербентском диалекте слово означает и мужчину, и женщину. То же самое можно сказать и о термине akka. В некоторых тюркских языках слово означает родственника женского пола. В кюрдамирском говоре азербайджанского языка, как и в татарском языке, оно выражает или старшего брата, или отца.

Исследователь чувашского языка Ахметьянов отмечает : « Слова керу, хер, арам, ар, ывал отличаются от своих общетюркских параллелей(ср. татарский кийэу, кыз, аус, ир,ул) лишь особым чувашским звучанием; остальные термины отличаются от своих параллелей в других тюркских языках, как звучанием, так и измененным значением. При этом характерно, что корни, в других языках означающие лиц женского пола, в чувашском означают мужчин и наоборот: чув. апа «бабушка», в древнетюркском аба старший брат; чув. ача «отец», др.тюркский «старшая сестра, мать»; чуваш. акка «старшая сестра», др.тюркский ака/ага «отец, брат»; и т.д.» (6, s.140)

Из всего вышеуказанного выходит, что выражение различных полов одним и тем же термином характерно не только для азербайджанских диалектов, но и для всех тюркских языков.

И порой, встречающиеся в азербайджанских диалектах, и вообще в тюркских языках, выражение различных полов одним термином следы исторической смены матриархата патриархатом.

Интересен факт рапространения термина, означающего мужа дочери и сватов.

Сравним:

göm (Дербент); giyo\giyov (Куба); kumkursi-приданное (Дербент); gəv\ gev\giyəv\ciyəv (Шару, Нахичевань, Зангелан); gəyəv (Джебраил); göv (Баку); göyüm (Закатала) ;

турецкий яз.: damat-зять; güvey-зять; dünür-кума; görümcə-муж сестры;

чувашский язык: kerü (зять);

татарский язык: kiyəü (зять);

узбекский язык: намаганский говор: küevənavkar, kiyoonokeri -группа родственников и друзей жениха, приходящая за невестой;восточные диалекты: kuyev, kudaa -кума;кыпчакские диалекты: jezdə-муж сестры, kuda-свекорь, ku-danay -свекровь;карлукское наречие: kuyov-зять;ойротский язык: koltı -жених и невеста; kuye-зять;тувинский язык:тоджинский диалект.: kada-свекровь;якутский язык : kütüö \kütüət\kütüömə -старший зять по отношению к младшему шурину;хакасский- köyöü-зять;казахские диалекты в Узбекистане: küdandalı, kuda anda – кума; язык тюрков в Казахстане: qörüm-золовка, eniştə-муж сестры;казахский язык и его диалекты- kudağay//kudaği – кума;гагаузский

язык: qüvəə-жених, kürəkən, dünür – кума; карачай-алкарский и его диалекты: küyev//kijev -зять

Мы попытались найти данные термины в письменных источниках. В Орхон -Енисейских памятниках слово встречается, как kunçuyım в значении - моя жена и küdəqü в значении зять (13, s.28). В словаре Махмуда Кашгарского слово втсречается, как küden в значении свадьбы . В « Китаб-и дедем Коркуд» , как göygü в значении зять.

Как видно из примеров в некоторых диалектах и говорах данные лексемы или , вообще, не в употреблении, или же встречается с открытыми негубными гласными: gəv, gəyəv. Что, конечно, фонетический показатель огузского типа языков. Интересно проследить линейное убывание термина на карте Азербайджана. Чем больше лексемы продвигаются на юг, тем меньше становится частота их употребления. В южных диалектах необразованное поколение старше 50-ти не понимает значение данных терминов родства. Так как, именно, в южных диалектах сильно чувствуется огузское влияние.

Литература

1) Алиев Ф, Очерки по лексике языка турок Казахстана. Алма-Ата, Наука,1978, 100 с.
2) Амансарыев Б. Лексико-семантические и словообразовательные характеристики лингвистических терминов туркменского языка. Ашхабад 1986, Автореф.дис...канд.филол.наук,кан
3) Ареальные исследования по Башкирской диалектологии и ономастике Башкирии. Уфа, Китап, 1988, 264 с.
4) Арсланов Л.Ш. Характерные особенности татарских говоров Волгоградской, Астраханской областей и Ставропольского края. Казань, Наука, 1982, 300 с.
5) Атамирзаева С. Экспериментально-фонетическое исследование наманганского говора узбекского языка. Ташкент, Наука, 1974, 342 с.
6) Ахметьянов Р. Исследования по диалектологии и истории татарского языка. Москва, Наука,1980, 103 с. Ахметьянов Р. Общая лексика духовной культуры народов Среднего Поволжья. Москва, Наука, 1981, 199 с.
7) Ахметьянов Р.Г. Сравнительное исследование татарского и чувашского языков. Москва, Наука, 1978, 245 с.
8) Ахтямов М. Словарь омонимов башкирского языка. Уфа, Башкирское Книжное Издательство, 1966, с.136
9) Баскаков Н.А. Язык прииссыккульских уйгуров. Алма-Ата, Наука, 1978, 47 с.
10) Баскаков.Н.А Тюркские языки. //Языки народов СССР. Москва, 1966, 324 с.

11) Карачаево - балкарско – русский словарь. Москва, Русский язык, 1989, 817 с.
12) Малов С.Е. Енисейская письменность тюр (Руссо, 2013)ков. Ленинград, Издательство АН СССР,1952, 115 с.
13) Малов С.Е. Уйгурский язык. Москва, Наука, 1954, 278 с.
14) Kamal Abdulla. Sirr içində dastan və yaxud gizli Dədə Qorqud. Bakı, Elm, 1999, 304 s.
15) Kaşğari Mahmut. Divanü Lügatit Türk, Türçe çeviren ve düzülümü Serap Tuba ve Seçkin Erdi. İstanbul, Kabalcı, 2007, 717 s.

İ.Qurbanova

Türk dillərinin bəzi dialektlərində qohumluq terminlərinin müqayisəsi

Xülasə

Məqalədə türk dillərinin müxtəlif dialektlərində qohumluq terminləri araşdırılır. Araşdırma müqayisəli- tarixi metodla aparılmışdır. Tədqiqata statistik məlumatlar da daxil edilmişdir. Bu terminlərin türk dillərinin dialektlərində istifadə tezliyinin eyni olmadığı aşkar edilmişdi. Bəzi dialektlərdə 50 yaşdan yuxarı bir nəsil, ümumiyyətlə, bu və digər terminin mənasını anlamır. Arşadırmanın nəticəsində dialektlərin xalqların və onların dillərinin tarixinin güzgüsü olaraq qaldığı qənaətinə gəlinmişdi. Bu və ya digər qədim türk tayfa dilinin dialekt qruplarına təsir artdıqca bir çox terminlərin istifadəsi tezliyi də dəyişir.

Məsələn, nigahdan sonrakı əlaqəni ifadə edən terminlər: quda və kürəkən. Fərqli fonetik variantlarda söz ən qədim dövrlərdən bəri istifadə olunur və postnuptial qohumluq əlaqələrini ifadə edir. Ancaq görünür, türk tayfa dillərinin inkişafında hansısa mərhələdə söz Oğuz qrupunda tədricən istifadədən çıxmağa başladı. Lakin qıpçaq dillərində inkişaf davam edir. Labiyallaşdırılmış fonetik variantlarda işarədən istifadə tezliyi fikirlərimizi bir daha təsdiqləyir. Yuxarıda göstərilənləri nəzərə alsaq, Azərbaycan ləhcələrində qıpçaq elementləri kimi quda və kürəkən leksemləri qəbul edilə biləcəyini söyləmək olar. Qeyd etmək lazımdır ki, tədqiq olunan leksemlər, istifadə tezliyi baxımından, qıpçaq təsirinin xüsusilə hiss olunduğu Azərbaycan dilinin dialektlərində daha çox yayılmışdır.

Açar sözlər: türk, dialekt, dil, qohumluq, termin

I.Gurbanova

Comparison of kinship terms in some dialects of Turkic languages

Summary

The article explores the terms of kinship in different dialects of Turkic languages. Comparison was carried out by a comparative historical method. The study also involved statistical data. It was found that the frequency of use of these terms in the dialects of the Turkic languages is not the same. In some dialects, a generation older than 50, in general, does not understand their meaning. It was concluded that dialects remain a mirror of the history of peoples and their languages. As the influence on the dialect groups of one or another ancient Turkic tribal language increases, the frequency of the use of many terms changes. For example, the terms denoting postnuptial relationship: quda and kürəkən, in the literary language mean son-in-law and kumu.

The word in different phonetic variants has been in use since the most ancient times and meant postnuptial kinship ties. But apparently at some stage in the development of Turkic tribal languages, the word gradually began to go out of use in the Oguz group. But in Kypchak languages it continued to develop. The frequency of using the token in labialized phonetic variants once again confirms our idea. Taking into account the above, it can be said that the lexemes quda and kürəkən can be accepted in Azerbaijani dialects as Kipchak elements. It should be noted that the studied lexemes in terms of their frequency of use have spread precisely in those dialects of the Azerbaijani language where Kypchak influence is especially felt.

Keywords: Turkic, dialect, language, kinship, term

Redaksiyaya daxil olma tarixi: 20.09.2019
Çapa qəbul olunma tarixi: 14.11.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Xatirə Yusifova tərəfindən çapa tövsiyə olunmuşdur

AMALİYA PAŞAYEVA
BDU-nun Şərqşünaslıq fakültəsi, İran filologiyası kafedrası
e-mail:amalya_p@mail.ru

HİND-İRAN DİLLƏRİNDƏ SONQOŞMA SİSTEMİ

Xülasə

Müasir hind-İran dillərində sonqoşmalar önqoşmalara nisbətən daha fəal funksiya daşıyır və onların inkişaf tarixinin izlənməsi də dilçilik baxımından olduqca maraqlıdır. Məqalədə hind-İran dillərində sonqoşmaların inkişaf tarixi izlənmiş, müasir dillərdə onların işlənmə mövqeyi, önqoşmalara münasibətinə diqqət yetirilmişdir. Məlum olmuşdur ki, sonqoşmalar tədqiq olunan dillərdə olduqca aktivdir və onlar morfoloji funksiya daşımaqla yanaşı, bir sıra sira sintaktik funksiyalara da malik olurlar. Bu dillərdə sonqoşmalar özündən əvvəlki adla idarə olunan köməkçi sözlərdir, idarə olunan sözdən sonra dayanır və onlarla sintaktik əlaqədə olurlar. Sonqoşma ismin və ya əvəzliyin cümlədə başqa bir sözə olan münasibətini bildirən sözlərdən ibarət olur və bir sonqoşma bir neçə adı (isim, sifət, əvəzlik və ya say) idarə edəndə, bütün bu adlar əsas vasitəli formada çıxış edirlər. Sonqoşma isə yalnız bir dəfə - o da addan qabaq tətbiq olunur.

Bir sonqoşma ilə idarə olunan çoxsaylı sözlər sayıldıqda bu sonqoşma daha çox ifadəlilik üçün bu söz qrupunun yalnız sonunda deyil, həm də əvvəldə birbaşa birinci sözdən sonra gələ bilər.

Açar sözlər: sonqoşma, önqoşma, İran dilləri, urdu dili, köməkçi sözlər

Giriş. Müasir hind-İran dillərində sonqoşmalar önqoşmalara nisbətən daha fəal funksiya daşıyır və onların inkişaf tarixinin izlənməsi də dilçilik baxımından olduqca maraqlıdır.

1. Hər bir önqoşma kimi sonqoşma da hal valentliyinə, başqa sözlə hansı hallarda obyektlərin sintaktik ağacda yer ala biləcəyinə dair məlumatlara malik olur. Bu qrammatik xüsusiyyət sonqoşmaları ədat və zərflərdən fərqləndirir. Ədatlar da tez-tez sözün sonunda gələn mövqedə ola bilirlər, lakin onlar həmişə sintaktik ağacda tabe element olur və özünə digər sözləri birləşdirə bilmirlər. Zərflik nisbətdə obyektləri birləşdirə bilir, lakin bu, yalnız yiyəlik halda işləndiyi və müqayisə ifadə etdiyi təqdirdə baş tutur. Beləliklə, hal valentliyi çoxluğu və söz birləşmələrində xüsusi mövqeləri sonqoşmaları xüsusi nitq hissələrinə aid etməyə imkan verir.

Sonqoşmalar elə köməkçi sözlər qrupuna aid edilir ki, situasiyanın iştirakçısı olan predmetin bütün bu situasiyaya münasibətini ifadə etmiş olsun. Sonqoşmalar ad qrupundan sonra gələn önqoşmalar kimi qəbul olunur. Hind-Avropa, Qafqaz dilləri kimi

müxtəlif quruluşlara malik olan dillərə məxsus bu və ya müəyyən anlayışların ifadəsi üçün müxtəlif dil vasitələrindən istifadə olunur. Müxtəlif dillərə məxsus qrammatik konstruksiya sistemləri də çoxsaylı xüsusiyyətlərə malik olurlar. Bir çox dillərdə sonqoşma terminindən istifadə olunmur. Buna səbəb həmin dillərdə sonqoşmaya rast gəlinməməsidir və buna görə də bütün sonqoşmalar qoşma adı altında təhlil olunur. 1990-cı ildə M. Xaspelmat önqoşma və sonqoşma üçün ümumi termin – hiperonim tətbiq etməyi təklif edir və "adposition" terminini irəli sürür. Bu terminin rusca qarşılığı "прилог" olaraq müəyyənləşir (4, s. 25). Rus dilində əksər hallarda eyni sözlər həm önqoşma, həm sonqoşma kimi çıxış edə bilirlər. Dilçilikdə sonqoşma anlayışının, əsasən, türk, fin-uqor, iber-qafqaz, yapon və bir sıra digər dillərdə istifadə edilməsi qəbul olunmuşdur və bu sıraya rus dili daxil deyildir. Bu dillərdə sonqoşmalarla həyata keçən funksiyalar rus dilində önqoşmalarla ifadə olunur. Məlum olduğu üzrə, rus dilində önqoşma adətən idarə etdiyi ad qrupundan əvvəldə dayanır. Bütün qrammatika və dərsliklərdə önqoşmalara xüsusi bölmə ayrılmışdır, lakin akademik qrammatikalarda, eyni zamanda əsas universitet dərsliklərində sonqoşma anlayışı, o cümlədən "sonqoşma" terminindən istifadə olunmur, hətta adı belə xatırlanmır. Rus dilində yalnız bəzi ayrı-ayrı nəşrlərdə önqoşmaların postpozisiya kimi işlənməsi nümunələrinə rast gəlinir: дружбы ради, рассудку вопреки və s.

Sonqoşmalardan daha çox danışıq dilində istifadə olunur. Rus dilində ради önqoşmasından bəzən sonqoşma kimi də istifadə olunduğunu qeyd edən tədqiqatçılar (христа ради, потехи ради və s.) *radi qoşmasının tarixən protoslavyan dilində məhz sonqoşma kimi işləndiyi qənaətinə gəliblər. Məhz buna görədir ki, bu günə qədər hələ də həm də sonqoşma kimi işlənən sözlərə rast gəlinir: ради, подряд, спустя, назад və s. Lakin sonqoşmalar birmənalı olaraq rus dilinə xas dil vahidləri deyillər.

2. Hind-Avropa dillərində önqoşma / sonqoşma problemi olduqca problemli məsələdir. Bu məsələyə adətən söz sırası aspektindən yanaşırlar. U. F. Zeman belə güman edirdi ki, Hind-Avropa pradilində yalnız sonqoşmalar mövcud idi və bildirir ki, bu qaydanın izi xett dilində saxlanılmışdır (7, s. 283). Hind qrupu həm də ari və ya hind-ari qrupu adlanır. Bu qrupa daxil olan dillərdə hindavropalılar danışırdılar. E. ə. 1500 il əvvəl Hindistan ərazisini istila edən hind-avropalılar yerli əhalini sıxışdırırlar, lakin eyni zamanda onlarla antropoloji cəhətdən qarışırlar. Tarixi hadisələrin gedişatında veda dili ilə sanskrit dili birləşib ümumi anlayış altında qədim hind dili adlanması ilə nəticələnir.Bütün Hind-İran dillərindən İran dilləri hind dillərinə ən yaxın olandır. Ona görə bir çox alimlər belə güman edirlər ki, tarixən hind-iran dil ümumi birliyi mövcud olmuşdur.

Hind-Avropa dilləri ailəsinə daxil olan urdu dilində sonqoşmalar ismi əvəzləyirlər. Onlardan bəziləri isimlə birləşirlər. Urdu dilində önqoşmalar yoxdur. Lakin urdu dilində elə dil vahidləri vardır ki, önqoşmalarla eyni funksiyanı yerinə yetirirlər və onlar sonqoşmalar adlanırlar. Urdu dilində sonqoşmalar bütün sintaktik vəzifələri ye-

rinə yetirirlər. Sonqoşmalar isim, sifət, əvəzlik, məsdər, bəzən də zərflərlər işlənərək onların cümlədə digər sözlərlə sintaktik münasibətini ifadə edir.

Urdu dilində sonqoşmalar sadə və mürəkkəb olmaqla iki yerə bölünür. Sadə sonqoşmalara کا (ka), کو (ko), سے (se), مین (men), پر (par) və digərləri aiddir.

”کا sonqoşması (kişi cinsi, cəm hal کے) adyektiv \ subyektiv sonqoşması xindi dilində ən çox istifadə olunandı. Onun əsas funksiyası aid olduğu sözü subyektiv adyekləşdirmədir, yəni ona sifətin mənasını verməkdir. Onun vasitəsilə təkcə adlar deyil, eyni zamanda məsdərlər, zərflər və bütünlüklə ifadələr adyektivləşir. Bu yolla yeni məna qazanan sözlər rus dilinə sifət kimi tərcümə olanlar və ya təsvir üsulla verilmirlər” (5, s. 210).

Mürəkkəb sonqoşmalara کا sonqoşmasının digər nitq hissələri ilə birləşməsi aiddir və bu sonqoşma özündən sonra gələn sözlə cinsə görə uzlaşır.

Urdu dilində fars dilindən alınmalarla zəngin olduğundan, azsaylı istisnalara rast gələ bilərsiniz. Farslar isə önqoşmalardan istifadə edirlər. را sonqoşması klassik fars dilində yönlük hal mənasında, yiyəlik funskiyasında çıxış etmişdir. A. Kərimov qeyd edir ki, klassik fars dilində از قضا / از اتفاق və bu kimi birləşmələrdə hansı qoşmanın işlənə bilməsi üçün xüsusi bir qayda olmamışdır (1, s. 121).

V. S. Rastorquyeva qeyd edir ki, səbəb və məqsəd ifadə edən qədim “radiy” sonqoşması bəzi tacik şivələrində “ra” nadir hallarda “ro” şəklində saxlanılmışdır. “Ra” ilə yanaşı həmin şivələrdə eyni mənada “a” sonqoşması da işlədilir. Bu kimi sonqoşmalardan bu və ya digərinin seçimi həmişə sırf fonetik səbəblərlə bağlıdır. Bu vəziyyət düşünməyə əsas verir ki, “a” sonqoşması “ra” sonqoşmasının bir variantıdır və müəyyən mövqedə (samitlərdən sonra) ilk səsini (r) itirmişdir. Sonrakı inkişaf gedişini şimal şivələri göstərir, buşivələrdə “a” sonqoşmsı işlənir (8, s. 116).

Maraqlı cəhətlərdən biri də budur ki, “radiy” qoşması Avesta və qədim İran dillərində də demək olar ki, eyni formada və mənada işlədilmişdir. Bu barədə danışarkən S.Sokolov – radiy /rādi/ - qoşmasının “ötrü”, “görə” mənasında işləndiyini qeyd edir. Alimin fikrincə, Avestada olduğu kimi, qədim fars dilində də bir çox önqoşmalar sonqoşma kimi də işlənir (10, s.256). Talış dilində -ro sonqoşmasından danışarkən tanınmış iranşünas alim B.Miller yazır: “-*ro* -nun etimologiyası məlumdur. Qədim fars *radiy,* orta fars *rāy*, müasir fars *ra*. Talış dilində -*ro* orta fars dilində olduğu kimi “ötrü”, “görə” mənasını vermək üçün işlədilir” (11, s.79). Ümumiyyətlə, müasir İran dillərində önqoşmalar sonqoşmalara nisbətən az işlənir. Gilan dilindən danışarkən, tədqiqatçılar bu dildə önqoşmaların sintaktik münasibətlərdə bir çox hallarda həm sayına görə, həm də öz işlənməsinə görə sonqoşmalara uduzduğunu qeyd edirlər (12, s.182).

İngilis dilində önqoşmalardan obyektlərin bir-birləri ilə məkani münasibətlərinin ifadə etmək üçün istifadə edilir. Digər sözlərlə birləşərək elə önqoşmalı ifadələr yaradılır ki, bizə nəyinsə harada və hansı şərtlərdə baş verə biləcəyi haqqında məlumat verir. Sual oluna bilər ki, niyə ingilis dilində önqoşmalar var, urdu dilində isə sonqoşmalar? Cavab bundan ibarətdir ki, bu, təyinedicinin (önqoşma / sonqoşma) məkan

mənalı isimdən - məkana və ya xüsusi fəzaya işarə edən isimdən əvvəlki yerindən asılıdır.

V. A. Koçerqina bildirir ki, önqoşmalar və sonqoşmalar eyni qrammatik funksiyaya malikdirlər, onlar nitq fəaliyyətində halların, hal formalarının mənalarını dəqiqləşdirərək sözlər arasında münasibətləri ifadə edir. Beləliklə də, önqoşmalar və sonqoşmalar məkan, zaman, məqsəd, səbəb, sahiblik, obyekt münasibətlərini ifadə edir və nəhayət istiqamət bildirir" (6, s. 120).

Sonqoşmaların bir sıra mənaların ifadə olunmasında rolu əksər dillərdə müşahidə olunur. Fars dilində zaman və məkan münasibətlərinin ifadə olunmasında qoşmalar aktiv rol oynamaqdadır. "Əşyaların müxtəlif mövqelərdə yerləşməsi fars dilində əsasən qoşma və qoşma kimi işlənən sözlərlə ifadə olunur. Beləliklə də, qoşmalar fars dilində məkan münasibətlərinin ifadə olunmasında iştirak edən əsas qrammatik vasitələrdən biri kimi çıxış edir. Qoşmalar fars dilində bir çox mənanın ifadə olunmasında iştirak etsə də, məkan münasibətlərini bildirən qoşmalar sayca digərlərindən daha çoxdur" (2, s. 116). را sonqoşmasının zaman münasibətlərinin : " را sonqoşmasının zaman bildirməsi daha çox klassik fars dili üçün xarakterik olsa da, müasir dildə hələ də əvvəlki işləkliyə malik olmasa da, را-nın belə işlənməsinə bəzi məqamlarda rast gəlinir. Qədim fars dilində zaman mənası را sonqoşmasının ən işlək mənalarından idi. Bu sonqoşma در önqoşması funksiyasının daşıdıqda, zaman mənasında çıxış edir" (3, s. 64).

Sonqoşmaların məkan anlayışının ifadə olunmasında rolu yalnız Hind-İran qrupuna daxil olan dillərdə deyil, digər dil qruplarında da müşahidə olunur. Qafqaz dillərinin Nax-Dağıstan dilləri qrupuna daxil olan lak dilində məkan münasibətlərinin sonqoşmalarla ifadə olunmasından yazan Ə. Rəşidova yazır: "Dilin tarixi inkişafı prosesində məruz qaldığı dəyişikliklər və müəyyən variasiyalar hesabına lak dilində sonqoşmalar affiksləşə bilirlər və yalnız postpozisiyada istifadə olunurlar. Hal suffikslərinə çevrilmiş bu məkan anlamlı sonqoşmalar müasir lak dilində formal ədatlar kimi düşünülür, müstəqillikdən məhrum olunurlar və beləliklə, öz növbəsində məkani halların yaranmasında iştirak etmişlər. Dağıstanın digər dağ dillərində olduğu kimi, məkani hal formalarının işlənməsi getdikcə azalır, onların hesabına sonqoşmalı ifadələr inkişaf edir. Lak dilində məkani hal formalarının məkani anlayışların normal ifadə metodu kimi istifadəsi mövcuddur və yalnız ikinci yerdə sonqoşmalı birləşmələr dayanır" (9).

C. Qrinberq tamamlıq və xəbərin yerləşmə yerinə əsaslanaraq OV (object &verb - tamamlıq və xəbər) və VO (verb &object - xəbər və tamamlıq) tipoloji terminini təyin etmiş və OV-nin sonqoşmalı, VO-nın önqoşmalı dillərə uyğun gəldiyini bildirir (7, s. 283). P. Fridrix Hind-Avropa pradilində VO söz sırasının mövcud olduğunu nəzərə alaraq belə hesab edir ki, bu dil önqoşmalarla xarakterizə olunur (yenə orada).

Xett dilində müşahidə olunan -i və -re kifayət qədər arxaikdir. Bundan başqa, bir çox klitiklər tam mənalı sözün həm önündə, həm də sonunda dayana bilər. -re elementi də tez-tez yerini dəyişən element olmuşdur. Önşəkilçi qismində o, qayıdış hə-

rəkatına işarə edir, postpozisiya hissəcik qismində feilin orta mənasına işarə edir. Başqa sözlə, əvəzlikdə olduğu kimidir. Klitiklərin yerləşdiyi yerdən asılı olaraq onların ifadə etdiyi mənada müxtəliflik mövcud olur. Anoloji nümunələrə italyan dilində də rast gəlmək olar.

Sonqoşmalar özündən əvvəlki adla idarə olunan köməkçi sözlərdir, idarə olunan sözdən sonra dayanır və onlarla sintaktik əlaqədə olurlar. Sonqoşma ismin və ya əvəzliyin cümlədə başqa bir sözə olan münasibətini bildirən sözlərə deyilir.

Bir sonqoşma bir neçəadı (isim, sifət, əvəzlik və ya say) idarə edəndə, bütün bu adlar əsas vasitəli formada çıxış edirlər. Sonqoşma isə yalnız bir dəfə - o da addan qabaq tətbiq olunur.

Bir sonqoşma ilə idarə olunan çoxsaylı sözlər sayıldıqda bu sonqoşma daha çox ifadəlilik üçün bu söz qrupunun yalnız sonunda deyil, həm də əvvəldə birbaşa birinci sözdən sonra gələ bilər.

Nəticə olaraq qeyd etmək lazımdır ki, önqoşmalar və sonqoşmalar Hind-İran dillərində, o cümlədən urdu dilində xüsusi əhəmiyyətə malikdir və onların öyrənliməsi, dilçilik baxımından olduqca əhəmiyyətlidir.

Ədəbiyyat

1.Kərimov A. R. Hal münasibətlərinin fars dilində ifadə vasitələri. Bakı: Adiloğlu, 2006, 244 s.

2.Orucova G. M. Məkan münasibətlərinin qoşmalar vasitəsilə ifadə olunması // Şərq filologiyasının aktual problemləri mövzusunda respublika elmi konfransı, 2011, s.115-118

3.Orucova G. M. Zaman münasibətlərinin qoşmalarla ifadə olunması // Dil və ədəbiyyat, 2010, 5 (76), s. 61-65

4.Haspelmath M. The grammaticization of passive morphology \\ Studies in language, 1990, №14, p. 25-72

5.Баранников А. П.,Баранников П. А. Хиндустани (хинду и урду), Москва: Издательство литературы на иностранных языках, 1956, 240 с

6.Кочергина В. А. Введение в языковведение. Москва: МГУ,1979, 206 с.

7.Красухин К. Г. Введение в Индоевропейское языкознание, Издательский центр Академия, 2004, 320 с.

8.Расторгуева В. С., Опыт сравнительного изучения таджикских говоров, Москва: Наука, 1964, 187с.

9.Рашидова А. Г. Выражение пространственных отношений послелогами и падежной системой лакского и английского языков // Дагестанский государственный педагогический университет, 2010. https://cyberleninka.ru/article/n/vyrazhenie-prostranstvennyh-otnosheniy-poslelogami-i-padezhnoy-sistemoy-lakskogo-i-angliyskogo-yazykov/viewer

10. Соколов С. Н. Древнеперсидский язык. // Основы иранского языкознания. Древнеиранские языки. Москва: Наука, 1979, 388 с.
11. Миллер Б.В. Талышский язык. Москва: Из. Акад. Наук, 1953, 268 с.
12. Гилянский язык. Москва: Наука, 1971, 320 с.

А.Пашаева

Система послеслогов на индоиранских языках

Резюме

В современных индоиранских языках послеслоги выполняют более активную функцию, чем их предшественники, и их история развития также очень интересна с лингвистической точки зрения. В статье прослеживается история развития послеслогов в индоиранских языках с акцентом на развитие и отношение последних к предлогам в современных языках. Было обнаружено, что послеслоги достаточно активны в исследуемых языках и имеют ряд синтаксических функций в дополнение к выполнению морфологических функций. В этих языках послеслоги являются вспомогательными словами, которым предшествует имя, которое заканчивается после управляемого слова и синтаксически связано с ними. Послеслог состоит из слов, выражающих отношение существительного или замены к другому слову, и когда существительное управляется несколькими именами (существительное, прилагательное, местоимение или числительное), все эти имена появляются в основной форме. Послеслог применяется только один раз - перед именем.

При подсчете количества слов, контролируемых одним послеслогом, этот послеслог может выступать не только в конце этой группы слов, но и сразу после первого слова, для большей выразительности.

Ключевые слова:послеслог, предлог, иранские языки, урду, вспомогательные слова

A.Pashayeva

The system of postpositions in Indo-Iranian languages

Summary

In modern Indo-Iranian languages, postpositions perform a more active function than their predecessors, and their development history is also very interesting from a linguistic point of view. The article traces the history of the development of postpositions in Indo-Iranian languages with an emphasis on the development and attitude of the latter to prepositions in modern languages. It was found that postpositions are quite active in the investigated languages and have a number of syntactic functions in addition to performing morphological functions. In these languages, postpositions are auxiliary words, preceded by a name that ends after the managed word and is syntactically associated with them. A postposition consists of words expressing the relation of a noun or replacement to another word, and when a noun is controlled by several names (noun, adjective, pronoun or numeral), all these names appear in the main form. The postposition is applied only once - before the name.

When calculating the number of words controlled by one postposition, this postposition can appear not only at the end of this group of words, but also immediately after the first word, for greater expressiveness.

Keywords: postposition, preposition, Iranian languages, Urdu, auxiliary words

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 15.11.2019
Filologiya elmləri doktoru, professor Mehdi Kazımov tərəfindən çapa tövsiyə olunmuşdur

MAYA ŞÜKÜROVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Sukurova.maya@mail.ru

ÜMUMİ DİLÇİLİKDƏ EKSPRESSİVLİK KATEQORİYASI VƏ ONUN ÖYRƏNİLMƏSİ TARİXİNDƏN

Xülasə

İnsanın emosional vəziyyətini ifadə edən dil vasitələri geniş planlıdır və dilin müxtəlif səviyyələrində fərqli miqdarda, fərqli quruluşda mövcuddur. Nitqdə ən aşkar şəkildəki məlumat obyekt və predmetin adında və onunla bağlı xəbərdədir. Emosiyaların hər bir dildə qəbul edilmiş adları vardır. Məsələn, sevinc, kədər, qorxu, nifrət və s. Emosiya hal və vəziyyətlə bağlı olduğundan onların fellə ifadə edilən adları mövcuddur: sevinmək, kədərlənmək, qəhərlənmək, qəmlənmək, qorxmaq, təəccüblənmək və s. Dilin lüğət fondunda belə sözlər kifayət qədər çoxdur. Əgər emosiyanın ifadə edən leksik vahidlərin leksik-semantik sahəsini qursaq, qeyd olunan sözlər emosionallıqla bağlı sözlər toplusunu yaradacaqdır. Müxtəlif nitq hissələrinə aidliyi nəzərə alsaq, emosiya ilə əlaqədar sözlərin, əsasən fel, isim və sifət olması aşkarlanar. Predmet, hal, vəziyyət, keyfiyyət bildirib emosiyaya aid olan sözlər yazılı və şifahi nitqdə emosiyanın göstəricisi kimi çıxış edir. Dildə emosiyanın göstəricisi olan linqvistik vahidlərin mövcudluğu emosionallığın linqvistik statusluğunu ilk təsdiq edən vasitədir. Bununla yanaşı, leksik səviyyədə frazeoloji vahidlərin müəyyən qismi də bilavasitə emosionallıq və ekspressivliklə bağlıdır. Dil sistemində elə söz və ifadələr vardır ki, onlar insanın müəyyən fəaliyyətini bildirir. Belə sözlər bilavasitə emosiyanı adlandırmır. Lakin həmin sözlər emosiyanın fizioloji, psixoloji gerçəkləşməsinin nəticəsi olan hadisələri ifadə edir. Deməli, bu sözlər dolayısı ilə olsa da, emosiya ilə sıx əlaqəlidir. Gülmək, ağlamaq, pıçıldamaq, yalvarmaq, ayağa düşmək, boynunu qucaqlamaq, saçını sığallamaq, başından vurmaq, sözünü kəsmək və s. Göründüyü kimi, dilin emosionallıq sahəsinin hüdudlarını genişləndirən xeyli miqdarda başqa dil vasitələri vardır. Məqalədə ekspressivlik kateqoriyası və onun öyrənilməsi tarixi haqqında kifayət qədər məlumat verilmişdir.

Açar sözlər: emosionallıq, ekspressivlik, dilçilik, ifadəlilik, psixoloji, kateqoriya

"Ekspressiya" latın sözüdür, "ekspressio" ifadəli deməkdir. Ekspressivlik "ifadəlilik", "təsirlilik" kimi anlaşılır. Dilçilikdə ekspressivlik və emosionallıq terminləri çox vaxt yanaşı və müvazi, özü də adətən eyni mənada işlədilmişdir. Hər iki anlayışın əhatə dairəsi və xüsusiyyətləri yalnız son zamanlar tədqiqatçılar tərəfindən dəqiq müəyyənləşdirilmişdir. Məna problemi dilçilikdə ən mürəkkəb problemlərdən biri olub bu vaxta kimi hər tərəfli şəkildə dərindən öyrənilməmişdir. Məna həm insan intellekti, həm də onun emosiyaları ilə əlaqədardır. Mənanın bu ikinci komponenti-

nin ekspressivlik- emosionallıq cəhətdən araşdırılmasının mühüm əhəmiyyəti vardır.

Sözdə əşyavi-məntiqi məna ilə yanaşı ekspressiv – emosional elementlər də mövcuddur ki söz təkcə insandan kənar olan mövcud əşyanı bildirmir, həmçinin arzu və istəkləri də, insanın daxili hiss və həyəcanlarını da əks etdirir.

Doğurdan da, söz çox az halda yalnız fikrin ifadəsi kimi çıxış edir. Adətən başqasının nitqini dinləyərkən danışanın psixoloji vəziyyəti haqqında, onun deyilən fikrə münasibəti haqqında mühakimə yürütmək olar. İnsanın xarici aləmdəki əşya və hadisələrə münasibətinin təzahürü olan daxili hissləri və əhval-ruhiyyəsi müvafiq dil vasitələri ilə realizə olunur. Həmin dil vasitələri dilçilik ədəbiyyatında müxtəlif terminlər ilə əks etdirilir ki, bunlardan ən çox yayılanı və məqbul görüləni ekspressivlik terminidir. Ekspressivlik və emosionallıq anlayışları daxili emosiyaların təzahür tərzi ilə əlaqədar olduğundan psixoloji və məntiqi kateqoriyalarla şərh olunduğu kimi həm də idrak prosesi ilə bağlı olduğu üçün bunların şərhi hissi idrakın linqvistik ifadəsinin müəyyənləşdrilməsində mühüm rol oynayır. Ekspressivlik kateqoriyasının öyrənilməsi problemi dilçilikdə mübahisəli məsələlərdən biri olmuşdur. Belə ki, bu kateqoriya haqqında dilçilərin fikirləri eyni olmamışdır. Nitqin ifadəliliyini yaratmaq, onun təsir gücünü artırmaq yolları hələ qədimdən diqqəti cəlb edən məsələlərdən biri olmuşdur. Nitqin ifadəliliyi- "ekspressiya" daim dilçiləri düşündürmüşdür. Dilçilikdə ekspressivlik nəzəriyyəsinin ilkin elementləri XIX əsirin sonlarında fransız dilçi alimi J.Vandries və digər dilçi alim A.A. Potebniyanın məqalə və monoqrafiyalarında əks olunmuşdur. Onlar ekspressivlik kateqoriyasını "affektivlik" kateqoriyası ilə əlaqələndirirdilər.Ekspressivliyin bir kateqoriya kimi öyrənilməsinə xüsusi maraq XX əsrin ortalarında daha da artdı, bu da ki öz əksini bir sıra dilçi alimlərin (Ş.Balli, E.M.Qalkina və.s) məqalə və monoqrafiyalarında tapmışdır. Yüksək ifadəliliyə malik canlı danışıq dilinin səciyyəvi xüsusiyyətlərini özündə əks etdirən "ekspressivlik" anlayışı çox vaxt bəzi dilçilər tərəfindən "emosionallıq" anlayışı ilə eyniləşdirilir. Bu baxımdan Ş.Balli, J.Vandries, S.Ulman və başqalarının tədqiqatları diqqəti cəlb edir.

Ekspressivlik dilin əsas funksiyası olan kommunikativliklə sıx əlaqədə aşkarlanan, lakin semantik informasiyanı bilavasitə fikir predmetini konnotativ çalarlarla zənginləşdirən kateqoriyadır. Bu fikrə əsaslanaraq demək olar ki, ekspressivlik ötürücünün qəbulediciyə və nitq predmetinə subyektiv baxımdan istiqamətlənmiş emosional çalarlı münasibətidir. Dilçiliyə dair izahlı lüğətlərdə ekspressivlik anlayışı aşağıdakı kimi izah olunmuşdur: "Ekspressivlik" dilin semantik – stilistik aspekti olub kommunikasiya prosesindədanışanın ifadə olunmuş fikrə və ya adresata subyektiv hissi münasibətidir. ([1]ЛЭС, s. 591). Rus dilçi alimi Q.N.Akimova ekspressivliyi "Экспрессиные свойства синтаксических структур" adlı məqaləsində bu cür izah etmişdir: Ekspressivlik üslubi baxımdan ifadəliliyi əks etdirən nitq vasitəsidir." Qeyd etmək lazımdır ki, nitqin ekspressivliyinin müasir konsepsiyasının banisi İsveçrə alimi Ş.Balli hesab olunur. Öz əsərlərində dil ekspressiyasını praktik və nəzəri baxımdan tədqiq edən Ş.Balliyə görə nitq affektivdirsə deməli ekspressivdir. Ş.Balli öz tədqiqatında ekspressivliyi üslubi problem kimi təqdim edir. Bu da təsadüfi deyil-

dir, çünki üslubiyyatın diqqət mərkəzində həmişə danışanın müəyyən ictimai- funksional, yaxud da emosional çalarlığa malik hisslərinin ötürmək üçün vasitələrin seçilməsi qanunauyğunluğu durur. Ş.Balli "emotiv", "affektiv", "ekspressiv" terminlərini işlədərək onları eyniləşdirir. Ş.Balli konsepsiyasında intellektuallıq və affektivlik birbirinə qarşı qoyulan münasibətlərdə təzahür edir. O yazırdı ki, affektivlik fikirlərimizin subyektiv formalarının təbii və spontan təzahürüdür: o bizim həyati hisslərimiz, arzularımız. Qiymətli mülahizələrimizlə qırılmaz surətdə bağlıdır, o gerçəklikdə göstərdiyimiz insanların şəxsi marağının xarici ifadəsidir. ([2]Ch.Balli, s 113). Görkəmli rus dilçisi akademik V.V.Vinoqradov da öz tədqiqatlarında ekspressivlik və emosionallıq məsələlərinə toxunmuş vəhər iki ifadəni fərqləndirmədən onların ayrılmaz olduğunu qəbul edir. ([3]V.V.Vinoqradov 117) Praqa dilçilik məktəbinin nümayəndəsi V.Matezius da eyni fikri bildirərək ekspressiyanı "danışanın daxili vəziyyətinin ifadə edilməsi" kimi başa düşürdü. Ekspressivliyi emosionallıqla eyniləşdirən digər rus dilçi alimi A.M.Kotov yazır: "Emosionallıq dildə ekspressivlik şəklində əks olunan ekstralinqvistik kateqoriyadır, başqa cür desək, ekspressiv nitqmüəyyən emosional vəziyyətdə olan insana xasdır." Bir sıra xarici dilçilərin tutduğu mövqeyə əsasən ekspressivlik qiymətləndirmə, intensivlik, obrazlılıq, hətta inkarlıq kateqoriyaları ilə eyniləşdirilmişdir. Təbiidir ki, bunlar biri digərini şərtləndirən və bir – biri ilə sıx surətdə baglı olan kateqoriyalardır, lakin onları eyniləşdirmək olmaz. Ekspressivlik və obrazlılıq anlayışları arasındakı fəeqdən bəhs edərkən demək olar ki, hər ekspressiv nitq obrazlı olmur, lakin hər hansı bir obrazlı nitq ekspressivdir, çünki ifadəlilik ekspressiv nitqin əsas keyfiyyətlərindən biridir və obrazlılıq ekspressivliyin əsas məna komponentlərindən biridir. Ekspressivlik həmçinin intensivliklə də eyniləşdirilmişdir. Sözün əks etdirdiyi hadisənin kəmiyyət və keyfiyyət baxımından qiymətləndrilməsini bildirən, bu hadisənin dərəcəsini, miqdarını göstərən məna intensivlik hesab olunur. Espressiv işarə referentin kəmiyyət və keyfiyyət səciyyəsini əks etdirdikdə intensivlik meydana çıxır. İntensivlik həmçinin ötürücünün emosional vəziyyətini, onun söylənilən fikrə münasibətini də bildirir. Bir sıra dilçilər isə ekspressivlik və emosionallığı inkarlıq kateqoriyası ilə də eyniləşdirirlər. Bu dilçilərdən V.V.Vinoqradov, Q.Svit, A.M.Peşkovski kimi klassik dilçilərin təsiri altında inkarın təsdiqə nisbətən daha emosional xarakterə malik olduğunu qeyd edir, psixoloji anlamı əsas götürərək inkarlığı affektiv kateqoriya kimi tədqiq edirlər. Bir çox tədqiqatçılar ekspressiv dil vahidlərinin dəqiq bir sərhədi olmadığını göstərirlər. Bəzi dilçilər bu kimi sözlərin miqdarının çox az olduğunu irəli sürsələr də başqaları əksinə, dilin lüğət tərkibini təşkil edən sözlərin az qala hamısının ekspressiv sözlər fondu olduğunu iddia edirlər. Lakin dilin lüğət tərkibinin neçə faizinin emosional – ekspressiv söz və ifadələrdən ibarət oldugu, onun tərkibi və hüdudu haqqında təssəvvür oyadan əsərlər kifayət qədər deyildir. Bu sahəyə həsr olunmuş tədqiqat əsərlərini şərti olaraq iki qrupa bölmək mümkündür. Bir qrup əsərlərdə ekspressiv leksika ayrıca söz qrupu kimi öyrənilirsə, digərində müəyyən sahəyə məxsus vahidlər kimi və ya dilin müəyyən kateqoriyası kimi nəzərdən keçirilir.

T.Əfəndiyevanın mülahizələrinə əsasən emosionallıq və ekspressivlik yüksək keyfiyyətə malik canlı danışıq dilinin xüsusiyyətləridir. Həmin keyfiyyəti özündə daşıyan sözlər dilin ən parlaq, ən təsirli nitq vahidləridir. Göründüyü kimi, külli miqdarda dilçilik ədəbiyyatında "emosionallıq" və "ekspressivlik" haqqında dilçilərin yürüdülmüş mülahizələrini ümumiləşdirdikdə belə qənaətə gəlirik ki, söylənilən fikirlərdə vahidlik yoxdur. Bu problemin kifayət qədər öyrənilməməsi "ekspressivlik" anlayışını ifadə edən terminologiyanın da dəqiq olmamasına səbəb olmuşdur.

Ədəbiyyat

1. ЛЭС, s. 591.
2. Ch.Balli, Expressiveness and emotionality in linguistics. s 113
3. V.V.Vinoqradov. Стилистика. Теория поэтической речи. Поэтика. s. 117
4. J.Ginneken, Nitqin ifadəliliyi. s 199-205
5. S.Abdullayev. Dilçilikdə ekspressivlik və emosionallıq. s10-11
6. A.İ.Yefimov. Экспрессиные свойства синтаксических структур. s.46-48
7. D.S.Pisarev. Ekspressivlik və emosionallıq. s. 121
8. T.Əfəndiyeva. Azərbaycan dilinin leksik üslubiyyatı. s. 170

M.Shukurova

Expressiveness category in general linguistics and its study history

Summary

Language tools that express the emotional state of a person are broadly planned and are available at different levels of language and in different structures. The most obvious form of information in the speech is the name of an object and its associated information. Emotions have names in each language. For example, joy, sadness, fear and so on. As emotion is linked to situations, they have names that are common to each other: joy, sadness, anger, worry, fear, surprise, and so on. There are many such words in the dictionary of a language. If we construct the lexical-semantic field of lexical units expressing emotion, these words will form a set of words related to emotion. Given the different parts of speech, it is found that emotion-related words are primarily verbs, nouns, and adjectives. Words related to the subject, condition, quality, and emotion are written and act as an expression of emotion in oral speech.

The presence of linguistic units, which is an indication of emotion in the language, is the first to confirm the linguistic status of emotionism. At the same time, at the lexical level some of the phraseological units are directly related to emotion and expressiveness. There are words and expressions in the language system that denote a particular activity of a person. Such words do not directly call emotion. However, those words refer to events that result from the physiological and psychological realization of emotion. So these words, though indirectly, are closely related to emotion. There are many other language tools that extend the boundaries of the language's

emotional field. The article provides enough information about the category of expressiveness and the history of its study.

Keywords: emotionality, expressiveness, linguistics, expression, psychology, category

МШукурова

Категория выразительности в общем языкознании и история его изучения

Резюме

Языковые инструменты, которые выражают эмоциональное состояние человека, широко планируются и доступны на разных уровнях языка и в разных структурах. Наиболее очевидной формой информации в речи является название объекта и связанная с ним информация. Эмоции имеют названия на каждом языке. Например, радость, грусть, страх и прочее. Поскольку эмоции связаны с ситуациями, у них есть общие имена: радость, грусть, гнев, беспокойство, страх, удивление и так далее. В словаре языка много таких слов. Если мы создадим лексико-семантическое поле лексических единиц, выражающих эмоции, эти слова сформируют набор слов, связанных с эмоциями. Принимая во внимание различные части речи, выясняется, что слова, связанные с эмоциями, - это в основном глаголы, существительные и прилагательные. Слова, относящиеся к теме, состоянию, качеству и эмоциям, написаны и выступают в качестве выражения эмоций в устной речи. Присутствие языковых единиц, которое является признаком эмоций в языке, является первым, чтобы подтвердить языковой статус эмоционизма. В то же время на лексическом уровне некоторые фразеологизмы напрямую связаны с эмоциями и выразительностью. В языковой системе есть слова и выражения, обозначающие определенную деятельность человека. Такие слова прямо не называют эмоциями. Однако эти слова относятся к событиям, которые являются результатом физиологической и психологической реализации эмоций. Таким образом, эти слова, хотя и косвенно, тесно связаны с эмоциями. Есть много других языковых инструментов, которые расширяют границы эмоционального поля языка. В статье достаточно информации о категории выразительности и истории ее изучения.

Ключевые слова: эмоциональность, выразительность, лингвистика, экспрессия, психология, категория

Redaksiyaya daxil olma tarixi: 20.09.2019
Çapa qəbul olunma tarixi: 16.11.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Gülnarə Əhmədova tərəfindən çapa tövsiyə olunmuşdur

İRADƏ SULTANOVA
Azərbaycan Dövlət İqtisad Universitetinin
İstiqlaliyyət küç
irada@mail.ru

AZƏRBAYCAN VƏ FARS DILLƏRININ TIMSALINDA DILLƏRIN QARŞILIQLI ƏLAQƏSI HAQQINDA

Xülasə

Bu məqalədə Azərbaycan və fars dillərinin timsalında dillərin qarşılıqlı əlaqəsi, Azərbaycan ədəbiyyatı, tarixi və mədəniyyəti haqqında ətraflı məlumat verilir.Bundan əlavə Azərbaycan dilinin tarixi mənbələrə əsaslanan qısa tarixi göstərilmişdir. Məqalənin əsas qayəsini Azərbaycan və fars dillərinin qarşılıqlı əlaqəsinə əsaslanan linqvistik təhlil təşkil edir. Məqalədə fars dilinə keçmiş Azərbaycan-türk mənşəli sözlər tədqiq olunur. Araşdırmalar görkəmli Azərbaycan alimləri və yazıçılarının elmi və bədii əsərlərinə istinadən aparılmışdır.

Azərbaycan xalqının mədəniyyət tarixi qədim və çox zəngindir. Xalqımızın mədəniyyəti uzun illər böyük inkişaf yolu keçərək bugünkü vəziyyətə gəlib çatmışdır. Azərbaycan müstəqil dövlət olduqdan sonra bu zəngin mədəniyyətin daha geniş bir şəkildə tədqiq olunması və öyrənilməsinə başlanılmışdır. Belə ki, mədəniyyətimizin ayrı-ayrı sahələrinə – tarix, yazılı və şifahi ədəbiyyat, dilçilik, etnoqrafiya, incəsənət və s. aid bir çox tədqiqatlar aparılmış və qiymətli əsərlər yaradılmışdır. Sevindirici haldır ki, bu proses günümüzdə də geniş vüsət almış və qeyd olunan bu sahələrə aid yeni-yeni əsərlər yaradılmaqdadır. Lakin bununla yanaşı, yuxarıda göstərilən elm sahələrinə aid bir çox məsələlər, problemlər vardır ki, bu gün alimlərimiz tərəfindən öz həllini, tədqiqini gözləyir.

Açar sözlər: *fars dili, alınma sözlər, dil, Azərbaycan dili, dilçilik, dil tarixi, ədəbiyyat, fonetika, leksika*

Dilin inkişafı və təkamülü onun əsas keyfiyyətləridir və çox mürəkkəb anlayışlardır. Dilin inkişafı müxtəlif səbəblərlə bağlıdır. Çünki dilin inkişafının öz spesifik xüsusiyyətləri vardır. Dillər öz inkişaflarında dialektikanın ümumi qanunlarına da tabe olur. Cəmiyyətin inkişafı ilə əlaqədar təbii ki, təfəkkür də inkişaf edir. Dil təfəkkürlə sıx bağlı olduğundan onunla inkişaf edərək təkmilləşir. Dilin inkişafı, təkmilləşməsi və dəyişməsi qaydaları həmişə dilçilik elminin diqqət mərkəzində olmuşdur.Dilin inkişafı dedikdə dilin tərkib hissəsini təşkil edən səslərin, sözlərin, söz birləşmələrinin, şəkilçilərin və qrammatik əlaqələrin, onun müxtəlif komponentlərinə məxsus ünsürlərin müntəzəm olaraq dəyişməsi və zənginləşməsi nəzərdə tutulur. Görkəmli rus alimi Serebrennikov yazır ki, dilin inkişafının iki tərəfi vardır: dilin xa-

rici mühitin təsiri ilə inkişafı və dilin daxili inkişafı. İstənilən dilin inkişafında bu amillər bir-biri ilə sıx bağlıdır (8,198).

Dilin xarici mühitin təsiri ilə inkişafinda dillərin qarşılıqlı əlaqəsi əhəmiyyətli dərəcədə ciddi rol oynayır. Məlum olduğu kimi, cəmiyyət yarandığı dövrdən başlayaraq insanlar bir yerdə qalmamış, miqrasiyalar nəticəsində yer üzünə səpələnmişlər. Məhz bu dövrdən, yəni ilk insan yerdəyişmələri, qəbilələr və tayfa-lar arasında ibtidai əlaqələrdən başlayaraq dillər arasında da müəyyən əlaqələr yaranmışdır. Bu əlaqələri, yəni sosial və dil əlaqələrini bir-birindən ayırmaq olmaz. Məhz cəmiyyət və dil qarşılıqlı olaraq biri digərinin inkişafında katalizator rolunu oynamış, onun inkişafında stimulverici amil olmuşdur. Dilçilik ədəbiyyatında dilin inkişafından danışarkən dildaxili (intralinqvistik) və dilxarici (ekstralinqvistik) amillərdən danışılır. Qeyd etdiyimiz kimi, dillərin qarşılıqlı əlaqəsi məhz dilxarici amillərə daxildir. Bu amillər isə ümumilikdə bütün sosial əlaqələri əhatə edir. Dillərarası əlaqələrin yaranma səbəblərindən danışarkən ilk növbədə dillərin tarixi inkişaf yoluna nəzər yetirmək və cəmiyyətin inkişafında onun rolunu müəyyənləşdirmək lazımdır.

Müxtəlifsistemli dillərin bir-biri ilə əlaqəsi tarixi bir proses olub, tarixi-mədəni əlaqələr və dövlətlərarası münasibətlərlə, elmi-texniki tərəqqi, elm sahələrinin inkişafı və s. ilə bağlıdır. Dillərin bir-birinə təsiri tarixi-mədəni, siyasi-sosioloji prosesin tərkib hissəsidir. Tarixi faktlar göstərir ki,türk xalqları təşəkkül dövründən ta bu günə qədər müxtlif xalqlar, o cümlədən də farslar və şərqi slavyan xalqları ilə birgə, yanaşı yaşamış, yaxın əlaqə və münasibətlər qurmuş, bir-birinin söz ehtiya-tından faydalanaraq istifadə etmişlər. Ümumiyyətlə, başqa dillərdən leksik vahid-lərin alınması dilin inkişaf etdirilməsi üsullarından biridir və bu proses müxtəlif xalqların və dövlətlərin bir-birinə qarşılıqlı təsirinin nəticəsidir.

Geniş bir coğrafiyanı əhatə edən vətənimiz Azərbaycan Şərqlə Qərbin qovuşağında, böyük ticarət yollarının üzərində, bir sözlə, nəhəng mədəniyyətlərin qo-vuşduğu bir məkanda yerləşir. Avropa və Şərq mədəniyyətlərinin sanki bir görüş, qarşılaşma, qaynaşma yeri olan Azərbaycan zaman-zaman böyük dövlətlərin, im-periyaların işğalına məruz qalsa da, fərqli mədəniyyətlərə, müxtəlif xalqlara da ev sahibliyi etmişdir. Qeyd olunduğu kimi, böyük ticarət yollarının kəsişməsində, ta-rixi İpək yolunun üstündə yerləşən Azərbaycan buraya gələn müxtəlif xalqların, onların mədəniyyətlərinin, adət-ənənələrinin, dillərinin, dinlərinin də görüşdüyü, qaynaşdığı bir məkan olmuşdur. Belə ki, Azərbaycanın coğrafi, strateji, ticari əhə-miyyəti, təbii gözəlliyi və burada istehsal edilmiş sənətkarlıq məhsulları, təbii qay-naqlar, yerli xammallar haqqında Avropa, Yunanıstan, Roma, ərəb, İran, Türküs-tan, Çin səyyahları öz əsərlərində geniş və qiymətli məlumatlar vermişlər. Biz bu əsərlərdə xalqımızın mədəniyyəti, tarixi, ədəbiyyatı, incəsənəti ilə yanaşı, dili ilə də bağlı dəyərli məlumatlara rast gəlirik. Həmin əsərlərdə Azərbaycan xalqının digər xalqlarla, millətlərlə qarşılıqlı münasibətlərinə, dostluq əlaqələrinə aid geniş materiallar da yer almaqdadır. Bu da onu göstərir ki, Azərbaycan xalqı hər zaman digər mədəniyyətlərə, dinlərə qarşı dözümlülük göstərmiş və hər zaman tolerant bir xalq olmuşdur. Bundan

əlavə, qeyd olunan bu tip əsərlər xalqımızın tarixini, dilini, ədəbiyyatını öyrənmək baxımından da qiymətli mənbə sayılaraq tədqiqatlara cəlb olunmalıdır.

Digər tərəfdən, Azərbaycan coğrafi baxımdan dünya ticarət yolunun mərkəzində yerləşdiyi üçün bü ölkəyə sahib olmaq bütün böyük dövlətlərin arzusu ol-muşdur. Sasani imperiyasından başlayaraq ərəb xilafəti də daxil olmaqla XVI əsrə qədər Azərbaycan müstəqil olmamış, dilimiz də dövlət dili səviyyəsinə qalxma-mışdır. Fars hökmranlığı zamanında saraylarda fars dilində danışılmış, ərəb dili həmişə elm dili olmuş, türk dili isə danışıq dili kimi səciyyələndirilmişdir. Ona görə də həm farsların, həm də ərəblərin dilindən məcburi yolla dilimizə müəyyən sözlər keçmişdir. Ikinci mərhələdə isə Rusiya ön plana keçmiş, rus üsul-idarəsi Azərbaycanda hakim olunca dilimizə xeyli söz daxil olmuşdur. Dil bir müddət bu prosesləri yaşadıqdan sonra ictimai-iqtisadi formasiya dəyişdi, Sovet imperiyası quruldu. Bu zaman da Azərbaycan dilinə külli miqdarda sözlər keçdi. Beləliklə, böyük bir zaman kəsiyi ərzində dilimizə daxil olmuş bu sözlər bu gün ya alınma sözlər səviyyəsində dilin bütün yaruslarında mənimsənilmiş, ya da öz mövqeyini qoruya bilməyərək arxaikləşib dildən çıxmışdır. Sovet imperiyası dağıldıqdan son-ra isə Avropanın qapıları Azərbaycana açıldı və təkcə türk dilinin deyil, Avropa dillərinin də , ən başlıcası isə ingilis dilinin dilimizə təsiri gücləndi.

Müasir anlayışla Azərbaycan dili azərbaycanlıların ana dilidir. Son sayıma görə, Azərbaycan Respublikasında 10 milyona yaxın azərbaycanlı bu dildə danışır. Keçmiş SSRİ-nin müxtəlif yerlərində, xüsusilə 30-cu illərdəki sürgünlərlə bağlı Orta Asiya respublikalarına köçmüş xeyli azərbaycanlı öz ailə dairəsində bu dildən istifadə edir. Son məlumat təsdiqləyir ki, keçmiş SSRİ respublikalarında, Azərbaycan Respublikası da daxil olmaqla, bütünlükdə 12 milyon azərbaycanlı öz ana dilini işlədir. Bundan başqa, hazırda İranda 30 milyondan çox, Türkiyədə 1,5 milyon, İraqda 500 min, Almaniyada 190 min, ABŞ-da 150 min, Fransada 70 min, İngiltərədə 60 min, Norveç, Danimarka və Hollandiyada 100 min, Hindistan və Pakistanda 30 min, Avstriyada 15 min, Avstraliya və Yaponiyada 2,5 min azərbaycanlı var və bunlar da, əsasən, toplu halında yaşadıqları üçün bir-biri ilə ana dilində ünsiyyət saxlayır, hətta bəzi ölkələrdə öz dillərində qəzet çap edirlər. Beləliklə, bu gün Azərbaycan dili dünyada 50 milyondan artıq azərbaycanlıya xidmət göstərir. Bundan başqa, bu dil Azərbaycan Respublikasında yaşayan talışların, tatların, ləzgilərin, ingiloyların, udilərin, qırızların və başqa azsaylı

xalqların ikinci dili, gürcülərin, rusların xeyli qisminin respublikamızda ümumün-siyyət vasitəsidir (2, 40).

Tarixən türkcə – türk dili kimi bilinən Azərbaycan dilini XIX əsrdən 1920-ci ilə qədər Rusiyada və onun vasitəsilə Avropada bu adlarla da tanımışlar: tatar dili, türk-tatar dili, Azərbaycan-tatar ləhcəsi, tatar dilinin Qafqaz ləhcəsi, türk Azərbaycan dili. “Azərbaycan dili” adı ilk dəfə XI əsrdə Xətib Təbrizi ilə bağlı məlumatda çəkilir. Xətib məsciddə Əbu-l-Əla Məəridən dərs alarkən təbrizli eloğlusu ilə rastlaşır və müəlliminin icazəsilə ilə dərsdən ayrılıb onunla söhbət edir: “Ayağa qalxdım və azəri

dilində onunla xeyli söhbət edib məni maraqlandıran hər şeyi ondan soruşdum. Elə ki, qayıdıb Əbu-l Ələnın yanında oturdum, məndən soruşdu: "Bu hansı dil idi? Dedim: Bu, Azrəbican əhalisinin dilidir" . VII əsrdən məlum olan mənbələrdə ərəblər Azərbaycana "Azrəbican" demiş və sifət məqamında həmin sözü "azrəbi" şəklində işlətmişlər. Beləliklə, Xətib Təbrizinin söylədiyi "Azrəbican əhalisi" müasir mənada azərbaycanlılar, "azrəbi dili" isə Azərbaycan dili deməkdir.Təbii ki, XI əsrdə Azərbaycan ölkəsində əhalinin danışdığı dil bizim bu gün tanıdığımız Azərbaycan-türk dilinin həmin konkret tarixi mərhələdəki mövcudluğudur. Onu başqa etnik mənşəyə yazmağın heç bir elmi məntiqi yoxdur. Dilimiz, ümumiyyətlə, türk dili kimi tanınsa da, görünür, hələ ilk orta əsrlərdən hansı dairələrdəsə, ona Azərbaycan dili də demişlər və bu ənənə sonralar da yaşamışdır. XIX əsrdəki Azərbaycan-tatar ləhcəsi (burada tatar sözü türkün tam qarşılığıdır); türk-Azərbaycan dili və "Kəşkül" qəzetində bilavasitə işlənən "Azərbaycan dili" kimi söz anlayışları göydəndüşmə olmayıb, məhz həmin tarixi gəlişin nəticəsidir. Sovetlər dövründə "Azərbaycan dili" termini 1936-cı il konstitusiyası ilə qanuniləşdirilərək işlənməyə başlanmış və bu dilin öz qədim adı ilə - "türk dili" kimi adlanması qadağan olunmuşdur (6, 38; 2, 41).

Azərbaycan dili morfoloji quruluşuna görə aqqlütinativ dildir, mənşəyinə görə türk dilləri ailəsinin oğuz qrupuna daxildir (2, 42).

Böyük bir xalqın dili olan Azərbaycan dilində tarix boyu "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanları kimi şifahi xalq ədəbiyyatına mənsub abidələrlə yanaşı Nəsimi, Füzuli, Vaqif kimi şairlərin, söz ustadlarının müəllifliyində böyük əsərlər, yazılı abidələr yaranmışdır və bu dilin qüdrəti, geniş imkanları nümayiş olunaraq bəşər sivilizasiyasında öz layiqli yerini tutmuşdur.

Azərbaycan xalqının tarix boyu qonşuluq və qarşılıqlı mədəniyyət, ticarət və s. mübadiləsində yaşadığı xalqlar isə, əsasən, İran coğrafiyasında yaşayan farsdilli xalqlar olmuşlar. Qeyd olunduğu kimi, Azərbaycan xalqı və farsdilli xalqlar uzun tarixi keçmişə dayanan qonşuluq münasibətlərinə malikdirlər və bu iki xalqın tarixi keçmişi təkçə onların qonşuluq münasibətləri ilə məhdudlaşmır. Belə ki, bu geniş coğrafiyada dövlət hakimiyyəti tarixin müxtəlif dövrlərində bəzən farsların, bəzən də azərbaycanlıların əlində olmuşdur. Bu da mədəniyyətin, incəsənətin, ədə-biyyatın qarşılıqlı təsiri ilə yanaşı, bu xalqların dillərinə də təsirsiz ötüşməmişdir.

Farsdilli xalqların yaratdığı zəngin mədəniyyət və ədəbiyyat Azərbaycan mədəniyyəti və ədəbiyyatı ilə yanaşı, Azərbaycan dilinə də böyük təsir göstərmiş və bu dilin söz arsenalının genişlənməsində, zənginləşməsində fars dili çox böyük rol oynamışdır. Azərbaycan dilinə fars sözlərinin daxil olması, əsasən, XIII-XIV əsr-lərdən başlamışdır. Bu proses ərəb dilinin getdikcə öz nüfuzunu itirməsi və fars dili təsirinin Qafqazda güclənməsi ilə əlaqədar olmuşdur. Dilimizdəki fars sözləri öz kəmiyyətinə görə ərəb sözlərindən azdır və bunların çoxu dilimizə,əsasən, bədii ədəbiyyat vasitəsilə daxil olmuşdur.

Hər bir dildə olduğu kimi, Azərbaycan dilinin də özünəməxsus fonetik sistemi və qrammatik quruluşu vardır. Sözalma prosesində dilimizin fonetik sistemi və qram-

matik quruluşuna uyğun gələn sözlər alındığı dildə olduğu şəkildə, yəni də-yişdirilmədən, eyni ilə götürülür. Bu cür sözlərə dəyişiklik edilmədən mənimsənilən sözlər deyilir. Alınma söz keçdiyi dilin sözlərindən fərqləndikdə həmin dilin fonetika və qrammatikasının müqavimətinə rast gəlir, az və ya çox dərəcədə dəyişikliyə uğrayır. Bu cür sözlər isə dəyişiklik edilərək mənimsənilən alınma sözlər adlandırılır. Akademik A.Qurbanov bu sözlərdən danışarkən onları həm fonetik, həm semantik, həm də qrammatik cəhətdən dəyişməsinə görə üç qrupa bölür . Müəllif fonetik cəhətdən dəyişmə deyərkən sözlərdə bir səsin başqası ilə əvəz edilməsi, səsdüşümü, səsartımı kimi fonetik hadisələri nəzərdə tutur. Semantik dəyişmələrə gəlincə, Azərbaycan dilinə keçmiş bəzi sözlər mənbə dildəkindən fərqli, yeni mənada işlənir. Məsələn, fars dilində "yolunu azmış" mənasında işlə-nən "qomrah" sözü Azərbaycan dilində "gümrah, sağlam" mənasında, "başıbağlı" mənasında işlənən "sərbəst" sözü isə dilimizdə "müstəqil, azad" mənasında işlənir. A.Qurbanovun semantik dəyişmələr barədə də fikirləri çox maraqlıdır. Alim yazır ki, bəzi alınma sözlər mənbə dildə müəyyən əşya anlayışını ifadə etdiyi halda, bi-zim dilimizə keçdikdən sonra ancaq xüsusi şəxs adını bildirir. Məsələn, "Xurşid" sözü farsca "günəş" deməkdir, Azərbaycan dilində isə qadın adı ifadə edən xüsusi isimdir. Tədqiqatçı alim alınma sözlərdə qrammatik dəyişməni isə belə şərh edir: 1) mənbə dildəki bu və ya digər nitq hissəsinə aid olan söz alınma nəticəsində keç-diyi dildə başqa nitq hissəsinə çevrilir. Məsələn, "güzəran" sözü fars dilində "ke-çən" deməkdir, özü də feli sifətdir. Azərbaycan dilində isə bu söz "yaşayış" məna-sında işlənir və nitq hissəsinə görə isim olur; 2) bu və ya başqa söz mənbə dildə müstəqil söz olduğu halda, başqa dilə keçəndə şəkilçiləşir. Məsələn,"şünas" və "xana" sözləri fars dilində müstəqil mənaya malik olduğu halda, bizim dilimizdə şəkilçi kimi işlənir (6, 232-233) .

Məhz bunlara görə uzun zaman belə düşünülmüşdür ki, yalnız Azərbaycan dili fars dilindən sözlər almışdır. Lakin bu heç də belə deyildir. Zaman-zaman Azərbaycan dilindən də fars dilinə bir çox sözlər keçmişdir. Bildiyimiz kimi, dünyada "təmiz dil" yoxdur. Hər bir dil ona təsir göstərən müxtəlif faktorlar qarşısında digər dillərdən sözlər qəbul etmişdir. Bu faktorlardan işğal, üstün mədəniyyət, elmi inkişaf, ticarət, hərbi əməkdaşlıq, sosial yaxınlaşma, incəsənət və s. kimi səbəbləri misal göstərə bilərik.

Azərbaycan və fars dillərinin qarşılıqlı əlaqəsi mövzusu olduqca maraqlı və mühüm bir məsələdir. Bu sahə zaman-zaman bir çox alimlər tərəfindən tədqiqat obyekti olaraq ələ alınmış və bununla bağlı bir çox samballı, qiymətli əsərlər yazılmışdır. Belə ki, fars dilində mövcud olan türk sözləri ilə bağlı ilk məlumata Mahmud Kaşğarinin "Divani lüğətit-türk" əsərində rast gəlirik (5). Sonrakı dövrlərdə bu sahəyə aid yazılmış başqa bir mənbə isə H. Zərinəzadənin "Fars dilində Azərbaycan sözləri" əsəridir (3). Bundan başqa bu sahəyə aid qələmə alnmış digər bir mənbə kimi Dürdanə Rəhimovanın "Müasir fars dilində Azərbaycan-türk sözləri" əsərini də qeyd etmək olar (4). Adları qeyd olunan bu əsərlərdə bir çox məsələlərə aydınlıq gətirilsə də, bu sahədə öz həllini gözləyən problemlər hələ də mövcuddur və daha yeni məsələlər də gün keçdikçə ortaya çıxır. Çünki dil canlı orqanimzdir və hər gün inkişaf et-

məkdədir. Bununla yanaşı, qeyd olunan bu əsərlərdə fars və Azərbaycan dillərinin qarşılıqlı münasibətlərindən yaranan məsələlərin müəyyən bir hissəsi tədqiqata cəlb edilmişdir.

Yuxarıda da qeyd etdiyimiz kimi, müəyyən dövrdə yalnız fars dilindən Azərbaycan dilinə sözlərin keçdiyi düşünülmüşdür. Bu fikrin isə yanlış olduğunu ilk dəfə elmi şəkildə H. Zərinəzadə yazmış və təxminən 600 sözün Azərbaycan dilindən fars dilinə keçdiyini qeyd etmişdir (3). Onun tədqiq etdiyi dövr isə azərbaycandilli Səfəvilərin (1499-1736) geniş bir coğrafiyada hakimiyyətdə olduğu zaman dilimini əhatə edir. Lakin sonrakı dövrlərdə fars dili inkişaf etmiş, başqa dillərdən bir çox sözlər almışdır. Təsadüfi deyil ki, bu gün müasir fars dilində işlədilən samovar,şofer, fəlsəfə, cəbr, daşboard (dishboard), fiyuz (fuse), helikopter qayçı, otaq və s. kimi kəlmələr rus, fransız, ərəb, yunan, ingilis və Azərbaycan dillərindən alınmışdır.

Türk mənşəli sözlər fars dilinə islamdan əvvəlki dövrlərdə keçməyə başlamışdı. Sonrakı dövrlərdə türk dillərindən alınma sözlərin sayı xeyli artmışdı. Hətta Əsədi Tusinin fars-dəri dilinin inkişafının ilkin mərhələsinə aid olan və ən qədim lüğətlərdən biri sayılan "Lüğəti fors" əsərində belə çaroq (çarıq), somaq və bir çox başqa türk mənşəli sözlər öz əksini tapmışdır. Xüsusilə də, Səfəvilərin hakimiyyəti dövründə Azərbaycan dilindən fars dilinə keçən sözlərin miqdarı xeyli artmışdı. Tədqiqatçılar, o cümlədən də A.S.Zərinəzadə özünün "Azerbaydjanskiye slova v persidskom yazıke" əsərində qeyd edir ki, o dövrün tarixi-ədəbi əsərlərində əvvəlki

dövrlərə nisbətən daha çox Azərbaycan sözləri işlədilmişdir.

Dillərin qarşılıqlı əlaqəsini və bu mövzuda alınma sözləri incələyərkən dillərin daxili inkişaf qanunlarına diqqət etmək lazımdır. Belə ki, dilin daxili inkişaf qanunları dedikdə buraya dilin leksikası, qrammatik sistemi, fonetikası, fonetik sistemdə baş verən səs dəyişmələri, sözlər və söz birləşmələrində baş verən dəyişmələr, yeni məna çalarları nəzərdə tutulur. Qeyd olunan bütün bu dildaxili qanunlar, dəyişikliklər məhz Azərbaycan dilindən fars dilinə keçən sözlərdə geniş şəkildə müşahidə olunmaqdadır. Belə ki, bu qanun və dəyişikliklər nəticəsində fars dilinə keçmiş bir çox Azərbaycan sözləri fərqli mənalar qazanmışdır. Məsələn, Azərbaycan dilində yataq və burğu sözləri fars dilinə keçdikdən sonra "yedek" və "buq" şəkillərini almış, eyni zamanda mənaları da dəyişmişdir. Qədim zamanlardan Azərbaycan dilindən farscaya keçən bəzi sözlər də vardır ki, bu gün müasir ana dilində o sözlər ya formasını dəyişmiş, ya da arxaikləşmişdir. Misal üçün "oruğ" və "otraq" bu qəbildən olan sözlərdir (3).

Qeyd olunduğu kimi, bir çox Azərbaycan sözləri fars dilinə keçdikdən sonra fars dilinin qanunlarına uyğun olaraq müəyyən transformasiyaya məruz qalmışlar. Bu leksik hadisəni "yad mühitdə inkişaf edən şəkil və məna dəyişikliyi" kimi adlandıra bilərik (3). Azərbaycan dilində mövcud olan "alaca at", "alaşa at" ifadələri fars dilində şəklini dəyişərək "aleşe", "əsbe-aleşe" formasında, "aş" sözü isə mənasını dəyişərək "şorba" anlamında işlənməkdədir. Bundan başqa, müasir Azərbaycan dilində işlədilən və məxsusi olaraq Azərbaycan çay mədəniyyətinə aid bir termin kimi for-

malaşmış "dişləmə çay" (xüsusilə kəllə qəndlə içilən çay – İ.S.) ifadəsi müasir fars dilində fonetik dəyişimə məruz qalaraq "çaye-dişləme" formasında işlənməkdədir.

Türk dillərindən, o cümlədən də Azərbaycan dilindən alınma sözlər içərisində iqtisadiyyatın, mədəniyyətin və ictimai həyatın müxtəlif sahələrinə aid olan yüzlər-lə söz vardır. Bunların içərisində hərbi sahəyə, ticarətə, məişətə, ovçuluğa, kənd təsərrüfatına, eləcə də maldarlığa və s. sahələrə aid çoxlu sözlər mövcuddur. Bəzi alınma sözlər türk sülalələri olan Səfəvi və Qacarların İrandakı hakimiyyəti zamanı saray həyatı ilə əlaqədardır.

Hərbi sahəyə aid sözlərdən tup, qoşun, keşik, tofəng, saçme, qondağ, feşəng, yortme, yureş, yaraq, qamçi, qaşov və s. sözləri xatırlatmaq lazımdır ki, bunlardan bir çoxu bu gün də fars dilində işlənməkdədir. Məsələn, boluk (bölük) sözü əvvəl-lər hərbi dəstə mənasında işlənsə də, sonralar daha çox əyalət, rayon anlamında is-tifadə edilmişdir. Azuqe sözü əvvəllər hərbi termin kimi işlənirdisə, sonralar ümu-miyyətlə ərzaq, qida mənasını ifadə etmişdir.

Fars dilində Azərbaycan türkcəsindən alınmış məişət əşyaları ilə bağlı xeyli söz vardır. Məsələn: qaşoq, boşqab, ələk, dogme, dolme, otaq, toşək, qeyçi, qay-maq, çopoq, çəkme, ocaq, otu və s.

Ticarət, sənətkarlıq, kənd təsərrüfatı, o cümlədən maldarlıqla əlaqədar Azər-baycan türkcəsindən alınma sözlərdən bunları qeyd etmək olar: tutun, qomrok, qaçaq, qeşlaq, yeylaq, batlaq, alaçıq, saqqez, kuç, kork və s.

Quş, heyvan və bitki adları: ordək, qaz, belderçin, quş (qartal), qaraquş (şa-hin), olağ, qater, bid, saman, qeysi və s.

Bu gün müasir fars dilində çox işlənən Azərbaycan dilindən alınma qadağan, souqat, soraq, bəzək, komək kimi isimləri, çağ (kök), çabok (çevik), qati, kuçek ki-mi sifətləri göstərmək olar.

Qeyd etmək lazımdır ki, Azərbaycan-türk mənşəli sözlər fars dilinin söz yara-dıcılığı sisteminə böyük təsir göstərmişdir. Bunlar fars sözləri və ya şəkilçiləri ilə bir-ləşərək düzəltmə və ya mürəkkəb sözlərin əmələ gəlməsində xüsusi əhəmiyyət daşı-mışdır. Bu yolla bu gün də fars dilində işlədilən qapidən-qapmaq, kuçidən- köçmək, qarətidən- qarət etmək, tupxane-topxana, artilleriya, feşəngbiyar- gülləda-şıyan, əməkdar-əməkdar, dogmesazi-düymə istehsalı və s. sözlər, eləcə də kuç kərdən-köç etmək, topoq xordən-dili topuq vurmaq, bəzək kərdən-bəzəmək kimi ad hissəsi Azər-baycan dilindən alınma sözlərlə düzələn feli-frazeoloji birləşmələr yaranmışdır.

Azərbaycan dilindən fars dilinə təkcə sözlər deyil, bir neçə sözdüzəldici şəkil-çilər də keçmişdir ki, onlardan ən çox işlənəni -çı[4] şəkilçisidir. Peşə mənası əmələ gətirən bu şəkilçi həm fars, həm də alınma sözlərə qoşularaq fars dilində yeni mə-nalı isimlər düzəldir. Məsələn: şekarçi-ovçu, mədənçi-şaxtaçı, doroşkeçi-faytonçu, car-çi-carçı və s. Danışıq dilində də bu şəkilçi ilə düzələn və "ruznamenevis" sözü əvə-zində işlədilən ruznameçi, yəni qəzetçi, məşvərətçi, sinemaçi-kino işçisi, post-çi-poç-talyon və s. bu kimi sözlərə üstünlük verilir.

"Baş" sözü və "i" mənsubiyyət şəkilçisinin birləşməsindən əmələ gələn "başi" sözü də şəkilçiləşərək təkcə türk sözlərinə deyil, fars, ərəb sözlərinə də artırılır. Məsələn: yüzbaşi, bağbanbaşi, tacerbaşi, həkimbaşi, həmmalbaşi və s.

Dillərin qarşılıqlı əlaqəsi yazı dili, danışıq dili və ya hər ikisi ilə baş tutur. Fars dilində işlədilən Azərbaycan sözləri həm yazı, həm də danışıq dili vasitəsilə alınmışdır. Azərbaycan dilinə aid sözlərin fars dilinə inteqrasiyasında danışıq dili üstünlük təşkil edir. Məlum olduğu kimi, bir çox Azərbaycan yazıçısı, şairi və alimi öz yaradıcılıqlarında fars dilindən istifadə etməklə yanaşı, gündəlik həyatda da bu dildən ünsiyyət vasitəsi kimi yararlanmışlar. Təsadüfi deyil ki, müasir fars dilinin ləhcələrində Azərbaycan dilindən alınmış sözlər ədəbi dildə olan sözlərdən daha çoxdur. Belə ki, N.Z. Hatəmi yazır ki, təkcə fars dilinin Tehran ləhcəsində Azərbaycan dilinə aid 150-dən çox söz var. Burada maraqlı bir faktı da qeyd etmək lazımdır ki, fars dilinin ləhcələri qədim fars sözlərinin arxaik formalarını müasir dövrə qədər qoruyub saxladıqları kimi, qədim Azərbaycan dilinə aid sözlərin də ilkin, əski variantlarını günümüzə qədər qoruyb saxlamışdır. Danışıq dili ilə bağlı bir faktı da vurğulamaq yerinə düşər ki, yuxarıda da qeyd etdiyimiz kimi, bu gün İran İslam Respublikasında 30 milyondan çox azərbaycanlı yaşayır və onlar gündəlik həyatlarında öz ana dilləri olan Azərbaycan dili ilə yanaşı, dövlət dili olan farscadan da geniş şəkildə istifadə edirlər. Məhz bu iki dildən paralel istifadə zamanı da fars dilinə bir çox Azərbaycan sözləri daxil olur və bu proses hələ uzun müddət davam edəcək. Deməli, bizim bu tədqiqat mövzumuz hələ uzun müddət öz aktuallığını qoruyub saxlayacaqdır.

Yazı dili vasitəsilə Azərbaycan dilindən fars dilinə keçmiş sözlər isə, əsasən, ana dili Azərbaycan dili olan və farsca yazan elm adamları, şairlər vasitəsilə keçmişdir. Farsca ilə yanaşı azərbaycanca və ərəbcə yazan məşhur elm adamları və şairlər – Nizami Gəncəvi, Xaqani Şirvani, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah Təhmasib Səfəvi, Şərafəddin Bəddisi, İskəndər bəy Münşi və başqaları Azərbaycan dilinə aid və farscada qarşılığı olmayan bəzi sözləri fikirlərini daha aydın, dolğun və orijinala yaxın ifadə edə bilmək üçün farsdilli mətnlərində, şeirlərində istifadə etmişlər.

Araşdırmaçıların fikrincə, Nizami yaradıcılığının tədqiqatçılarından biri olan görkəmli alim Həmid Araslı şairin öz əsərlərində Azərbaycan atalar sözlərindən məharətlə istifadə etməsini çox gözəl izah etmiş və əsaslandırmışdır. Məsələn,

"pişik balasını istədiyindən yeyər" Azərbaycan atalar sözü fars dilində olmadığından Nizami böyük məharətlə onu öz "Xəmsə"sində iki misra ilə belə verib:

قوربه چه بود سرحم پوسی
بچه خود را خورد از دوستی
Qorbe ço bovəd sərhəm pusti,
Bəççeye-xod ra xorəd əz dusti.

Digər bir misala diqqət yetirək: "Vaxtsız banlayan xoruzun başını kəsərlər" ifadəsini Nizami nəzmlə belə verib:

خوروس که بیجا خواند
بجای پر فشانه سر فشانند

Xorusi ke bica xanəd,
Becaye pər fəşani, sər fəşanənd.

Yaxud da Nizami türk və fars dillərində olan atalar sözləri və zərbi-məsələlərin hər iki dildə mövcud olduğunu nəzərə alıb onları yerli-yerində işlətməyə nail olub.

Hər qamış şəkər, hər gül bar verməz,
Hər uşaq doğana qadın deyilməz.

Şair əsərlərində istifadə etdiyi fars dilinə məxsus bəzi zərbül-məsəlləri də türk sözləri ilə zənginləşdirib. Misal üçün bir misraya baxaq:

چرکین برسیه نه منحیند جوانی در کوچ است

Çerkin bər siyah nəminehinəd, cəvani dər kuç əst.

Araşdırmaçının fikrincə, buradakı "çirkin" və "köç" sözləri təmiz türk-Azərbaycan kəlmələridir. Qeyd etmək lazımdır ki, Nizami Gəncəvi "Xəmsə"sində türk-Azər-baycan sözlərinin sayı 120-dən çoxdur. Burada elə beytlərə rast gəlmək olur ki, şair bir beytdə Azərbaycan dilinə aid iki söz işlədib:

تاج تو افسوس که از سر به است
چول فرس توربه از خز به است

Tace-to əfsus ke əz sər behəst,
Çole-fərəs, torbe əz xəz behəst.

Göründüyü kimi sonuncu misradakı "çul" və "torba" sözləri sırf türk-Azərbaycan sözləridir (1) . Bu cür misalları digər klassiklərin yaradıcılığını araşdırmaqla daha da genişləndirmək olar.

Yuxarıda da qeyd etdiyimiz kimi, alınma sözlər çox zaman fonetik dəyişikliyə məruz qalır. Bunun əsas səbəbi söz alan dilin fonetik qanunlarının təsiri, məna ilə şəkil arasındakı fərqlilik və ya alınma sözün başqa bir dil vasitəsilə leksik fonda daxil olmasıdır. Göstərilən bu səbəblərə görə də fars dilində işlədilən Azərbaycan dilinə aid bir çox sözlər həqiqi mənasından uzaqlaşaraq yeni məcazi məna qazana bilir, daha geniş və yaxud da daha dar mənada işlədilə bilir. Bu da alınma sözlərin müəyyən edilib aşkarlanmasını çox çətinləşdirir və bəzən də mümkünsüz edir. Bu cür sözləri tapıb müəyyənləşdirmək üçün tədqiqatçı dilçiliyi dərindən bilməli, dillərin tarixi qrammatikasını müqayisəli şəkildə incələməlidir. Bir çox alınma sözlər də vardır ki, qəbul olunduqları dilin daxili qanunlarına uymadan öz ilkin variantlarını, formalarını qoruyub saxlayırlar. Bu tip sözləri isə ayırd etmək çox asan olur.

Fars dilində alınma sözlərin əksəriyyəti bu dilin qanunlarına uyğun şəkildə dəyişikliyə uğrayır. Bundan əlavə, müasir fars dilində ərəb əlifbasından istifadə olunduğuna görə alınma sözlər bu əlifbanın səs sisteminə görə də müəyyən dəyişikliklərə uğraya bilir. Belə ki, "ı", "ü", "ö" səsləri fars dilində olmadığından bu səslərin iştirak etdiyi Azərbaycan sözləri daha çox forma dəyşikliyinə məruz qalır.

Bildiyimiz kimi, fars dili qrammatik quruluşu ilə yanaşı fonetik baxımdan da Azərbaycan dilindən fərqlənir və hər bir dilin özünə xas qanunları vardır. Məsələn, Azərbaycan dilində mövcud olan ahəng qanunu fars dilində yoxdur. Amma fars dilində olan uzun saitlər də sırf Azərbaycan sözləri üçün xarakterik deyildir. Bu səbəb-

lə Azərbaycan dilindən alınmış sözlər fars dilinin fonetik qanunlarına uyğun-laşaraq dəyişikliyə məruz qalır. Belə ki, fars dilində işlənən Azərbaycan sözləri fars dilində mövcud olmayan hər hansı bir fonemdən mütəşəkkildirsə, bu fonem məcburi şəkildə dəyişəcəkdir və bu da sözün ümumi şəkildə dəyişikliyinə səbəb olacaqdır. Məlum olduğu kimi, Azərbaycan dilində doqquz sait olduğu halda fars dilində olan saitlərin sayı altıdır, yəni, Azərbaycan dilində olan "ö", "ü" və "ı" saitləri fars dilində yoxdur. Qeyd olunan bu saitlərdən birinin və yaxud da bir neçəsinin işlədildiyi Azərbaycan dilinə aid hər hansı bir söz fars dilində köklü dəyişikliyə uğrayır. Məsələn, tüfəng sözü "tofəng", qızıl sözü "qizel", qırmızı sözü "qermez", çadır sözü "çador" yaxud "çader" kimi tələffüz olunur. Fars dilinin tarixi inkişafı nəticəsində isə Azərbaycan-türk dilindən keçmiş kəlmələr vaxt keçdikcə daha çox dəyişikliyə məruz qalır və tamamən "farslaşır".

Müasir fars dilində işlədilən Azərbaycan sözlərinin işlənmə forması, istifadə arealı və uğradığı dəyişikliklərlə bağlı təsəvvür yaratmaq üçün aşağıda verilmiş cədvələ diqqət yetirək:

Azərbaycan dilində	Fars dilində yazılışı	Fars dilində tələffüzü	Fars dilində daşıdığı məna
azuqə	آزوقه	azuqe	ərzaq, qida
ordugah	اوردوگاه	orduqah	eyni məna
ağa	اقا	ağa	kişilərə müraciət forması
ağız	اعیز	ağez	başlanğıc, başlama
ümid	اومید	omid	eyni məna
baca	باجه	bace	eyni mənada
balış	بالیش	baleş	kisə, ağzı bağlı boxça
tüfəng	توفنگ	tofəng	eyni məna
bataqlıq	باتدق	batdəq	eyni məna
topxana	توپخانه	tupxane	silah, sursat anbarı
tütün	توتون	tutun	eyni məna
duman	تومان	tuman	eyni məna
çadır	چادور	çador	eyni məna
çirk	چرک	çerk	eyni məna
çəkic	چقوش	çeqquş	eyni məna
çəkmə	چکمه	çekme	eyni məna
xanım	خانیم	xanom	qadınlara müraciıt forması
dənə	دانه	dane	eyni məna
daz	تاس	tas	eyni məna
qaşıq	قاشوق	qaşoq	eyni məna

kömək	کومک	komek	eyni məna
kilid	کلیت	kelit	eyni məna
köç	کوچ	kuç	eyni məna
kor	کور	kur	eyni məna
kiçik	کوچک	kuçek	eyni məna
nökər	نوکر	nouker	eyni məna
yaxa	یخه	yəxe	eyni məna
yaylıq	ییلق	yeylaq	eyni məna
çəpiş	چپیش	çəpeş	keçi balası
təkə	تکه	təke	erkək keçi
qaymaq	قیمق	qeymaq	eyni mənada
qayış	قییش	qeyiş	intiql kəməri
qundaq	قوندا	qondağ	tüfəng qundağı
zoğal	زوقال	zuğal	yanan qırmızı kömür
qutu	قوتی	quti	eyni məna
qiymə	قیمه	ğiyme	xırda doğranmış ət
açar	اچار	açar	açar, alət
adaş	آداش	adaş	eyni adlı
dadaş	داداش	dadeş	qardaş
arxalıq	آرخالق	arxaleq	geyim
arabaçı	ارابه چی	ərrabəçi	yük daşıyan
başmaqçı	باش‌ماقچی	başməqçi	dəri ustası, ayaqqabı tikən
Boşqab	بوش‌قاب	buşqab	eyni mənada
Pars	پارس	pars	yırtıcı heyvan
döşək	تشک	töşek	eyni mənada
tümən	تومان	tomən	on riyal qarşılığı pul vahidi

Bu cədvəli daha da genişləndirmək olar. Buradan da göründüyü kimi, bir çox sözlər fars dilinə keçdikdən sonra nəinki forma və tələffüz cəhətdən dəyişikliyə uğramış hətta zaman keçdikcə fərqli məna da qazanmışlar.

Yuxarıda da qeyd etdiyimiz kimi, dil canlı orqanizimdir və zaman keçdikçə inkişaf edir. Fars dili də daimi olaraq inkişaf etməkdədir. Bu proses müasir dövrdə daha da sürətlənir. Elmin, ədəbiyyatın inkişafı dilin zənginləşməsinə rəvac yaradır. Yer kürəsini əhatə edən qloballaşma da bu prosesə ciddi təsir göstərən amillərdəndir. Mədəniyyətlərin qovuşması, müasir texnologiyanın inkişafı kimi amillər də dilin zənginləşməsində rol oynayır. Bu gün də fars dili yuxarıda sadaladığımız amillərin təsiri ilə bir çox Avropa və Şərq dillərindən sözlər alır. Bu dillər arasında, şübhəsiz ki, Azərbaycan dili də vardır. Bu fakt bir də onunla əlaqədardır ki, hal-hazırda İran coğrafiya-

sında 30 milyondan artıq azərbaycanlı yaşayır və onlar öz ana dilləri ilə yanaşı müasir fars dilindən də paralel olaraq öz həyatlarında daim istifadə edirlər və bu proses zamanı da fars dilinə yeni Azərbaycan sözlərinin daxil olmasında vasitəçi olurlar. Bu da onu göstərir ki, qeyd olunan proses hələ uzun müddət davam edəcək və haqqında söz açılan bu mövzu ilə bağlı yeni problemlər ortaya çıxaraq öz tədqiqini gözləyəcəkdir.

İstifafə edilmiş ədəbiyyat

1. Ağamirov Cahan. Nizaminin əsərlərində türk sözləri. www.davam.az
2. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi (I hissə). Bakı, 2012, 494 s.
3. Zərrinzadə H. Fars dilində Azərbaycan sözləri. Bakı, 1962, 435 s.
4. Rəhimova D. Müasir fars dilində Azərbaycan-türk sözləri. Bakı, 1998, 148 s.
5. Kaşğarlı Mahmut. "Divani-lüğat-ut-türk". Türk Dil Kurumu. Ankara, 2003.
6. Qurbanov A . Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2003, səh.232-233.
7. Mahmudov M. "Piyada... Təbrizdən Şama qədər". Bakı, Yazıçı, 1982, s. 38-40.
8. Kanar Mehmet. Ögretmeli Etimolojik Farsça-Türkçe Sözlük. İstanbul, 1998, 2448 s.
9.Общее языкознание под ред. А.Серебренникова, Москва, «Наука»,1970, с. 198.

И. Султанова

Взаимная связь азербайджанского и персидского языков

Резюме

В данной статье даётся обширная информация об истории, искусстве и литературе Азербайджана. Помимо этого, отмечается краткая история азербайджанского языка, ссылающаяся на исторические источники. Основная мысль статьи посвящена лингвистическому анализу азербайджанского языка, основывающаяся на взаимодействии тюркского и персидского языков. В статье исследуются слова азербайджанский происхождения, перешедшие в персидского язык, а также слова тюркского происхождения, перешедшие в персидскую речь. Данные исследования опираются на произведения и научные труды великих азербайджанских писателей и учёных.

Культурная история азербайджанского народа древняя и очень богатая. Культура нашего народа много лет развивалась и стала сегодня. После того как Азербайджан стал независимым государством, началось более широкое изучение и изучение этой богатой культуры. Таким образом, важно изучать различные области нашей культуры - историю, письменную и устную литературу, лингвистику, этнографию, искусство и так далее. было сделано много исследований и ценных работ. Отрадно, что сегодня этот процесс становится все более популярным, и в этих областях создаются новые работы.

Тем не менее, есть также много проблем и проблем в вышеупомянутых областях науки, которые ждут наших ученых, чтобы решить эти проблемы.

Ключевые слова: персидский язык, азербайджанский язык, заимствованные слова, языковедение, история языка, литература, фонетика, лексика

İ.Sultanova

Interaction of Azerbaijani and Persian languages

Summary

To this day always thought that Persian words were passed to Azeribaijan language. But this is not true. By Prof. Dr. H. By Zerinezade revealed for the first time. Prof. Dr. H. Zerinezade proved that about 600 Azeribaijan languges words passed to Persian language. The mutual relationship between the Azeribaijanian and Persian languages is an important issue. Azeribaijan and Iranian peoples of the neighborhood, trade and cultural relations continued for centuries. The impact of these relationships on the left languages, has led to the enrichment of each of the two languages.

Historical development of the peoples of the Azeribaijanian and Iranian, Azeribaijan and Persian languages, history, language, science, historical linguistic, historical phonetics of the investigation of this issue is very important. Date of Azerbaijan Turkish grammar, dialects, many works written about the phonetics of Arabic, Turkish, Persian and other languages examined the effect, although a limited number of works in the Azeribaijan language is available on the impact of those languages. In the case of an interaction between languages, it necessarily must be mutual interaction. The most important task of linguists in both the development of the language, the grammar of scientific evidence to determine by examining the interaction.

Reciprocal relationship between languages, written language, spoken language, or both, may realize such. Persian andAzeribaijan words used in the article were taken through both speech. Speaking obtained through words fit well with the characteristics of the language. In this way, the words includes words in ordinary life outside the cultural field. Contemporary Persian loanwords from Azeribaijan language is much more than writing. The dialects of Persian language to the present day as well as that the old words of the old Turkish words have maintained to the present day.

Key words: Persian language, Azerbaijan language, language, quote tags, linguistic, laguange history, fonetic

Redaksiyaya daxil olma tarixi: 20.06.2019
Çapa qəbul olunma tarixi: 01.11.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Sevər Cabbarlı tərəfindən çapa tövsiyə olunmuşdur

KÖNÜL NƏCƏFOVA
ADPU
Təbriz küçəsi
najafova.konul1982@gmail.com

BEYNƏLXALQ İŞGÜZAR YAZIŞMALARIN DİL XÜSUSİYYƏTLƏRİ

Xülasə

Beynəlxalq işgüzar yazışmalar zamanı uyğun dil qanunauyğunluqlarına riayət etmək vacib şərtlərdəndir.İşgüzar yazışmaların dil xüsusiyyətlərindən bəhs edərkən morfoloji, leksik, qrammatik xüsusiyyətlər diqqət çəkir. Rəsmi işgüzar üslubda uzun müddət köhnəlmiş sözlərdən istifadə olunur. Azərbaycan və ingilis dillərində işgüzar üslubda ümumi və xüsusi isimlərdən, idarə, təşkilat, şəxs adlarından və soyadlarından istifadə olunur. Bu da onun morfoloji xüsusiyyətlərini səciyyələndirir.

Qeyd edək ki, işgüzar üslub digər üslublardan onunla fərqlənir ki, burada sırf bu üsluba aid sözlər, terminlər işlədilir. İngilis dilində də bu hala rast gəlinir. Məsələn: The sides, fundamental objectives, transactions və s. İşgüzar üslubun digər xüsusiyyəti ondan ibarətdir ki, burada məcazlardan, epitetlərdən, frazeoloji birləşmələrdən və s. istifadə olunmur. Yalnız sabit söz birləşmələrindən istifadə etmək mümkündür. Məsələn: qüvvəyə minmək, məsuliyyət daşımaq və s. Müasir ingilis dilində də analoji hal diqqət çəkir. İşgüzar üslubda mücərrəd isimlərdən istifadəyə də rast gəlirik. Belə ki, qanunvericilik aktlarında istifadə edilən cəza, cinayət, şikayət və s. kodekslərin həyata keçirilməsində mücərrəd isimlər işlədilir.

Onu da qeyd edək ki, bu cür isimlər əksər hallarda mətnlərin giriş hissəsində və ya təsvir məqamlarında yer alır. İşgüzar yazışmalar zamanı sənədlərdə "hər şeydən əvvəl", "baxmayaraq ki", "bununla əlaqədar olaraq" və s. söz və ifadələrdən istifadə olunur. Məsələn: "baxmayaraq ki", "bununla əlaqədar olaraq" və s. söz və ifadələri feli bağlama tərkibi olaraq, məktubların mətninin təşkilndə mühüm rol oynayır. Müasir ingilis dilində buna müvafiq olaraq, " first of all," "İ think," " generally saying" kimi parantezaların müdaxiləsi məktub tərtibatında seçilir.

Müasir təşkilatlarda məktublara verilən tələblər sırasında onun oxuyana aydın olması, məlumatların dəqiqlik prinsipinin qorunması, məntiqi cəhətdən tutarlı olması, ən əsası da dağınıq şəkildə deyil, yığcamlılığı vacib şərtlərdəndir. Lakin burada bir məsələni də qeyd etmək yerinə düşərdi. Belə ki, telefon zəngi ilə məlumatın ötürülməsi kifayət edərsə, bu zaman işgüzar məktubların yazılmasına ehtiyac qalmır. İşgüzar məktubları yazarkən bir səhifə nəzərdə tutulmalıdır.Əgər məktubun həcmi müəyyən səbəblərdən bir səhifəni aşarsa bu zaman birinci səhifə istisna olmaqla qalan səhifələr ərəb rəqəmləri ilə nömrələnməlidir. Bundan əlavə, bu məktublar xüsusi nəzərdə tutulmuş blanklarda yerləşdirilir. Onların üst səthində şirkətə dair emblem

olmalı, ad tam şəkildə yazılmalıı, poçtun ünvanı qeyd edilməli, telefonlar və bank rekvizitləri aydın şəkildə qeyd olunmalıdır. Məzmun baxımından yazı üçün nəzərdə tutulmuş bu kağızlarda da sənədləşdirmə həyata keçirilə bilər. Onlar adətən əllə yazılmır. İşgüzar məktublardan bəzi vacibləri bükülmür. Onlar iri həcmli zərflərdə göndərilir. Bundan başqa, iri şirkətlərin özlərinə məxsus xüsusi tərtibatda şəffaf pəncərəcikləri olan zərfləri olur. Bu cür zərflərdə ünvanlar göstərilmir. Ümumilikdə, məktublar işgüzar yazışmalarda ən vacib sənədlərdən hesab olunur. Məktubda müraciət hissəsinin olması vacib elementdir. Bu zaman məktub yazılan şəxsin adı, soyadı göstərilməlidir.

Açar sözlər: strategiya, şifahi nitq, kontekst.

Qeyd etmək lazımdır ki, nitqi təşkil edən cümlələr bir-birindən fərqlənən müxtəlif məqsədlərlə işlədilir. Sənədlərdə cümlələrin bir qismində əşya və hadisələr haqqında məlumat verilir; bir fikir ya təsdiq, ya inkar edilir. Başqa bir qrup cümlədə heç bir məlumat verilmir, əksinə danışan müəyyən məsələ ətrafında başqasından məlumat almaq, öz fikrini tamamlamaq, dəqiqləşdirmək məqsədilə həmin cümlələrdən istifadə edir, digər bir qrup cümlələrdə istək, arzu və s. ifadə edir.Aparılan təhlil göstərir ki, leksik sözlər məna yükü və informativliyinin dərəcəsinə görə qrammatik sözlərdən fərqlənir. Bu fərq də onların cümlədə (söyləmlərdə) vurğulu və vurğusuz olması, eləcə də intonasiya qrupunun mərkəzini (fokusunu) öz üzərinə götürməsi ilə şərtlənən amil kimi özünü göstərir.Digər tərəfdən, qrammatik sözlər ünsiyyətdə tez-tez təkrar olunduğundan onlar bir növ köhnə, artıq dinləyiciyə məlum olan informasiyaların daşıyıcısı kimi çıxış edir. Bu xüsusiyyət də onların yazılı ünsiyyət prosesində müəyyən elementlərin distribusiyasına təsir göstərir.

Qeyd edək ki, leksik sözlərin də yazılı ünsiyyətdə təkrarına yol verilir. Bu halda onlar da köhnə məlumatın daşıyıcısı kimi kənarda qalır. Bütün bu xüsusiyyətlər cümlələrin müxtəlifləşməsinə səbəb olur.Əsasnamələr təşkilatların bütün struktur bölmələrinin hüquqi aktların normalarına necə riayət etməsinə nəzarət edir. Əsasnamələrdə obrazlı cümlələrdən, emosional ifadələrdən istifadə olunmur. Əsasnamədə bütün dövlət sənədlərində olduğu kimi, xüsusi isimlər böyük hərflərlə qeyd edilir. Buraya qədər deyilənlərdən aydın olur ki, dil faktı olan cümlə kommunikasiya prosesi zamanı nitq vahidi söyləm kimi çıxış edir. Bu isə digər qrammatik vasitələrlə bərabər, həm də intonasiya vasitəsilə həyata keçirilir. Düzgün seçilmiş söz və ifadələr sənədi sanki canlandırır, onun kommunikativ vahid kimi formalaşmasına xidmət edir. Müasir təşkilatlarda yayılmış sənəd nümunələrindən ən çox yayılanlardan biri də protokollardır. Protokollar da əksər sənədlər kimi obrazlı, emosional yazılmamalı, xüsusi tərtibat qaydalarına tabe olmalıdır. Nitqimizin canını təşkil edən ayrı-ayrı söz və ifadələr var ki, onlar öz-özlüyündə ünsiyyətin tələblərinə tam cavab vermir. Belə vahidlər, yəni qrammatik baxımdan tam və müstəqil cümlə kimi özünü göstərə bilməyən vahidlər, məhz sənədlərin dili vasitəsilə predikativlik xüsusiyyəti kəsb edir

və nitq prosesində müəyyən rol oynayır. Müasir ingilis dilində də Azərbaycan dilində olduğu kimi protokolların dil xüsusiyyətlərinə nəzər salarkən fellərin məchul növdə yazıldığını görmək mümükündür.Beynəlxalq işgüzar yazılar zamanı cümlənin struktur-intonasiya təhlilində sözlərin cümlə konturunda tutduqları mövqelərlə məna çəkiləri arasındakı qarşılıqlı asılılıqları nəzərə almaq lazımdır.Müxtəlif semantik sıçrayışlar kommunikativ cəhətdən müxtəlif tipik quruluşa malik cümlələr işgüzar yazışmalar zamanı vacib amillərdəndir. Bu da işgüzar yazışmalarda dildən istifadənin müxtəlif forma və növlərini şərtləndirir. Onlar cümlənin əvvəlində, ortasında gələrək, özlərinə məxsus rəngarəngliyə malik olurlar.Sözü gedən məsələnin ciddi şəkildə tədqiq edilmədiyini qeyd etməklə bərabər, onu da qeyd etmək lazımdır ki, hətta xüsusi, ixtisas-yönümlü akademik mətnlərin təhlilini apararkən nəticələr çıxarılmalıdırır[5,s.19].

Qeyd edilməlidir ki, mətndə tam şəkildə ifadə olunmayan mənalar mətni qəbul edənin öz ton və ətraf aləm və yaxud situasiya haqqında bilikləri sayəsində aşkar edilir. Mətnin qəbulunda eksplisit və implisit biliklər, görmə, eşitmə semantik obrazlara çevrilərək anlaşılır. Belə ki, mətnin elementlərindən maddiləşmiş eksplisit biliklər hafizənin köməyi ilə daha tez anlaşılır. Semantik obrazlar adətən implisit biliklərdə səslənir [4, s. 33].

Beləliklə, beynəlxalq yazışmalar zamanı məlumatın ötürülməsinin əlaməti, nişanı onun vahidlərinin müxtəlif səviyyələrdə (fonem, morfem, leksem, frazem, cümlə-propozem, tekstem, mətn-diskurs) çoxlu sayda struktur (quruluş formaları) nümayiş etdirməsidir. Belə ki, dil vahidləri hər bir səviyyədə müxtəlif linqvistik funksiyalar ifadə edə bilər.Bunlar özünü işgüzar yazışmaların dil xüsusiyyətlərində də bariz şəkildə göstərir.Sözü gedən prosesdə yazılan mətnlərin müntəzəm olaraq sonrakı işlərlə müqayisə edilməsi bu işdə olan irəliləyişi, o cüməldən dil sahəsində qazandıqları bilik, vərdiş və bacarıqların səviyyəsini təyin etməyə imkan verir.

Beləliklə, əldə edilmiş nailiyyətlərin işçilər tərəfindən dərk edilməsi, onlarda inam yaradır və dili məhz bu istiqamətdə öyrənməyə onlarda maraq və həvəsin yaranmasına səbəb olur. Nailiyyəti görməklə bərabər, bu yoxlama üsulu yəni müqayisəli təhlil üsulu hələ də problem, çətinliklər yaradan səhvlərin törədilməsinə səbəb olan sahələri aydın şəkildə görməyə real imkan yaradır.

Beynəlxalq yazışmalar zamanı informasiyanın strukturlaşması müəyyən prosedur qaydaların ardıcıllığını özündə ehtiva edir. Belə ki, mətni göndərən şəxs, ilk növbədə, lüğət tərkibindən lazımi sözləri seçməli, sonra sintaktik səviyyədə söz birləşməsi və cümlə quruculuğu ilə məşğul olmalı və nəhayət, hər iki səviyyənin mətndə necə işlədilə bilməsini müəyyənləşdirməlidir. Bu zaman bir çox linqvistik, psixoloji, sosial, mədəni və digər amillər həmin seçimə təsir edir [5, s.24].

Beləliklə, beynəlxalq işgüzar yazışmaların dili müəyyən qayda və qanunlara tabe olsa da öz rəngarəngliklər, nümayiş etdirdikləri “dil performansları” ilə diqqət çəkir.

Ədəbiyyat

1. Bloomfield J. Language, New York: George Allen, Unwin LTD, 1933, 553 p.
2. Ewer, J.R. Hughes-Davies, E. "Further notes on Developing an English Programme for Students of Science and Technology" in Swalls (ed., 1985),pp.34-45
3. Francis Katamba. Morphology. London: Macmillon Press, 1993, 90 p.
4. Firth J.R. Papers in Linguistics. London: Oxford, 1957, 189 p.
5. Friesch C. Meaning and Linguistic Analysis Language. 1954-vol, 30-№ 1- pt 1.
6. George Yule, The study of language, London: Cambridge, 1996, 307 p.

K. Najafova

The linguistic characteristics of international business writings

Summary

The article deals with the linguistic characteristics of international business writings. In communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Communicative output activities involve a similar real information gap. In order to complete the task, students must reduce or eliminate the information gap. In these activities, language is a tool, not an end in itself. In a balanced activities approach, the teacher uses a variety of activities from these different categories of input and output. Learners at all proficiency levels, including beginners, benefit from this variety; it is more motivating, and it is also more likely to result in effective language learning. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of literature. The author emphasizes its role in methodology. Since its emergence this notion caught the attention. New researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. Moreover, each text is unique in regard of the structure of the text, its genre, vocabulary, and language. Several factors influence a reader's interaction: how easy the text is to read, how accurately it follows the conventions of its genre or structure, the language it is written in, and even the type and the size of font. Reading is thinking cued by written language. Effective readers locate the basic information from the text. Literal comprehension is needed when reading fiction as well as when reading non-fiction. In fiction, a reader has to identify the characters and follow the events of the story. In non-fiction, a reader needs to comprehend the topic, learn new facts related to it, and be able to find and remember important information. However, mature

comprehension includes generalisation beyond the characters and the events of the story to the people and the events in real life.

Key words : strategy, oral speech,context

К. Наджафова

Лингвистические характеристики международных рабочих писем

Резюме

В данной статье рассматриваются вопросы лингвистические характеристики международных рабочих писем. Азербайджан обрел статус независимого государства, и его всесторонние связи развиваются и укрепляются. Сегодня в нашей стране существует настоятельная потребность в изучении иностранных языков. Внедрение новых идей в практику преподавания очень важно и актуально в нашей ситуации, так как владение языком сегодня является одним из необходимых условий для профессионального развития, и изучающие язык стремятся к овладению английским языком как средством общения. В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами.

Говоря знания преподавателей языка должны носить активный характер. Они должны быть готовы применить их, интерпретировать и адаптировать их применительно к конкретным ситуациям обучения и согласно интересам и потребностям своих студентов. Учителя языка должны знать, как язык функционирует в процессе речевой коммуникации, и как успешно использовать его, чтобы быть понятыми как носителями языка, так и людьми, которые таковыми не являются. В подобном контексте весьма существенным является подлинность используемых в процессе обучения языка текстовых материалов. Соответственно, в процессе обучения необходимо использовать реальные тексты и истории из реальной жизни, а не созданные писателями и зачастую не имеющие ничего общего с реальной действительностью и реальными условиями использования языка рассказы.

Ключевые слова: стратегия, устная речь, контекст

Redaksiyaya daxil olma tarixi: 20.09.2019
Çapa qəbul olunma tarixi: 01.11.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Zenfira Quliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

AYGÜN İBRAHİMOVA
Azərbaycan Kooperasiya Universiteti
Nəcəf Nərimanov 93.
aygün.@.mail.ru.

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ XARİCİ DİLİN TƏDRİSİ PROSESİNDƏ TEXNİKİ VASİTƏLƏRDƏN İSTİFADƏ EDİLMƏSİ METODİKASI
(İngilis dili materialları əsasında)

Xülasə

Bu gün yeni təlim texnologiyaları həyatımızın hər bir sahəsinə nüfuz etmişdir. Bu mənada audio və video materiallardan istifadə tədrisdə aparıcı rola malikdir. Belə ki, audio və video materiallardan istifadə auditoriyalarda kommunikativ səriştənin formalaşdırılmasında böyük rol oynayır. Azərbaycanın ali və orta məktəblərində ingilis dilini tədris edən ali ixtisas məktəblərinin məzunları mətnləri, o cümlədən formal və qeyri-formal xarakter daşıyan mətnləri, müasir və klassik ədəbiyyat nümunələrini dinləyib öz münasibətlərini, mövqeyini, fikir və ideyalarını bildirmək qabiliyyətinə yiyələnməlidirlər. Əksər hallarda ixtisası dil olan fakültələrdə dili professional məqsədlərlə öyrənən tələbələr xarici ədəbiyyat nümunələri olan və dünya ədəbiyyatının xəzinəsinə daxil edilmiş əsərlərlə tanış deyillər. Bəzən onlar həmin əsərlər haqqında heç bir məlumata malik deyil. Onu da xüsusilə qeyd etmək lazımdır ki, klassik ədəbiyyat nümunələrində personajların istifadə etdiyi nitq modelləri, bu gün istifadə edilən dildən əhəmiyyətli dərəcədə fərqlənir. Buna görə də audio və video materialların seçiminə diqqət yetirmək lazımdır. Müasir universitet tələbəsi təkcə bu və ya digər sahədə ixtisaslaşmış kadr kimi formalaşmamalıdır. O, həm də ünsiyyətə hazır olmalı və müxtəlif insanlarla ünsiyyət qurmaq, komanda tərkibində işləyə bilmək, ətrafdakılara motivasiya verə bilmək kimi tamamilə yeni sosial bacarıqlara yiyələnməlidir. Məhz bu baxımdan ədəbi xəzinə əlçatan olmalıdır. Qloballaşma prosesinin labüdlüyünü və bu prosesə inteqrasiyanın qaçılmaz olduğunu nəzərə alaraq, elm və təhsil sahələrinin qloballaşma proseslərinə adaptasiyası dildə onun təmin olunmasını şərtləndirən amillər sırasına daxil olmuşdir. İlk öncə ona görə ki, məhz bu sahələrdə təkcə yeni bilik və texnologiyalar deyil, həm də insanın fikirlərinin ifadəsinin bu və ya digər formalarının yeni mexanizm və üsulları da gündəmi zəbt edir. Bu zaman audio və video vasitələrdən istifadə vacib sayılır.

Açar sözlər: kommunikasiya, innovasiya, dil, metod, texnologiya , nitq

Bildiyimiz kimi, xarici dilin mənimsənilmə səviyyəsi dörd bacarıqla ölçülür: oxu, eşitmə, yazı və danışıq. Yeni texnologiyaların inkişafı ilə bağlı olaraq, bu bacarıqların ikisi, eşitmə və danışıq ön plana keçir. Bu iki bacarığın daha yaxşı mənimsənilməsi və öyrədilməsi üçün audio və video materiallardan istifadə zəruridir. (1-p.17)

Kommunikativ səriştənin formalaşdırılmasının başlıca şərtlərindən biri dinləmə bacarıqlarının inkişaf etdirilməsidir[1,34]. Kommunikasiya interaktiv proses olub, insanlarla ünsiyyət qurduqda daha mənalı olur. İnsanlarla ünsiyyət qurarkən biz təkcə danışmır, həmçinin qarşımızdakını dinləyir və qəbul etdiyimiz informasiyaya münasibət bildiririk. Görkəmli metodistlərdən biri olan Penni Ur "A course in language teaching" kitabının "Real-life listening in the classroom " bölməsində qeyd etmişdir ki, tələbələrin dinləmə bacarıqlarının inkişafı audio materialların düzgün seçilməsindən asılıdır.

Məlumdur ki, xarici dilin öyrənilməsində müəllimin rolu böyük və danılmazdır. Müəllimin vacib rollarından biri də onun informasiya mənbəyi olmasıdır. Müəllim tələbələrin dinləmə və anlama bacarıqlarını inkişaf etdirmək, onları videomateriallarla təmin etmək üçün müxtəlif mənbələrdən, internet resurslarından istifadə edərək xarici dildə olan videolar, qisa metrajlı filmlər izləməyi məsləhət görə bilər. C.Harmer eyni adlı kitabda, auditoriyada videomaterialların istifadə metodikasından da danışmışdır. O, videomateriallardan səmərəli şəkildə istifadə etmək üçün bir neçə üsul göstərmişdir:

• Fast Forward (sürətlə irəli çəkmək) – Bu üsuldan istifdə edərək müəllim filmdən bir parçanı və yaxud bir videoroliki sürətlə irəli çəkir. Videorolik bitdikdən sonra müəllim tələbələrdən bu videonun nə haqqında olduğunu və personajların nə dediyi haqqında məlumat alır. Bizim fikrimizcə, belə üsuldan istifadə tələbələrə videonu izləyərkən diqqətini onun əsas və vacib hissələrinə istiqamətləndirmək və videodan danışılan mövzunun məğzini anlamağa imkan yaradır.

• Silent viewing (for language) – səssiz izləmə- Bu üsüldan istifadə edərək müəllim tələbələrə səssiz şəkildə, lakin normal sürətdə filmi izləməyə şərait yaradır. Film parçası bitdikdən sonra o tələbələrdən personajların nə haqqında danışdıqlarına dair ehtimallar irəli sürməyi istəyir. Hər bir tələbənin cavabını aldıqdan sonra, müəllim film parçasını yenidən, lakin səsli şəkildə oynadır və beləliklə tələbələr ehtimallarının doğru olub olmadığını yoxlayırlar. Belə üsuldan istifadə edərək, müəllim tələbələrə ünsiyyət zamanı təkcə deyilən sözlərə deyil, həmçinin jestlər və mimikaya da fikir verməyi öyrədir.

• Freeze frame: (stop-kadr) – burada isə müəllim, videonu hər hansı hissəsində dondurur və tələbələrdən növbəti səhnədə nə baş verəcəyini və yaxud personajın növbəti səhnədə nə deyəcəyini soruşur. Bu üsul da digər üsullar kimi kommunikativ bacarıqların formalaşmasında böyük rol oynayır. Tələbələr artıq situasiyadan və yaxud ünsiyyətdə olduqları adamın mimika və jestlərindən onun nə deyə biləcəyini əvvəlcədən təhmin edə bilər və bu biliyə əsaslanaraq ünsiyyəti davam edə bilərlər [5, 78]. Müəllim hər hansı audio materialı dinlətməzdən əvvəl mütləq materialı dinləmələrinin səbəbini, dinlədikləri parçadan hansı informasiyanı əldə etməli olduqlarını tələbəyə əvvəlcədən bildirməlidir. Belə olan halda tələbə dinlədiyi parçanın hansı hissəsinə daha çox önəm verməli olduğunu bilir və artıq bu hissəyə fikrini cəmləyərək, informasiya əldə etməyə çalışır. Tələbə qarşısında qoyulmış məqsədlər onun motiva-

siyasını qaldırmağa qadirdir. Məqsədlər müxtəlif şəkildə qoyula bilər. Onlardan biri əvvəlcədən hazırlanmış suallardır. Müəllim hər hansı parçanı tələbəyə dinlətməzdən əvvəl, onu suallarla tanış edir və dinləyəcəyi parçadan konkret sualların cavabını tapmağı tələbəyə tapşırır. Belə olan halda tələbə məlumat üçün bütün parçanı dinləyir, suallara cavab tapa biləcəyi hissəyə isə daha çox önəm vererək daha diqqətlə dinləməyə və anlamağa çalışır. Belə nəticəyə gəlirik ki, kommunikativ səriştənin formalaşdırılması müstəqil həyata keçən proses deyil. Kommunikasiya dedikdə biz təkcə şəxsin danışıq bacarıqlarını nəzərdə tutmur, həmçinin onun eşitmə və dinləmə bacarıqlarını nəzərdə tuturuq. Ətrafımızda olan insanlarla ünsiyyət qurarkən biz təkcə danışmır, həmçinin onu dinləyir və eşidib anladığımız informasiyaya münasibət bildirirk. Deməli, buradan elə nəticəyə gəlirik ki, biz qarşı tərəfin nə dediyini anlamasaq onun verdiyi informasiyaya münasibət ifadə edə bilmərik və beləliklə, insanlarla ünsiyyət qurmaq bizim üçün çətinləşir. Buradan isə belə nəticəyə gəlirik ki, kommunikativ səriştənin formalaşdırılmasının başlıca şərti eşitmə bacarıqlarının inkişaf etdirilməsidir.(3-p.451)Nitqin dinləmə vasitəsilə qəbul edilməsi aktiv, məqsədyönlü xarakteri ilə fərqlənir. Bu prosesin uğurlu şəkildə başa çatması mürəkkəb zehni-mnemonik fəaliyyətlə bağlıdır. Dinləmə prosesinin müvəffəqiyyət dərəcəsi diqqətin cəmlənmə səviyyəsindən asılıdır. Xarici dili öyrənən hər hansı bir şəxs dinləmə prosesində nə qədər diqqətli olarsa, bir o qədər də müvəffəqiyyətli nəticə göstərərək dinlədiyi parçadan daha çox informasiya əldə edə bilər. Diqqət duyğuların köməkliyi ilə yaranır və onların hesabına inkişaf edir. Ancaq insan duyğuları iradə prosesi ilə sıx bağlı olduğundan özünü bu proseslə birlikdə birüzə verir. Dinləmə prosesinin müvəffəqiyyət səviyyəsi tələbələrin yeni bilik əldə etmə tələbatlarından, dinlədikləri parçaya olan maraqdan və başqa subyektiv amillərdən aslıdır. Tədris prosesinin mürəkkəb təşkilatı, təqdimatın dəqiqliyi və tutarlılığı, tədris metodlarının müxtəlifliyi daxili motivasiyanı yaratmağa imkan verir, tələbələrin diqqətini mənimsənilən material əsasında gələcək praktiki fəaliyyətlərini proqramlaşdırmağa kömək edən məqamlara yönəldir. Yuxarıda da qeyd etdiyimiz kimi, audio və videomateriallardan istifadənin faydalı olmasına baxmayaraq bəzən dərs prosesində bu vasitələrdən istifadə çətinliklərlə şərtlənir. Bir çox metodistlər audio və video materialların istifadəsi ilə bağlı çətinlikləri araşdırmış və onların həlli yollarını tapmağa çalışmışdır. Bu metodistlərdən biri də metodist C.Harmer olmuşdur. O, audio materialların faydaları haqqında danışarkən aşağıdakıları qeyd etmişdir. C.Harmerin fikrinə əsasən, dinləmə materialları tələbələrə müxtəlif dil formaları ilə yaxından tanış olmağa və onları təbii mühitə uyğunlaşdırmağa daha çox şərait yaradır. Lakin audio materialların üstünlükləri ilə bərabər çatışmayan cəhətləri də vardır. C.Harmer dinləmə materiallarının mənfi cəhətlərindən və onların istifadəsi zamanı qarşıya çıxan çətinliklər və onların həlli yolları haqqında da geniş şəkildə danışmışdır [4-p, 3-11]. Zəif akustikası olan böyük auditoriyalarda qeyd olunan materialın səsləndirilməsi tez-tez narahatlığa səbəb olur və nəticədə auditoriyada bütün tələbələrin eyni dərəcədə yaxşı eşitməsini təmin etmək bəzən çətinləşir[2, 21]. Audio materialların istifadəsinə dair qeyd edilmiş başqa bir

problem ondadır ki, auditoriyadakı hər kəs səs yazısını əvvəlcədən müəyyənləşdirlimiş və hər kəs üçün eyni olan sürətlə dinləməlidir. Dinləmə materiallarının daha bir mənfi xüsusiyyəti ondan ibarətdir ki, tələbələr dinlədikləri şəxsin danışıq prosesində meydan çıxan üz cizgiləri, mimikalarını görmür və beləliklə, dinlədikləri materialı tam şəkildə anlamaqda çətinlik çəkirlər. Təbii danışıq prosesində dinlənilən mətnlə audio materiallar vasitəsilə dinlənilən mətn arasında çox böyük fərq vardır. Real ünsiyyətdə danışanı dinləyərkən anlamadığımız bir ifadə və ya fikir olarsa, biz dərhal danışanı dayandırıb daha öncə ifadə etdiyi fikri və ya sözü təkrarlamasını və yaxud da izah etməsini xahiş edə bilərik. Lakin audio materialları dinləyərkən biz bundan məhrum oluruq. Dinləmə materiallarının bir neçə mənfi xüsusiyyətləri olmasına baxmayaraq, müəllimlər dərs prosesində onlardan istifadə edirlər və bu istifadənin maksimal şəkildə faydalı olması üçün ortaya çıxan çətinlikləri və problemləri həll etməyə çalışırlar.

Ədəbiyyat

1. Allen V.F. Trends in the Teaching of English // TESL, Reporter 6, Summer 1973, № 4, p.17
2. Alptekin C. Target Language Culture in ELT Materials // ELT Journal, 1993,47, 2, p. 136- 43
3. Bailey K.M. and D. Nunan (eds.) Voices from the language classroom. Cambridge: Cambridge University Press, 1996, 451p.
4. Halliday A. The House of TESEP and the Communication Approach: The Special needs of English Language Education // ELT Journal, 1994, v.48 (1), p. 3-11

A.Ibraguimova

Method of using technical means in the process of teaching foreign language in higer education institution

Summary

The article deals with the role of audio and video materials in developing communicative competence in language faculties and working out effective ways of listening skills.Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. The article is devoted to the audio and video materials in modern methodology. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of literature. The author emphasizes its role in methodology. Since its emergen-

ce this notion caught the attention. New researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. The main aim of State program is to form a unique national education by means of ICT and provide qualitative educative opportunity in order to integrate into worldwide education system. One of the main goals of language learning is to acquire the ability to communicate effectively. It will make the process of teaching oral speech more effective.Key words: communication, innovation, language, method, technology, speech

А.Ибрагимова

Методика использования технических средств в процессе преподавания иностранных языков в высших учебних заведаниях

Резюме

В данной статье рассматриваются вопросы обучения устной речи на английском языке в условиях языкового вуза. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранном языке. Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть роль упражнении. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Основной целью Государственной программы является формирование единой обшенациональной среды образования путём внедрения и использование современных информационно-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образовании. Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке.

Ключевые слова: коммуникация, инновация, язык, метод, технология, речь

Redaksiyaya daxil olma tarixi: 24.08.2019
Çapa hazırlanma tarixi: 24.11.2019
filologiya elmləri namizədi, dosent Gülarə Teymurova tərəfindən çapa tövsiyə olunmuşdur

FİRƏNGİZ PƏNAHOVA
Azərbaycan Texniki Universiteti
H.Cavid gh.25
firəngiz. @.mail.ru

İNGİLİS DİLİNDƏN AZƏRBAYCAN DİLİNƏ YENİ SÖZLƏRİN TƏRCÜMƏSİ PROSESİNDƏ NƏZƏRƏ ÇARPAN UYĞUNLUQLAR VƏ ÇƏTİNLİKLƏR

Xülasə

Azərbaycan dili son illər ərzində yeni sözlər , terminlər , istilahlar və ifadələrlə zənginləşmişdir və bir çox dəyişikliklərə məruz qalmışdır . Xalqımızın şüuu , ruhu , mədəniyyəti və bədii zövqü dəyişdiyi kimi dünyada baş vermiş siyasi – iqtisadi və ictimai dəyişikliklər nəticəsində onun ifadə tərzi də , düşünmə formaları da dəyişmişdir . Bu baxımdan son dövrlər də tərcümə köklü dəyişikliklərə məruz qalmışdı və eyni zamanda müasir dövrün tələblərinə cavab verməlidir və yeni siyasi , iqtisadi , ictimai şüurun formalaşmasına xidmət etməlidir . Hər bir dildəki söz və ifadələr özlərinə məxsus forma və mənaya malik olur . Müxtəlif dillərin bir – birindən fərqi odur ki , dil vahidləri formasına görə bir – birindən fərqləndiyinə halda məzmununa , başqa sözlə mənasına görə uyğun gəlir . Burada xüsusi qeyd etmək azımdır ki , dil vahidlərinin əksəriyyəti çoxmənalı olur və mətn daxilində sözlərin özünəməxsus üslub xüsusiyyətləri meydana çıxır . Ona görə də , tərcümə zamanı sözlərin çoxmənalığına , mətn daxilindəki məna çalarlığına diqqət yetirmək xüsusi əhəmiyyət kəsb edir . Bundan əlavə tərcümə prosesində orjinal mətnin üslubunu , emosionallığını , ifadə tərzini olduğu kimi saxlamaq lazımdır .

Müasir dövrdə həm yazılı , həm də şifahi tərcümə geniş yayılmışdır . Yazılı və şifahi tərcümə eyni zamanda bədii və elmi tərcümə kimi iki növə ayrılır . Elmi tərcümənin əsas qollarından biri siyasi publisistik əsərlərin tərcüməsidir . Şifahi tərcümənin iki əsas növü var : a) fasilə və b) ardıcıl (sinxron) tərcümə . Yazılı tərcümədə tərcüməçi daha artıq imkanlara malik olduğu halda şifahi tərcümədə vaxt imkanı məhdudlaşır . Sinxron tərcümə zamanı danışanın nitqi ilə tərcüməçinin tərcüməsi fasiləsiz olaraq həyata keçirilir . Bu növ tərcümədən elmi və ictimai – siyasi konfranslarda , qurultaylarda , yığıncaqlarda və təkbəkət siyasi görüşlərdə istifadə edilir . Siyasi mətnlərin tərcüməsində üslubi cəhətlərin tərcüməçi tərəfindən dərindən öyrənilməsi nəticə etibariylə onun , yəni tərcüməçinin məharətinə və düzgün formada tərcümə etməsinə gətirib çıxarır .

Açar sözlər:İngilis dili,tərcümə,yeni sözlər,proses,Azərbaycan dili,sinxron.

Tərcümədə iki başlıca moment özünü biruzə verir : a) tərcümə olunacaq fikrin tam başa düşülməsi ; b) başa düşülənin adekvat şəkildə ana dilində ifadə olunması . Bu iki momentin vəhdətindən ibarət olan tərcümə prosesində özgə dildə söylənilmiş fikri semantik , üslubi və qrammatik nöqte-yi – nəzərdən təhlil olunur . Hər bir sözün leksik mənası və üslubi xüsusiyyəti ilə yanaşı onun qrammatik məna və vəzifəsi müəyyən olunur . (1-p43-49)

Elmin , texnikanın inkişafı ilə əlaqədar yaranan yeni anlayışların adlarını ifadə edən yeni sözlər , yaxud neologizmlər adlanır . Dildə yeni yaranan neologizmlər bir müddət sonra , ümumişlək sözlər sırasına keçə bilər , hətta köhnələrək dildən çıxa bilər . Neologizimlər İngilis dilində böyük əhəmiyyətə malikdir . Zaman keçdikcə , texnologiynın inkişafı nəticəsində Azərbayca dilində olduğu kimi İngili dilində də yeni sözlər yaranmağa başladı . yalnız bu amillər deyil , eləcə də bir sıra amillər neologizmlərin yaranmasına gətirib çıxartdı . Yeni sözlər dilə gözəllik gətirir və onun istifadə əhatəsini genişləndirir . Neologizmlər inkişaf ərzində dilə daxil olan istənilən yeni sözlərə deyilir . Yeni sözlər və ifadələr yeni sözlərin yaranmasındanda irəli gəlir .

Neologizmlərin taleyi barədə əvvəlcədən xəbər vermək mümkün deyil , çünki onların bəziləri az yaşayır , bəziləri isə uzun ömürlü ola bilir . Neologizmlər eləcə də yeni kəşf olunmuş sözlərə deyilir . İstənilən dilin lüğəti eyni qalmır , daim dəyişir . Yeni anlayışların olması onların onları yeni adlarla adlandırmağı tələb edir . Neologizimləri başqa dildən alımış yaxud dildə mövcun olan sözlər üçün yeni yaranmış mənada adlandırmaq olar . Elmin , iqtisadiyyatın inkşafı nəticəsində çoxlu neologizmlər yaranmışdır . Öz mənasını dəyişərək yeni məna kəsb edən sözərdə neologizm hesab olunur .Neologizmlər yeni mədəni konteksdən götürülən ixtiraların , yeni hadisələrin və köhnə fikirlərin eyniləşdirilməsində xüsusilə yaradılır . Neologist elə şəxsdir ki , neologizmi inkişf etdirir və neologiya dilə neologizmin təqdim olunma fəaliyyətidir .

Dildə yeni olmaq o deməkdir ki , bu qəbidən olan sözlər digər işlək sözlərdən fərqlənir . Neologizmlər ictimai həyatın , elmin , texnikanın , mədəniyyətin , siyasətin və iqtisadiyyatın inkişafı ilə bağlı olaraq yaranır , 5-10 il ərzində dilin lüğət tərkibində yeni sözlər olaraq qalır . Hamı tərəfindən başa düşüldükdən sonra , öz yeniliyini itirir . Məsələn : kosmos , lazer şüaları , yarımkeçiricilər , neytron bombası və s . kimi dil nümunələri bir zamanlar neologizmlər olsa da , hazırda əksəriyyət tərəfindən başa düşülür , işləklik dərəcəsi genişdir .(2-p.123-129)

Sözə tarixi kateqoriya kimi yanaşanlar haqlıdırlar . Ona görə ki , söz də yaranır , yaşayır , getdikcə dildə sabitləşir , bəzən köhnəlir , bəzən də dildən çıxır . Bu mənada müəyyən dövürdə neologizm hesab olunan söz başqa bir dövrdə öz yeniliyini itirir . Belə ki , əşya , hadisə , anlayış yeni olanda onu adlandıran söz də yeni olur . Əşya , hadisə , anlayış öz yeiliyini itirdikdə onu adlandıran sözdə yeniliyini itirir . Artıq bu tipli sözlər qəbul olunmur . Onlar neologizm mahiyyətini itirmiş , köhnəlmiş və tarixizmlər cərgəsinə daxil olmuşlar .

Hazırda həyatımıza , məişətimizə daxil olan yenilik neologizmlərin yaranması səbəbinə çevrilir : interner , biznesmen və s .

Neologizm anlayışı nisbi anlayışdır . Bu anlayışın yenilik əlaməti də müvəqqətidir . Get – gedə neologizm hesab olunan belə sözlər də sabitləşəcək, hamı tərifindən başa düşüləcək və beləliklə öz yeniliyini itirəcəkdir . Yaxud da dildə köhnəlmiş sözlər cərgəsinə keçməklə tarixizmlər sırasında olacaqdır . Yeni əşyanı , hadisəni , məfhumu ifadə edən sözlər kimi dərk olunur , dilin lüğət tərkibinin işlək sahəsinə düşə bilmir .Neologizmlər əmələ gəlmə yollarına və mənbələrinə görə dilin daxili imkanları hesabına , başqa dillardən söz almaq yolu ilə , yaxud fərdi üslubi şəkildə yarana bilər . Dilin lüğət tərkibinə daxil olan sözlər həmişə neologizm olaraq qalmır . Get – gedə dəyişir , hamının hamı tərəfindən anlaşma dərəcəsindən asılı olaraq öz yeniliyini itirir və neologizmlikdən çıxır . Bu mənada zaman keçdikcə neologizmlərin bir çoxu öz yeniliyini itirsə də , bəzi dilçilik ədəbiyyatlarında hələ də neologizm kimi verilir . Əlbəttə , bu , həmin dilçilik əsərlərinin belə sözlərin neologizm olduğu dövrdə yazılması ilə bağlıdır . Burada zamanın , dövrün dəyişməsi neologizm kim qəbul olunmuş onlara verilən (neologizmlərə) tələblətlə ayaqlaşa bilmir .

Elmi – texniki , ictimai , iqtisadi və mədəni həyatda baş verən yeniləşmələr dildə öz təsirini aydın göstərir . Bu təsir bütün elmi anlaışları ifadə etmək imkanına malik olan , daim yeniləşən və zənginləşən terminologiyada daha qabarıq müşahidə olunmaqdadır .Cəmiyyətin ictimai – siyasi həyatında baş verən dəyişikliklər dilin daxi inkşaf qanunlarına , onun leksik qatının yeniləşməsinə təsir edən əsas amillərdən biridir .Elmi – texniki tərəqqi , Avropa inteqrasiya , ictimai – siyasi bir çox terminlərin meydana gəlməsi ilə nəticələnir . Tərcümə dil öyrənənin yaddaşını mökəmlətməklə yanaşı onun söz ehtiyyatını zənginləşdirir və istifadə olunan üslubun mahiyyətini dərk etməklə dərindən kömək edir . İctimai – siyasi əsərlərdə hər hansı müəyyən bir məzmuna malik olan məlumat hökmən təbliğat – təviqat səciyyəli olduğu üçün bu qəlibdən olan əsərlərdə üslubi vasitələrə daha geniş yer verilir . bunların arasında sintakti üslubi və ifadə vasitələri daha çox üstünlük təşkil edir . Qeyd etmək lazımdır ki , ictimai – siyasi əsərlərin dili yazılı nitqin elementlərini özündə daha çox daşımasına baxmayaraq , danışıq dilinin , başqa sözlə , şifahi nitqin elementləri üslubi vasitə kimi bu növ əsərlərdə xüsusi əhəmiyyət daşıyır . Əsər və ya nitq bir başa oxucuya və ya dinləyiciyə yönəldiyi üçün orda emossional təsir qüvvəsinə malik olan üslubi vasitələrdən ritorik suallardan , təkrarın müxtəlif növlərindən , paralel konsruksiyalardan nitqin kəsilməsindən , ellipslərdən , antitezadan və sairdən geniş istifadə olunur . Bir sıra dilçilər ictimai – siyasi əsərlərin dili və üslubu ilə bədii əsərlərin dili və üslubu arasında daha çox yaxınlıq olduğunu və <<neytral>> tərcümənin ifadəsinin əleyhinə çıxırlar , çünki onların fikrincə <<neytral>> üslub və << neytral>> tərcümə özlüyündə quru olduğu üçün heç bir emossional çalarlığa malik olmur və bunun ictimai – siyasi üsluba şamil edilməsi qeyri mümkündür . İctimai – siyasi mətnlərin tərcüməsi hər iki dildə işlənən terminlərin dəqiq olması ilə yanaşı ayrı – ayrı frazaların sərbəst surət işlənməsinə yol verir və bu ümumi məzmuna eç bir xələl gətirmir . İctimai – siyasi mətnlərin tərcüməsində hər iki dildə işlənən terminlərin dəqiq olması ilə yanaşı ayrı – ayrı frazaların sərbəst surət işlənməsinə yol verir və bu ümumi məzmuna

heç bir xələl gətirmir . İctimai – siyasi mətnlərin tərcüməsində hər sözün , hər ifadənin , hər cümlənin üslubi və leksik cəhətdən düzgün verilməsi xüsusi əhəmiyyət daşıyır və tərcüməçidən həm siyasi savad , həm dərin bilik , həm geniş dünyagörüşünü , həm hər iki dilin incəliklərini və üslubi xüsusiyyətlərini fərqləndirmə qabiliyyəti , həm də zəngin söz bazası tələb edir və onun << tərcüməsinin yalançı dostları >>nıntoruna düşməməlidir . << Tərcüməsinin yalançı dostları >> hər iki dildə formaca oxşar, lakin məzmunca və məna etibarilə müxtəlif olan xüsusi leksik mikro sistemi əhatə edir . Adətən , bu sözlər 21 eyni nitq hissəsinə aid olur və eyni kontekstlərdə təsadüf edilirlər .

Ədəbiyyat

1.Molhova J. Outlines of English Lexicology . M.,2006,pag:43-49
2.Gamperz J . Socio cultural know ledge in conversational inference L.,1997,pag:123-128
3.Dijk T.A. Studies in the pragmatics of discourse. H. , 1981,pfg:160-168.

F.Panakhova

Stylistic features in translation of english neologisms

Summary

The article deals with the English neologism covering all spheres of the science and social life . Their importance in the English language calls forth observance of specific methods of translation and it requires learning lexical – semantical fealtures of English neologisms .Like other lexical groups neologisms acquire connotative meanings in the text and they denote emotional colour in the communication .Their fore the article is devoted to reveal stylistic features of neologisms .

The article deals with the role and meaning of neologisms in the contemporary French language, formation of new words with help of English, also their form and meaning, types of structure in phraseolojical units.

The autor of this article deals with the means of communication which is developing and prospering today. The majority of words that are generally used as terms in both Azerbaijani and English were formed in the ancient times of language. According to the author, terms that are considered as the main parts of language were on the turn due to development. And it was reflected mostly in the terminological systemö Term creativity in Azerbaijani and English is formed by semantic, morphological, syntactical, loan translation and so on.

The increase in the number of terms that are included Azerbaijani and English and the enrichment of the terminological base are mentioned and are interpreted. Consequently, the author has come to a conclusion that the creativity of terms in both Azerbaijani and English.

Key words:traslation in Eniglis,nouvels words,process,Azerbaidjani language,sinkhron.

Ф.Панахова

Стилистические особенности перевода английских неологизмов

Резюме

Статья посвящена изучению английских неологизмов , которые охватывают все сферы науки и общественной жизни . Их важное место в языке вызывает необходимость соблюдения специфических методов и требует изучению лексико – семантических особенностей неологисмов .Как другие лексические группи неологизмы приобретают коннотативные значения тексте и обозначают эмоциональная функция в языке . Настояшая статья посвящена изучении сетилистических оттенков неологизмов .

В статье рассматриваются актуальные проблемы сокращений в английском языке на основе сопоставительного анализа языков неологизмов. Целью данной статьи является определение термина «неологизм» в английской терминологии для классификации терминовнеологизмов с точки зрения их происхождения.Поэтому сами средства формирования новых слов часто выступают в качестве стилистического устройства. Наиболее характерными способами формирования неологизмов на языке современных английских писателей являются сочинение, преобразование и изменение значений слов. Анализ новых слов показал, что преобладающим Масса новых словарных единиц - это, как и следовало ожидать, существительные, поскольку расширение словаря происходит главным образом из-за названий предметов и явлений, заполняющих культурологическое пространство.

Изучение новых слов позволило выявить некоторые тенденции которые характеризуют расширение лингвокультурологического пространства в рассматриваемый период. Есть много способов перевести неологизмы в экономические темы с английского на английский. Переводчик может интерпретировать «внутреннюю форму» неологизма с большой осторожностью и только в тех случаях, когда есть полная уверенность в адекватности полученного перевода.

Ключевые слова:Английский язык,перевод,неологизм,процесс, Азербайджанский язык, синхрон

Məqalənin redaksiyaya daöil olma tariöi:
Çapsiyya nazırlanma tarixi:
filologiya elmləri namizədi,dosent Adilə Zeynalova tərəfindən çapa tövsiyə olunmuşdur

NURİYYƏ RZAYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Texniki Universiteti
H.Cavid 25.
nuriyyə.@.mail.ru.

İNGİLİS DİLİNİN KANADA VARİANTI İLƏ BRİTANİYA VARİANTI ARASINDA FƏRQLİ FONOLOJİ XÜSUSİYYƏTLƏR

Xülasə

Kanada ingilis dili standart ingilis dilinin amerika variantı ilə bir sıra fonoloji xüsusiyyətlərə malikdir. Bunlara rotisiti hadisəsini (syllab final rhoticity) və yuvaq flıpinq hadisəsini (alveola flopping) misal göstərmək olar. Kanada ingilis dilini rotik adlandırmaq ola,r belə ki, ingilis dilinin standart Amerika və İrlandiya variantlarında olduğu kimi , kanada ingilis dilində də son heca [r] kimi tələffüz olunur. Məsələn <car>, <farm> sözlərində olduğu kimi . Maraqlısı budur ki, ingilis dilinin Laneburq və Yeni Şotlandiya variantları [r] düşümlü nadir Kanada dialekti kimi seçilir. Fləpinq (tək zərbəli) intervokal (iki sait səs arasında) [t] və [d] səslərinin tələffüzü zamanı dilin yuvaqlara cəld cingiltili zərbəsi (toxunması) deməkdir. Kanada və Amerika İngilis dilində bu hadisə yalnız [t] və [d] səslərinin iki sait səs arasında və sonuncu saitin vurğusuz mövqeydə olması zamanı baş verir. Məsələn, waiting, wading,seated, seeled, capital və s. Saitlə kipləşən samit arasında [r] səsi olduqda da fləpinq baş verir (məsələn, barter, party). Kanada İngilis dilində bu xüsusiyyət yaşla əlaqədardır. Havard Vuds göstərir ki Kanadada yaşlı nəsil gənc nəsillə müqayisə kipləşən zərbəli samitlərin zərbəli samitlərlə əvəz olunmasına daha az yol verirlər.Kanada İngilis dilinin əsas xarakter xüsusiyyətlərindən biri dilçilərin <<Canadian Raising>> adlandırdıqları modeldir. Diftonqlar üzərində aparılan ümumi araşdırmalar göstərmişdir ki , İngilis dilində 3 fonematik diftonq vardır.Bu diftonqlardan ikisinin nüvəsi alçaq vəziyyətli saitlərdir; ride [aI] və loud [av]. Kanada İngilis dilində hər iki diftonqun müəyyən fonoloji şərtlər daxilində variantları mövcuddur- kar samitdən əvvəl [aI] diftonqu [vI], [av] diftonqu isə [vu] ilə əvəz olunur . Bu variantlar qalxan və ya mərkəzləşmiş diftonqlar adlandırırlar çünki onların nüvəsi daha açıq sait deyilir.

‘’Canadian Raising’’ ilk dəfə Martin Cus tərəfindən diqqətə çatdırılmışdır (1-s.94-102). Bu xüsusiyyətləri isə başqa dialektlərdə mövcuddur Şimali ABŞ şəhərlərində [av] kimi işlənir. İngilis dilinin Martars Vineyard variantında isə hər iki diftonq işlənir (writer və poriter kimi sözlər çıxmaq şərtilə). Hər bir Amerika dialektində bu model dəyişkəndir. Kanada İngilis dilində isə bu model əhəmiyyətli dərəcədə qətidir; bu yalnız kar samitlərdən öncə mümkündür.

Açar sözlər: İngilis dili,Kanada,fonetika,variant,Britania ləhcəsi

Kanada İngilis dilinin mənşəyi hələ də mübahisəlidir. Palatalar və digərləri ondan Kanada İngilis dilinin loyalist köklərinin dəlili kimi istifadə edirlər. Onun Amerika inqilabı zamanı qaçqın düşmüş loyalistlərin İngilis dili olması güman edilir.

Bu xüsusiyyət Kanadada hələ də müəyyən linqvistik anklavlarda xüsusilə də Loyalist İngilis dilinin ən az təsirinə məruz qalmış Yeni Şotlandiya və Ottava vadisinə özünü büruzə verməkdir. Bundan başqa Kanada İngilis dilinin Yeni Şotlandiya və Ottava variantlarına təsir göstərmiş Şotlandiya və İrlandiya variantlarında da eyni modelləri görmək olar. Beləliklə, bu modelin Cənubi Ontarioya (həmçinin Qərbi Kanadaya) kim razılığa gəlmişlər ki, bu model İngiltərə 15 və

16-cı əsrlərdə baş vermiş Böyük sait Dəyişməsinin daşlaşmış bir qalığıdır. Böyük Sait Dəyişməsi (Great Vowel Shift) bütün İngilis sait sisteminin Orta əsr İngilis dilindən tutmuş müasir İngilis dilinə qədər dəyişməsinə deyilir. Dəyişməyə qədər <five> , <house> sözləri [fi:v] , [hu:s] kimi, qapalı saitlərlə tələffüz olunurdu. Böyük Sait Dəyişməsi nəticəsində qapalı saitlər açıq saitlərlə [faIv], [havs] əvəz olundu. Qalxan diftonq modeli müəyyən Orta əsr İngilis dili dialektlərindən miras qalmışdır. Kanada İngilis dilində digər bir özəl xüsusiyyət sözlərdə prerotik (r-dan öncə) saitlərin paylanmasıdır. Amerikan İngilis dilində iki sait arasında yerləşən [r] səsindən öncə yerləşən [a] səsinin [v] səsi ilə əvəz olunması kimi mövcud modelə müqavimət göstərmək Kanada dilində prerotik saitlərin nəzərə çarpan aspektidir.

Sorry, tomorrow, borrow, sorrow və Laura kimi sözlər Amerikan İngilis dilində məcburi olaraq bu modelə əsasən tələffüz olunurlar. Florida, orange, oracle, Norwich, adorable , thesaurus kimi sözlərlə (a) əvəzinə (v) səsinin işlənməsi dəyişkən şəkildə aşkarlanır. Cari dəyişikliklər göstərir ki, Amerikan İngilis dilində intervokal [r] samitindən öncə işlənən [a] səsi öz qüvvəsində qalır.Nəticədə Amerikan tələffüzü ilə, məsələn,[‘sarı],[‘barov] və Kanada tələffüzü [‘sarı],[darov] arasında ziddiyyət yaranır.Bildiyimizə görə,bu xüsusiyyət Kanada dialektologiyasının nəşr edilmiş heç bir müzakirələrində nəzərdən keçirilməmişdir,lakin onun Kanada İngilis dilinin dəyişməz,qəti markeri olması təklifi məqsədəuyğundur.Baxmayaraq ki,Kanada dilində intervokal [r] səsindən öncə [a] saiti öz qüvvəsində qalır,eyni mövqedə [ae] və [e] sairləri arasında olan fərq qismən və ya tamamilə aradan götürülmüşdür. Nəticədə <<marry-merry>> və <<Barry-berry>>kimi söz cütlükləri homofon sözlərlə çevrilmişdir.Ottava sakinləri ilə apardığı tədqiqatlar nəticəsində Hovard Vuds yaşla əlaqədar belə bir model yaradır:yaşlı nəslin nümayəndələri <<marry>> sözünü [‘maeri],gənc nəsil isə sözü [‘meri] kimi tələffüz edir. HO Vudsun fikrincə [aeri] səs birləşməsinin saxlanılması kanadianizm olmaqla yanaşı, həmçinin,Britişizdirmdir.[aeri] birləşməsinin itməsi isə onu İngilis dilinin Nyu York və Yeni İngiltərə variantlarından fərqləndirən əsas xüsusiyyətdir. B elə ki, yuxarıda qeyd olunan dillərdə [aeri]saxlanılmaqdadır. Kanada İngilis dilinin digər maraqlı xüsusiyyəti onun alınma [a] saitini özününküləşdirməsidir.Nəticədə alınma <<pasta,Mazda,drama və taco>> kimi sözlər alçaq vəziyyətli saitlərlə tələffüz olunurlar.Kanadalılar bu sözləri ön sıra

[ae],amerikalılar isə [a] səsi ilə tələffüz edirlər.Bu modelin bir qədər dəyişkən olmasına baxmayaraq,Çarlcs Boberq aşkar etmişdir ki,15 belə alınma sözdə Kanada tələffüzü Amerika tələffüzünə nisbətən daha çox ehtimal olunur.Məsələn,94% kanada ilə müqayisədə 82% Amerikalı <<panorama>> sözünü üçüncü hecada [ae] saitilə,81% kanadalı ilə müqayisədə 5% amerikalı <<pasta>> sözünün birinci hecasını [ae] saitilə tələffüz edir. Aşağıdakı cədvəldə Boberqin qeyd etdiyi sözlərin siyahıçı verilmişdir. V erilmiş sözlərin 70%-i (<<macho,taco və Vietnam>> sözlərini çıxmaq şərtilə) kanada tələffüzünə əsasən [ae] saiti ilə tələffüz olunur.Bundan başqa,Dil Nümunələri Proyekti (The Language Samples Project) Kanada İngilis dilində, bir qayda olaraq (ae) səsi ilə tələffüz olunan alınma sözlərin siyahısını təşkil etmişdir. Belə sözlərə ,<< Natasha, Tania, avocado, pecan, Fiat, Mazda, Lada, bravo, saga, Yugoslavia>> və s misal göstərmək olar. Lakin,<< Bach, Luatemala Kamikaze, karate, garbanzo>> kimi sözlər [a] səsi ilə tələffüz olunur. Bu sözlərdə [a] əvəzinə [ae] səsini işlətmək daha əlverişlidir. Onlar yeni alınma sözlərlə qarşılaşdırdıqda onları [ae] səsi ilə tələffüz etməyə davam edirlər.(2-s.67-69)

Kanada İngilis dilinin bu xüsusiyyəti belə bir hipoteza yaradır. Çarles Boberq yuxarıda qeyd olunan mənbəyə nəzərən düşünmür. Bunun səbəbi sadəcə bir şey ola bilər ki, Kanada İngilis dili bu sözlərin tələffüzünün əsası kimi onların əlyazmasından istifadə edir. Kanada və Amerika sait sistemində mövcud fərqli konfiqyrasiyalar bu sualın cavabı ola bilər. Belə ki, Şimal şəhərlərində Sait Dəyişməsi və Kanada Sait dəyişməsi [ae] səsinin tələffüzü fərqli istiqamətdə aparırlar. Nəticədə stock sözünün amerikan tələffüzünü ilə stack sözünün kanada tələffüzü, demək ki, eynidir. Yəni, amerikan [a] saiti ilə kanada [ae] saiti eyni səslərdir. Qəribə də olsa, lava və pasta kimi alınma sözlərin amerikan və kanada tələffüzü burada məlum fərqli fonemlərin işlənməsinə baxmayaraq, fonetik cəhətdən çox yaxındır. Yeganə fərq budur ki, Şimal bölgələrin Sait Dəyişməsinə görə [ae] səsi bu alınma sözlərdə müvafiq sait olmaq üçün daha ön və qapalı səsdir. Oxşar şəkildə, Kanada Sait Dəyiçməsinə görə [a] səsi eyni sözlərdə daha çox arxaya meyillidir. Tədqiqatlar göstərmişdir ki, Kanada Sait Dəyişməsində qadınlar kişilərdəç öndə gedir. Kanada İngilis dilinin gələcək istiqaməti Amerikan İngilis dilinin xarici təsirləri və mədəniyyət ilə sıx əlaqədardır. Kanada dilinin Amerika İngilis dilindən ayrılması məsələsi, onun sosial əhəmiyyətini yeni immiqrantlar daxil olmaqla müasir və gələcək nəsillər arasında qoruyub saxlaya bilməsindən asılıdır.

Beləliklə, iki mühacir axınının təsiri nəticəsində bir tərəfdən ABŞ-ın Şimal rayonlarında yaşayan loyalistlər, digər tərəfdən isə Böyük Britaniyadan gəlmiş mühacirlər Kanadada yaşayan əhalinin dilinə ingilis dilinin müxtəlif dialektlərinin elementlərinin qarışmasına təmin etmşlər. Kanadanın sonrakı inkişaf tarixi göstərdi ki, 1867-ci ildən Böyük Britaniyanın dominionu olmasına baxmayaraq, o hər şeydən əvvəl ABŞ-ın siyasi və iqtisadi təsiri altında idi. Kanadanın ərazi bölgüsünü, həmçinin siyasi, iqtisadi, sosial-mədəni xüsusiyyətlərini nəzərə alaraq demək olar ki, Kanadanın bütün tədqiqatçıları belə fikirdədirlər ki, öz fonetik, leksik və orfoqrafik xüsusiy-

yətlərinə görə ingilis dilinin Kanada variantı Britaniya (<<Oksford>>) və Amerika variantları arasında orta həddi tutur. Lakin, əsasən General American adlanan tələffüz növü üstünlük təşkil edir. Kanada ingiliscəsinin yayılma ərazisi variantların xüsusiyyətləri qarışmış dəqiq differensiasiyası olmayan ərazi elan edilmişdir. Etiraf etmək lazımdır ki, L.Q.Popovanın ardınca müasir kanada ingiliscəsinin fərqli fonoloji, morfoloji və leksik-semantxüsusiyyətlərinin öyrənilməsi əsasında mümkündür. (3-s.88-96) sözlərin monoftonqla tələffüzü mədəni səviyyəsi aşağı olan şəxslərdə daha tez rast gəlinir. (2,65).Ontariada duke [dʊk], news [nuz] sözlərinin tələffüzü bir çox danışanlar tərəfindən <<kobud >> (inelegant) kimi qiymətləndirilir. Orta igilis dili dövründə bir hecalı tooh, food, root, roof, hoof kimi sözlərdə kök sait [ɜ:] kimi səslənirdisəKanada variantında schedule sözünün ilk samiti NE variantında olan [ʃ] kimi tələffüz olunurdu, lakin radionun təsiri nəticəsində 50-ci illərdə britaniya tələffüzlü olan [sk] səs birləşməsi yayılmağa başladı.Kanada variantında dictionary, ordinary, obligatory, reformatory kimi çox hecalı sözlərdə vurğu suffiksin üzərinə düşduyu halda Britaniya variantında vurğu kökün üzərinə düşərək hecaların uzlaşmasını əmələ gətirir və söz qurluşunu kifayyət qədər sadələşdirir.

ƏDƏBİYYAT:

1. The Language Samples Project. 2001.s.94-102
2. Charles Borger. The English Language in Canada; Status. History and Comparative Analysis. 2010.s.67-69.
3. Woods Howards B.A Sychronic Study of Enlish Spoken in Ottawa:Is Canadan English Becoming More American.s.88-96
4. In Focus on Canada.Sandra Clark (Ed.).Amsterdam:Jonh Benjamins Publishing Company.s.65-78.

N.Rzaeva

Comparative analyse if English vowels and consonants in British

Summary

Canadian English has appeared on a number of factors. Canadian English was first determined by a number of immigrants settled from the northern part of the United States. Because of the geographical proximity of the two countries and the influence on each others histories, economic systcms, international policies and television media Canadian English continus to be formulated by American English.

The article deals with the comparative modification of English vowel and consonani phonemes in British, American and Canadian variants. The author analyses the different pronunciation of vowel and consonant phonemes, at The same time gives the examples and examples and explains varienties and similarities of variants,histories, economic systems, international policies and television media Canadi-

an English continus to be formulated by AmericainThe scientific paper prsents theoretical and partical study of the interrogative sentence of Modern French and Azerbaijani languages along with detalied description of their similar and distinctive features.

The sentences with certain degree of intornation bascilly used to get answer to the qusetion and sometimes for the imperative expression in an emotional way or to indunce an interlocutor for certain action are called the interrogative sentences.The article deals with the lexical and structural pecularities of French borried words that entered into Azerbaijani terminal means of the Russian language, also phonetical and grammatical changes in French are investigated.

Key words:English language,Canada,phonetics.vaiant,Britane accent

Н.Рзаева

Сравнительный анализ гласных фонемов английского языка в Британском, Американском и Канадском вариантах.

Резюм

Канадский Ангийский яаык зто результат многих факторов. Канадский Английский был первочально определен в значительной степени поселением в Канаде иммигрантов из северных Соединенных Штатов.Из-за географической близости этих стран и переплетения их историй,экономической системы,-международной политики и печати и телевизионных СМИ,Канадский английский язык продолжает формироваться американским вариантом английского языка. В статье рассматривается сравнительное ваьрьирование гласных и согласных фонемов английского языка в Британском, Американском и Канадском вариантах. Автор анализирует различные происношения гласных и согласных фонемов , а также приводитъ примеры и объясняет различые и вариантов.Канадский английский язык это результат многих факторов.

Канадский английский был первочально определен в значительной степени поселением в Канаде иммигрантов из северных Соединенных Штатов. Из-за географической близости этих стран и переплетения их историй, экономической системы, международной политики и печати и телевизионных СМИ, Канадский английский язык продолжает формироваться американским кариантом английского языка.

Ключевые слова:Английский язык,Канада,фонетика,вариант,Брит.акцент

Məqalənin redaksiyaya daxil olma tarixi24.08.2019:
Çapa hazırlanma tarixi: 21.11.2019
filologiya elmləri namizədi,dosent Teymurova Gülarə tərəfindən çapa tövsiyə olunmuşdur

ZEMFİRA MƏMMƏDOVA
Filolofiya elmləri doktoru, professor
Azərbaycan Tibb Universiteti
S.Vurğun küç.51 Bakı şəh.
zenfira.@.mail.ru.

INGILIS DİLİNIN TƏDRİSİ PROSESİNDƏ TEXNİKİ VASİTƏLƏRDƏN İSTİFADƏ EDİLMƏSİNİN METOD VƏ ÜSULLARI

Xülasə

Qloballaşma dövründə xarici dillərin tədrisi prosesinə ciddi, bəzən radikal xarakterli dəyişikliklərin gətirilməsinə, innovasiyaların tətbiq edilməsinə böyük ehtiyac duyulur. Xarici dillərin əsasını müasir dövrün tələblərinə uyğun olan kommunkativlik prinsipi təşkil etməlidir. Bu mənada audio və video vasitələrdən istifadə tədrisdə aparıcı rola malikdir. Belə ki, audio və video materiallardan istifadə auditoriyalarda kommunikativ səriştənin formalaşdırılmasında böyük rol oynayır. Əksər hallarda ixtisası dil olan fakültələrdə dili professional məqsədlərlə öyrənən tələbələr xarici ədəbiyyat nümunələri olan və dünya ədəbiyyatının xəzinəsinə daxil edilmiş əsərlərlə tanış deyillər. Bəzən onlar həmin əsərlər haqqında heç bir məlumata malik deyil. Onu da xüsusilə qeyd etmək lazımdır ki, klassik ədəbiyyat nümunələrində personajların istifadə etdiyi nitq modelləri, bu gün istifadə edilən dildən əhəmiyyətli dərəcədə fərqlənir. Buna görə də audio və video materialların seçiminə diqqət yetirmək lazımdır. Müasir universitet tələbəsi təkcə bu və ya digər sahədə ixtisaslaşmış kadr kimi formalaşmamalıdır. O, həm də ünsiyyətə hazır olmalı və müxtəlif insanlarla ünsiyyət qurmaq, komanda tərkibində işləyə bilmək, ətrafdakılara motivasiya verə bilmək kimi tamamilə yeni sosial bacarıqlara yiyələnməlidir. Məhz bu baxımdan ədəbi xəzinə əlçatan olmalıdır.Qloballaşma prosesinin labüdlüyünü və bu prosesə inteqrasiyanın qaçılmaz olduğunu nəzərə alaraq, elm və təhsil sahələrinin qloballaşma proseslərinə adaptasiyası dildə onun təmin olunmasını şərtləndirən amillər sırasına daxil olmuşdir. İlk öncə ona görə ki, məhz bu sahələrdə təkcə yeni bilik və texnologiyalar deyil, həm də insanın fikirlərinin ifadəsinin bu və ya digər formalarının yeni mexanizm və üsulları da gündəmi zəbt edir. Bu zaman audio və video vasitələrdən istifadə vacib sayılır.

Açar sözlər: nitq, meyar, dil, söz, ünsiyyət

Bildiyimiz kimi, xarici dilin öyrənilməsi zamanı tələbələrdə kommunikativ səriştənin formalaşdırılması qarşımızda dayanan mühüm və ali məqsədlərdən biridir. Dilini öyrənməyə çalışdığımız ölkənin ərazisində yaşamadan, onun vətəndaşları ilə ünsiyyətdə olmadan dili öyrənmək məsələni bir qədər də çətinləşdirir. (1-p.17) Məqsədimizə tam çatmaq və xarici dili öz ölkəmizdə yaşayaraq mükəmməl şəkildə öy-

rənmək üçün biz əlavə və köməkçi vasitələrdən istifadə edirik. Bu vasitələrə audio və video vasitələr daxildir. İlk olaraq onu qeyd edə bilərik ki, audio və video vasitələrdən istifadə kommunikativ səriştənin formlaşdırılmasından savayı, tələbələrin motivasiyasını və dilə olan marağını artırmağa qadirdir. Buna əsaslanaraq qeyd edə bilərik ki, tələbələrə təqdim edilən audio və video vasitələrin məzmunu xüsusi olaraq seçilməlidir. Burada ortayan çıxan problem müəllimin audio və videomaterialların seçimi zamanı nəyə daha çox diqqət yetirməli olmasıdır. İlk olaraq onu vurğulaya bilərik ki, audio və videomaterialların seçilməsi zamanı onların maraqlı və tələbələrin dil bilmə səviyyəsinə uyğun olması vacibdir. Bundan savayı, hər bir seçilmiş material dilöyrənənləri yeni informasiya ilə təmin etməlidir. Yeni alınmış məlumat tələbələri müzakirəyə sövq edir. Xarici dildə aparılan müzakirə dilin mənimsənilməsinə, yeni öyrənilən söz və ifadələrin danışıqda istifadə edilməsinə şərait yaradır. Dərs prosesində təqdim edilən audio və videomaterialların mövzusu da xüsusi seçilməlidir. Bildiyimiz kimi, dilin öyrənilməsi prosesi təkcə söz və ifadələri öyrənib mənimsəməklə bitmir. Biz təkcə dilin leksik, qrammatik və sintaktik quruluşu ilə deyil, həmçinin dil daşıyıcılarının mədəniyyəti, tarixi, siyasəti və iqtisadiyyatı ilə də yaxından tanış olmalıyıq. Başqa sözlə, biz dili tək bir məfhum kimi deyil, əlaqəli şəkildə öyrənməliyik. Belə nəticəyə gəlirik ki, müəllimin dərsdə təqdim etdiyi material tələbələrə təkcə dili mənimsəməyə deyil, həmçinin onun tarixi, mədəniyyəti haqqında məlumat almağa da şərait yaratmalıdır.Video vasitələrin istifadəsi tələbələri danışıq dilinə daha da yaxınlaşdırır, onları dili öyrənməyə motivasiya edir. Yeni söz və ifadələrin öyrənilməsində videomaterialların yeri danılmazdır. Tələbələr video parçadan eşitdikləri yeni söz və ifadələri daha yaxşı qavraya və yadda saxlaya bilirlər. Dil daşıyıcılarının işlətdikləri söz və ifadələrə uyğun olaraq üz ifadələrinin dəyişməsi, mimika və jestlərdən istifadə yeni söz və ifadələrin mənasını anlamağa və beləliklə onu daha tez və effektiv şəkildə qavramağa şərait yaradır.Bu məsələnin həllində də bizim köməyimizə audio və videomaterialların istifadəsi çatır. Videomaterialların nümayişi zamanı kadr və slaydların tez-tez dəyişməsi tələbələrdən çox böyük diqqət tələb edir, əks halda tələbələr göstərilən video parçasını yadda saxlamaqda və suallara cavab verməkdə çətinlik çəkirlər. (2-p.3-11)Təkcə videomateriallar deyil, həmçinin audio materialların istifadəsində də tələbələrin diqqətli olması mühüm hesab edilir. Söz və musiqini birləşdirən səsli yazıları dinləmək, tələbələrin diqqətini artırır, eşitmə yaddaşını, təxəyyül, sözün müşahidəsi bacarıqlarını formalaşdırır, estetik zövqün inkişafını şərtləndirir. Hər hansı şəxsin xarici dili bilmə səviyyəsi dörd bacarıqla ölçülür. Gördüyümüz kimi danışma, oxuma, yazma və dinləmə ayrı- ayrı bacarıqlar olaraq fərqləndirilmişdir. Maraqlısı isə ondadır ki, bəzən insanlar xarici dildə sərbəst şəkildə oxuyub, yazıb və danışa bildikləri halda qarşıda duran insanın nə dediyini, hansı fikri ifadə etmək istədiyini anlaya bilmir, iki insan arasında yaranan anlaşılmazlıq isə kommunikasiyanın uğursuzluğuna gətirib çıxarırünsiyyət qurmaq üçün isə xüsusi danışıq və dinləmə vərdişlərini özündə formalaşdırmalıdır. Bu vərdişin hər hansı birinin zəif inkişaf etməsi nəticəsində ünsiyyət prosesi uğursuzluqla nəticələnə bilər. Uğursuzluqla nəticə-

lənən ünsiyyət isə tərəflərin bir-birini səhv anlamasına və dili öyrənməyə çalışan şəxsin demotivasiyasına şərait yaradır.Əvvəl də qeyd etdiyimiz kimi, xarici dilin uğurla öyrənilməsində ən başlıca faktor kimi motivasiyanı qeyd edə bilərik. Motivasiya olmadan dilöyrənmə prosesisinin uğursuzluqla nəticələnmə ehtimalı kifayət qədər çoxdur. Xarici dilin təlim və tədrisi zamanı tələbələrdə motivasiya, dili öyrənməyə xüsusi maraq yaratmaq müəllimin başlıca vəzifələrindən biridir. Motivasiyanın formalaşdırılmasını dilöyrənmə prosesində ilk addım kimi də qiymətləndirmək olar. İlk addımımız nə qədər güclü və inamlı olarsa, dilöyrənmə prosesi də bir o qədər sürətli və məhsuldar olar. Audio materiallarda verilən arxa fon səsləri buraya musiqi səsi, şəhərin səs-küyü, yağış damcıları və s. daxil edilir, təbii atmosferin yaranmasında birbaşa olaraq iştirak edir. Bu tərz olan dinləmələrə alışan tələbələr artıq kənar səslərə əhəmiyyət vermədən ünsiyyətlərini uğurlu bir şəkildə başlayıb və sonlandıra bilirlər. Dərs müddətinin faydalı və səmərəli keçməsində audio vəsaitlərlə bərabər video vəsaitlərin də əhəmiyyəti danılmazdır. Qısa metrajlı videolar, filmlərin köməkliyi ilə tələbələr dil daşıyıcılarının danışıq tərzlərindən savayı onların ünsiyyət zamanı istifadə etdikləri jestikulasiyaya, mimikalarına diqqət yetirir, söz və jestlərin birgə vəhdətini öyrənir, həyat tərzi və mədəniyyətləri ilə yaxından tanış olurlar. Əgər audio vəsaitlərin köməyi ilə tələbələr təkcə dinləmə bacarıqlarını inkişaf etdirirlərsə, video vəsaitlər vizual görüntü vasitəsi ilə, dil daşıyıcılarının istifadə etdikləri söz və ifadələri daha effektiv mənimsənilməsinə şərait yaradır. Görkəmli metodist V.P.Qopal vurğulamışdır ki, audio-vizual materialların istifadəsi müəllimə mövzunun təqdim olunmasında fiziki çətinliklərin aradan qaldırılmasına kömək edir. Yəni bu materialların istifadəsi tələbə-müəllim arasındaki ünsiyyət baryerini aradan qaldırır və bu əlaqəni daha da gücləndirir. O, həmçinin slaydlar, filmlər, proyektorların yardımı ilə digər ölkələrin mədəniyyətlərinin sinifə daxil olduğunu təsdiqləyir. Slaydlar və filmlərin istifadəsindən danışarkən dərs prosesində vizual görüntünün istifadə edilməsi əldə edilən informasiyanın daha qalıcı olmasını təmin edir. Bu fikri çin fəlsəfəsində məhşur olan "Bir görüntü min sözə dəyər" ifadəsi ilə də təsdiqləyə bilərik. C.Natoli qeyd etmişdir ki, audiovizual materialların istifadəsi və qarşıya qoyulan problemlərin həll edilməsi kommunikativ bacarıqların formalaşdırılmasına şərait yaradır [3,5]. Başqa sözlə desək, tələbələrin diqqətini maraqlı və cəlbedici oyunlar və çalışmalar sisteminə yönəldərək daha yaxşı nəticə əldə etmək olar. Müəllimin audio-vizual materiallar əsasında hazırlanmış yaradıcı çalışmalardan istifadəsi tələbələrin tam motivasiyasına və keçilən mövzunun daha yaxşı mənimsənilməsinə şərait yaradır. A.Lestage audiovizual materialların faydaları haqqında danışarkən bu növ materialların təlimin fərdiləşdirilməsinə və hər bir tələbənin individual olaraq işləməsinə şərait yaratdığını bildirmişdir. Bundan əlavə, texnikadan istifadə müəllimləri şagirdlərlə müntəzəm olaraq fərdi şəkildə işləməkdən azad edir, çünki müəllim artıq gündəlik məşqlər və treninqlər keçirmək əvəzinə hər hansı bir mövzunun izahını video roliklər vasitəsi ilə də həyata keçirə bilər. Dil müəllimləri video və audio materiallardan istifadə edərkən qarşılarına üç əsas məqsəd qoyurlar. Ən başlıca və fundamental məqsəd dilöyrənən-

lərin danışıq bacarıqlarını inkişaf etdirməsidir. Qısametrajlı videoçarxlar təkcə dilöyrənənlərin dinləmə bacarıqlarını inkişaf etdirmir, həmçının onları əyani vəsaitlərlə də təmin edir. Hər hansı audio materialın dilöyrənənlər tərəfindən görüntü olmadan izlənilməsi dinlədikləri parçadan tez yorulmalarına, motivasiylarının aşağı düşməsinə və diqqət dağınıqlığına vəsilə ola bilər. Təlim-tədris prosesində istifadə edilən videoçarxlar, dinləyiciləri daha çox məlumatla təmin edərək onların diqqətlərini uzun müddət bir məlumat üzərində saxlamağa yardım edir. stimullaşdırmaq kimi bir çox üstünlüklərə malikdir. Videomaterialları izləyərkən dilöyrənənlər özlərini videomateriallar vasitəsilə yaradılmış canlı mühütdə təsəvvür edərək, personajlar tərəfindən işlədilən dilin praqmatikasını anlamağa çalışırlar. Videoçarxlardan istifadənin daha bir üstünlüyü onların dərs prosesinə rəng, maraq və əyləncə qatmasıdır. Müəllimlər dilöyrənmə prosesinin rəngarəng və əyləncəli olması üçün mahnı və musiqilərdən də istifadə edə bilərlər

Ədəbiyyat

1. Allen V.F. Trends in the Teaching of English TESL, Reporter 6, Summer 1973, № 4, p.17
2. Halliday A. The House of TESEP and the Communication Approach: The Special needs of English Language Education ELT Journal, 1994, v.48 (1), p. 3-11
3. Harmer J. Teaching foreign language teaching, 2005, pp. 45-46
4. Jack C. Richards. Communicative Language Teaching Today. Cambridge University Press, 2006, 471 p

Z.Mammadova

The effective ways of using technical equipment devices in Anglais

Summary

The article deals with the effective ways of using audio and video devices in FLT and working out effective ways of listening skills.Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. The article is devoted to the audio and video materials in modern methodology. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of literature. The author emphasizes its role in methodology. Since its emergence this notion caught the attention. New researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. The main aim of

State program is to form a unique national education by means of ICT and provide qualitative educative opportunity in order to integrate into worldwide education system. One of the main goals of language learning is to acquire the ability to communicate effectively. It will make the process of teaching oral speech more effective.

Key words: speech, criteria, language, word, communication

З.Мамедова

Еффективные пути использовании технический средств в проссе препадаваниия Английского языка

Резюме

В данной статье рассматриваются вопросы еффективные пути использовании аудио и видео материалов на преподавании иностранного языка. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранном языке. Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть роль упражнении. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Основной целью Государственной программы является формирование единой обшенациональной среды образования путём внедрения и использование современных информационно-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образовании. Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке.

Ключевые слова: речь, критерия, язык , слова, коммуникация

Məqalənin redaksiyaya daxil olma tarixi: 24.08.2019
Çapa hazırlanma tarixi: 19.11..2019
filologiya üzrə fəlsəfə doktoru,dosent Yusif Süleymanov tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLXANIM İMRANOVA
Azərbaycan Kooperasiya Universiteti
Nəcəf Nərimanov 93.
Xarici Dillər kafedrası
Gülxanım.@.mail.ru.

İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNDƏ AMERİKANİZMLƏR VƏ ONLARIN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Məqalədə Amerikanizm anlamından, onun dünya səhnəsinə gəlişindən, bundan əlavə ingilis dilinin Britaniya adalarından müstəmləkələrə və yeni dünyaya keçidindən ətraflı şəkildə bəhs olunacaq. Belə ki, Britaniya və Amerika ingilis ləhcələri arasındakı fərqlərə, əsasən lüğət, qrammatika və tələffüz aspektlərində rast gəlmək olar.Təbii ingilis dilində danışan (native speakers) dünya əhalisinin təxminən üçdə iki hissəsi Amerika Birləşmiş Ştatlarında yaşayır. Məhz buna görə də, "İngilis dili", ABŞ-da ən geniş yayılan və istifadə olunan əsas ünsiyyət dilidir.

Amerika ingiliscəsi (American English) siyasi Amerika tarixinin ən mühüm tərkib hissəsidir. Belə ki, Amerika Birləşmiş Ştatlarında danışılan ingilis dilinin variant "Amerika ingilis dilisi" adlanır. "Variant və müxtəliflik" termini bir sıra səbəblərə görə daha münasib hesab olunur.ABŞ-da danışılan bu dilin etimoloji nöqteyi-nəzərdən regional variantlıq hesab olunmasına baxmayaraq, heç bir vəchlə dialect adlandırıla bilməz, çünki bu dil "Standard Amerika dili" adlandırılan ədəbi normalara uyğun formaya malikdir. Beləliklə, verilmiş tərifə müvafiq olaraq bildirmək olar ki, dialektlər, əsasən, ədəbi formaya malik deyil və Amerika ingilis dilinin (American English) ədəbi normalara uyğun formaya malik olduğu faktorunu nəzərə alaraq, əminliklə onun dialect olmadığı fikrini təsdiq edə bilərik.(1-p.29-34) "Amerikanizm anlamı"- Amerika Birləşmiş Ştatlarında danışılan ingilis dilinə xas xüsusiyyətləri özündə cəmləşdirən söz və ya sabit söz birləşməsi kimi müəyyən oluna bilər. amerika xalqının ingilis dilinə olan ilk və ən böyük töhfəsi Şimali Amerika heyvanlarını və bitkilərini adlandırmaq ehtiyacında özünü biruzə Verdi. Müxtəlif illərdə -1608 və 1612-ci illərdə, ingilis dilindən alınmış "corn" (taxıl) və "catfish" (dəniz pişiyi) kimi yeni sözlər və 1609, 1613-cü illərdə alınmış "raccoon" (yenot) və "moose" (Amerika sığını) kimi digər sözlər Hindlilər tərəfindən danışılan dillərdən alınaraq, dilin lüğət tərkibinə keçmişdir. Belə ki, "İngilis dilinin

Açar sözlər: amerikanizm, ingilis dili, forma, müstəmləkə, ədəbi norma, lüğət

Amerika variant" Standart İngilis dilindən (Standart English) tələffüzdə, bir sıra cüzi qrammatik xüsusiyyətlərdə və ən başılcası lüğət tərkibində fərqlənir. Dilin tarixi araşdırılan zaman, diqqəti cəlb edən ən mühüm faktorlardan biri Amerika ingilis dilisinin (Amerikan English) meydana çıxmasının ilk kaloniyaların yarandığı dövrə, əsa-

sən, 17-ci əsrə təsadüf etməsidir. Kaloniyalar inkişaf etdikcə, ABŞ-da danışılan ingilis dilinin inkişafı prosesini daha da sürətləndirirdi. Bu təsir özünü bir sıra əlamətdar hadisələrdə biruzə Verdi. Belə ki, 1621-ci ildə "Şükranlıq bayramı" (Thanksgiving Day- ABŞ-da və həmçinin, Kanada da qeyd olunur), 1636-cı ildə "Dövlət məktəbinin açılışı" (Publich school), 1696-cı ildə "Məzun günü" (Alumnus) və 1676-cı ildə müstəmləkəçilərin ön sərhədi dəyişdirməsi (The Frontier) bu əlamətlər sırasında yerini almış ən bariz nümunələrdir. 18-ci əsr, əsasən, 1736-cı il "Milli Dirçəliş" (Awakening) və 1789-cu il "Mühacir Köçü" (İmmigrant Migration) kimi hadisələrlə səciyyələnir. 19-cu əsrdə isə, əsasən, 1838-ci ildə "yeni texnologiya üsulu" və 1883-cü ildə "İlk Göydələnlər" meydana çıxdı. 20-ci əsrdə isə Amerikalılar, əsasən, 1916-cı ildə "İnsan zəkasını qiymətləndirən intellekt testləri"ni (İQ) həyata keçirdilər və 1985-ci ildə raket təlimi üzrə seçilmiş alimlər (Rocket scientists) üçün yüksək təhsil imkanı yaratdılar.Belə ki, 20-ci əsr bir sıra xüsusiyyətlərlə səciyyələnir. 20-ci əsrin sonlarında – təxminən, 1980-ci ildə yeni sözlərin və məfhumların meydana çıxması ilə dilin lüğət tərkibi daha da zənginləşdi. "Etik İnvestisiya" və "Daxili bazar" kimi yeni anlayışlar ortaya çıxdı. "Ödəniş" sözü "plastik" sözü ilə əvəz olunmağa başladı. Məsələn, (kredit kartlar, bankamatik kartlar və s.). Bundan əlavə, kifayət qədər mühüm əhəmiyyət daşıyan fiqurlardan biri olan "Yuppie" termini də dilin lüğət fonduna daxil oldu. "Yuppie" -20-ci əsrdə gənc, çevik, yüksək gəlirli 25-30 yaşlı biznes nümayəndələrinə işarə edən mühüm bir model hesab olunurdu. Daha sonra, "mobil telefon" (mobile phone) və "laptop" (laptop or plamtop) kimi yeni sözlər də dilin lüğət tərkibini zənginləşdirdi. İngilis dilinin yeni Amerika variantının yaradılması, əsasən, "Amerika İnqilabı"nın dönüş nöqtəsi kimi qeyd olunur. Beləliklə, bu yeni variantın yaranması ilə "Amerika İnqilabı" özünün ən yüksək pilləsini qət etmiş oldu. "Amerika İnqilabı" liderlərinin nöqteyi nəzərlərindən, Amerika ingilis dilisi Amerikanın müstəqilliyinin ən bariz nişanəsi, gələcəyin mütləq dili idi. Yeni dünyada ingilis dilinin qabaqcılları, əsasən, Şotlandlar və İrlandlar idi.Belə ki, bir zamanlar Şotland-İrland istifadəsində olan əksər nümunələr günü bu gün də öz üstünlüyünü qoruyub saxlamaqdadır. Məsələn: cabin – daxma, koma, kabinə, kayut" deməkdir. "Amerikanizm" sözünün ilk istifadəsi "Müstəqillik Bəyannamə"sinin imzalayıcısı, 18-ci əsrin sonlarına doğru "New Jersey" kollecinin, daha sonra (Princeton Universiteti)nin prezidenti olmaqdan ötrü 1769-cu ildə Amerikaya yollanan Şotlandiyalı akademik "John Withperspoon"nun adı ilə bağlı idi. "Amerikanizm"ə böyük maraq göstərən John Withperspoon bu mövzuda bir sıra maraqlı məqalələr də təqdim etmişdi. O, təhsilli insanların nitqində qrammatik səhvlərə yol verilməsi, vulqarizmlərdən istifadə hallarının qəti əleyhinə idi. "John Withperspoon"nun "Amerikanizm" anlamı yalnız kaloniyalara məxsus və onlara xas xüsusi bir anlam mənasında işlədilirdi. Withperspoon qeyd edirdi ki, o, eyni təbəqədən olan eyni mənsəbə sahib insanların nitqində mütəmadi olaraq qrammatik səhvlərə yol verilməsi, vulqarizmlərdən istifadə hallarına rast gəlirdi. Withperspoon Amerikada gündəlik nitqdə müəyyən qədər vulqar ifadələrdən istifadə hallarını müşahidə etməsinə baxmayaraq, ovulqarizmin Amerikada Böyük

Britaniyaya nisbətən daha geniş vüsət almasından bəhs etməmişdi.Onu da qeyd etmək lazımdır ki, terminlərin və idiomatik ifadələrinin İngilis dilinin Amerika variantında istifadə xüsusiyyətləri bir qədər fərqliliklə müşayiət olunur, lakin bu onların dildə düzgün işlənmədiklərinə istinad etmir, bu hal yalnızca onların Amerikanın inkişafının bəhrəsi olduğuna işarə edir.(2-p.112-145)

Çünki bu sözlərin yerli hinduların dilindən götürüldüyü güman edilirdi. Lakin "amerikanizm"ə daxil olan bütün sözləri Amerikanın yerli əhalisi hinduların dilindən hazır şəkildə götürüldüyünü demək də düzgün olmazdı. Elə sözlər var ki, onlar amerikan həyat tərzini və əşyanı adlandırmaq üçün verilən terminlərdir. Məsələn, hamıya tanış olan "telephone" (telefon), "photograph" (fotoqraf) və s.bəzi başqa sözlərin köklərinin "amerikanizm" olduğu bəllidir. Məsələn, "to lunch" (cəzalandırmaq), "jazz" (caz) və s. Bəzən isə yaranmış söz hamı tərəfindən qəbul edilərək, başa düşüldükdən sonra adiləşir. Məsələn, "hue və hue and cry" (hay-küy) sözlərindəki "hue" (rəng) sözünün mənası artıq "hue və cry" sözündəki "hay-küy" mənasını vermir. Yaxud "meat" (ət) sözü "One man`s meat is another man`s posion" atalar sözündə "sweet meat" (yemək) mənasında, yəni "birinin cörəyi-əti o biri üçün zəhərdir" – mənasında işlənir.(3-p.13-42)

"Computer" (kompyüter, sayğac) sözü hələ İkinci Dünya Müharibəsindən əvvəl İctimaiyyətə "sayan adam" mənasında "to compute" kimi məlum idi. Hazırda həmin söz "sayan maşın" mənasında istər böyük "mainframe", yaxud kiçik "microcomputer"-lə əlaqədar çoxlu yeni sözlər, ifadələr meydana gəlir. Leksikoqrafların fikrincə, ingilis dilinin lüğət tərkibi öz tarixində heç bir zaman 20-ci əsrdəki kimi çoxlu dəyişikliyə məruz qalmamışdır. Bütün bunların başlıca səbəbi Birləşmiş Ştatlarda yeni sözlərin yaranması, bu ölkədə əsas etibarilə texnologiya və elmin inkişafı ilə bağlıdı. Əlbəttə, Amerikan ingiliscəsində nə qədər təmiz söz olduğunu (yəni Amerikan ingiliscəsinin məhz özünü sözləri) heç kəs deyə bilməz. Hətta onu da demək mümkün deyil ki, Amerikan ingiliscəsində say etibarilə nə qədər söz var. Son zamanlar buraxılmış Amerikan ingiliscəsinə dair bir sıra lüğət kitablarının köməyi ilə sözlərin yaranması ilə əmələ gəlmiş dəyişiklikləri müqayisə edərək aydınlaşdırmaq mümkündür. Amerikan ingiliscəsinin lüğət tərkibindəki sözlərin say etibarilə nə qədər artdığını Veboterin lüğətinə baxdıqda görə bilərik.(4-p.384-388)

Amerikan söz və ifadələri artıq dildə hiss olunmaq dərəcəsinə gəldiyi zamandan etibarən "amerikanizm" haqqında mübahisələr başlandı. Əvvəlcə ingilislər amerikanlıları ingilis dilini təkrar etməkdə, on yeddinci əsrdə İngiltərədə işlənmiş sonra isə arxaikləşmiş və dilin lüğət tərkibindən çıxmış sözləri yeni "amerikanizm"-lər adı altında götürülüb nitqdə işlətmələri üstündə tənqid etməyə başlamışlar. Sonralar ingilis tənqidçiləri sakitləşən kimi amerikalılar özlərini müdafiə etməyə, həm də bütün amerikalıları dillərinin təmizliyi uğrunda mübarizə aparmağa çağırdılar. İngilislərlə amerikalıların bu mübahisəsi bütün on doqquzuncu əsrdən indiyə qədər davam etməkdədir.

Ədəbiyyat

1. English (United States) at Ethnologue (18th ed., 2015) page:29-34.
2. "Unified English Braille (UEB)". Braille Authority of North America (BANA). 2 November 2016. Retrieved 2 January 2017.page:112-145.
3. Bailey, Richard W. (2012). Speaking American: A History of English in the United States 20th-21st century usage in different cities.page:13-42.
4. Frank K. Flinn and J. Gordon Melton, Encyclopedia of Catholicism (2007) p 19.
2. David J. O'Brien, Isaac Hecker: an American Catholic (1992) p 384 -388.

G.Imranova

New words included in american english word stock, their comparison with standart english and creation of american lexics

Summary

Over three centuries, the American vocabulary has evolved entirely or partially from the British (English) word stock and has created a great impact on the development of this word stock.

It was supposed that most words were taken from the native Hindu language. But all the words included in “Americanism’ would not be right to say to have been taken out of the Indian language. There are words that these are the terms used to call the American lifestyle and items.

It would be a mistake to call it “Americanism” immediately, unless the structure or meaning of any word resembles the British one. In this case, Filologiya məsələləri, №10, 2017 246 those who could not overcome wastefulness fought in certain situations against the word “Americanism”. However, artificial means and methods could not prevent the natural development of language.

The article will focus on the meaning of Americanism, its coming to the world scene, as well as the English language transition from the British Isles to colonies and to the new world. Thus, the differences between British and American English can be found mostly in vocabulary, grammar and pronunciation. About two-thirds of the world’s population live in the United States. That is why, “English” is the main language of communication in the United States. American English is the most important component of American political history. Thus, the English language spoken in the United States is called “American English”. The term “Option and Diversity” is considered to be more appropriate for a number of reasons.

Key words: Americanism, English, form, colonial, literary norm, dictionary

Г.Имранова

Новые слова, включенные в американский английский словарь, их сравнение с стандартным английским и созданием американская лексика

Резюме

Более трех веков американский словарь полностью или частично эволюционировал от английского (английского) словарного запаса и оказал большое влияние на развитие этого слова.

Предполагалось, что большинство слов было взято из родного индусского языка. Но все слова, включенные в «американизм», не были бы прав, если бы они были выведены из индийского языка. Есть слова, что это термины, используемые для обозначения американского образа жизни и предметов.

Было бы ошибкой назвать это «американизмом» сразу, если структура или значение какого-либо слова не будет напоминать британский. В этом случае те, кто не мог преодолеть расточительность, сражались в определенных ситуациях против слова «американизм». Однако искусственные средства и методы не могли помешать естест- венному развитию языка.Семантические особенности региональных вариантов Американская- Английского варианта в статье также рассматриваются семантические особенности региональных вариантов английского языка. Специально австралийская версии. Анализ слов проводится на основании интересные примеры и их семантические особенности В этой статье "Английские- американскиех варианты использо- валис и рассматриваются их использования в английской литературе. В статье затрагиваются такие проблемы, как классификация разные вариантов названий в соответсвии с морфологическими и лексическими формами, и функциями.

Ключевые слова: американский английский, словарный запас, новые слова, сравнение, лексика, термин.

Məqalənin redaksiyaya daxil olma tarixi:06.08.2019
Çapa hazırlanma tarixi: 21.11.2019
Filologiya elmlər namizədi, professor Tamilla Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur

MİRANƏ ƏFƏNDİYEVA
Azərbaycan Texniki Universiteti
H.Cavid pr.25
miranə.@.mail.ru.

BEYNƏLMİLƏL DİL KİMİ İNGİLİS DİLİNİN DÜNYA DİLLƏRİ TƏSNİFATINDA TUTDUĞU MÖVQE,ROLU VƏ AZƏRBAYCANDA ONUN ÖYRƏNİLMƏSİ

Xülasə

Bütün dünyada olduğu kimi Azərbaycanda da İngilis dilini öyrənmək istəyənlərin sayı günü – gündən artmaqdadır. Beləliklə, bu sahəyə olan tələbat insanları bu dili öyrənməyə yönəldir. Hər kəs artıq başa düşür ki, ingilis dilini bilmədən intelektini, təhsilini professional şəkildə mənimsəyə bilməz. Odur ki, həm şagirdlər, həm tələbələr, həm də digər peşə sahibləri bu dili öyrənməkdə maraqlıdırlar.Müasir dövrümüzdə ingilis dili siyasi danışıqlar və biznes dilinə çevirilib. Əsas elmi və tibbi araşdırmalar da ingilis dilində aparılır. Beynalxalq razılaşmalara əsasən, təyyarələrdə işləyən bələdçilər ingilis dilini bilməlidir. Cənubi Amerika və Avropa məktəblərində ən çox tədris olunan dil ingilis dilidir. Filippində və Yaponiyada uşaqlar ingilis dilini ən kiçik yaşlarından öyrənməyə başlayırlar. İngilis dili Britaniya, Kanada, Birləşmiş Ştatlar, Avstraliya və Cənubi Afrika olmaqla, yetmiş beşdən çox ölkənin rəsmi dilidir. Müxtəlif dillərin danışıldığı ölkələrdə insanların bir-biri ilə ünsiyyətini təmin etmək üçün çox vaxt ingilis dili rəsmi dövlət kimi çıxış edir. Hindistan buna yaxşı misaldır. İngilis dili 24 müxtəlif dilin hər birində bir milyondan artıq insanın danışdığı bu ölkədə hamı üçün ümumi dildir.İngilis dilinin kökləri haradan gəlir? Nə üçün bu dil bu qədər populyar bir dil olub? Bu suallara cavab vermək üçün beş min il bundan əvvəl cənub-şərqi Avropada Qara dənizdən şimal bölgələrə tarixi ekskurs etməliyik.İngilis dili bir neçə yüz il bundan əvvəl Britaniya adasının istilaları nəticəsində yaranmışdır. İşğalçılar Avropanın şimal sahilləri boyu ərazilərdə məskunlaşmışdı.

İlk istilalar min beş yüz il bundan əvvəl anqllar tərəfindən həyata keçirilmişdi. Anqllar İngilis kanalını (La Manş) keçən german tayfalarının üzvləri idi. Sonradan Britaniyaya daha iki tayfanın üzvləri keçdi. Bunlar saksonlar və yutlar idi. Bu qruplar Britaniyada bir neçə min il yaşayan keltlərlə qarşılaşdı. Keltlər və işğalçılar arasında müharibə başladı. Bu savaşlarda keltlərin böyük əksəriyyəti öldü, ya da qula çevrildi.

Açar sözlər – aparıcı, tədris, dünya, dil, biznes, müzakirə

Qədim ingilis dilini başa düşmək üçün olduqca çətindir. İngilis dilinin bu qədim formasında yazı nümunələrini yalnız bəzi ekspertlər oxuya bilir. Bu dövrdən bir neçə yazı nümunəsi qalıb. Bu, qəhrəman krala həsr olunmuş “Beovulf” poemasıdır.

Tədqiqatçılar poemanın 7-8- ci əsrlərə aid olduğunu bildirir. Poemanın müəllifinin kim olduğu məlum deyil. Təxminən min yüz il bundan əvvəl Britaniya yenidən, bu dəfə şimaldan vikinqlər tərəfindən istila edilir. Danimarka, Norveç və başqa şimal ölkələrindən gələn vikinqlər ticarət yollarını genişləndirmək və qul bazarları tapmaq istəyirdi. Onlar bəzi bölgələrdə güclənərək, müvəqqəti bazalar yaratmışdı. Lakin sonradan bu bazaların bir hissəsi gücləndirilib daimi məskunlaşma məntəqələrinə çevrilmişdi. Vikinqlər Britaniyada da məskunlaşmışdı. İngilis dilində bu gün mövcud olan bir sıra sözlər vikinqlərdən alınmışdır. Məsələn, "sky"(səma), "leg" (ayaq), "egg" (yumurta), "crawl" (sürünmək), "lift" (qaldırmaq) və "take" (götürmək) kimi sözlər şimal xalqlarının qədim dillərindən gəlir.

Sonrakı dövrlər Orta ingilis dili inkişaf edərək müasir ingilis dilinə çevrilir.

Birincisi, ingilis dili "beynəlxalq ortaq dil" statusunu qazanmış ilk dildir, yəni başqa dillərdə danışan insanlar arasında ortaq ünsiyyət vasitəsidir. İngilis dili müasir dünyada ən çox danışılan dillərdən biridir. Yer kürəsinin ən güclü dövləti ABŞ başda olmaqla, Avstraliya, Böyük Britaniya, CAR, Yeni Zellandiya, İrlandiya və Sinqapur kimi inkişaf etmiş ölkələrin dövlət dilidir. İngiliscə 400 milyon insanın ana dili, bir milyard 400 milyon insanın isə ikinci dilidir. 53 ölkənin və BMT də daxil olmaqla əksər beynəlxalq təşkilatların əsas rəsmi dillərindən biri, İngilis Millətlər Birliyinin rəsmi dilidir. Bu dil Okeaniyadan Avropaya, Afrikadan Amerikaya qədər dünyanın hər tərəfində əsas ünsiyyət vasitəsidir..İkincisi, qloballaşan təhsilin ən vacib amillərdən biri kimi ingilis dilinin çıxış etməsidir. Dünyanın ən aparıcı on universitetləri siyahısında yer alan ali məktəblərdə təhsil almaq istəyən şəxs ingilis dilini bilməsə buna nail ola bilməz. Bu gün nəşr olunan və son iki əsrdə nəşr olunmuş ədəbiyyatın və kütləvi mətbuatın böyük qismi, internet resuslarının 80%-i ingilis dilindədir. Yəni istər elmi biliklərin öyrənilməsində, istər diplomatik münasibətlərin, istər ticari, iqtisadi əlaqələrin qurulmasında, istər xarici ölkələrə səfərlərdə dünyanın hansı ucqar nöqtəsi olur-olsun, ingilis dili əvəzedilməz funksiya ifa edir. Bu gün yerli və xarici şirkətlər ingilis dilini səlis bilən mütəxəssislərə daha çox üstünlük verirlər.Üçüncüsü, iki üç və daha çox dil bilmək dünyagörüşünün formalaşmasına müsbət mənada təsir edir, hadisələrə daha geniş prizmadan baxmağa kömək edir.Bizim istəklərimizdən asılı olmayaraq dünya qloballaşır. Qloballaşan dövrdə İngilis dilini öyrənmək və onun imkanlarından istifadə etmək mütləq bir prosesə təsir göstərir.Volterin sözü ilə desək, çox dil bilmək bir qalanın bir neçə qapısının açarına sahib olmaqdır.Dördüncüsü, İngilis dili hal-hazırda dünyada diplomatiya, kommersiya, dənizçilik, elmi-texniki və kütləvi informasiya dili rolunu oynayır.Beşincisi, İngilis dilini bilmək iş tapmaqda başlıca rol oynayır. Belə ki, bu gün yerli və xarici şirkətlər ingilis dilini səlis bilən mütəxəssislərə üstünlük verir.

Altıncısı, ingilis dilini bilmək vaxta və xərclərə qənaət etmək deməkdir.

Tərcüməçiyə müraciət etmədən informasiyanı alır, analiz edir, ötürür, bir sözlə öz işimizi özümüz görürük.

Bu gün nəşr olunan və son iki əsrdə nəşr olunmuş ədəbiyyatın və kütləvi mətbuatın böyük qismi, internet resurslarının 80%-i ingilis dilindədir. Yəni istər elmi biliklərin öyrənilməsində, istər diplomatik münasibətlərin, istər ticari, iqtisadi əlaqələrin qurulmasında, istər xarici ölkələrə səfərlərdə dünyanın hansı ucqar nöqtəsi olur-olsun, ingilis dili əvəzedilməz funksiya ifa edir.

Bütün bu səbəblərdən ingilis dilini bilmək Qarabağ kimi ciddi problemi olan və bunu beynəlxalq normalar çərçivəsində sülh yolu ilə həll etməyə çalışan bir ölkənin vətəndaşları olaraq bizim üçün də vacib əhəmiyyət kəsb edir. Güclü bir dövlətlə möhkəm siyasi və iqtisadi əlaqələr qurmaq üçün onun dilini, dilinə hopmuş təfəkkürünü, düşüncəsini, meyarlarını, eyni zamanda zəif nöqtələrini bilmək zəruridir. Beynəlxalq təşkilatlarda Azərbaycanın həqiqətlərini-Qarabağ problemini, Xocalı soyqırımını səsləndirmək, xarici ölkələrdə diasporların fəaliyyətini daha da gücləndirmək, siyasi dairələrə güclü təsir etmək, diplomatik gedişatda rəqibi məğlub eləmək, dövlət maraqlarını daha güclü şəkildə diktə etmək ingilis dilini, eləcə də digər dünya dillərini necə deyərlər "nöqtəsinə, vergülünə" qədər mənimsəniş savadlı və vətənpərvər vətəndaşlar yetişdirməkdən asılıdır.

Dil millətin mövcudluq forması, dövlətin simvolu və varlığını qoruyub saxlamağının birinci vasitəsidir.

Hamıya məlumdur ki, ingilis dilinin vətəni İngiltərədir. Dünya tarixində gedən proseslər nəticəsində bu dil dünyanın, demək olar ki, bütün hissələrinə yayılmışdır. Bu dildə həm şifahi, həm də yazılı ünsiyyət vasitəsi kimi beynəlxalq biznes, diplomatiya və İnternet şəbəkəsində istifadə edilir. İngilis dili texnologiya və beynəlxalq kommunikasiya üzrə qlobal dil sayılır, ədəbiyyatın bütün növlərinin, texniki kitab və dərgilərin, eləcə də elmi jurnalların dilidir. Bir çox ingilisdilli olmayan ölkələrin əhalisi onu ikinci dil kimi öyrənir. Buna görə də şagirdlərin hələ aşağı siniflərdən bu dildə anlaşa bilməsi çox vacibdir.

II dövr – 1150-1500- cü illərə qədər olan dövrü əhatə edir. Bu dövrdə fransız dilində danışan normanlar Britaniyanı fəth etmişlər. Bu dövrdə də ingilis dilinə fransız sözləri daxil olmuşdur. Məsələn: battle-döyüş, chief-başçı, army-ordu.

III dövr -1150-ci ildən bu günkü günə qədər olan dövrdür. Bu dil ildən ilə daha da inkişaf etmiş və daxili inkişaf qanunlarına əsasən formalaşmış, inkişaf etmiş və daha da təkmilləşmişdir.

İngilis dilinin əsasını London dialekti təşkil edir.

İnsan nə qədər çox dil bilərsə, bir o qədər də yaxşıdır. Amma təbii ki, bir insan on dil professional şəkildə bilməsi mümkün deyil. Hal-hazırda dünyada iki-üç əsas dil bilsən kifayət edər. Bunların ən əhəmiyyətlisi isə ingilis dilidir. Bəzi insanlar hələ də dünya dilinin rus dili olduğunu sübut etmək istəyirlər. Amma təəssüf ki, bu belə deyil. Əgər biz rus dilinin əhatə dairəsinə baxsaq görərik, elə də böyük bir coğrafiyanı əhatə eləmir. Amma ingilis dilinin əhatə etdiyi coğrafiyaya baxanda dünyanın bir çox yerini əhatə edir. Hal-hazırda rus dilinin dövlət dili olduğu ölkə demək olar ki,

yoxdur, amma dövlət dili ingilis dili olan ölkələr vardır. Bütün bunlardan başqa dünyanın aparıcı təşkilatlarında, beynəlxalq konfranslarında aparıcı dil ingilis dilidir. Bu dil insan həyatından sanki, qapı rolunu oynayır. Əgər bu dili bilirsənsə, həyatda qapılar üzünə açıqdır, əgər bilmirsənsə, qapılar üzünə bağlanıb.

Ədəbiyyat

1. Н.Н.Красюк «Так говорят по- английски»
2. Антонов О.И. Английский язык для бизнесмена М. 1991.
3. Business Listening and Speaking.
4. The Intermediate Modern English Course. Moscow Higher School 2005.

М.Эфендиева

Роль Английского языка в классификации мировых языков как международного языка и его изучение в Азербайджане

Резюме

Данная статья о том, что английский язык является самым ведущим языком, преподаваемым во всем мире. Настоящее время английский язык является языком политических и бизнес переговоров. Основные научные и медицинские исследования ведутся на английском языке.
На сегодняшний день английский является одним из популярнейших языков в мире. На нем говорят 600 миллионов человек в разных странах, и ежегодно многие начинают его изучать. Современный мир имеет тенденцию к глобализации, а, следовательно, необходим и глобальный язык, который будет связывать людей по всему миру вне зависимости от того, чем они занимаются и какой язык является их родным. На данный момент на роль такого «глобального» языка претендует английский.Несколько сотен лет назад, когда началась колонизация территории современных США, первыми переселились туда именно жители Британских островом, принеся с собой не только свои знания и умения, но и культуру, а с ней и её неотъемлемую часть – язык.

Таким образом, английский язык стал связующим звеномежду континентами.Во-первых, это основной язык средств массовой информации компьютерных технологий. В современном мире очень сложно обойтись без доступа к актуальной информации, а большая её часть с легкостью может быть найдена на английском языке.Во-вторых, это язык бизнеса. Английский является обязательным языком для изучения в школах и высших учебных заведениях многих стран – в России, Швеции, Дании, Норвегии, Японии, Гонконге и многих других.Без знания английского сегодня

обойтись очень сложно, поэтому рекомендуем присоединиться к его изучению на наших курсах.

Ключевые слова – ведущий, обучение, мир, язык, бизнес, обждения

M.Efendieva

the position of English as an international language in the classification of world languages and its study in Azerbaijan

Summary

This article is about English as the best leading study language in the world. Now days English is the language of political and business negotiations. The mail researches in medicine science are conducted in English.L'**anglais** (*English* en anglais ; prononcé : /ˈɪŋ.glɪʃ/) est une langue indo-européenne germanique originaire d'Angleterre qui tire ses racines de langues du nord de l'Europe (terre d'origine des Angles, des Saxons et des Frisons) dont le vocabulaire a été enrichi et la syntaxe et la grammaire modifiées par le français anglo-normand[Note 1], apporté par les Normands, puis par le français avec les Plantagenêt. La langue anglaise est ainsi composée d'environ 60 à 70 % de mots d'origine normande et française[3,4]. L'anglais est également très influencé par les langues romanes, en particulier par l'utilisation de l'alphabet latin ainsi que les chiffres arabes.
Il est également langue officielle ou langue d'échange dans de très nombreux pays issus de l'ancien Empire britannique, même en l'absence de population d'origine anglo-saxonne significative (Kenya, Nigeria, Hong Kong, Inde, Pakistan, etc.). Beaucoup de pays dont l'anglais est la langue officielle sont réunis au sein du Commonwealth (bien que pour certains,
L'anglais est la langue la plus parlée au monde ; en tant que langue maternelle, il se classe troisième, après le chinois (mandarin) et l'espagnol.

Key words : leading, study, world, lnguage, business, negatiations

Məqalənin redaksiyaya daxil olma tarixi: 02.09.2019
Çapa hazırlanma tarixi: 26.11.2019
filologiya üzrə fəlsəfə doktoru,dosent Rəfiq Cəfərov tərəfindən
tövsiyə etmişdir.

XAVƏR HACIYEVA
Filologiya üzrə fəlsəfə doktoru,b\m.
ADİU
İstiqlaliyat küç.51.
xavər.@/mai.ru.

İNGİLİS DİLİNİN ƏNƏNƏVİ TARİXİ ASPEKTDƏN DİALEKTLƏRƏ BÖLÜNMƏSİ VƏ QLABOLLAŞAN DÜNYADA ONUN ROLU

XÜLASƏ

Dil ünsiyyətin əsası, fikirlərin ifadə vasitəsi, düşüncənin səsli təzahürüdür. Dil keçmişlə bu gün arasında körpü, nəsilləri bir-birinə bağlayan tel, maddi-mənəvi irsin yaşadılması və ötürülməsi vasitəsi, millətin dünəni, bu günü və sabahıdır. Məşhur dilşunas alim Humboltun sözü ilə desək : "Dil xalqın ruhudur." Dil xalqın yaşamasında, özünü təsdiqdə önəmli faktor, təfəkkürün, mədəniyyətin inkişaf etdirilməsində əvəzsiz amildir. Dilsiz nə cəmiyyəti, nə də bir fərdi təsəvvür etmək mümkün deyildir. Cəmiyyət dillə qurulur, dillə mədəniyyətini və elmini inkişaf etdirir, adət- ənənələrini qoruyub saxlayır. Bir sözlə, dil millətin və fərdin kimliyidir. Dil insan həyatının ayrılmaz və əvəzedilməz parçasıdır.

Dilin inkişafı düşüncə- dən, düşüncənin inkişafı isə dildən asılıdır. Müxtəlif mədəniyyətlərin meydana gəlməsini təmin edən düşüncə məhz buna görə dilə borcludur.Dil istə- nilən toplumun ünsiyyət vasitəsi olmaqla yanaşı, onun fikri və zehni fəaliyyətinin, dünya və hadisələrə baxış tərzinin "işarələrdə şifrələnmiş" daşıyıcısıdır. Bu səbəbdən də elmi, beynəlxalq arenada güclü mövqedə dayananmış hər hansı bir dövlət və ya xalqın dilini öyrənmək, həm dünyaya inteqrasiya etməyə, həm həmin xalqın inkişafında mühüm rol oynayan əsas amillərə dərindən bələd olmağa, həm əldə edilən kəşf və ixtiraların transferinə,yükssək tərəqqiyə şərait yaradır və ümumiyyətlə,dil öyrənənin hər sahədə inkişafını təmin edir.Dil öyrənmək çox gözəl keyfiyyitlərdən biridir.(1-s.146-154).

Dünyada bir neçə əsas dillər var ki, onları öyrənmək olduqca vacibdir. Onlardan biri və ən əsası ingilis dilidir. İngilis dili doğma dil kimi 410 milyon insan daşıyıcısıdır. İkinci dil kimi 1 milyard insan bu dildə danışır. İngilis dili BMT-nin altı rəsmi və işçi dillərindən biridir. Demək olar ki, bütün ölkələrdə (dövlət dili ingilis dili olan ölkələr istisna olmaqla) ingilis dilinin tədrisi ilə məşğuldurlar. İngilis dili həyatımızın əsas obrazına çevrilmişdir. Çünki hər kəs bu dili öyrənməyə can atır.Müasir dünyamızda dil öyrənməyin müxtəlif səbəbləri vardır. Bu səbəblərin isə ən başlıcası və öndə duranı ondan ibarətədir ki, bu dil vasitəsilə dünyaya hərtərəfli baxmaq imkanı əldə edirik.

Açar sözlər: dil, dialektlər, inkişaf, ünsiyyət, düşüncə, ingilis dilinin dövrləri

İngilis dili öyrənməyin bir neçə digər mühim səbəbləri də vardır:

Birincisi, ingilis dili "beynəlxalq ortaq dil" statusunu qazanmış ilk dildir, yəni başqa dillərdə danışan insanlar arasında ortaq ünsiyyət vasitəsidir. İngilis dili müasir dünyada ən çox danışılan dillərdən biridir. Yer kürəsinin ən güclü dövləti ABŞ başda olmaqla, Avstraliya, Böyük Britaniya, CAR, Yeni Zelandiya, İrlandiya və Sinqapur kimi inkişaf etmiş ölkələrin dövlət dilidir. İkincisi, İngilis dili hal-hazırda dünyada diplomatiya, kommersiya, dənizçilik, elmi-texniki və kütləvi informasiya dili rolunu oynayır. Üçüncüsü, iki, üç və daha çox dil bilmək dünyagörüşünün formalaşmasına müsbət mənada təsir edir, hadisələrə daha geniş prizmadan baxmağa kömək edir. Volterin sözü ilə desək, çox dil bilmək bir qalanın bir neçə qapısının açarına sahib olmaqdir. Bir fərd nə qədər savadlı olsa da, əcnəbi dil bilmədən biliyini dar çərçivədən çıxarıb daha da təkmilləşdirməsi, dünya təcrübəsindən faydalanması, elmi mübadilə aparması mümkün deyildir.

Dördüncüsü, İngilis dilini bilmək iş tapmaqda başlıca rol oynayır. Belə ki, bu gün yerli və xarici şirkətlər ingilis dilində səlis danışa bilən mütə- xəssislərə daha çox üstünlük verirlər.

Beşincisi, İngilis dilini bilmək vaxta və xərclərə qənaət etmək deməkdir. Tərcüməçiyə müraciət etmədən informasiyanı qəbul edir, analiz edir, ötürür, bir sözlə, öz işimizi özümüz görürük.

Altıncısı, bu gün nəşr olunan və son iki əsrdə nəşr olunmuş ədəbiyyatın və kütləvi mətbuatın böyük qismi internet resurslarının 80%-ni ingilis dili təşkil edir. Yəni istər elmi biliklərin öyrənilməsində, istər diplomatik mü- nasibətlərin, istər ticari, iqtisadi əlaqələrin qurulmasında, istər xarici ölkələrə səfərlərdə dünyanın hansı ucqar nöqtəsi olursa-olsun, ingilis dili əvəzedilməz fumksiyaya malikdir.

Ümumiyyətlə, hər dövrdə bir və ya bir neçə dilin aktuallıq qazanması həmin dilin daşıyıcısı olan xalqın və dövlətin, dolayısilə mədəniyyətinin gücündən asılıdır. Və təsadüfi deyil ki, bu gün ingilis dilinin dünya dillə- rindən birinə çevrilməsində-bunun əsas səbəbi müstəmləkəçilik olsa da, - həmin dilin mənsublarının orta əsrlərin sonundan başlayaraq öz dilləri ilə yanaşı, başqa dilləri öyrənib araşdırması böyük rol oynamışdır.

XVII əsrdən XX əsrədək dünyada ən çox elmi araşdırma aparan, müasir və qədim dilləri ən çox tədqiq edən xalqlardan biri də britaniyalılardır. Onlar bir vaxtlar dünyada ən geniş yayılmış ərəb dilini, türk dilini və həmçinin qədim abidələrin və xalqların dilini, məsələn, qədim hind-sanskrit dilini, dravid dillərini, buna paralel həmin xalqların maddi-mənəvi zənginliklərini, kəşf və ixtiralarını, xüsusilə də, Şərqin güclü mədəniyyətini öyrənib tətbiq etməsəydilər, bu gün dünyada hakim xalqlardan və önəmli dil mənsublarından biri olmazdılar. İqtisadi və siyasi gücün əsasında da məhz bu amil dayanır. Ən güclünü öyrənmədən ən güclü ola bilməzsən.(2-s.66-72).

İngilis dilindəki tələffüz fərqləri XV əsrin ortalarından başliyaraq, günümüzə qədər davam etmişdir. Məsələn: /a:/,/i:/ və /u:/ uzun saitləri buna misal ola bi-

lər. “Life” sözü (lyf) /li:f/, daha sonra /leıf/, XVIII əsrdən başlayaraq isə /laıf/ kimi tələffüz olunur.

Bu gün Britaniya və Amerika ingilis dillərində müxtəlif mənaları verən ifadələr mövcuddur. Məsələn, Amerika ingiliscəsində “to drop the ball” (to make a mistake), “to be in the chips” (to suddenly have a lot of money) Britaniya ingiliscəsində işlədilmir.

Bütün dünyada birinci və yaxud ikinci dil kimi ingiliscə danışan xalqlar müxtəlif lüğətlərdən, qrammatika və vurğudan istifadə edirlər. İngilis dilli ölkələrdə bu dil rəsmi və milli məqsədlər üçün istifadə olunur ki, bu da “Standart İngilis dili” adlanır. Bu dil məktəblərdə, radio verlişlərində və televiziyada öyrədilir.

Baxmayaraq ki, “Standart İngilis dili” müxtəlif ölkələrdə müxtəlif aksentlərlə danışılır, bu dildən istifadə etmək istəyən hər bir kəs tərəfindən eyni qrammatika, lüğət və tələffüz qaydalarına müraciət olunur. Standard Avstraliya ingiliscəsi Standard Britaniya ingiliscəsindən fərqlənir. İngiltərədə Standard Britaniya ingiliscəsi kimi çoxlu əyalət və sosial dialektlər vardır. Onların arasında ən nəzərə çarpan tələffüz fərqidir. Məsələn: “grass”sözü cənubda /gra:s/, şimalda isə /ɡræs/ kimi tələffüz edilir.

Bu fərq özünü qrammatikada da göstərir. Bir çox şəhərkənarı dialektlərdə Standard İngilis dili pozulur, məsələn: “He’s a comin” (He’s coming), və yaxud “He ain’t come (He hasn’t come).

XX əsrdə ingilis dilinin geniş surətdə yayılması beynəlxalq biznesin genişlənməsi ilə bağlıdır. Çünki Amerika və Britaniya iqtisadiyyatının genişləndirilməsi ilə əlaqədar olaraq bir çox şirkətlərin nümayəndəlikləri bu ölkələrlə iqtisadi əməkdaşlıq yaratmaq üçün bu dildə danışmalı olurlar. Hava,dəniz, quru yollarında telefon, faks, komputerlərdə, müxtəlif beynəlxalq idman oyunlarının keçirilməsində ingilis dili geniş istifadə edilir. O, həmçinin, bank, internet, biznes, alış-veriş, səyahət dili kimi də istifadə olunur.(5-s.13-19).

Bütün bu səbəblərdən ingilis dilini bilmək bizim üçün vacib əhəmiyyət kəsb edir. Hər hansı güclü bir dövlətlə möhkəm siyasi və iqtisadi əlaqələr yaratmaq üçün onun dilini, dilinə hopmuş təfəkkürünü, düşüncəsini, meyarlarını, eyni zamanda zəif nöqtələrini bilmək olduqca zəruridir.

Beynəlxalq təşkilatlarda Azərbaycanın həqiqətlərini səsləndirmək, xarici ölkələrdə diasporaların fəaliyyətini daha da gücləndirmək, siyasi dairələrə güclü təsir etmək, diplomatik gedişatda rəqibi məğlub etmək, dövlət maraqlarını daha güclü şəkildə diktə etmək ingilis, eləcə də digər dünya dillərini, necə deyərlər “nöqtəsinə, vergülünə” qədər mənimsəmiş savadlı və vətənpərvər vətəndaşlar yetişdirməkdən asılıdır.

Ədəbiyyat:

1. Oxford Bookwarms Factfiles- “The History of the English Language”.səh:146-154.
2. Marchand H. “Bases of studying of phonetics of English language”,1989.səh:66-72.

3. Antal L. “Meaning and its change; Linguistics, M-1974.səh:115-122.
4. William Littlewood. Foreign and second language learning. Cambridge. 2002.səh:88-92.
5. June K. Phillips. Foreign language standards. USA.. 1975.səh:13-19.

KH.Gadjieva

The history of the english language, its dialects and role in our modern world

Summary

The article is about the historical development of the English language for ages. Common information about language is given here. The importance of the English language, its division according to different dialects are analyzed. The major role of English in the modern world,without which it is impossible to live today is described in the article, too. All the possible differences concerning any aspects of languages are also given here. İnevitable phonetic, lexicological and morphological changes spreading in the progressive language are also studied in the article.In the article it is also spoken about the historical linguistic relations of English and its etimological situation from past till present time.

The article analyses some changings, borrowings and similarities in some dialects of the English language. Besides this, historical phases of English are investigated which divided into three groups;1)Old English; 2)Middle age English; 3)New English. The article is devoted to the role of language functions in the integration and integrity of the text. The processes of integration in the syntax of the texts of Azerbaijani and English fiction are considered.

This problem is relevant for linguistics, since the last decades have been marked by the rapid development of text linguistics, whose task is to examine the text from the point of view of its semantic and ideological and artistic unity, identify the principles of organization and use of text speech means, study the functional and stylistic originality of linguistic phenomena in various texts.

The study of this topic is relevant, since the problems of text integration are directly related to the organization of coherent speech, providing the communicative function of the language.

Key words: a language, dialects, development, communication, a thought, English periods

Х.Гаджиева

История английского языка, разделение на диалекты и его роль в современном мире

Резюме

В статье описано историческое развитие английского языка на протяжение долгих лет. Дается общая информация о языке. В статье проанализирована значимость и разделение английского языка на различные диалекты. Также описана большая роль и невозможность существования современного мира без английского языка. Здесь нашли свое отражение все возможные изменения касающиеся языка.

В статье также изучены неизбежно развивающиеся фонетические, лексические и морфологические изменения распространенные в языке. В статье говорится о лингвистической связи в английском языке и ее этимологическом состоянии в прошлом и до настоящего времени. Статья анализирует некоторые изменения, образования, и схожести в ряду диа- лектов. А также исследуются исторические периоды английского языка, которые разделены на 3 группы: 1) древний английский язык; 2) сред- невековый английский язык; 3) современный английский язык.Статья посвящена роли языковых функций в интервации и целостности текста. Рассматриваются процессы интеграции в синтаксисе текстов азербаиджанской и английской художественной литературы.

Данная проблема актуальна для языкознания, поскольку последние десятилетия знаменуются стремительным развитием лингвистики текста, в задачу которой входит рассмотрение текста с точки зрения его смыслового и идейно-художественного единства, выявление принципов организации и использования речевых средств текста, изучение функцианально-стилистического своеобразия языковых явлений в различных текстах. Исследование настоящей темы является актуальным, так как проблемы интеграции текста непосредственно связаны с вопросами организации связной речи, обеспечивающей коммуникативную функцию языка. Таким образом, актуальность настоящего исследования обусловлена возрастающим интересом лингвистов к изучению текста и его категорий.

Ключевые слова: язык, диалекты, развитие, общение, мысль, английские периоды

Məqalənin redaksiyaya daxil olma tarixi:26.07.2019
Çapa hazırlanma tarixi:04.11.2019
filologiya üzrə fəlsəfə doktoru,dosent Həbib Mirzəyev tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏFİQƏ HEYDƏROVA
SEVİNC HACIYEVA
Azərbaycan Texniki Universiteti
H.Cavid pr.25.
shafiga.sevinj.@.mail.ru.

ORTA ƏSRLƏR İNGİLİS ƏDƏBİ DİLİNİN TƏŞƏKKÜLÜ,İNKİŞAFI VƏ İNGİLİS DİLİ YENİ DÖVRÜNÜN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

Xülasə

Məqalə ədəbi ingilis dilinin yaranmasına həsr edilmişdir. Bildiyimiz kimi, ədəbi dil bir sıra dialektlərin cəmindən formalaşır. Yerli dialektlərdən fərqlənən standart danışıq dili, XVIII əsrin qrammatik, fonetik qaydalarına və lüğət tərkibinə əsaslanırdı. Bu dövrün danışıq sözlərinin mənbəyi iki yüz il əvvəl əvvəlki dövrdən başlamışdır. Ədəbi ingilis danışıq dilinin standart formada işlənməsinə baxmayaraq, o, standart yazı kimi sabit deyildi. Danışıq dili qeyri- standart danışıq formasının təsiri altında, yazı formasından fərqli olaraq, asanlıqla dəyişikliklərə məruz qalmışdı.

Yeni İngilis Dili dövrü ərzində ədəbi dil həm yerli danışıq dialektləri əsasında keyfiyyətcə təkmilləşmiş, həm də onun lüğət tərkibi xeyli zənginləşmişdir. Müasir regional dialektlərinin tarixi Orta İngilis Dili dövründən başlayır. Regional dialektlər aşağıdakı kimi bölünür. Cənub dialekti Cənubi-Şərq və Cənubi-Qərb dialektlərinə Midland dialekti, Şərqi Mərkəzi və Qərbi Midland dialektinə, Şimal dialekti daxil olmaqla Şimal və cənub dialektlərinə ayrılır. Bu dialektlər qorunub Orta İngilis Dili dövründə olan fərqlərin bir çoxu standart dilin təsiri altında, sosial və mədəni əlaqələr nəticəsində aradan qalxmışdır. Müasir dövrdə dialektlər arasında olan fərqlər isə Orta İngilis və hətta Qədim İngilis dili dövründə qalmışdır. İngilis dilinin yazı formasının yayılması və qəbul edilməsində ilk çaplarının böyük təsirinin olmasını demək çətindir. Onların istifadə etdikləri ədəbi ingilis dili hələ Coserin dövründə inkişaf etməyə başlamışdır. Bu linqvistik dəyişmələr keçən yüz il ərzində baş vermişdir. Bu dövrdə çap olunmuş kitablar İngiltərənin geniş kütləsi üçün böyük əhəmiyyət kəsb edirdi. Məqalədə bir sıra nümunələr verilir, onların yarnma tarixləri göstərilir.

Açar:sözlər: ədəbi dil, ingilis dili, dilin tarixi, dilçilik, yazı forması.

Qərbi Avropada XV və XVL əsrlər klassik incəsənət, ədəbiyyat və mədəniyyətin çiçəklənməsi kimi qeyd edilir. Yeni burjuaziya cəmiyyətinin yaranması təhsil, elmi, ədəbiyyat və incəsənətin də inkişafına böyük təsir göstərdi. XII əsrin əvvəllərində bünövrəsi qoyulmuş Oksford və Kembric Universitetləri İngiltərədə yeni təhsil mər-

kəzinə çevrildi. Bu dövrdə XII Henri öz sarayına bir qrup savadlı alim və sənətkarları cəlb etmişdir. İxtisası olmayan və aşağı təbəqədən olan adamlar dini təhsil alaraq din xadimi olurlar. Bu qrupa həmçinin aşağı təbəqədən olan zadəganlar, tacirlər və sənətkarlar da daxil idi. Bildiyimiz kimi, ədəbi dil bir sıra dialektlərin cəmindən formalaşır.Yerli dialektlərdən fərqlənən standart danışıq dili, XVIII əsrin qrammatik, fonetik qaydalarına və lüğət tərkibinə əsaslanırdı.(1-стр:110-125)Bu dövrün danışıq sözlərinin mənbəyi iki yüz il əvvəl əvvəlki dövrdən başlamışdır. Ədəbi ingilis danışıq dilinin standart formada işlənməsinə baxmayaraq, o, standart yazı kimi sabit deyildi. Danışıq dili qeyri-standart danışıq formasının təsiri altında, yazı formasından fərqli olaraq, asanlıqla dəyişikliklərə məruz qalmışdı.Məktəblərdə əsas fənn latın dili idi. İngilis dili isə "kobud və qeyri-məhsuldar" dil adlandırılaraq latın dilini öyrənmək üçün bir qrup kimi işlədilirdi. Bu dövrdə bütün Avropada elmi və digər müqavilələrin latın dilində yaradıldı. Bu klassik dilin təsiri altında ingilis dilinin lüğət tərkibi də zənginləşirdirirBu dövrün böyük nailiyyətləri nəticəsində və çap üsulunun kəşf edilməsi nəticəsində həm dil, həm də onun yazı forması inkişaf etməyə başladı.(2-стр:34-39)

"Süni yazı" adlandırılan çap üsulu 1438-ci ildə Almaniyada kəşf edilmişdir. İngilis dilində olan kitab 1476-cı ildə çapçı Vilyam Sakston tərəfindən çap olunmuşdur.

XVI əsrdə yaşaış Con Hart qeyd edirdi ki, artıq kral sarayında və Londonda ədəbi ingilis dilindən istifadə edilirdi. Bundan belə nəticəyə gəlmək olar ki, 1476-cı ildə ilk kitab çapı, ingilis dilçiliyi tarixində bir dönüş nöqtəsi oldu və yeni ingilis dili dövrü başladı. XX əsrdən XVII əsrə kimi ingilis ədəbiyyatı geniş şəkildə inkişaf etməyə başladı. Ədəbi nəşrlər həm sayca çox, həm də xüsusiyyətcə fərqli idilər. Nəşrlər o qədər çox idi ki, onların hamısını saymaq çətindir. Biz yalnız dil tarixindən məşhur olan müəlliflərin bir neçəsinin adını deyə bilərik: XV əsrin ən tanınmış yazıçısı Cefri Coserin şagirdləri, Tomas Hokley (1370-1450) və Con Əlqeyt (1370-1450) və s. göstərə bilərik. Coser dövrünün dili artıq gündəlik nitqdən çıxmışdı. Bu dil "auretik dil" kimi yazıçılar tərəfindən işlənib saxlanılır. Bu quruluşda olan abstrakt sözlərə "latın retvrik dilinin təsiri" güclü olmuşdur.(4-стр:8-25).

XVI əsrin ən görkəmli yazıçı şairlərindən biri də Tomas Mor (1478-1535) idi. O, əsərlərini həm latın, həm də ingilis dilində yazmışdır. Vilyam Tink isə Bibliyanın mə.hur tərcüməçisi idi.Qeyd etmək lazıdır ki, Tindeylin ingiliscəsi nəinki kilsə dilinə həmçinin danışıq dilinə də böyük təsir göstərmişdir. Bibliyanın 1611-ci ildə ingilis dilinə tərcüməsi, yaxud da Kinq Ceymsin Bibliyası Tindeylin tərcüməsinə əsaslanmış, rəsmi olaraq qəbul edilmiş və yazılmışdır. VXII əsrdə Universitetlərdə tədris yeni ədəbi dilində aparılırdı. Bu dövrdə yazılı və danışıq dili arasında demək olar ki, o qədər də fərq yox idi. Təhsil almış adamların çoxu qrammatik və fonetik qaydalara, dərsliklərə əsasən "düzgün" danışmağı öyrənmişdilər (4).Yerli dialektlərdən fərqlənən standart danışıq dili, XVIII əsrin qrammatik, fonetik qaydalarına və lüğət tərkibinə əsaslanırdı.

Bu dövrün danışıq sözlərinin mənbəyi iki yüz il əvvəl əvvəlki dövrdən başla-

mışdır.Ədəbi ingilis danışıq dilinin standart formada işlənməsinə baxmayaraq, o, standart yazı kimi sabit deyildi. Danışıq dili qeyri-standart danışıq formasının təsiri altında, yazı formasından fərqli olaraq, asanlıqla dəyişikliklərə məruz qalmışdı.

Yeni İngilis Dili dövrü ərzində ədəbi dil həm yerli danışıq dialektləri əsasında keyfiy- yətcə təkmilləşmiş, həm də onun lüğət tərkibi xeyli zənginləşmişdir.

Müasir regional dialektlərinin tarixi Orta İngilis (Oİ) Dili dövründən başlayır. Regional dialektlər aşağıdakı kimi bölünür (2).Cənub dialekti Cənubi-Şərq və Cənubi-Qərb dialektlərinə Midland dialekti, Şərqi Mərkəzi və

Qərbi Midland dialektinə, Şimal dialekti daxil olmaqla Şimal və cənub dialektlərinə ayrılır. Bu dialektlər qorunub Orta İngilis Dili dövründə olan fərqlərin bir çoxu standart dilin təsiri altında, sosial və mədəni əlaqələr nəticəsində aradan qalxmışdır.

Müasir dövrdə dialektlər arasında olan fərqlər isə Orta İngilis və hətta Qədim İngilis dili dövründə qalmışdır.

Ədəbiyyat:

1.Ильиш Б.А. История английского языка. М., 1968г.стр:110-125.
2.Смирницкий А.И. История английского языка. М., МГУ, 1965.стр:34-39.
3.Brook Z.Y. A History of the English language. L., 1958.page:69-76.
4.Ярцева Б.Н. Развитие национального литературного языка. М., 1969.4-стр:8-25.

Ш.Гейдарова,
С.Гаджиева

Об истории возникновения английского литературного языка

Резюме

В статье говорится об истории возникновения английского литературного языка.

Как известно, литературный язык формируется на основе множества разных диалектов.

Стандартный разговорный язык, отличный от родных диалектов, был основан на грамматическом, фонетическом и словарном запасе восемнадцатого века. Источник произнесенного слова этой эпохи начался двести лет назад с предыдущего периода. Хотя литературный английский язык разрабатывался в стандартной форме, он не был столь же устойчивым, как стандартное письмо. Разговорный язык легко подвергался изменениям, в отличие от письменной формы, под влиянием нестандартной разговорной формы.

В период Нового английского литературный язык улучшился на основе

местных диалектов и значительно обогатил свой словарный запас. История современных региональных диалектов начинается с эпохи Среднего английского языка. Региональные диалекты делятся следующим образом. Южный диалект делится на юго-восточный и юго-западный диалекты диалекта Мидленд, восточно-центральный и западно-мидлендс- кий диалекты, а также северный диалект, включая северный и южный диалекты. Эти диалекты сохраняются Многие различия в эпоху Среднего английского были устранены в результате стандартных языковых, социальных и культурных отношений. Различия между диалектами в современную эпоху сохраняются в среднеанглийском и даже в древнеанглийском веке. Трудно сказать, что первое издание английского языка имеет большое влияние на распространение и принятие письменной форм

Их литературный английский, который они используют, начал развиваться во времена Козера. Эти языковые изменения произошли за последние сто лет. Книги, изданные в этот период, имели большое значение для широкой массы Англии. В статье приводится ряд примеров, показывающих даты их возникновения.

Ключевые слова: литературный язык, английский язык, история языка, языкознание, формы письма.

SH.Geydarova,
S.Gadjieva

On the history of the English literary language

Summary

The article is dedicated to the creation of the literary English language. As we know, literary language is formed from a number of dialects. The standard spoken language, different from native dialects, was based on the grammatical, phonetic, and vocabulary of the eighteenth century. The source of the spoken word of this era began two hundred years ago from the previous period. The differences between the dialects in the modern era remain in the Middle English and even in the Ancient English age.

Although the literary English language was developed in standard form, it was not as stable as standard writing. The spoken language was subject to changes easily, unlike the form of writing, under the influence of the non-standard spoken form. During the

New English period, literary language has improved on the basis of local dialects and has significantly enriched its vocabulary. The history of modern regional dialects begins with the Middle English era. Regional dialects are divided as follows.

The south dialect is divided into the South-East and South-West dialects of the Midland

dialect, the East Central and West Midland dialects, and the North dialect, including the North and South dialects. These dialects are preserved Many of the differences in the Middle English era have been eliminated as a result of the standard language, social and cultural relationships.

The source of the spoken word of this era began two hundred years ago from the previous period. Although the literary English language was developed in standard form, it was not as stable as standard writing. The differences between the dialects in the modern era remain in the Middle English and even in the Ancient English age. It is difficult to say that the first edition of the English language has a great impact on the spread and adoption of the writing form. Their literary English, which they use, has begun to develop in Coser's time. These linguistic changes have taken place over the past hundred years. The article provides a number of examples, showing the dates of their submission.

Key words: literary language, English, history of language, linguistics, forms of writing.

Redaksiyaya daxil olma tarixi:
Çapa qəbul olunma tarixi:
filologiya üzrə fəlsəfə doktoru, dosent Nuriyyə Rzayeva tərəfindən çapa tövsiyə olunmuşdur

MÜŞFİQƏ ABBASOVA
Azərbaycan Kooperasiya Universiteti
Nəcəf Nərimanov 93.
müşfiqə.@.mail.ru.

İNGILIS DILINDƏ LEKSİK VƏ QRAMMATIK MATERİALIN İNTERAKTİV METOD ILƏ TƏDRIS OLUNMASI

Xülasə

Xarici dillərin öyrənilməsinin bir neçə aspektləri mövcuddur. Bu aspektlərdən biri qrammatikadır. Xarici dildə danışmağı öyrənmək üçün qrammatika əhəmiyyətli yer tutur, o bir növ lüğət tərkibinin bazasıdır. Qrammatikanı öyrənmək və fikirləri düzgün ifadə etmək, həmçinin nitqdə və yazıda qrammatik formaları tanımaq qrammatik bacarıqların yaranması ilə baş verir. Bu günə kimi hələ də müəllimlər arasında bu kimi fikirləri eşitmək mümkündür: "Mənim tələbələrim qrammatikanı bilir, lakin danışanda səhvlər edirlər" ya da əksinə "Danışmağı bacarırlar, lakin qrammatikanı bilmirlər". Bu səbəbdən indiki zamanda qrammatikanın öyrənilməsində kommunikativ yanaşmadan istifadə çox vacibdir.

Qrammatikanı bilmək nə deməkdir? Qrammatik biliklər tələbələrin şifahi və yazılı nitq fəaliyyətlərinin inkişafına xidmət edir. Tələbələrin üslubi bacarıq və vərdişlərinin yaranmasında qrammatik biliklərin rolu müstəsnadır. Qrammatik hadisələr, anlayışlar, dil üzərində müşahidələrdən doğur, insan təfəkkürü bu mücərrəd anlayışları sistemləşdirir, cilalayır, qayda və təriflər yaradır, nitqi düzgün qurmaq məqsədilə tətbiq edir. Qrammatikanın tədrisinə nələr daxildir? Qrammatikanın tədrisinə qrammatik qayda və hadisələr, həmçinin qrammatik konstruksiya və strukturlardan istifadə etmək kimi qrammatik vərdişlər daxildir.

Qrammatik vərdişlər iki qrupa bölünür: reseptiv və produktiv. Reseptiv qrammatik vərdişlərə dinləmə və oxu, produktiv vərdişlərə isə danışıq və yazı daxildir. Produktiv vərdişlərə qrammatik forma və konstruksiyaları əmələ gətirmək və istifadə etmək, onları seçə bilmək, oxu zamanı qrammatik konstruksiyaları müəyyən edə bilmək və həmçinin qrammatik hadisələrdən yazıda istifadə etmək bacarığı aiddir. Reseptiv qrammatik vərdişlərə qrammatik konstruksiyanın taninması və onun məna ilə uyğunlaşması, bir qrammatik konstruksiyanı formaca oxşar digər konstruksiyalardan fərqləndirmək bacarığı, sadə cümlənin strukturunun müəyyən edilməsi və ingilis dilində olan cümlədə söz sırası, mürəkkəb cümlənin strukturunun müəyyən edilməsi, cümlə üzvləri arasında məntiqi, zaman, səbəb-nəticə, tabesiz və tabeli əlaqələri müəyyən etmək bacarığı daxildir.

Açar sözlər:yanaşma,kommunikativ metod,qrammatik bacarıqlar,deduktiv üsul, induktiv üsul

Y.N.Solovova qeyd edir ki, bəzi tələbələr bu və ya digər qrammatik qaydanı hətta uzun müddət işlətdikdən sonra da, onu müəyyən etməkdə çətinlik çəkirlər. Bu səbəbdən, Y.N.Solovova öyrənilən qrammatik qaydanın bütün formalarını: təsdiq, sual və inkar formalarını lövhədə yazmağı, bu strukturun formasını digər strukturun qismən oxşar forması ilə müqayisə etməyi, tələbələri tədris prosesinin passiv yox, aktiv iştirakçıları etməyi və həmçinin qrammatik qaydanın daha yaxşı yadda qalması məqsədilə qrammatik formanı konkret nitq konteksti ilə əlaqələndirməyi təklif edir.(1-s.106-110)

Qrammatikanı öyrənmək – xarici dilin öyrənilməsinin ən əhəmiyyətli aspektlərindən biridir, çünki dolğun kommunikasiya qrammatika olmadan baş verə bilməz. Heç bir şübhə yoxdur ki, qrammatik qaydaları bilmək dil öyrənmək üçün zəruridir. Lakin son on illiklər ərzində intensiv şəkildə inkışaf edən kommunikativ təlim metodu ingilis dilinin bütün aspektlərinə təsir etdiyi kimi, həmçinin qrammatikanın tədrisinə də çox təsir etmışdir. İngilis dilinin qrammatikasının kommunikativ metod ilə tədris olunmasında əsas diqqət danışıq nitqinin bacarıq və vərdişlərinin inkişaf etdirilməsinə yönəldilir, bu təlim prosesində tələbələr hər hansı bir qrammatik qaydanı əzbərləyib öyrənməyin əvəzinə, müəllim tələbələrə bu qaydanı çalışmalarda öyrətməli və tələbələr qrammatik qaydanı intuitiv olaraq kommunikativ fəaliyyət prosesində öyrənməlidirlər. Ənənəvi olaraq, qrammatikanın tədrisi zamanı iki üsuldan – deduktiv və induktiv üsullardan istifadə olunur. Deduktiv yanaşmada müəllim əvvəlcə yeni qrammatik materialı təqdim edir, qaydaları izah edir, misallar göstərir, deyilmiş qaydanı misallar üzrə əsaslandırır, sonra isə tələbələr bir sıra çalışmalar yerinə yetirirlər. Deduktiv yanaşmanın əsas üstünlüyü odur ki, yeni qrammatik materialın izahına az vaxt sərf olunur, lakin bu yanaşma tələbələrin sərbəst fəaliyyətini məhdudlaşdırır. Bu üsul passiv və formal xarakter daşıyır. Deduktiv yanaşma çərçivəsində yeni qrammatik materialın tədrisini üç mərhələyə bölmək olar:

1.Yeni qrammatik materialın izah edilməsi. (2-s.22-34)

Bu mərhələdə müəllim tələbələr üçün yeni olan qrammatik konstruksiyaya aid bir sıra mısallar yazır, onların istifadə hallarını izah edir, sual və inkar formalarının əmələ gəlməsini, qısa cavab nümunələrini və s. qeyd edir.

2.Yeni qrammatik materialın işlənilməsi.

Bu mərhələdə tələbələr bir sıra çətin olmayan tapşırıqlar yerinə yetirirlər və bu tapşırıqlar dərhal bütün qrup tərəfindən yoxlanılır. Bu mərhələdə müəllimin yeni qrammatik materialın tələbələr tərəfindən mənimsənilməsinə nəzarət etməsi xüsusi əhəmiyyət kəsb edir.

3. Yeni qrammatik materiala aid produktiv çalışmalar.

Bu çalışmalara dialoqların düzəldilməsi, müxtəlif mövzuların müzakirə edilməsi, şəkillərdə olan oxşar və fərqli cəhətlərin tapılması və s. bu kimi tapşırıqlar daxildir.

Beləliklə, mən dərsdə çalışıram ki, tələbələr qrammatik qaydaları verilmiş misallar əsasında dərk edib mənimsəsinlər. Bəzi müəllimlər qrammatik qaydaya həd-

dindən çox vaxt sərf edir və dilin başqa aspektlərini unudurlar. Məncə, qrammatik materialın uzun-uzadı izahı dərsdə tələbələrin marağını azaldır. Odur ki, qrammatik materialın tədrisində uzunçuluğa yol verilməməli, tələbələrin fəallığı təmin olunmalıdır.

Qrammatik bacarıq nitq bacarığının ən vacibidir, elə bu səbəbdən xarici dilin anlaşılmasına və nitq qurmağa effektiv təsir edir. Qrammatik bacarıqların yaranması üçün dil və nitq çalışmalarının sistemi var. Dil çalışmalarında tələbələrə bir sıra tapşırıqlar həll etmək təklif olunur. Məsələn: artiklların qoyulması, isimlərin cəminin yaranması, qaydalı fellərin seçilməsi və s. Bu çalışmalar qrammatik bacarıqların formalaşmasına yönəlib. Nitq çalışmalarına mətnə aid sual cavab tapşırıqları və ya mətndəki informasiyanı təsdiq ya da inkar edən tapşırıqlar daxildir. Bu cür tapşırıqlar reproduktiv xarakter daşıyır.(4-s.236)

Qrammatik bacarıqları bərkitmək üçün qrammatikanı öyrədərkən müəllim müxtəlif kommunikativ və şərti-kommunikativ situasiyalar yaratmalıdır, yəni tələbələri qrammatik materialla tanış etməli və bu materialı nitqdə istifadə etməlidir. Ənənəvi qrammatik çalışmaların və kommunikativ xarakterli qrammatik çalışmaların birləşməsi lazımdır. Solovova hesab edir ki, xarici dilin tədrisində tədrisin praktik, təhsil və inkişafyönlü məqsədlərini bir-birindən ayırmaq olmaz, dil kompetensiyasının formalaşması isə nitq və ictimai-mədəni kompetensiyaların formalaşması ilə eyni zamanda baş verməlidir. Qrammatikanın mənimsənilməsi qrammatik qaydaları bilməkdən çox, onları fikirləşmədən qarşılıqlı unsiyyət prosesində tətbiq etmək bacarığını nəzərdə tutur. Y.N.Solovova hesab edir ki, qrammatik bacarıqları bərkitmək üçün şərti-kommunikativ və kommunikativ çalışmaların istifadəsi vacibdir.Qrammatik bacarıqlar bütün nitq fəaliyyətlərinin ayrılmaz hissəsidir və qrammatik bacarıqların formalaşması, təkmilləşdirilməsi və inkişafı xarici dilin tədrisi zamanı əsas vəzifədir. Əgər tələbələr kifayət qədər leksik materiallara malikdirlərsə və xarici dildə olan materialı mənimsəyirlərsə bu proses xüsusilə vacibdir. Əgər tədris prosesi tələbələr üçün daha dəqiq real dil ünsiyyəti şəraitində təşkil olunarsa, o halda dərsdə xarici dili uğurla mənimsəmək mümkün olacaq. Deməli, tələbələrin ingilis dilinə praktik olaraq yiyələnməsinə qrammatik material kömək edir, daha doğrusu, ondan bir ünsiyyət vasitəsi kimi istifadə olunur. İngilis dilinin tədrisində qrammatik materialın öyrənilməsi bu dildə yazılmış mətnləri oxuyub basa düşmək, nitqi anlamaq və fikri ifadə etmək bacarığına kömək etməlidir. Buna görə də ingilis dilinin tədrisində qrammatikanın xüsusi yeri və əhəmiyyəti var.

Ədəbiyyat

1. Tahirov A.T. İngilis dilinin tədrisi metodikası. B: Maarif, 1978. Səh:106-110.
2. Qədimova X.H. İnteraktiv təlim metodları və onların tətbiqi yolları. B,2003.səh: 22-34.

3. Соловова Е.Н. Методика обучения иностр. языкам.М:Просвещение, 2005. S.45-56
4. Миролюбов А.А. Проблемы обучения грам. и фонетике иностр. языков,,2006 s.236.

М.Аббасовба

Обучение грамматике английского языка в рамках интерактивного подхода

Резюме

Данная статья рассматривает обучение грамматике английского языка в рамках коммуникативного подхода. Изучение иностранных языков составляют несколько аспектов. Одним из таких аспектов является грамматика. Обучение грамматике – один из важнейших аспектов обучения иностранному языку, так как полноценная коммуникация не может происходить при отсутствии грамматике. Нет сомнения, что знание грамматических правил необходимо для успешного владения языком. Обучение грамматике и правильному оформлению высказывания, а также распознавание грамматических форм в речи и письме происходит посредством формирования грамматических навыков. Грамматические знания служит для формирования устной и письменной деятельности у студентов. Грамматические знания имеют большое значение в появлении стилистических умений и навыков у студентов. Одним словом, грамматика практически служит для того чтобы говорить, для создания и формирования умения и навыков.

Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть роль упражнении. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите.

Ключевые слова: подход, коммуникативный метод, грамматические навыки, дедуктивный подход, индуктивный подход

M.Abbasova

Teaching of english grammar within communicative approach

Summary

This article deals with teaching of English grammar within communicative approach. There are a few aspects of the study of foreign languages. Grammar is one of such aspects. Learning grammar is one of the most important aspects of learning of a foreign language because full communication can't happen without grammar. There is no doubt that the knowledge of grammar rules is necessary to know for language learning. To learn grammar and to express opinions correctly and also recognition of grammar forms in the speech and in writing happens by means of formation of grammar skills. Grammar knowledge serves formation of the students' oral and written speech activities. Grammar knowledge plays a major role in the creation of stylistic skills in students. In short grammar practically serves to speak, the creation and formation of ability and skills.

The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. The article is devoted to the audio and video materials in modern methodology. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of literature. The author emphasizes its role in methodology. Since its emergence this notion caught the attention. New researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently.

Key words: approach, communicative method, grammar skills, deductive approach, inductive Approach

Redaksiyaya daxil olma tarixi: 08.09.2019
Çapa qəbul olunma tarixi: 09.11.2019
filologiya üzrə fəlsəfə doktoru, dosent Nuriyyə Rzayeva çapa tövsiyə olunmuşdur
.

ELFİRA BAĞIRZADƏ
Azərbaycan Dövlət İqtisad Universiteti
İstiqlaliyyət küç.6.
elfira.@.mail.ru.

ƏDƏBİ DİL NORMALARININ FORMALAŞMASINDA ŞİRVAN DIALEKT FAKTORUNUN ROLU VƏ ƏHƏMİYYƏTİ

Xülasə

Dil ona olan tələbatı yerinə yetirmək və insanlar arasında ünsiyyət vasitəsi olmasını qoruyub saxlamaq üçün öz daxilində daim yenilənmələrlə müşahidə olunur. Ədəbi dilin formlaşmasında bir sıra faktorlar əhəmiyyət daşıyır ki bunlardan da birinci olaraq dialekt faktorunu qeyd etmək olar. Ədəbi dil daim dialektlərlə üzvi şəkildə əlaqəli olur. Dialektlər adəbi dilin zənginləşməsinda mühüm əhəmiyyət daşıyır. Belə ki, ədəbi dil inkişaf etdikcə ona lazım olan sözləri əldə etmək üçün daim dialektlərdən faydalanır və özünü zənginləşdirir Ədəbi dili dialektsiz təsəvvür etmək qeyrimümkündür. Dil tarixi hadisə olduğu üçün onun daxilində dəyişikliklər baş veir. Dəyişiklik dedikdə bunun dilin tam olaraq yeni formaya keçməsi kimi başa düşülməsi düz olmaz. Zamanla dildə olan bir norma öz yerini digər bir normaya verir. Bu proses zamanı dialekt faktoru xüsusi rol oynayır. Hər bir ədəbi dilin əsas qida mənbəyi dialektlərdir. Ədəbi dildə norma anlayışı seçmə əməliyyatının aparılması üçün dildə olan variantların olması ilə əlaqəlidir. Əgər variantlar mövcud deyilsə, o zaman har hansı bir normadan söhbət açmağa ehtiyac qalmır." Norma problemi o halda meydana gəlir ki, dil sistemində eyni hadisənin istifadəçisi olan variantlar mövcud olsun.Dildə bu variantlılığın əsas mənbəyi kimi dialektlər çıxış edir.Azərbaycan dilinin Şirvan dialektindən danışarkən onu normasız mövcud olmasını demək yalnış olar. Şirvan dialektinin də özünəməxsus normaları vardır. Ünsiyyətin anlaşıqli olması üçün ədəbi dildə olduğu kimi, dialektlərdə də normalar vardır. «Demək olmz ki, dialekt üçün norma xarakterik devil. Normal, maneəsiz anlaşılan ünsiyyətin mümkünlüyü üçün dialektlərdə də norma mövcüddur, lakin ədəbi dil normasından fərqli olarq, bunlar ənənə ilə qorunur, şüurlu surətdə seçilmir və yazıya alınmır» . Ədəbi dili Şirvan dialektindən fərqləndirən cəhətlərdən biri də onun normalarının şüurlu olaraq seçilməməsidir. Yaxud meydana gəldikdən sonra ədəbi dilin normaları sabitləşməyə başlamış və yazı vasitasilə qorunub saxlanılmışdır.

Açar sözlər: ədəbi dil,şirvan dialekti, fonetik norma, leksik və sintaktik norma

Ədəbi dilin formalaşmasında Şirvan dialekti əsas baza kimi çixiş edir. Lakin bu o anlama gəlmir ki, həmin dialektlə ədəbi dil tam olaraq eyni məzmun daşıyır. Bu

haqda danışarkan A. S. Çikobava bunu aşağıdakı kimi geyd etmişdir: "Bu linqvistik yox, ictimai-siyasi xarakterli şəraitdan asıli, yəni ədəbi dilin yarandığı anda cəmiyyətin mədəni və ictimai-siyasi həyatında aparicı rolu hansı dialektin dominant rol oynamasından asılıdır." (1, səh.117-118). Ədəbi dil normaları xalqın ümumi istifadəsi üçün tam anlaşıqli bir formada yaradılır. Əgar burada hansısa bir dialektin üstünlüynə yol verilorsa, digar qurup insanlar bu dialek faktlarını anlaması üçün çətinliklır yaranacaqdır.Ədəbi dilin formalaşmasında mərkaz dialekt faktorunun asas rola malik olması Wagainda V. Resetov öz fikilorini belə qeyd edir: Qeyd edilən dövrlərdən XIIII-XIV asrlərdə Azarbaycan adəbi dilinin asasında Şirvan dialektinin durması Şirvan şəhərinin ictimai-siyasi cahatdan markaz rolunun oynaması ilə bağlıdır. Bununla yanaşı XVIII əsrdə adəbi dilin formalaşmasında **Şirvan dialektinin** əsas kimi çıxış etmasi həmin dövrdə Qarabağın Azərbaycan ictimai-siyasi mühitində başlıca rol oynaması,mərkəz mövqeyində durmasıdır. Həmçinin həmin dövr Azərbaycan ədəbiyyatında xalq dilinə yaxın ədəbiyyat nümunələrinin artması, M. V. Vidadi,M. P. Vaqif va s. şairlərin sadə dilə meyl etmesi dilin arabizimlərdən yüngülləşdirmə meylinin olması Azarbaycan ədəbi dilinin qərb dialektinin asasında inkişaf etməsinə zamin yaratmışdır. Ədəbi dil öz normalarini yazıda möhkəmləndirir və qoruyur. Əgər ədəbi dil yazıda öz əksini tapmazsa, dildaxili və dilxarici təsirlərin davamlı təsirinə məruz qalaraq tez-tez dəyişikliklərə uğrayaraq ünsiyyət üçün çətinliklər yaratmış olacaqdır.Bu haqda Ə.Dəmirçizadə qeyd edir: "Ədəbi dildə sabitliyin təmin olunması normativ xususiyyətlərin yazıya alınması ilə mümkündür. Belə ki, ədəbi dil normasi nə qədər sabit olsa da, tarixi kateqoriya olduğu üçün dəyişir, ədəbi dildə normanın möhkəmlənməsi və hamı üçün vacibliyi prinsipinin təmin edilmasində yazınun rolu əvəzsizdir. "(2-s,10-12). Bu nümunalarin yazıya köçməsi də adəbi dilin qərb dialekti əsasında inkişafina təkan vermişdir.Normalar öz əksini yazıda tapdıqca daha da möhkəmlənməyə başlamışdır

Dost dostun yolunda düşar ziyana,Igid gərək tab gətirə dayana. M. P. Vaqif Qatar-gatar olub qalxıb havaya,Na çıxıbsız asimana, durnalar! M. V. Vidadi

Azərbaycan ədəbi dilinin dialekt asasında formalaşma fikrinə əsaslanane demak olarki, müasir Azərbaycan ədəbi dilinin formalaşmasında Bakı-Şamaxı dialekti mərkəz mövqedə durmuşdur. XIX cü əsrdə paytaxtın Şamaxı şəhəri olması və Şamaxı zəlzələsindən sonra paytaxtın Baki şəhəirina köçməsi bu işdə iqtisadi mərkəz kimi Bakı şəhərinin rolunu artırmışdır. Buna görə də bütün dialektlərə mənsub insanlarn bura axinı ilə Bakı şəhəri dialektlərin cəmləşməsi mərkəzinə çevrilmişdir. Bununla yanaşı ictimai-siyasi mərkəzə çevrilərək ədəbi dilin yeni mərhələsinin formalaşması üçün şərait yaranmışdır. Bu dövrdə mətbuatın inkişafi ədəbi dilin normalarının sabitləşməsinə kömək etmişdir.Mətbuatin yaranması ilə dialektlərdən gələn norma variantları üzərində seçmə genişlənmiş və münasib variant yazıya gətirlərək möhkmlənmişdir.Azərbaycan dialektləri qərb, şərq, şimal va canub qrupu olmaqla dörd yerə ayrılır. Quba, Şamaxı, Bakı, Muğan və Lənkəran dialektləri şərq qrupuna; Qazax, Qarabağ, Gəncə dialektləri qərb qrupuna, Şəki və Zaqatala-Qax dialektləri şimal qrupuna,

Naxçıvan, Ordubad, İrəvan dialektləri isə cənub qrupuna daxildir. Har bir qrupun özünəməxsüs fonetik, leksik, qrammatik xüsusiyyətləri vardır.. Bu xüsusiyyətlər də adəbi dilin normalarının xüsusiyyətləri olsalar da, hamısı ədəbi dilin zənginləşməsində mühüm rol oynayır.. Dil tarixi proses olduğundan daim dəyişikliklərə məruz qalır. Ədabi dildə dəyişikliklər dilin bütün yaruslarında eyni dərəcədə getmir. Dil fonetik və leksik normalarda gedən dəyişikliyə daha çox məruz qalır. Dilin qrammatik variantlığın çoxluğu va danışıq zamanı dildə istifadə edilməsi, dil üçün münasib olanlarin seçilməsi ilə əlaqədardır.Dilşünas alim- tədqiqatçı EƏzizov yazır:"Şirvan dialektinə xas xüsusiyyətlərdən biri da cağır n-nin (n) olması ilə bağlıdır. Bu səs dialektlərdə müxtəlif səs çalarlarinin yarnmasına gətirib çıxarmışdır. Azərbaycan dili şivələrində samit düşümü nəticəsində sözdəki saitlərin uzun tələffüzü üçün şərait yaranmış olur. Saitlərin uzun tələffüz olunması səbəblərindən biri də **n** samitidir".(3-s.76).

Tarixi mərhələlərda samit səslər müəyyən bir yol keçərək öz yerini digər bir variantlara vermiş va bu variantlardan ədəbi dilə gətirilərək norma kimi götürülmüşdür. XX asrin 30-cü illərinə qədər bu əlifbada öz əksini tapsa da, sonralar əlifbadan cixarılmışdır. Bəzi dialektlərdə sait səslərin üzün təlləffüz edilmesi kimi hallara rast gəlinməsi müşahidə olunur ki, bu da n samitinin təsirini olması ilə alaqədardır. Məsələn: ma: (mənə), sa: (səno), oa: (ona) gö:lüm (könlüm), gözəl (könül) və s. n səsinin sonrakı inkişaf yolunu və hansı mərhələlərdən keçərək norma halına çevrildiyini M. Şirəliyev aşağıdakı kimi qeyd etmişdir: "Daha sonralar qovuşuq "nq" səsi get-gedə öz hissələrinə parçalanmış, bir qrup dilaektlərdə bu səsin **n** ünsürü, başqa bir qrup dialektlərdə isə "q", "ğ","g" ünsürlərinə üstünlük verilmişdir. "G" səsinin yumuşalması nəticəsində onun yerina bəzi dilalekt va şivələrdə **y** səsi meydana gəlmiş, bəzi dialekt va şivələrdə isə **"g"** səsi **v** səsi ilə əvəzlənmişdir." Fonetikanın əsas normalarından biri də ümümtürk dil qanunu olan ahəng qanunundur. Ədəbi dillə müqayisadə dialektlərdə ahəng qanunu o qədar da möhkəmliyini qoruyub saxlaya bilmir.Azərbaycn dilinin Şirvan dialekti haqqında M İslamov yazır:" Azərbaycan dialektlərinin bəzilərində ahəng qanunu gözlənilsə də, bəzilərində bu qanun gözlənilmir."(4-s.16-23). Azərbaycan dialect qruplarını bu baximdan üç hissəyə ayırmaq olar.

1. Ahəng qnununun bəzi hallarda pozulduğu dialekt və şivələr. Bura Bakı, Quba, Lənkəran dialektləri və şivələrini daxil etmək olar. Məsələn: **Alecek, tutacek, aleyam,dəneşerəm, dedıx, beşlıx və s.**

2. Əksər hallarda ahəng qanununa əməl olunan dialekt və şivələr; Qazax, Qarabağ, Gəncə dialektləri daxildir. Məsələn: **çanax,mağar, oxumuyuf, almıyıf, gözdüyür və s**. Bu qrupa aid dialektlərdə adəbi dilin normlarına zidd da olsa belə, bəzi hallarda ahəng qanunu qoruyub, saxlayır.Məsələn: **ilxı, ildırım və s.**

3. Ahəng qanunun az hallarda pozulduğu dialekt və şivələrdir ki, bura Şamaxı, Naxçıvan dialektləri və Muğan şivəsi daxildir.

Ədəbi dilin zənginləşməsində onun leksik tərkibi mühüm əhəmiyyətli dəyişikliklər və yeniliklər özünü dilin lüğət tarkibində göstarir.. Cəmiyyətin inkişafi ilə əlaqədar olaraq baş verən hadisələr dilin lüğat tarkibində də özünü biruzə verir.

Şirvan dialektlindən ədəbi dilə gələn sözlərin böyük bir qismi isə elm vasitəsi ilə dilə daxil olmuşdur. Bu prosesdə Həsən bəy Zərdabinin adını xüsusi qeyd etmək lazımdır. Onun təsis etdiyi "Əkinçi" qəzetində çoxlu sayda terminlər dialektlərdən ədəbi dilə gəlmişdir.Məs: yatalaq, yağışölçən, tullama, soyuq yer və s.

Ədəbiyyat:

1..” Лингвистический анализ диалектных слов современного русского языка”стр: 117-118.
2.Dəmirçizadə Ə.. "Azərbaycan dili orfoepiyasının əsasları." Bakı, "API nəşriyyati", 1969.səh:10-12
3.Əzizov E. "Azərb.Şirvan Dialekt sisteminin təşəkkülü və inkişafi." B, “ BDU. 1999, səh.76.
4.İslamov M. "Azərbaycan dilinin şirvan dialekti." Bakı, Azərbaycan SSR EA, 1968. Səh. 16-23

Е.Багирзаде

Роль фактора Ширванского диалекта в формировании норм Азербайджанского литературного языка

Резюме

В статье рассказывается об описании литературного языка и фактора диалекта в формировании литературного языка. Также затронута тема , как проведен процесс выбора между диалектами и литературным языком .

Наряду с фонетическим, лексическим отделами диалектов, также дана информация о синтаксическом отделе. В формирование литуратурного языка, рассказе о всех четырех направление диалектов, подчеркнуто их характеристик характеристика.

В статье помимо вышеуказанного ещё рассмотрено историческая путь Азербайджанская диалектологию. Без исключение точный, западный, южный или северный диалекты имеет важную значение для нормативы литературного языка. Диалекты постоянно играют важную роль в развитии литературного языка.

Основная доля в обновлении, изменении норм литературного языка принадлежит диалектам. В Связи изменением по требование языковая направление 4 мне каждом развивающее обществе, нормативе литературном языке нуждается возведение. Один из языковых факторов чтобы опередить таких вопросы считается диалекты. И по этой причине тема имеет особое значение

Ключевые слова: Литературный язык,диалект ширвана ,норма в литературном языке, фонетическая , лексическая и синтаксическая норма

E.Baguirzade

The role of the SHirvan dialect norms in the formation literature Azerbaijani

Summary

The influence of a dialect factorin the formation of literary language.disputed in the article. Also how the choise process among dialects and literacy language must be carried is considered. Beside phonetic, lexic departments of dialects, the syntactic one is also touched. In the formation of the literar .

Language, talked about the four dialect of our language and their particularities In addition to these, the historical way of Azerbaijan dialectology has been examined. Dialects are important for literary language norms such as east, west south, or north. Dialects always play an important role in the progress of a literary language.

Dialects are given main attention in the process of their changing, renovation. As the language needs of the developing society changes,the need for renewal in the norms of the literary language increases. One of the language factors that provides these are dialects. So this theme is played a special importance.

The disadvantages of traditional methods required new approaches or methods for teaching grammar, as well as the language which the learners could use in their real life. One of the approaches that set up thinking this goal was communicative approach. Communicative approach is based on communicative competence and interaction. According that fact the choice of materials must be related to the real-life situations and convince the learners to use the knowledge and grammar rules during their speaking

Key words:Literary norms,dialect shirvan, norms, literary language, phonetic norm, lexic norm, syntactic norms.

Redaksiyaya daxil olma tarixi: 05.08.2019
Çapa qəbul olunma tarixi:27.11.2019
filologiya üzrə fəlsəfə doktoru, dosent Adilə Zeynalova tərəfindən çapa tövsiyə olunmuşdur

FƏRİDƏ SƏFƏRƏLIYEVA
ADPU
Üzeyir Hacıbəyov 34
f.safaraliyeva@mail.ru

İBTİDAİ SİNİFLƏRDƏ ORFOQRAFIYA-ORFOEPİYA MƏSƏLƏLƏRİNİN ÖYRƏDİLMƏSİ

XÜLASƏ

Nitq inkişafı təlimində qarşıya qoyulan əsas vəzifələrdən biri şagirdlərə düzgün tələffüz vərdişləri aşılamaqdır. Ədəbi tələffüz şagirdlərin lüğət ehtiyatının artırılması məsələsində böyük rol oynayır. Müəllim ədəbi dili bilərsə, leksik, qrammatik, orfoepik, orfoqrafik normalara əməl edəcək. Şagirdlərin ədəbi tələffüzə yiyələnməsində fonetik təhlilin rolu böyükdür. Bunun təməli ibtidai sinifdən düzgün qurulmalıdır. Bəzi qrammatik qaydalar eyni zamanda orfoqrafiya təlimi və nitq inkişafına xidmət edir. Məhz buna görə də orfoqrafiya ilə orfoepiya əlaqəli tədris edilməlidir. İbtidai sinifdə orfoqrafiya və orfoepiya ilə bağlı kifayət qədər tapşırıqlar vardır. Orfoqrafiya təliminin başlıca və ümdə vəzifəsi şagirdləri orfoqrafik bilik, bacarıq və vərdişlərlə silahlandırmaqdır. Orfoepiya (orfoepik tələffüz) anlayışı ilə ədəbi tələffüz məfhumu heç də bir-birinin tam eyni deyildir. Orfoepiya dar mənada başa düşülür. Lakin ədəbi tələffüz çox geniş anlayışdır. Orfoepiya qaydalarının formalaşma və inkişaf tarixini müəyyənləşdirmək olduqca çətindir. Çünki müxtəlif dövrlərdə işlənən hər bir orfoepik norma yazıda əks olunmur.

Ədəbi tələffüz vərdişlərinin yaradılması və inkişafı məqsədilə iş aparmaq üçün digər fənlərlə müqayisədə ana dili fənninin imkanları daha genişdir. Bu fənnin elə bir mövzusu yoxdur ki, ədəbi tələffüzlə bağlı olmasın. İbtidai sinifdə müəllim şagirdlərin həm şifahi, həm də yazılı nitqini inkişaf etdirməlidir. Düzgün yazı məhz savad təlimi dövründə formalaşır. Müəllimin nitqi aydın olmalı və danışarkən ədəbi tələffüz qaydalarına əməl etməlidir. Ədəbi tələffüz orfoqrafiya ilə sıx əlaqədardır. Orfoqrafik çalışmaların şagirdlərin yazı vərdişlərinin formalaşmasında rolu böyükdür.

Açar söz: orfoqrafiya-orfoepiya, ibtidai sinif, dərslik

Azərbaycan dili dərslərinin başlıca təlim vəzifəsi düzgün yazı qaydalarına əsaslanan savadlı yazını və ədəbi tələffüz normalarına tabe olan nitq inkişafını təmin etməkdir.

Ana dili ümumtəhsil məktəblərində tədris olunmaqla, şagirdlərin nitq mədəniyyətinin formalaşmasına xidmət edir. Ana dilinin ibtidai kursu yuxarı siniflərdə Azərbaycan dili və ədəbiyyatın öyrədilməsi sisteminin bönövrəsi hesab olunur. İbtidai siniflərdə ana dili tədrisinin başlıca məqsədi şagirdlərə doğma dildə oxumağı, yazmağı

öyrətmək, onların şifahi və yazılı nitqini inkişaf etdirməkdir. "Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün Ana dili kurikulumu"nda qeyd olunur ki, ümumtəhsil məktəblərində ana dili təliminin məqsədi ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla, şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir. İbtidai təhsil səviyyəsində əlifbanın öyrənilməsi, oxu və yazı texnikasının, hüsnxət qaydalarının düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilk bacarıqların mənimsənilməsi, lüğət ehtiyatının tədricən zənginləşdirilməsi, ən zəruri qrammatik qaydaların və ədəbi tələffüz normalarının öyrənilib tətbiq olunması, ekspressiv nitq bacarıqlarının formalaşdırılması, Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi keyfiyyətləri, mədəniyyəti, adət-ənənələri haqqında ilkin anlayışların yaradılması təmin olunur.

Nitq inkişafı təlimində qarşıya qoyulan əsas vəzifələrdən biri şagirdlərdə düzgün tələffüz vərdişlərini aşılamaqdan ibarətdir. Bunu təmin etmək üçün nitqdə yerli şivə və orfoqrafik tələffüz elementləri aradan qaldırılmalı, orfoepik normalara ciddi riayət olunmalıdır. İntonasiya, nitq fasilələri, vurğu, nitqin sürəti, tonu və s. məsələlər ümumi ədəbi tələffüz aspektində işıqlandırılmalıdır.

Orfoepiya (orfoepik tələffüz) anlayışı ilə ədəbi tələffüz məfhumu heç də bir-birinin tam eyni deyildir. Orfoepiya dar mənada başa düşülür. Lakin ədəbi tələffüz çox geniş anlayışdır. Lakin orfoepiya qaydalarının formalaşma və inkişaf tarixini müəyyənləşdirmək olduqca çətindir. Çünki müxtəlif dövrlərdə işlənən hər bir orfoepik norma yazıda əks olunmur. Bu məsələlər bəzi klassik bədii əsərlərdə (müəllifin öz nitqində), müxtəlif tarixlərdə yazılmış dilçilik materiallarında, xüsusən dilə aid vəsaitlərdə axtarıldıqda az və ya çox dərəcədə fakt verə bilir.

XX əsrdən öncə imkan və şərait olmadığından Azərbaycan dilinin orfoepiyasının öyrənilməsinə, əsasən XX əsrdən başlanılmış, orfoepiya məsələlərinə dair bir sıra əsərlər meydana çıxmışdır. Lakin bütün bunlara baxmayaraq, dilimizin səs sisteminin və ədəbi tələffüz məsələlərinin bəzi cəhətləri hələ istənilən şəkildə öz həllini tapmamışdır. Buna görə də müasir dövrdə, xüsusən orfoepiya sahəsində Azərbaycan dilçiliyinin qarşısında bir sıra vacib vəzifələr durur:

1. Azərbaycan dili orfoepiyasının tarixi əsaslarını ciddi elmi axtarışlar üzərində tədqiq etmək;

Azərbaycan ədəbi tələffüz normalarının formalaşma və inkişaf tarixini öyrənməyin böyük praktik əhəmiyyəti vardır. Orfoepik tələffüz haqqında tarixi məlumat, hər şeydən əvvəl, klassikləri, o cümlədən Füzuli, Vaqif, Zakir, S.Ə.Şirvani və Sabiri düzgün oxumağa imkan verər, təhriflərə, məna dolaşıqlığına yol verməz.

2. Müasir Azərbaycan dilinin orfoepik normalarını ətraflı müəyyənləşdirmək və sistemləşdirmək.

Məlumdur ki, orfoepiya qaydalarını dəqiq və dürüst şəkildə işləyib hazırlamaq ədəbi dilin inkişafında xüsusi rola malikdir. Orfoepiya normaları müəyyənləşdirilərkən tələffüzlə yazının yaxınlaşdırılmasına daha çox fikir verilməlidir. Çünki bu, ədəbi dilin sürətlə inkişaf etməsinə kömək edər;

3. Orfoepiya qaydalarına dair praktik vəsait hazırlamaq.

Şagirdlərin təlim və tərbiyəsinin mahiyyəti, təfəkkürünün inkişafı, şəxsiyyətinin formalaşması onların öz ana dilini necə öyrənməsindən asılıdır. Buna görə də ana dilinin saflığını qorumaq, onu körpəlikdən uşaqlara öyrətmək lazımdır.

Məktəbdə orfoqrafiya təliminin qarşısında qoyulan əsas vəzifə şagirdlərə orfoqrafiyanın praktik əhəmiyyətini dərk etdirmək və imla qaydalarına yiyələnməyin vacibliyini onlara başa salmaqdır. Orfoqrafiyanın əsasında duran prinsiplər baxımdan sözləri iki qismə ayırmaq olar:

- yazılışı tələffüzünə əsasən müəyyənləşən sözlər;
- yazılışı tələffüzünə görə müəyyənləşməyən sözlər.

Yazılışı tələffüzü əsasında müəyyənləşən söz və şəkilçilər bəzən şifahi nitqdə, o cümlədən şagirdlərin nitqində adi danışıq dili və ya yerli şivəyə uyğun şəkildə tələffüz olunur. Orfoqrafik qaydalar tərtib olunarkən üç prinsip əsas götürülür: fonetik prinsip, morfoloji prinsip, ənənəvi prinsip. Yazılışı tələffüzünə görə müəyyənləşən belə sözlərin əsasında orfoqrafiyanın fonetik prinsipi durur.

Dilimizdə işlədilən sözlərin müəyyən bir qrupunun orfoqrafiyası ilə orfoepiyası bir-birindən fərqlənir. Bu fərqin yaranmasının əsas səbəbi orfoqrafiyamızın tarixi-ənənəvi və morfoloji prinsipləridir.

Şagirdlərdə yazı vərdişlərinin yaradılması işinin nitq inkişafının digər sahələri ilə əlaqələndirilməsi orfoqrafiya təliminin başlıca prinsiplərindən biridir. Orfoqrafiya üzrə aparılan işlər nitq inkişafının mühüm sahələrindən biri ilə - lüğət ehtiyatının zənginləşdirilməsi ilə daha çox bağlıdır. Məlumdur ki, hər hansı orfoqrafik norma müəyyən bir qrup sözün və ya şəkilçinin yazılış qaydasına aid olur, bu səbəbdən də həmin qaydanın izahı, öyrədilməsi prosesində xeyli dil faktlarından nümunə kimi istifadə edilir. Bu qəbildən olan sözlərin mənası aydın olmadıqda şagirdlər onları yazılı nitqlərində az işlədir, yaxud həmin sözlərin yazılışında orfoqrafik qüsurlara yol verirlər. Məsələn, mətn sözünün mənası şagird üçün aydın olmadığına görə həmin sözün əvəzinə yazıda çox zaman fonetik tərkibcə oxşar olan mətin sözü işlədilir. Şagirdlərin yol verdikləri imla qüsurlarının əksəriyyəti mənası az anlaşılan və ya anlaşılmayan sözlərin (məsələn, nəhəng, ekskavator, xırman, natiq, çilçıraq, bünövrə, uçurum və s.) yazılışı ilə bağlıdır. Bu cür səhvlərin aradan qaldırılması üçün, hər şeydən əvvəl sözlərin mənası şagirdlər üçün aydınlaşdırılmalı, onların sinonim və ya antonimləri göstərilməli və həmin sözlərə cümlə qurmağı tapşırmaq lazımdır. Bir sözlə, orfoqrafik iş nitq inkişafının digər sahələri – lüğət üzrə iş, cümlə qurmaq bacarığının yaradılması və inkişafı, üslubiyyat, rabitəli nitqlə əlaqələndirilməlidir.

Dilimizdə bir qrup sözlər vardır ki, onlar metodik ədəbiyyatda yazılışı çətin sözlər adlandırılır. Bu qrupa yazılışı ümumi qaydalarla müəyyənləşməyən və ya çətin müəyyənləşən sözlər daxildir. Məsələn, qəhrəman, rəyasət, peşman, məşhur, müqəddimə, orijinal, təvazökar, şüur, fövqəladə, xoşbəxt və s. yazılışı çətin sözlərin əksəriyyətini orfoqrafiyası ilə orfoepiyası arasında fərq olan, digər qismini isə nitqdə qüsurlu deyilən və ya mənası şagirdlər üçün yaxşı anlaşılmayan sözlər təşkil edir. Or-

foqrafiyası şagirdlər üçün çətin olan sözlərin öyrədilməsi ilə bağlı metodik ədəbiyyatda müxtəlif üsullar tövsiyə olunur. Onlardan biri və ən yararlısı lüğət üzrə imladır.

Yazılışı çətin sözlər üzərində iş təkcə ibtidai siniflərlə məhdudlaşmır. Bu iş orta məktəbdə də davam etdirilib genişləndirilməlidir. Çətin orfoqramlı sözlər, ilk öncə Azərbaycan dili üzrə mövzuların tədrisi zamanı müvafiq materiallarla əlaqələndirilərək öyrədilməlidir. Məsələn, fonetika tədrisində qoşasaitli sözlərin, eləcə də qoşasamitli sözlərin yazılış və tələffüzü müqayisəli şəkildə şagirdlərə mənimsədilməlidir.

Ədəbi tələffüz məsələləri nitq inkişafının digər sahələri ilə üzvi surətdə bağlıdır. Bu sahədə aparılan iş şagirdlərdə orfoqrafik vərdişlərin yaranmasına və inkişafına səbəb olur. Ədəbi tələffüz şagirdlərin lüğət ehtiyatının artırılması məsələsində həlledici rola malikdir. Şagird sözün mənasını başa düşdüyü kimi, onu düzgün tələffüz etməyi də bacarmalıdır. Pedaqoji təcrübə zamanı müşahidələrimiz göstərir ki, bəzi sözlər çətin və qüsurlu tələffüz edildiyindən şagirdlərin fəal lüğət ehtiyatına daxil ola bilmir. Deməli, düzgün tələffüz uğrunda aparılan mübarizə ümumi nitq mədəniyyəti uğrunda aparılan mübarizədir. Orfoqrafik çalışmaların şagirdlərin yazı vərdişlərinin formalaşmasında rolu böyükdür. Bu çalışmalar həm yeni öyrənilmiş qaydaları möhkəmləndirmək, həm də şagirdlərin artıq qazanmış olduqları bilik və bacarıqları təkrar və tətbiq yolu ilə yazı vərdişlərinə çevirmək imkanı yaradır.

Ədəbi tələffüz vərdişlərinin yaradılması və inkişafı məqsədilə iş aparmaq üçün digər fənlərlə müqayisədə ana dili fənninin imkanları daha genişdir. Bu fənnin elə bir mövzusu yoxdur ki, ədəbi tələffüzlə bu və ya digər dərəcədə bağlı olmasın. Bu baxımdan fonetik mövzular orfoepik tələffüzlə daha çox əlaqədardır. Şagirdlər bu bəhsin tədrisində dilimizin səs sistemi ilə tanış olur, ahəng qanunu, vurğu və s. ilə bağlı qaydaları öyrənir, praktik şəkildə nitqdə tətbiq edirlər. Ümumiyyətlə, şagirdlərin ədəbi tələffüzə yiyələnməsində fonetik təhlilin rolu böyükdür. Şagirdlərin nitqinin inkişafında qrammatikanın tədrisi xüsusi əhəmiyyət kəsb edir. Fonetik biliklərə yiyələnmək, fonoloji təhlil və sözlərin düzgün tələffüzü üzrə işlər orfoepik normaların mənimsənilməsinə, şagirdlərin ədəbi tələffüzə yiyələnmələrinə zəmin yaradır. Şagirdlərdə üslubi bacarıq və vərdişlərin yaranmasında qrammatik biliklərin rolu müstəsnadır. Dilin qrammatik üslubi planda öyrənilməsi şagirdlərin ədəbi nitq normalarını əsaslı şəkildə öyrənmələrinə köməklik göstərir.

Qrammatika tədrisinin metodları içərisində ən geniş yayılmış qrammatik təhlildir. Qrammatik təhlil məzmununa görə fonetik, morfoloji, sintaktik olur. Alınma sözlərin yazılış və tələffüzü arasındakı oxşar və fərqli cəhətlərin göstərilməsində, şivə qüsurlarının aradan qaldırılmasında fonetik təhlilin rolu böyükdür.

Fonetik təhlil sözlərin yazılışı və tələffüzü arasında fərqin aşkara çıxarılmasını, onların səs-hərf tərkibinin müqayisə olunmasını, sözlərin hacalara ayrılmasını, haca daxilində səslərin fərqləndirilməsini tələb edir. II sinifdən şagirdləri elə öyrətmək lazımdır ki, tədricən heç bir sual gözləmədən fonetik təhlil aparmağı bacarsınlar. Xüsusilə orfoepiya və orfoqrafiya ilə bağlı məlumatlar verərkən və ya praktik iş apararkən fonetikasız keçinmək mümkün deyildir. Şəkilçilərdə səsartımı, səsdüşümü, səsdəyiş-

məsi hadisələrini – fonetik hadisə və qanunları nəzərə almadan, onları yada salmadan mənimsətməyə cəhd göstərmək mənasızdır.

Morfologiya təlimi zamanı da sintaksis üçün zəmin yaratmağa çalışmaq həm gələcəkdə sintaksisin tədrisi işini asanlaşdırır, həm də morfoloji məfhumlarla sintaktik məfhumların dəqiq ayrılması üçün elmi əsas verir. Sözün morfoloji tərkibinə görə təhlil prosesində bəzən sözün mənasının açılmasına (hətta sadə etimoloji təhlilə) də yer verilməlidir. Bu şagirdlərin nitqindəki hərfburaxma və hərfartırma hallarının aradan qaldırılmasını təmin edir: məsələn, şagirdlər yarısı, hamısı, qapısı və bu qismdən olan sözləri yazarkən tələffüzün təsiri ilə ikinci hecadakı ı saitini buraxırlar.

Şagirdlərin tələffüz normalarına yiyələnməsində də morfologiya təlimi mühüm rol oynaya bilər. Bütün morfemlərin deyiliş qadalarının şagirdlərə öyrədilməsi morfologiya təliminin qarşısında qoyulmuş əsas vəzifələrdən biri olmalıdır. Morfologiya bölməsinin tədrisində ayrı-ayrı nitq hissələrinin məzmunu, mahiyyəti üzrə iş gedərkən orfoqrafik qaydalar unudulmamalı, praktik çalışmalar üzrə iş aparılmalıdır. İsim bəhsi ilə əlaqədar isim düzəldən şəkilçilərin, habelə hal, mənsubiyyət və xəbərlik (şəxs) şəkilçilərinin, xüsusi və mürəkkəb isimlərin yazılış qaydalarını, sifət bəhsi ilə əlaqədar mürəkkəb və düzəltmə sifətlərin, azaltma və çoxaltma dərəcəsində olub müxtəlif yolla əmələ gələn sifətlərin yazılış qaydalarını öyrətmək məsləhətdir.

İbtidai siniflərdə ana dilinin tədrisinin başlıca prinsipi nitq inkişafı olduğundan qrammatikanın tədrisi prosesində də şagirdlərin nitqinin və təfəkkürünün inkişafına geniş imkanlar açılır. Bəzi qrammatik qaydalar eyni zamanda orfoqrafiya təlimi və nitq inkişafına xidmət edir. Dilçiliyin müstəqil bir şöbəsi olan orfoqrafiya "yazılı nitqdə dil vahidlərinin yazılışının tənzimedici qaydalar sistemidir". Bu qaydalar fonetika, leksika, söz yaradıcılığı, morfologiya bölmələri ilə əlaqəli tədrisdə mənimsədilir. Orfoqrafiya təliminin başlıca və ümdə vəzifəsi şagirdləri orfoqrafik bilik, bacarıq və vərdişlərlə silahlandırmaqdır. Yazılı və şifahi nitq inkişafı, zəngin lüğət ehtiyatı, düzgün tələffüz, düzgün cümlə qurmaq vərdişləri - nitqin bu sahələri öz-özlüyündə savadlı yazmağa yardım edir. Ə.Əfəndizadə haqlı olaraq yazırdı ki, "məktəb proqramlarının tələbi üzrə, ana dili təliminin qarşısında qoyulan başlıca vəzifə şagirdləri məhz ədəbi dilə yiyələndirməkdir". Müəllim əgər ədəbi dili bilərsə, leksik, qrammatik, orfoqrafik, orfoepik normalara da əməl edəcək. Orfoqrafiyaya aid elə bir qayda yoxdur ki, o, qrammatika ilə əlaqədar olmasın, onun bu və ya digər qaydalarına əsaslanmasın. Bu səbəbdən də məktəblərdə orfoqrafiya dilimizin qrammatikası ilə əlaqəli şəkildə tədris olunmalıdır.

Azərbaycan dili dərsliyində "Sözlərin deyilişi və yazılışı" başlığında dil qaydaları verilib. "Elə sözlər var ki, yazılışı və tələffüzü bir-birindən fərqlənir. Məsələn, biz "bitki" yazırıq, amma "bitgi" deyirik. Belə sözləri yazıldığı kimi demək və deyildiyi kimi yazmaq olmaz.

Tapşırıq 5-də lüğətdən istifadə etməklə buraxılmış hərfləri tapmaq soruşulur.

Bula..., pəhl...van, çəki..., qayma..., tüfən..., k...mpot.

Tapşırıq 6-da sözlərin düzgün yazılışını müəyyənləşdir və onları cümlədə işlət: Doşan, pələnk, bayrax, isdi, tiyatır [4,78].

Yəhya Kərimov yazır ki,"müəllim şagirdlərə orfoepik normalar haqqında nəzəri məlumat çatdırmaqla, onların nitqindəki orfoepik nöqsanlar üzərində düzəliş aparmaqla kifayətlənməməli, həm də düzgün oxu nümunəsi verməlidir" [6, 58].

III sinif dərsliyində Söz sonundakı bəzi samitlərin tələffüzünə görə yeni sözlər tapmaq və cədvəli dəftərində tamamlamaq tapşırığı verilib [5, 65].

g-(k)	d-(t)	b-(p)	c-(ç)
əhəng-[əhənk]	qənd-[qənt]	doşab-[doşap]	kərpic-[kərpiç]

Ədəbi tələffüz orfoqrafiya ilə çox sıx əlaqədardır. Dilimizin müasir inkişaf mərhələsində orfoepik normalar yazı qaydaları qədər əhəmiyyət daşıyır.

Nəticədə onu deyə bilərəm ki, dilimizin orfoqrafiya qaydaları ayrı-ayrı illərdə dəfələrlə müzakirə olunub təlmilləşdirilərək həmişə vahid və sabit yazı normalarına doğru inkişaf etmişdir.

Ədəbiyyat

1. Abdullayev N. Orfoqrafiya və orfoepiya təlimi məsələləri. Bakı, 2008.
2. Əfəndizadə Ə. Azərbaycan dili orfoqrafiyası tədrisinin elmi əsasları. Bakı,1968.
3. Əfəndizadə Ə. Düzgün yazı təliminin elmi əsasları. Bakı, 1975.
4. İsmayılov R., Orucova G., Xəlilov Z., Cəfərova D. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin II sinfi üçün "Azərbaycan dili" (tədris dili kimi) fənni üzrə dərslik. Bakı, 2016.
5. İsmayılov R, Orucova G., Qaragözöva N. Azərbaycan dili 3. Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün Azərbaycan dili (tədris dili kimi) fənni üzrə metodik vəsait. Bakı, 2018.
6. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı, 2011.

Ф.Сафаралиева

Обучение вопросов орфография-орфоэпия в начальной школе.

Резюме

Одна из основных целей подготовка по развитию речи - дать студентам правильные навыки произношения. Литературное произношение играет важную роль в расширении словарного запаса учащихся. Учитель будет

следовать лексическим, грамматическим, орфоэпическим, орфографическим нормам, если сам знает литературный язык. Фонетический анализ играет важную роль в приобретении литературного произношения. Основа для этого должна быть правильно установлена в начальной школе. Некоторые грамматические правила также служат для развития правописания и развития речи. Вот почему необходимо преподавать орфографию относительно орфоэпии. В начальной школе достаточно заданий по орфографии и орфоэпии. Основная и самая важная задача обучения орфографию - это вооружить студентов знаниями, умениями и навыками правописания. Понятие литературного произношения с понятием орфоэпии не совсем то же самое. Орфоэпия понимается в узком смысле. Но литературное произношение - очень широкое понятие. Очень сложно определить историю становления и развития орфоэпических правил. Потому что не каждая орфоэпическая норма, используемая в разное время, отражается в письменной форме.

С целью создания и развития навыков литературного произношения возможности родного языка намного шире, чем у других предмет. В этой предмет нет темы, не связанной с литературным произношением. В начальной школе учитель должен развивать как устную, так и письменную речь учащихся. Правильное письмо формируется во время грамотности. Речь учителя должна быть четкой и следовать правилам литературного произношения. Литературное произношение тесно связано с орфографиям. Задания п орфографии играет важную роль в формировании навыков письма студентов.

Ключевое слово: орфография-орфоэпия, начальная школа, учебник

F.Safaraliyeva

Training of issues orthography-orthoepy in elementary school.

Summary

One of the main goals of speech development training is to give students the right pronunciation skills. Literary pronunciation plays an important role in expanding the vocabulary of students. The teacher will follow lexical, grammatical, orthoepic, orthographic norms if he himself knows the literary language. Phonetic analysis plays an important role in acquiring literary pronunciation. The basis for this must be correctly established in elementary school. Some grammar rules also serve to develop spelling and speech development. That is why it is necessary to teach orthography regarding orthoepy. There are enough tasks in orthography and orthoepy in elementary school. The main and most important task of teaching orthography is to equip stu-

dents with orthographic knowledge. The concept of literary pronunciation with the concept of orthoepy is not quite the same. Orthoepy is understood in a narrow sense. But literary pronunciation is a very broad concept. It is very difficult to determine the history of the formation and development of orthoepy rules. Because not every orthoepy norm used at different times is reflected in writing.

In order to create and develop literary pronunciation skills, the possibilities of the native language are much broader than those of others. There is no topic in this subject unrelated to literary pronunciation. In elementary school, the teacher must develop both oral and written speech of students. The correct letter is formed during literacy. The teacher's speech should be clear and follow the rules of literary pronunciation. Literary pronunciation is closely related to orthography. Tasks in orthography plays an important role in building students' writing skills.

Keyword: orthography-orthoepy, elementary school, textbook

Redaksiyaya daxil olma tarixi: 20.09.2019
Çapa qəbul olunma tarixi: 20.11.2019
Filologiya elmləri doktoru, professor Nadir.Abdullayev tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLXAR HÜSEYNOVA
ADU
Rəşid Behbudov 134
gulkhar.husseynova@mail.ru

LAYİHƏ METODU VƏ ONUN XARİCİ DİLLƏRİN TƏDRİSİ PROSESİNƏ TƏTBİQİ

Xülasə

Layihə metodu özünün ən sadə formasında istənilən mövzunu könüllü surətdə araşdıran və həmin araşdırmaların nəticələrini daha geniş oxucu kütləsinə çatdıran bir qrup dilöyrənənlə bağlı olur. Bu zaman onlar tərəfindən həyata keçirilən layihələr bir neçə gündən bir neçə ayadək davam edə bilər. Bəzi hallarda bu cür layihələr daha irəli gedərək ciddi buiznes layihəsinədək inkişaf etdirilə bilər. Layihə metodu barədə nə bilirik və niyə bu metod xarici dillərin tədrisi metodikası ilə əlaqədar mütərəqqi yanaşma kimi xarakterizə edilməlidir? Bu məqalədə biz layihə metodunun müasir tədris metodu baxımından əhəmiyyətinə və xarici dillərin qavranılması, həmçinin,dünya miqyasında tələb olunan fəaliyyət qabiliyyətli gələcək Azərbaycan vətəndaşlarının yetişdirilməsi baxımından layihə metodunun müstəsna əhəmiyyətinə toxunacağıq. Layihə metodunun tətbiqi zamanı ideyalar müxtəlif sahələri əhatə edə bilər. Bəzən baş vermiş hər hansı hadisə və ya məsələ katalizator rolunu oynaya bilər. Misal üçün, bu və ya digər xarici dili öyrənənlər təbii fəlakət nəticəsində zərər çəkmiş insanlara ianə toplanışı təşkil edə bilərlər. Digər hallarda, layihənin ideyası müəllim tərəfindən şagird və tələbələrə təqdim edilə bilər.Layihə metodunun həyata keçirilməsi zamanı konkret qaydalar mövcud olmasa da,bütün layihələr bəzi ümumi mərhələlərə malikdir.Həmin mərhələlərə problemin və ya məsələnin müəyyənləşdirilməsi, ilkin araşdırmalar, tapşırıqların müəyyənləşdirilməsi və planlaşdırılması, mövzu ilə əlaqədar araşdırmaların aparılması, layihələrin yerinə yetirilməsi, yekun variantın işlənib hazırlanması, layihənin qiymətləndirilməsi şamil edilə bilər.

Açar sözlər: kommunikasiya, innovasiya, metod, texnologiya , nitq

Layihə metodunun əsasını şagird və tələbələrin dərketmə bacarıqlarını, öz bilik və təcrübəsimi müstəqil şıkildə təşkil etmək vərdişlərini, informasiya məkanına uyğunlaşmaq qabiliyyətini, eləcə də, tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirmək kimi amillər təşkil edir. Layihə metodu ümumilikdə didaktikanın məhsulu olmaqla, ayrılıqda müəyyən predmetə dair ayrı – ayrı metodikalarla bağlıdır. Bildiyimiz kimi, metod didaktik kateqoriyadır. Metod dedikdə bu və ya digər fəaliyyət sahəsinə dair nəzəri və təcrübi biliklərin məcmusu başa düşülür. Müxtəlif ölkələrin didaktika alimləri, eləcə də, pedaqoqlar bir çox mövcud didaktik problemləri həll etmək üçün layi-

hə metoduna müraciət etmişlər. Layihə metodunun əsasını "layihə" anlayışının məğzini, onun nəticəyə doğru praqmatik istiqamətliliyini ehtiva edən ideya təşkil edir. Həmin nəticəni görmək, anlamaq, eləcədə, real praktik fəaliyyətə tətbiq etmək mümkün olmalıdır. Bu cür nəticə əldə etmək üçün isə uşaq, yeniyetmə və ya gənclərdə müstəqil düşünmə, problemləri görmək və müxtəlif sahələrə dair bilik və bacarıqlardan istifadə etməklə onları həll etmək, müxtəlif həll variantlarından doğa biləcək nəticələri proqnozlaşdıra bilmək, səbəb – nəticə əlaqələrini müəyyənləşdirmə bacarıqları aşılanmalıdır. Layihə metodu şagird və tələbələrin müstəqil fəaliyyətinə əsaslanmaqla bu və ya digər problemin və ya məsələnin müəyyən zaman kəsiyində fərdi, iki nəfərlə və ya qrup şəklində həllini nəzərdə tutur. Bu metod qrup şəklində öyrənmə metodları ilə (ingilis dilində " collaborative or cooperative learning") üzvi şəkildə uzlaşır. Layihə metodu həmişə bu və ya digər problemin həllini nəzərdə tutur. Problemlərin həlli, bir tərəfdən, müxtəklif metodlardan, tədris vasitələrindən istifadəni, digər tərəfdən də, bilik və bacarıqları inteqrasiya etməyin zəruriliyini, elm, texnika, texnologiya, yaradıcılıq sahələrin\ aid bilikləri əlaqələndirməyin zəruriliyini ehtiva edir. Başqa sözlə, əgər həll olunması qarşıya məqsəd kimi qoyulmuş problem nəzəri problemdirsə, onda onun konkret həlli praktikidirsə, istifadəyə hazır (dərs prosesində ,məktəbdə, real həyatda) konkret nəticəsi olmalıdır. Layihə metoduna pedaqoji texnologiya kimi yanaşdıqda isə texnologiya tədqiqat, axtarış, problem, eləcə də, yaradıcılıq metodlarının məcmusu kimi başa düşülməlidir[5,89].

Layihə metodundan istifadənin əsas tələblərinə bunları aid etmək olar:

1. Biliklərin inteqrasiyasını, yaradıcı axtarışı tələb edən problem və tapşırıqların mövcudluğu;
2. Güman edilən nəticələrin praktiki, nəzəri, dərketmə nöqteyi – nəzərindən əhəmiyyətliliyi;
3. Şagird və tələbərin müstəqil (fətdi, ikinəfərlə,qrup şəklində) fəaliyyəti;
4. Layihənin məzmununun strukturlaşdırılması (nətəcələri mərhələlərlə göstərməklə);
5. Fəaliyyətin müəyyən ardıcıllığını nəzərdə tutan tədqiqat metodlarından istifadə;
6. Problemin əsas məğzinin və ondan irəli gələn tədqiqat vəzifələrinin (birgə tədqiat metodunun gedişində " beyin həmləsi, "dəyirmi stol metodlarından istifadə) müəyyənləşdirilməsi;
7. Onların həllinə dair fərziyyənin irəli sürülməsi;
8. Tədqiqatın metodlarının müzakirə edilməsi (statik, eksperiment, müşahidə və s.);
9. Əldə olunan yekun nəticələrin müəyyən formaya salınması (təqdimat, müdafiə, yaradıcı hesabat, baxış və s);
10. Əldə olunan nəticələrin toplanması, sistemləşdirilməsi və analizi;
11. Yekun nəticələrin müəyyənləşdirilməsi, nəticələrin müəyyən formaya salınması, onların tədqimatı;
12. Mülahizələr, yeni tədqiqat problemlərinin irəli sürülməsi.

Layihələrin Tipologiyası

Layihələrin tipologiyasına dair isə aşağıdakı tipoloji əlamətləri irəli sürmək mümkündür.

- Layihədəki dominant fəaliyyət: tədqiqi, axtarış, yaradıcı, rol, tətbiqi (praktik-yönəldici), tanışlıq- yönəldici (tədqiqat araşdırma layihəsi, oyun, praktik-yönəldici, yaradıcı;
- Predmet-məzmun sahəsi: mono layihə (bir bilik sahəsi çərçivəsində); predmetlərarası layihə;
- Layihənin koordinasiya xarakteri: birbaşa, gizli;
- Əlaqələrin xarakteri (bir məktəbin,sinfin,şəhərin, regionun, ölkənin, dünyanın müxtəlif ölkələrinin);
- Layihə iştirakçılarının sayı;
- Layihənin davametmə müddəti;

Layihə metodu və tədqiqat metodunun praktikaya tətbiq olunması müəllimin mövqeyinin dəyişməsinə də rəvac verir. Belə ki, müəllim hazır biliklərin daşıyıcısı funksiyasından özünün şagird və tələbələrinin dərketmə, tədqiqetmə fəaliyyətinin təşkilatçısıma çevrilir. Sinifdəki və ya auditoriyadakı psixoloji ab-hava dəyişir.

Müəllim tələbələrə müvafiq suallar verməklə, situasiyalar yaratmaqla şagird və ya tələbələr tərəfindən mövzu ilə bağlı problemlərin aşkara çıxarılmasına stimul vermiş olur. Burada sonradan kollektiv şəkildə müzakirə olunmaq şərtilə beyin həmləsindən istifadə etmək faydalı olardı.Qarşıya qoyulmuş vəzifələrin qruplar arasında bölüşdürülməsi, mümkün tədqiqat metodlarının müzakirəsi, informasiya axtarışı, yaradıcı tapşırıqların yerinə yetirilməsi mühüm əhəmiyyət kəsb edir. Şagird və tələbələrin fərdi və ya qrup halında olmaqla yaradıcı, tədqiqi müstəqil işi təşkil olunmalıdır. Qruplarla əldə olunmuş nəticələrə dair mərhələlərarası müzakirələr keçirilməlidir. Şagird və ya tələbələrin cəlb olunduğu layihələr kollektiv müzakirə edilməli, qiymətləndirilməli, eləcə də, yekunlaşdırılmalıdır[1,45]. Ayrı-ayrı fərdlərin ugurundan isə ümumilikdə bu və ya digər layihənin uğuru çox asılıdır. Hesab edirik ki, bu fəal şüurlu fəaliyyətə, biliklərin daha möhkəm mənimsənilməsinə, eləcə də, yeni informasiya axtarışına olduqca böyük stimul verməklə çox mühüm amul kimi çıxış edir[2,48]. Layihə metodu həmişə bir tərəfdən müxtəlif metodlardan, tədris vasitələrindən istifadə, digər tərəfdən isə müxtəlif sahələrə dair bilik və bacarıqların inteqrasiya olunmasını nəzərdə tutan bu və ya digər problemin həllini özündə birləşdirir. Yerinə yetirilmiş layihələrin nəticələri nəzərə çarpan və aydın olmalıdır.

Ədəbiyyat

Rus dilində

1. Шубин Э.П. Языковая коммуникация и обучение иностранным языкам. М.: Просвещение, 2002, 232 с.

2. Щерба Л. В. О трояком аспекте языковых явлений .-Известия АН СССР, 1931,№ 1.
3.

Alman dilində

4. Anderson J. Kognitive Psychologie. Eine Einführung. Heidelberg: Francke, 1989, 118 s.
5. Bausch K. R., Christ H., Krumm H.J. Handbuch Fremdsprachenunterricht. 3. Aufl., Tübingen: Francke, 1995, 585 S.
6. Butzkamm W., Butzkamm J. Wie Kinder sprechen lernen. Kindliche Entwicklung und die Sprachlichkeit des Menschen. Tübingen: Francke, 2004, 453 s.

G. Husseynova

Project- based method and its use in foreign language teaching process

Summary

The article deals with the project- based method and its use in German language. The process of teaching German should be based on the communicative – functional approach to teaching languages. The whole process of projects should be goal-oriented systematic. It will make the process more effective. In communicative output, the learners' main purpose is to complete a task, such as obtaining information, developing a travel plan, or creating a video. To complete the task, they may use the language that the instructor has just presented, but they also may draw on any other vocabulary, grammar, and communication strategies that they know. In communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Communicative output activities involve a similar real information gap. In order to complete the task, students must reduce or eliminate the information gap. In these activities, language is a tool, not an end in itself. In a balanced activities approach, the teacher uses a variety of activities from these different categories of input and output. Learners at all proficiency levels, including beginners, benefit from this variety; it is more motivating, and it is also more likely to result in effective language learning. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process. It is important that teachers know and understand the minimum expected outcomes, or end-of-year benchmark standards, for comprehension development at each grade level, especially in the early years. This information becomes an essential roadmap for teachers to use in assessing each student's level of comprehension development. With this knowledge, you can plan instruction that best fits the needs of every child and that lays the groundwork for appropriate "next steps" in comprehension development. Of course, in the classroom

you will discover students are at different places in their comprehension development, and you will need to plan small-group sessions each day for students having common needs. In this way, you can help all students continue learning in a systematic fashion.

Key words: communication, innovation, method, technology, speech

Г. Гусейнова

Проектный метод и ее использование к процессу преподавание в иностранных языках

Резюме

В данной статье рассматриваются проектный метод и ее использование на преподавания на немецком языке

В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами. Здесь мы должны говорить о компетенции. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранном языке. Процесс обучения немецкому языку в целом и процесс должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть роль проектного метода. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Основной целью Государственной программы является формирование единой обшенациональной среды образования путём внедрения и использование современных информационно-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образовании. Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке.

Ключевые слова: коммуникация, инновация, метод, технология, речь

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 28.11.2019
Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

TƏRANƏ ZEYNALOVA
ADU
Rəşid Behbudov 134
tarana@mail.ru

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNİN ZƏNGİNLƏŞMƏSİNƏ TƏSİR EDƏN SİYASİ- İQTİSADİ AMİLLƏR

XÜLASƏ

Dil nəsildən-nəslə ötürülən ünsiyyət vasitəsidir. Cəmiyyət dilin vasitəsilə inkişaf edir.

Qeyd edək ki, sözə verilən təriflər məntiqi və semantik cəhətdən müxtəlif olmuşdur. Onu müəyyən məfhumu, anlayışı ifadə edən səslər kompleksi də adlandırmışlar. Onun bu cür izahı birmənalı qarşılanmamışdır. Söz və cümlə hər bir dilin qanunları əsasında formalaşaraq fikir ifadə edir. Söz və cümlələrin əmələ gəlməsindəki qaydalar hər bir dilin öz daxili inkişaf qanunlarına əsaslanır. Bu qaydaların müəyyən dərəcədə tarix boyu dəyişikliyə məruz qalması zaman-zaman müxtəlif tədqiqatların obyekti olmuşdur.Bu mənada söz yaradıcılığında alınmalar da sözü gedən prosesə tuş gəlmişdir. Etimoloji təhlildən bəhs edən dilçi alimlərdən V.Adams, T.B.Kolşanski, İ.V. Arnold və digərləri haqlı olaraq qeyd edir ki, sözün ilkin strukturu, daxili forması, məna strukturu, ilkin forması, morfemin tərkibi və tarixən dəyişməsinə diqqət yetirmək lazımdır. Həmin üsulla derivativ sözlərin tərkiblərindəki morfemlərin real əlaqəsi göstərilir, bəzən mənşəyi aydın olmayan kök morfemlər dəqiqləşdirilir, yaranma üsulları və nəyin əsasında yaranması müəyyənləşdirilir.

Qeyd edək ki, dilin lüğət tərkibinin zənginləşməsində başqa dillərdən alınma sözlərin də müəyyən rol oyanadığı sezilməkdədir. Buna görə də dilin artım mənbələrinə nəzər salarkən alınma sözlər xüsusi pillədə qərarlaşır. Dildə tədrici dəyişiklik sözlərin formalaşması, sinonimlik xüsusiyyətləri, onun lüğət tərkibində müəyyən keyfiyyət dəyişməsinə səbəb olur. Elə sözlərtlə vardır ki, onlar demək olar ki, heç bu dəyişikliyə uğramadan öz əsas mənasını saxlamaqla həm dildə uzun müddət işlədilə bilir. Hər hansı bir dilin lüğət tərkibinə daxil olan sözlər həmin xalqın hansı tarixi mərhələlərindən keçdiyini göstərir. Sözlərin yayılması elm, mədəniyyət, texnika, incəsənət, ideologiya və s. inkişafı ilə əlaqədardır. Belə ki, çox inkişaf etmiş mədəni ölkələr geridə qalmış ölkələrə öz təsirini göstərir və bunun da nəticəsində həmin dildən digər dillərə sözlər keçir. Bununla yanaşı mədəni cəhətdən geridə qalmış ölkə xalqlarının dillərindən daha çox mədəni xalqların dillərinə də sözlər keçir ki, bu da qanuna uyğun bir prosesdir.

Açar sözlər: danışıq, meyar, dil, söz

Neft sənayesinin güclü inkişafı ölkədə xarici şirkət və firmaların çalışmasına şərait yaradır, nəticədə çalışan xarici ölkə vətəndaşlarının sayı xeyli artır. Qeyd olunan məsələlərlə bağlı ünsiyyət və işgüzar əlaqələr zamanı ingilis dili vasitəçi olaraq iştirak etdiyindən ingilis təmaslı dil əlaqəsi baş tutur, sözalma prosesi yeni fonda inkişaf edir. Bu cəhət ingilis dilindən sözalmanı yeni aspektdən araşdırmağı aktuallaşdırır.

Qeyd edək ki, ki, söz digər dilə keçərkən həmin dildə semantik dəyişikliklər yaşayır.

Beləliklə, onun semantikasında daralma, genişlənmə baş verir. Bu zaman söz dilə uyğunlaşır, dilin qrammatik normalarını mənimsəyir, sözdüzəltmə prosesində iştirak edir.

Müasir dövr dünyanın qloballaşması ilə səciyyələnir. Texniki tərəqqinin indiki səviyyəsində dünya xalqları bir-birini elmi, ədəbi və mədəni nailiyyətlərindən istifadə edə bilir. Bu da xalqları bir-birinə daha da yaxınlaşdırır. Bu yaxınlaşma və inteqrasiya prosesində dil amili əsas rol oynayır. Bu tendensiya Azərbaycanda da müşahidə olunur ki, bu da təbii olaraq Azərbaycanın inteqrasiya kursundan irəli gələn məsələdir. Lakin, təbii ki, bu cür qarşılıqlı fəaliyyət öz özünə formalaşa bilməz. Onu məqsədyönlü şəkildə həyata keçirmək lazımdır. Bəşər övladları arasında qarşılıqlı fəaliyyətin əsasını təkcə müxtəlif sahələrdə əməkdaşlığa dair beynəlxalq müqavilələr və sazişlər deyil, həm də, müasir dünyada baş verməkdə olan müxtəlif proseslərə dair fundamental biliklər də təşkil etməlidir. Həmin biliklərin ən vacibləri sırasına müasir qloballaşma anlayışını, eləcə də, keçid cəmiyyətlərinin və dövrlərinin xarakterik xüsusiyyətlərini dərk etmək kimi zəruri amilləri şamil etmək olar. Bunsuz elm və təhsil sahəsini qloballaşma proseslərini adaptasiya problemini həll etmək mümkün deyil.

Bəs görəsən, həmin xüsusiyyətlər hansılardır və sürətlə inkişaf etməkdə olan qloballaşma prosesi dilləri hara aparır

Qeyd olunduğu kimi, alınma sözü dildə işlək vəziyyətə gətirmək intralinqvistik və ekstralinqvistik səbəblərlə bağlıdır. İntralinqvistik səbəblərə dildaxili imkanlar daxildir.

Ekstralinqvistik səbəblərə siyasi, isqtisadi, sosial, mədəni sahələrdəki dil əlaqələri daxildir.

Əvvəl məlum olmayan predmet və hadisələrin adlandırılması zərurəti başqa dildən sözalmanın səbəbinə çevrilir. Lakin qeyd olunan sözalmanın dilxarici amillərdən asılı olduğu yalnız bir səbəbdir.Belə səbəblər isə az deyildir.

Ekstralinqvistik amillər cərgəsində psixoloji, estetik, evfemistik ifadəyə canatma olduğu kimi, sözalma prosesində əhəmiyyətli rol oynayan tarixi şərait, dini mənsubluq, ölkənin siyasi vəziyyət kimi şərtlər də az deyildir. Alınmaların dildaxili və dilxarici səbəblərini müəyyənləşdirmək asan olmasa da, bunların təyinatı vacibdir. Sözün alınmasının əsas səbəblərindən biri onun ifadə etdiyi hadisə və əşyaları adlandırmaq üçün dilin öz sözlərindən başqa məxsus sözlərdən istifadə etmək olar. Söz yaradıcılığı da bu çatışmazlığı aradan qaldıran yollardan biridir. Lakin digər dilə məxsus elə sözlər vardır ki, onları alan dildə dəyişmək həmin sözlərin adlandırdıqları əşyaların

qavranmasına xələl gətirir. Məsələn: funt-sterlinq, pens, lord, ledi, miledi, fut, konstebl, miss, missis və s.

Bu baxımdan, müxtəlif dünya ölkələrinin elm və təhsil sahəsində qarşılıqlı və səmərəli əməkdaşlığı, dildə sözü gedən termini labüdləşdirmişdir.

Qloballaşma barədə danışarkən qeyd etdiyimiz kimi, qloballaşmanın əsas məğzi də məhz bundan ibarətdir ki, hər kəs bütün dünyanın vətəndaşı olmalıdır.

Beləliklə, dilçilikdə araşdırmalar bu gün də davam edir. Dil laylarının yeni, növbəti təzahürləri üzə çıxır. Bu da öz növbəsində yeni -yeni dil faktlarının araşdırılmasında cəhdləri israrlı edir[1,45].

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi onun bir çox ölkələrlə, o cümlədən, Böyük Britaniya, ABŞ və başqa ingilisdilli ölkələrlə siyasi, iqtisadi və mədəni əlaqələrin genişlənməsinə səbəb olmuşdur.Respublikada neft sənayesinin güclü inkişafı ölkədə xarici şirkət və firmaların çalışmasına şərait yaratmış, nəticədə Azərbaycanda çalışan xarici ölkə vətəndaşlarının sayı xeyli artmışdır. Qeyd olunan kontingentlə ünsiyyət və işgüzar əlaqələrdə ingilis dili vasitəçi olduğundan Azərbaycan-ingilis təmaslı dil əlaqəsi genişlənmiş, sözalma prosesi yeni istiqamət kəsb etmişdir. [2, 67].

Qədim kök leksik qat bu və ya digər səviyyədə saxlanılmışdır. Eyni zamanda, semantik sistemdə mövcud dil amilləri nəticəsində diferensiallaşma da baş vermişdir. Beləliklə, türk dillərinin leksikasında mövcud olan sözlər iki istiqamətdə inkişaf etmişdir: inteqrasiya olunan sözlər və diferensiallaşan sözlər. Türk dillərinin leksikasında inteqrasiya olunan sözlər əsasən gündəlik həyat tərzi ilə, təsərrüfatla bağlı olan anlayışlar bildirir.

Qohum dillər olan türk dillərinin semantik sistemində baş verən diferensiallaşmanın tarixini müəyyənləşdirmək üçün geniş tədqiqlərə ehtiyac vardır.

Göründüyü kimi, mədəniyyət daha yüksək pillədə qərarlaşır. Buradan belə aydın olur ki, bir millətin mədəniyyəti ilə tanış olmaq özü ilə onun dilini və o dilə məxsus xüsusiyyətləri də gətirir.

Ədəbiyyat

Az dilində

Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1973, 233 s.

Rus dilində

1. Арнольд И.В. Стилистика современного английского языка. М. 1990. 500 с.
2. Каменецкайте Н.Л.Синонимы в английской фразеологии. Издательство «Международные отношение». Москва : 1971, 367 с.

T. Zeynalova

The political-economical factors that influence for riching Azerbaijan and English languages

Summary

The article deals with the political-economical factors that influence for riching Azerbaijani and English languages . In communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Communicative output activities involve a similar real information gap. In order to complete the task, students must reduce or eliminate the information gap. In these activities, language is a tool, not an end in itself. In a balanced activities approach, the teacher uses a variety of activities from these different categories of input and output. Learners at all proficiency levels, including beginners, benefit from this variety; it is more motivating, and it is also more likely to result in effective language learning. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of literature. The author emphasizes its role in methodology. Since its emergence this notion caught the attention. New researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. Moreover, each text is unique in regard of the structure of the text, its genre, vocabulary, and language. Several factors influence a reader's interaction: how easy the text is to read, how accurately it follows the conventions of its genre or structure, the language it is written in, and even the type and the size of font. Reading is thinking cued by written language. Effective readers locate the basic information from the text. Literal comprehension is needed when reading fiction as well as when reading nonfiction. In fiction, a reader has to identify the characters and follow the events of the story. In non-fiction, a reader needs to comprehend the topic, learn new facts related to it, and be able to find and remember important information. However, mature comprehension includes generalisation beyond the characters and the events of the story to the people and the events in real life.

Key words: speaking, criteria, language, word

Зейналова Т.

Политические и экономические факторы влияющие на обогощения Азербайджанских и английских языков

Резюме

В данной статье рассматриваются вопросы политические- економические факторы на обогощения Азербайджанских и английских языков. Азербайджан обрел статус независимого государства, и его всесторонние связи развиваются и укрепляются. Сегодня в нашей стране существует настоятельная потребность в изучении иностранных языков. Внедрение новых идей в практику преподавания очень важно и актуально в нашей ситуации, так как владение языком сегодня является одним из необходимых условий для профессионального развития, и изучающие язык стремятся к овладению английским языком как средством общения.В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами.

Говоря знания преподавателей языка должны носить активный характер. Они должны быть готовы применить их, интерпретировать и адаптировать их применительно к конкретным ситуациям обучения и согласно интересам и потребностям своих студентов. Учителя языка должны знать, как язык функционирует в процессе речевой коммуникации, и как успешно использовать его, чтобы быть понятыми как носителями языка, так и людьми, которые таковыми не являются. В подобном контексте весьма существенным является подлинность используемых в процессе обучения языка текстовых материалов. Соответственно, в процессе обучения необходимо использовать реальные тексты и истории из реальной жизни, а не созданные писателями и зачастую не имеющие ничего общего с реальной действительностью и реальными условиями использования языка рассказы.

Ключевые слова: разговор, критерия, язык , слова

Redaksiyaya daxil olma tarixi: 20.08.2019
Çapa qəbul olunma tarixi: 01.12.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Gülər Həsənova tərəfindən çapa tövsiyə olunmuşdur

LEYLAXANIM NƏCƏFOVA
Azərbaycan Texniki Universiteti
Xarici Dillər kafedrasının baş müəllimi
H.Cavid pr.25.
Leylaxanım.@ com.ru.

İNGİİLİS-AZƏRBAYCAN DILLƏRİNDƏ ELLİPTİSİZMLƏR VƏ ONLARIN QARIŞILIQLI MÜNASİBƏTLƏRİ

Xülasə

Bu məqalə elliptik söyləmlərin struktur-semantik xüsusiyyətlərinin öyrənilməsinə həsr edilmişdir. Məqalədə ellipsis anlayışına yanaşmaların sistemləşdirilməsi təqdim edilmişdir. Ellipsis təbiətinə görə mürəkkəb hadisə kimi təbii dilin sintaktik sistemində xüsusi yer tutur. Məqalədə elliptik cümlə probleminin həll edilməsi sintaksis elminin ən aktual məsələlərindən biri hesab edilir. Müəllif qeyd edir ki, elliptik cümlələrin öyrənilməsində ən mühüm məsələ-lərdən biri onların struktur və semantik planlarda tamlığı və natamamlığı məsələsidir. Məqalədə həm də elliptik cümlələrin əsasən şifahi dialoji nitq üçün xarakterik olduğu qeyd edilir. Yarım-çıq (formal cəhətdən yarımçıq, lakin mənası kontekst, situasiya və ya intonasiya vasitəsilə təmin edilən cümlələr) və elliptik cümlələr arasındakı fərqlərdən danışılır.Məqalədə göstərilir ki,elliptik cümlələr müstəqil işlədilə bilən xüsusi cümlə tipidir, onların spesifik cəhəti kontekstdə xatırlanmayan, yəni məna baxımından məlumatın ötürülməsi üçün zəruri olmayan feili xəbərin olmamasıdır.Elliptik cümlələr replika və dialoqlara xas olan, bir yaxud bir neçə üzvü çatışmayan,kontekstdə tam cüttərkibli cümlələrə uyğun gələn natamam cümlələr kimi təsvir edilir.Onların çatışmayan üzvləri kontekst və situasiyadan bərpa edilə bilir. Kommunikativ-semantik strukturun formalaşmasına şifahi nitqin baş verdiyi mühitin, jestlərin, nitqin tempinin , intonosiyanın və digər amillərin təsiri olduğundan əsasən yarımçıq cümlələrdən istifadə olunur.Qeyri formallıq, səmimi ünsiyyət kimi amillər ifadələrə qənaət etməyə, mənanı anlamq üçün yetərli olan ifadələrin istifadə olunmasına imkan verir.Bu səbəblə ellipsisin öyrənilməsi bütün müasir dillərdə baş verən ünsiyyət vasitələrinə qənaət proseslərini anlamaq üçün kifayətdir.

Açar sözlər: cümlə, yarımçıq cümlə, struktur, konsituasiya, kontekst, söyləm, cümlə modeli, elliptik cümlə

Müasir dilçilikdə təktərkibli cümlələrin statusuna dair fərqli fikirlər hökm sürür. Bu fikirlər arasında ortaq məqam ondan ibarətdir ki, təktərkibli cümlələr tərkibində feilin şəxsli forması olmayan cümlələrdir. A.A.Şaxmatova görə, “yarımçıq

cümlələr bu və ya digər üzvün buraxıldığı halda özünə yer alır. Elliptik cümlələri tam cümlələrin struktur variantı kimi şərh edən A.A.Şaxmatovun fikrincə, "qrammatik baxımdan təktərkibli cümlələrin mahiyyəti subyekt və predikatın birləşməsi cümlənin bir üzvündə özünə uyğunluq tapmasından ibarətdir". A.M.Peşkovski isə öz tədqiqatlarında elliptik cümlələri "yarımçıq cümlələr" kimi nəzərdən keçirir və onları "bir və ya bir neçə üzvü çatışmayan" cümlələrə aid edir . Müəllifin fikrincə, "ikinci dərəcəli üzvləri olmayan cümlələr yarmçıq cümlələrdir". Elliptik cümlələri müstəqil cümlə kimi şərh edən V.V.Vinoqradov yazırdı ki, "ellip-tik və ya yarımçıq cümlələr" müstəqil strukturlar olmaqla yanaşı, həm də tamtərkibli cümlələr kimi kommunikativ funksiya yerinə yetirirlər".(1-s.620)Onun fikrincə, "elliptik cümlələr danışıq dili cümlələrinin özünəməxsus tipikləşmiş for-malarıdır, onların xüsusi struktur tipləri özlüyündə tam cümlələrin normasının posulmasını təmsil etmir" .Qeyd edək ki, xüsusi sintaktik hadisə olan ellipsis zamanı semantik strukturun element-lərindən biri söyləmin üst qatında ifadə olunmur. Halbuki elliptik konstruksiyaları linqvistik baxımdan nəzərdən keçirərkən onu struktur-qrammatik və məna vahidi kimi təqdim etmək mümkündür. Elliptik cümlələrin struktur-semantik təşkili məna yarımçıqlığı və onun yerinin doldurulması üsulları baxımından araşdırılır. Bu cür yarımçıqlığın yerinin dolumunun mənbəyi dialoq və danışığın konsituasiyası ola bilər. Elliptik cümlələrin formalaşmasında linqvistik kon-tekstlə müqayisədə konsituasiyanın təsiri daha güclüdür.(2-s.608) "Ellipsis ifadəsini tapmayan, amma tapması mümkün olan linqvistik dəyər " kimi qiymətləndirən K.M.Abdullayevin fikrincə, "elliptiklik ideyası əslində sintaktik vahidin dəyərə malik yoxluğunun üzərində qurulur və məhz belə bir yoxluq ellipsisli komponentləri, ya da başqa sözlə desək, sıfır üzvlü komponentləri başqa komponentlərlə daha sıx bağlayır" . Cümlə daxilində ellipsis hadisəsinin baş verməsi heç də həmin konstruksiyada fikrin yarımçıqlığı anlamında qəbul edilməməlidir, çünki belə cümlələrdə istənilən bir üzv ellipsisə yalnız o şəraitdə uğrayır ki, cümlənin özündən və ya mətndən onun bərpası mümkün olsun. K.M.Abdullayev hesab edir ki, "ellipsisləşmə dolayısı ilə cümlə quruluşunda danışanın, infor-masiya verənin əvvəlcədən nəzərdə tutduğu modelin təqdim edilməsinə xidmət edir. Beləliklə, ellipsisli cümlə quruluşunu yalnız formal baxımdan deformasiyaya uğramış kimi qəbul etmək olar. Əslində bu deformasiyaya uğramış quruluş informasiya qəbul edənin dil şüurunda gizlənmiş tam təsəvvürüdür" .(3-s.147)Cümlənin insan fikrinin subyektiv xüsusiyyətlərinə şərtlənmiş ellipsisi dilin ən geniş ya-yılmış hadisələrinə aiddir. F.Y.Veysəllinin fikrincə, "elliptik cümlələrə - Haraya? - /Evə// (gedirəm), /Evə// - /Hə// (əvəzinə). Bu cümlələr qrammatik cəhətdən tam formalaşmadığına görə onlara parselyativ və ya parazitiv cümlələr də deyilir" .

A.Y.Məmmədov ellipsis hadisəsini tədqiq edərkən onun kontekst və konsituasiya ilə bağlı aşağıdakı növlərini fərqləndirmişdir:

1) dialoqda ellipsis;
2) anaforik konstruksiyalarda ellipsis;
3) yarımçıq cümlələrdə ellipsis"

İngilis dilində feilsiz əmr cümlələri adi məişəşət danışığında geniş işlənməkdədir. Tərki-bində feil olmayan bu söyləmlər adətən isimlərdən ibarət olur. Bu söyləmlər xüsusi intonasiya ilə müşayiət olunur. Məsələn, ¡Silence!, ¡The salt, please!, ¡Hats off!, ¡Quite!, ¡Out!, ¡Out with it!

Məlumdur ki, feilsiz əmr cümlələrinin hamısı üçün ümumi cəhət onların kontekst (konsi-tuasiya) və danışıq situasiyası ilə sıx bağlılığıdır ki, məhz bunun sayəsində onlar kommunikativ cəhətdən funksionallıq qazana bilirlər. Bundan başqa, bu tip cümlələrdə emosiyanın ifadəsində intonasiya xüsusi rol oynayır. Bu cümlələrin emosionallığın gücü onların struktur natamamlığı ilə mütənasibdir, yəni söyləm qısa olduqca, onların intonasiyası bir o qədər qabarıq olur.Fərqləndirici əlaməti feilin (xəbərin) olmaması olan qeyri-predikatıv söyləmlər (təqdi-matlar) linqvistik baxımdan xüsusi maraq kəsb edir.,

Özlərinin qrammatik naqisliyinə görə bu tip söyləmlər ellipsis, sıfır üzvlü cümlə adlandırılan nitq strukturlarına yaxındır. Lakin qeyri-predikatıv söyləmləri ellipsislərlə eyniləşdirmək məqsədəuyğun deyildir, çünki elliptik cümlələr danışıqda müəyyən konnotativ şəraitdə meydana çıxır. Məsələn, ¡Here! və ya ¡Quickly!

Halbuki qeyri-predikatıv söyləmlər informasiyanın ixtisarının konnotativ nəticəsi deyil, qeydə alınmış qrammatik normadır və buna görə də ellipsisə bərabər tutula bilməz. O.Musayev bu tip cümlələri yarımçıq cümlələr kimi izah edir. Onun fikrincə, "... ingilis dilində də bəzən, xüsusən şifahi nitqdə cümlə üzvlərindən biri və ya bir neçəsi buraxılıq, işlədilmir; ünsiyyət baxımından ona ehtiyac hiss olunmur" Daha sonra müəllif yarımçıq cümlələr adlandırdığı bu cümlələrin mübtədadan, xəbərdən, tamamlıqdan, zərflikdən və bir də modal sözlərdən ibarət olmaqla 5 növünü göstərir. Müəllif mübtədadan ibarət olan yarımçıq cümlələrə (təktərkibli) nümunələr verir. O.Musayev həm də təktərkibli və yarımçıq cümlələrin fərqləndirilməsinə də münasibətini bildirir. Onun fikrincə, "...yarımçıq cümlədə buraxılmış üzv asanlıqla bərpa edilə bildiyi halda, təktərkibli cümlələrdə heç bir üzv buraxılmadığına görə, onu bərpa etmək mümkün olmur" Ellipsis dialoji nitqi xarakterizə edən əsas vasitələrə aiddir. Ellipsisin dialoji ünsiyyətdə müntəzəm istifadə edilməsi təkcə normativliyini deyil, həm də həmin vasitənin qanunauyğun və məqsədəuyğun olmasını sübut edir. Dialoji bütövün tərkibində mənaca sıx əlaqəli, sonrakı söyləmin əvvəlkinə birbaşa reaksiyası olan söyləmlərlə mübadilə baş verir. Buna görə də sonrakı söyləmlərin kitab monoloji nitqində olduğu kimi genişlənmiş sintaktik strukturların qurulması sonrakı replikalarda əvvəlki replikaların və sintaktik strukturların söz tərkibində dubletlərin yaranmasına gətirib çıxara bilər. Ellipsisdə dialoji nitqin əsas məziyyəti – fuksiyanın mənasının strukturun mənasının üzərində üstünlüyünə meyil" özünü büruzə verir. Ellipsisin köməyilə informasiya cərgəsi daha dəqiq qurulur, mənanın detallaşmasına yardım edən sinonim əvəzetmələr vasitəsilə həmin informasiya cərgəsinin dəyişməsi baş verir".Dialoq struktur tərtib qaydaları sosial kontekstin təsiri altında olan elliptik konstruksiyaların işləndiyi əsas sahədir. (4-s.230)

Ədəbiyyat:

16) Шахматов А.А. Синтаксис русского языка. С-Петербург: Изд, 2007, 620 с.
2.Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 2007, 608 s.
3.Мамедов А.Я. Эллипсис в азербайджанском языке: . Баку: 1981, 147 с.
4.Реунова О.И. Эллипсис как лингвистическое явление:. Пятигорск: Из, 2000, 230 с.

Л.Наджафова

Еллиптисизм в Англо-Азербайджанских языках и их тесные взаимоотнашения

Резюме

Данная статья посвящена вопросам изучения структурно-семантические особеннос-тей эллиптических предложений. В ней представлена систематизация подходов относительно статуса понятия эллипсиса. Эллипсис, как сложное по своей природе явление, занимает особое место в синтаксической системе естественного языка. В статье подчеркивается, что решение проблемы эллиптических предложений является одной из важнейших задач синтаксической науки.

Автором отмечается, что при изучении эллиптических предложений одной из важных задач является определение их полноты или неполноты в структурном и семантическом отношениях.

В статье также указывается, что эллиптические предложения в основном характерны для устной диалогической речи. Говорится о различиях между неполными (формально неполные предложения смысл которых понятен по контексту, ситуации или интонации) и эллиптическими предложениями.

В статье эллиптические предложения описываются как особый вид предложений, которые могут быть использованы автономно. Их специфической особенностью является отсутствие глагола в контексте, не имеющего важности в передаче информации.

Эллиптические предложения рассматриваются как не полносоставные, в которых недостает одного или нескольких членов, которые характерны для реплик в диалогах и которые в контексте соответствуют полным двусоставным предложениям. Их отсутствующие члены легко восстанавливаются из контекста и ситуации.

Ключевые слова:предложение,неполные,структура,конситуация, контекст, высказывание, модель предложения, эллиптические предложения,

L.Nadjafova

Elliptical sentences in Azerbaijani-English languages and their mixed relationships

Summary

The article focuses on the study of structural and semantic features of Elliptical sentences. It provides the systematization of approaches concerning the status of ellipsis. Ellipsis is of a complex nature and has been particularly significant for the syntactic system of natural language. In the article it is stressed that dealing with the issue of elliptical sentences is a major challenge for Syntax. It is submitted that defining structural and semantic completeness or incompleteness of elliptical sentences is one of the priority tasks for research of ellipticalsentences. The article further provides that the elliptical sentences are more common for oral dialogical speech. İt distinguishes between incomplete sentences (structurally incomplete sentences where the meaning is understood from the context, situation and intonation) and elliptical sentences. In the article elliptical sentences are described as a special type of sentences that can be used autonomously Their characteristic feature is the lack of the verb in context which is not necessary in the transmitting information. Elliptical sentences are described as incomplete sentences without one or two parts of sentences which are typical for dialogues and replicas and correspond to complete sentences. Their omitted parts can easily be rebuilt by context The phenomenon like informality ease in communication enables it to reduce expressions and use only the ones necessary for understanding the meaning. That is the reason why the study of the term of ellipsis is necessary for understanding the processes related to economy of language means which is common for all modern languages

Key words:sentence,structure,consituation,context,utterance,sentence model, elliptical sentences

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 01.06.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Adilə Zeynalova tərəfindən çapa tövsiyə olunmuşdur

KƏMALƏ MEHDİXANLI
Filologiya üzrə fəlsəfə doktoru, b/m.
Azərbaycan Texniki Universiteti
H.Cavidpr.25.
kəmalə@.com.ru.

İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESİNDƏ FONETİK,LEKSİK VƏ QRAMMATİK SƏHVLƏRİN ARADAN QALDIRILMASININ METOD VƏÜSULLARI

Xülasə

Bu məqalə tələbələrin ingilis dilini öyrənərkən qarşılaşdıqlrı çətinliklərdən bəhs edir. Bu müxtəlif təhsil səviyyələrində ingilis dilini öyrənənlərə aiddir. Tələbələrin bilik səviyyələrindən asılı olaraq onların qarşılaşdıqları çətinliklər və problemlər müxtəlif ola bilir. Onlar fonetik, qrammatik, orfoqrafik səhvlərlə yanaşı leksik səhvlərlə də qarşılaşırlar. Bu çətinliklərə xarici dillərin müxtəlif səviyələrinin öyrənilməsi prosesində rast gəlinə bilər. Müəllif bu məqalədə ingilis dilinin öyrənilməsində qarşıya çıxan çətinliklərdən danışır, haqlı olaraq müxtəlif fonetik, qrammatik və leksik səhvlər üzərində durur, bu səhvlərin yaranmasına təsir edən amilləri müəyyənləşdirir. Müəllif eyni zamanda bu çətinliklərin aradan qaldırılması yollarını da araşdırır və bunu nümunələrlə göstərməyə çalışır. Müəllif qeyd edir ki, ingilis dilini öyrənənlər ingilis dilinin leksikasının spesifik xüsusiyyətlərini Azərbaycan dilinin leksikasının spesifik xüsusiyyətləri ilə müqayisədə öyrənsələr daha yaxşı nəticə əldə edə bilərlər. Bu dili aşılaşmamışdan əvvəl hər bir müəllim bu dilin öyrədilməsi metodikasına bələd olmalıdır. Ən mühüm amillərdən biri isə müəllim peşəsini seçmək və bu sevginin vasitəsilə tələbələrə öz biliklərini doğru şəkildə çatdırılmasıdır. Xüsusilə böyük bir iş ingilis dilini tədris edən müəllimlərinin üzərinə düşür. Ənəsası da tələbələr bu dilin gələcəkdə onlar üçün nə qədər əhəmiyyətli olacaqlarını dərk etməlidirlər. Dünyada bir neçə əsas dil var ki, onlardan da biri ingilis dilidir. Yaşadığımız zamanda bir çox işlərə müraciət etdikdə ingilis dili tələb olunur. Bu da onun dünya dili olduğundan irəli gəlir. Bir araşdırmada göstərilir ki, Benjamin Franklin XVIII əsrdə ingilis dilində drunk (sərxoş) sözünə 200 yaxın sinonim tapmışdır. Bu dildə təxminən 500 min söz ehtiyatı vardır və BMT-nin altı əsas dilindən biridir. Bir sıra dövlətlər var ki, orada dövlət dili ingilis dilidir. İngilis dili dünyada ən çox maraq göstərilən dillərdən biridir.

Açar sözlər: şifahi, yazılı, dil materialları, məqsəd, ünsiyyət bacarıqları.

Hazırda ingilis dili demək olar ki, bütün ölkələrdə milyonlarla insan tərəfindən danışılır və müxtəlif məqsədlərlə istifadə edilir. İlk əvvəllər ingilis dili xarici yaxud

da ikinci dil kimi öyrənilirdi, burada ingilis dilinin öyrənilməsində əsas məqsəd qarşılıqlı ünsiyyəti təmin etmək və məhz həmin dildə ünsiyyət qurmağı bacarmaq idi. Ona görə də ümumi ingilis dilinin öyrənilməsi daha ço yayılmışdı.(1-p.25-37)

Hal-hazırda ingilis dili beynəlxalq dil olduğundan onun öyrənilməsinə tələbat həddindən artıq çoxalıb. Təkcə, ingilis dili ixtisasında oxuyanlar deyil, həmçinin müxtəlif peşə sahibləri də bu dili öyrənməyə can atırlar. Bu baxımdan Azərbaycanda ingilis dili öyrənmək arzusunda olanlar həddindən artıq çoxdur. Təbii ki, öyrənci öyrənmək üçün ən asan yolu seçir. Amma nə qədər asan öyrənmək olsa da bir dili öyrənmək kifayət qədər məsuliyyət tələb edir. İngilis dili müəllimləri qeyd edirlər ki, dili öyrənmək üçün üç vəzifəni yerinə yetirmək vacibdir. Birinci növbədə məqsədin olmalıdır. İkinci məqam isə çalışmaqdır. Həmçinin qeyd olunur ki, di öyrənərkən mütləq ardıcıllıq gözlənilməlidir.Lakin, qeyd edilməlidir ki, bu gü kommunikativ cəhətdən səriştəli olan, yüksək ixtisaslı mütəxəssislərin azlığı müşahidə edilir. Bu da artıq aktuallığını itirmiş təlim metodları, köhnəlmiş dərslik və təlim materiallarında istifadə edilməsi ilə izah edilə bilər.İngilis dilinin beynəlxalq səviyyədə əsas ünsiyyət dili kimi nüfuzunun artması dilöyrənənləri tələbat və məqsədlərinin əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb olmuşdur. Qeyd edilməlidir ki, ingilis dilinin tələffüz sisteminin öyrənilməsi sahəsində də ciddi dəyişikliklər baş vermişdir.(3-p.245-278)

Digər tərəfdən gənc nəslin ingilis dilini öyrənməsi xalqlar arasında qarşılıqlı anlaşmanı asanlaşdırır, dostluq, işğüzar və mədəni əlaqələrin genişlənməsin və möhkəmləndirilməsinə kömək edir. İngilis ədəbiyyatı ilə müstəqil işləmə bacarığına yiyələnmək, elmi, texniki, tibbi və bədii ədəbiyyatdan istifadə etmək üçün geniş imkanlar açır. İngilis dilinin öyrənilməsi dil öyrənənlərin ümumi təhsilini artırır, onların təfəkkür və nitqlərini inkişafına təsir edir.Əgər dil öyrənən şəxs dil materiallarını yaxşı mənimsəyibsə o, həmin dildə şifahi danışmaqda heç bir çətinlik çəkməyəcəkdir. Ona görə dil materiallarının avtomatlaşması şifahi nitqin əsasını təşkil edir və özündə aşağıdakıları birləşdirir:

1. eşitmə və anlama; 2. danışıq vasitəsilə öyrətmə [2, 67]

Dilin leksikası qrammatika və fonetika ilə sıx əlaqəli olur. Bunların biri digərini tamamlayır. Ona görə də dilin leksik materiallarının öyrənilməsi dilin digər aspektlərindən ayrı götürülə bilməz. Leksik material dil fəaliyyətini, oxunu və yazını intensivləşdirir, öyrənci məhz leksik materiallar əsasında öz fikirlərini sərbəst şəkildə ifadə edir və digərlərinə çatdırır. İngilis dilini öyrənilməsinin keyfiyyətli olmasının əsas amillərindən biri də zəngin söz ehtiyatının yaradılmasıdır, yəni öyrənci sözləri öyrənərkən onların çoxmənalılığına fikir verməlidir. Məsələn: “hand” sözünü götürək. “Hand” sözü müxtəlif mənalarda a) əl mənasında; b) saat əqrəbi mənasında işlənir. “Match” sözü həm yarış mənasında, həm də kibrit mənasında işlənir. “Apple” sözü həm alma kimi, həm də göz bəbəyi kimi işlənir. “İron” sözü həm dəmir mənasında (bu zaman sayılmayan isim), həm də ütü (bu zaman isə sayılan isim) mənasında işlənir. “Spring” sözü həm yaz fəsli mənasında, həm də bulaq mənasında işlənir və s.İngilis dilini xarici dil kimi öyrətməkdə şagirdlərə təlim verən müəllimlər tez-tez bir sıra ümumi və tələ-

bə problemləri ilə üzləşirlər. İngilis dilində şagirdlərə təlim verilməsi tələbənin oxu və danışma və yazılı və danışıq İngilis dili anlayışını qurmağı nəzərdə tutur.[6] Tələbələr üçün müsbət tədris mühitini asanlaşdırmaq və onları tətbiq etməyə və dil öyrənməyə təşviq etmək üçün müəllimlər bu ümumi problemləri düzəltmək və ingilis dilində effektiv ünsiyyət qurmağı tələb edən əsas məlumatları gücləndirmək yollarını tapmalıdırlar.(4-p.14-28) 1. Tələbələr müəllimdən asılı olurlar. - Əksər hallarda tələbələr özlərini sınamaq əvəzin düzgün cavab üçün müəllimə müraciət edirlər. Müəllim hər dəfə onlara cavab verməli olduqda, bu, təhlükəli bir problem ola bilər. Bunun əvəzinə, müəllim tələbələri dəstəkləməli və onları ruhlandırmalıdır. Bu, tələbələrə daha rahat və daha çox cavab verməyə hazır olmağ kömək edəcək (hətta fikirlər səhv olsa belə).

2. Ana dilinin davamlı istifadəsi - İngilis dilinin xarici dil kimi öyrənərkən ana dilinindavamlı istifadəsi ən geniş yayılmış problemdəndir. İngilis dilinin öyrənilməsində tələbələrə İngilis dili və ingilis dilindən istifadə etməyi təşviq etmək vacibdir. Əgər tələbə ana dilində danışmağa başlayırsa onlara müxtəlif sadə suallarla müraciət edərək onları ingilis dilində danışmağa vadar etmək lazımdır. Bir başqa üsulla da bu problemi həll etmək olar: bir sıra sinif qaydaları qurmaq və ana dilindən istifadə etdikləri üçün cərimə sisteminin inkişaf etdirilməsidir. Məsələn: əgər tələbələrdən kimsə ana dilində üç dəfə istifadə edərsə onların qarşısında şeir (ingilis dilində) oxumaq lazımdır. Unutmayın ki, İngilis dili sinifində olan 1-2 saat ərzind ingilis dilində olmalıdır.3. Tələbələr nə edəcəklərini bilmir və ya yanlış bir şey edirlər. - İngilis dili xarici dili olaraq öyrənərkən tələbələr çox tez-tez hallarda nə edəcəklərini bilmir və ya tapşırığı səhv başa düşürlər. Belə hallar bəzən müəllimin günahı ucbatından baş verir. Əgər tapşırığınızın tapşırıqlar tələbələr arasında qarışıqlıq törədirsə (tapşırığın şərtini səhv başa düşür, qismən başa düşür və ya heç başa düşmürlər) bu problemi aradan qaldırmaq lazımdır. Bunun üçün təlimatınız dəqiq olmalıdır, tapşırığı izah edərkən isə jestlərdən, üz mimikasından və qisa cümlələrdən istifadə etmək lazımdır. Müəllimin nitqi aydın, səlis və güclü olmalı, ən əsası, fəaliyyət modelləri və nümunələrindən istifadə edilməlidir. Tələbələrin dediklərinizi necə qavradıqlarını müəyyənləşdirmək üçün onları öz nümunələrini, misallarını söyləməyə vadar etmək lazımdır.(5-p.141-158)4. Tələbələr dərs zamanı cansıxıcı, diqqətsiz və ya hərəkətsizdirlər. - Bir çox hallarda tələbələr dərs zamanı cansıxıcı, diqqətsiz və ya hərəkətsiz görünürlər, yəni onlar dərsə maraqlı münasibət bəsləmirlər, sual-cavabda fəal iştirak etməkdən çəkinirlər, bu səbəbdən dərsdən yayınmağa cəhd göstərirlər. Belə problemlərlə qarşı-qarşıya gəlməmək üçün müəllim dərsi düzgün şəkildə planlaşdırmalı, müxtəlif yeni üsullardan istifadə etməli, tələbələri motivasiya etməlidir. Yəni müəllim dərs üçün maraqlı bir mövzu seçməli, müzakirəyə qoymalı və ya proqramda olan hər hansı bir mövzunu maraqlı şəkildə tələbələrə təqdim etməlidir. Bir sözlə, müəllim öz biliyi, bacarığı v. metodikası ilə tələbələrdə dərsə maraq oyatmağa çalışmalıdır. Bunun üçün müəllim tələbələrin maraqlarını və ehtiyaclarını müəyyən etməli, onları yaxından tanımalı, daha sonra dərsi müvafiq şəkildə qurmalıdır.5. Güclü tələbə hakimiyyə-

ti, yəni bir tələbənin digərlərinə nisbətən daha fəal olması (eager beaver) - Təbii ki, hər bir dərs prosesində fərqli bacarıqlar və dil bacarıqları olan tələbələrlə qarşılaşırıq. Əlbəttə ki, hər bir auditoriyada üstün olan bəzi tələbələrə sahib olmaq yaxşı hal olsa belə bütün dərs prosesini onlara sərf etmək düzgün deyil. İstənilən auditoriyada belə tələbələrə rast gəlmək mümkündür. Bu tip tələbələr daim diqqət mərkəzində olmağı xoşlayırlar.

Ədəbiyyat

1. Babayev S. M., Qarayeva M. English Phonetics. Bakı Maarif, 2005.səh:25-37.
2. Tahirov A. Salayeva Ə. İngilis dilinin tədrisi metodikası. Bakı 1978.səh:123-156.
3. Edge J. Mistakes and Correction. London: Longman,1989.page: 245-278.
4. Kelly G. How to teach pronunciation. Pearson: Longman, 2008.page: 14-28.
5. Thornbury S. How to teach grammar, London: Pearson ESL. 2000.page:141-158.

K.Mekhtikhanli

Metod for eliminating phonetic,lexical and grammatical errors in the English language process

Summary

The current article aims to identify difficulties that students face in learning the English language. Grammatical rule is among other difficulties found in the process of learning other languages. This truth also applies to those who are studying English in different levels of education. Different students can have different difficulties and problems in learning English. They can make different mistakes in English pronunciation, grammar, orthography and vocabulary usage. English as a second or foreign language, refers to the use of English by speakers with different native languages. In recent years, teachers of English as a foreign language have been paying increasing attention to identifying the needs of their students, to students" attitudes towards English and their reasons for learning it. This research aimed to identify and analyse such grammatical difficulties in order to give a contribution to the study of linguistics and help teachers in identifying grammatical errors commonly made by second language learners of English. The author also examines ways to overcome these difficulties and tries to illustrate it with examples. The author notes that English language learners can get better results if they learn the specific features of English language lexicon compared to the specific features of the lexicon of the Azerbaijani language. Specific features of lexicon of both languages should be explained in a timely manner. Otherwise, learning English will be a challenge. In order to overcome these difficulties, both the English language and the lexical materials of the Azerbaijani language should be studied comparatively. The researcher tries to find the answer to the

following question: why do students still find difficulties in learning English, although their teachers do their best to help them to achieve good results? The author provides different examples and tries to explain all these examples.

Key words: oral, written, language materials, purpose, communication skills.

К.Мехтиханлы

Методы устранения фонетических,лексических и грамматических щшибок в процессе преподования Английского языка

Резюме

Статья направлена на выявление трудностей, с которыми сталкиваются студенты при изучении английского языка. Грамматическое правило относится к числу других труднотей, возникающих в процессе изучения других языков. Эта истина также относится к тем, кто изучает английский язык на разных уровнях образования. У разных студентов могут быть разные трудности и проблемы при изучении английского языка. Они могут делать разные ошибки в произношении английского языка, грамматике, орфографии и использовании лексики. Английский как второй или иностранный язык относится к использованию английского языка ораторами с разными родными языками.

В последние годы преподаватели английского языка как иностранного уделяют все большее внимание определению потребностей своих учеников, к «отношениям по отношению к английскому языку» и их мотивам к обучению. Автор также рассматривает способы преодоления этих трудностей и пытается проиллюстрировать это примерами. Особенности лексики обоих языков должны быть объяснены своевременно. В противном случае изучение английского языка будет сложной задачей. Чтобы преодолеть эти трудности, английский язык и лексические материалы азербайджанского языка должны быть сравнительно изучены. Исследователь пытается найти ответ на следующий вопрос: почему ученики все еще испытывают трудности в изучении английского языка, хотя их учителя прилагают все усилия, чтобы помочь им достичь хороших результатов? Автор приводит разные примеры и объясняет все эти примеры.

Ключевые слова: устно, письменно, языковые материалы, цель, коммуникативны навыки

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 01.12.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Natella Axundzadə tərəfindən çapa tövsiyə olunmuşdur

MƏHBUBƏ MƏMMƏDLİ
ADU
mmehbuba@gmail.com
R.Behbudov 134

SÖZLƏRİN VARİATİVLİYİ HAQQINDA

Xülasə

Ənənəvi olaraq semantika mənanın öyrənilməsi kimi müəyyən edilir. Bu dilçilərin qəbul etdiyi tərifdir. Məlumdur ki, hazırda linqvokulturoloji termin çox istifadə olunur. Sözlər, daha dəqiqi təbii dilin işlədilməsi hansı kültürəl növlərlə, yaxud fərqliliklərlə müşahidə olunur kimi məsələlər həmişə gündəmdə olub və dilçiləri düşündürüb. Dilimizdə işlədilən sözlərin variantlarının müəyyən olunması da belə mövzulardandır (1, s. 9).

Variantlıq problemi bir çox dillərdə ayrı-ayrı dövrlərdə fərqli şəkillərdə izah olunmuşdur. Xarici dilçilikdə variativlik probleminin öyrənilməsinə əsasən XX əsrin əvvəllərində başlanmışdır. Daha doğrusu, "variant" və "invariant" anlayışlarının fonologiya elmində araşdırılması fonem və onun səsli təzahürü bağlı olmuşdur. Qeyd olunan anlayışların dilçiliyə fonologiyadan daxil olması ilə ingilis, Amerika, Praqa dilçilik məktəblərində problemlə bağlı aparılan tədqiqatların əhatəsi daha da genişlənmişdir. İngilis alimi U.L.Çeyf variativlik məsələsindən bəhs edərkən daha çox formal məntiqdən çıxış etmiş müxtəlif səviyyələrdə variantların sözün xarici qabığında təzahür etməsi fikrini irəli sürmüşdür. Variativliklə bağlı araşdırmalar göstərdi ki, keçmiş Sovet dilçilk məktəbində L.Şerba, M.Panov, S.Ojeqov, Q.Torsuyev, Q.Stepanov və digər dilçilər variativlik probleminin ümumi nəzəri cəhətləri ilə bağlı tədqiqatlar aparmış, rus dilində variativliyin təzühür formalarını tədqiq etmişlər (2, s. 45).

Açar sözlər: variativlik, söz, məna, forma, semantika, praqmatika

Yaxın münasibətdə olan sözlər arasındakı semantik əlaqəni paradiqmatik, düzxətt boyunca gələn sözlər arasındakı əlaqəni isə sintaqmatik əlaqə adlandırırlar. C.Trier frazeoloji birləşmələri təşkil edən sözlər arasında paradiqmatik əlaqənin, V.Porziq isə sintaqmatik əlaqənin əhəmiyyətini vurğulayırdı (3, s. 10). Onlardan bir qədər fərqli tərzdə isə C.Förs fikir söyləyirdi. O yazırdı: "Frazoloji vahidin semantik və praqmatik mənası onu təşkil edən sözlərin birgə vəhdəti ilə təhlildə müəyyən oluna bilər". O belə biz izah verir: *ass* (uzunqulaq) sözü fərqli idiomatik birləşmələrin tərkibində fərqli anlamlar yarada bilir. Məsələn, *to be a silly ass* "ağılsız olmaq", to *cry as an ass* "bərkdən qışqırmaq" və s.

Paradiqmatik və sintaqmatik əlaqələrdən danışan zaman ilk xatırladığımız məfhum F.de Sössürün "Dəyər" termini olur. Müəllif yazır ki, şahmat oyununda işlədilən fiqurların nədən hazırlanmasının önəmi yoxdur, əsas məsələ oyun zamanı fiqurların

lövhə üzərində mövqeyidir. Həmin mövqeyəmüvafiq olaraq "şah"ın və digər fiqurların dəyəri ortaya çıxır. F.de Sössür iddia edirdi ki, sözlər arasındakı əlaqəlilik təkcə sinonimlik və omonimliklə sübut olunmur. Məsələn, ingilis dilində *sheep* "qoyun" sözünün *ship* "gəmi" sözündən fərqli dəyəri var. F.de Sössür eyni mənanı ifadə edən sözlərin paradıqmatik və sintaqmatik mənalarına görə fərqli siniflərə bölürünməsi fikrini belə əsaslandırır: ingilis dilində *fear, dread, be afraid of* və s. kimi qorxu bildirən sinonim sözlər mətn, yaxud diskurs daxilində fərqli anlamlar ifadə edə bilir (4, s. 78).

Sözlər arasında paradiqmatik və sintaqmatik əlaqəlilik barədə V.fon Humboldtun da fikirləri vardır. V.fon Humboldt və onun ardıcılları iddia edirdilər ki, müxtəlif dillərdə müəyyən semantik sahələr tam fərqli şəkildə kateqoriyalaşa bilər. Məsələn, "əmi" sözü substansional olaraq dünyanın bütün xalqlarında atanın qardaşı mənasını ifadə etsə də, müxtəlif dillərdə o, müxtəlif cür adlandırılır (5, s. 34).

Sözlər arasında paradiqmatik və sintaqmatik əlaqəlilik frazeoloji vahidləri təşkil edən sözlərdən arasında daha çox hiss edilir. Məlumdur ki, söz aydın şəkildə müəyyənləşmiş linqvistik birləşmə deyil, o, həmçinin yazılı mətndə işlədilən konsept də deyildir. Xüsusilə frazeoloji vahidin tərkibində işlədilən sözlər məna ifadə edən məfhumlar hesab edilir. Danışıq dilində sözü diqqətə çatdıran əsas siqnallardan biri vurğudur. Bir sözdə bir əsas vurğu ola bilər.

Sözün texniki termin kimi digər adı "leksem" adlanır. Lüğətlərdə sözlər leksem başlığı altında yığılır. Məsələn, *love* və *loved* sözləri üçün lüğətdə iki başlıq yoxdur. *Love* söz yazılır və buna uyğun olaraq digər yaranan sözlər meydana çıxır. Frazeoloji birləşmələri hissələrə bölmədən belə,onun daxilindəki elementləri müəyyən etmək olar. Lakin elementlərin ifadə etdikləri mənaları aydın anlamaqda problemlə üzləkmək olur. Bəzi sözləri elementlərə ayırdıqda bəzən hər hansı bir elementin mənası alınmaya da bilər (6, s. 11).

İngilis dilində söz formaları digər bir çox dillərdə olduğu kimi iki sinifə bölünə bilər. Birinci sinif mənalı söz formalarından ibarətdir. Məsələn, *man, came, green, badly* və s. Digət sinif isə mənasız söz formalardan məsələn, *the, of, and, to, if* və s. ibarətdir. Təbii ki, iki sinif arasındakı fərq hər zaman aydın müəyyən olunmuş hesab olunmur (1, s.46). Məsələn, O.Musayev *and, to* və s. kimi sözləri mənalı sözlər sinifinə aid edir (6, s. 2). (Bu ayrıca bir müzakirə mövzusudur!). Əsirlər öncə yunan qrammatikləri; 19-cu əsrin sonlarında ingilis qrammatiki Henri Svit; daha sonra post-Blumfild sturukturalistləri; 1950-ci illərdə amerikalı dilçi C.C.Frayz və digərləri isə C.Layonsun irəli sürdüyü mənalı və mənasız sözlər sinifini qəbul edir (6, s.64). N.Xomski də genetativ qrammatikada bu nəzəriyyəni dəstəkləyir (5, s.252). O söz formasının açıq sinifi (open-class) və qapalı sinifi (close class) arasında fərqləri tutuşdurur (5, s.66). Bu nəzəriyyə də uzun illər qrammatik məktəblərin diqqətini cəlb etməkdədir. Mənalı sözlər və mənasız sözlər arasındakı fərqin hər biri öz məqsədinə xidmət edir. Necə ki, dilin qrammatikası ilə onun lüğəti, yaxud leksikonu arasında fərqliliklər öz məqsədlərinə xidmət edir.

Söz sadəcə yazılı mətndə yer dolduran termin deyil. O, məna ifadə edən məfhumdur. Danışıq dilində sözü diqqətə çatdıran əsas siqnallardan biri vurğudur. Bir sözdə bir əsas vurğu ola bilər. Məsələn, blàckbird tək bir söz kimi, blàck bírd isə iki söz kimi deyi-

lir, digər mürəkkəb sözlər shóeblack, shóe-horn və shóe polish sözlərində olduğu kimi. Blumfild təklif edirdi ki, sözləri minimum sərbəst formalar hesab etmək lazımdır (4, s. 78). Yəni ayrılıqda rast gəlinə bilən ən kiçik forma. Amma bu təbii ki, sözü tək və ya ayrılıqda işlətdikdə nə nəzərdə tutulur ondan asılıdır. Çünki *the, is, by* və s. bu kimi sözləri normalda ayrılıqda işlətmirik. Bu sözləri mütləq digər söz, yaxud söz birləşmələri ilə bərabər istifadə edirik. Blumfild həmçinin təklif edirdi ki, sözdən daha kiçik vahid, mənalı vahid olan morfemə də diqqət yetirmək lazımdır. Məsələn, blackberry sözündə *-berry,* yaxud Johnny sözündə *-y* morfemləri. Daha sonra dilçilər məsələn, loved sözü kimi sözlərdə *love* və *--d* mörfemlərinin müəyyənləşməsinə diqqəti yönəldirlər. Bu yerdə leksem ifadəsini də xatırlamaq yerinə düşər. Belə ki, sözün texniki termin kimi digər adı leksem adlanır. Lüğətlərdə sözlər leksem başlığı altında yığılır. Məsələn, love və loved sözləri üçün lüğətdə iki başlıq yoxdur. Ancaq love söz yazılır və buna yuyğun olaraq digər yaranan sözlər meydana çıxır. Deməli, biz sözün mənasını ayrıca araşdırırıq və müstəqil qrammatik elementlərin məsələn, cəm forma, yaxud keçmiş zaman formalarını da ayrıca araşdırırıq. Sözü hissələrə bölmədən belə söz daxilində elementləri müəyyən etmək olar. Elementlərin ifadə etdikləri mənaları aydın anlamaqda problemlə üzləkmək olar. Bəzi sözləri elementlərə ayırdıqda bəzən hər hansı bir elementin mənası alınmaya da bilər. Məsələn, L.Blumfild *cranberry* (mərcanı, quşüzümü) sözündə olan *cran-* sözünün statusuna diqqəti çəkərək, qeyd edir ki, bu sözdə müstəqil məna yoxdu və ona digər sözlərdə rast gəlmək olmur. O, *strawberry* (çiyələk) və *gooseberry* (motmutu) sözlərinə də diqqəti cəlb edərək qeyd edir ki, bu sözlərin *straw* (saman) və *goose* (qaz) sözləri ilə heç bir əlaqəsi yoxdur. Yaxud *blackberry* (böyürtkən) sözündə *black-* (qara) sözünün bu mürəkkəb sözlə heç bir əlaqəsi olmadığı halda, *blackbird* (qaratoyuq) və *blackboard* (qara lövhə) sözlərndə *black-* sözü öz mənasını saxlayır. *Greenfinch, bullfinch* və *chaffinch* sözləri maraqlı trio yaradır. Hər üçü *finch* (alaçəhrə) mənasını ifadə edir. *Greenfinch* sözündəki *green-* (yaşıl) onun rəngini müəyyən edir; *bullfinch* sözündəki *bull-* sözünün sözlə heç bir əlaqəsi yoxdur; *chaffinch* sözünün birinci elementi olan *chaf-* sözünün isə demək olar ki, heç mənasına rast gəlinmir. İngilis dilində çox sözlər *phonaesthetic* hesab olunur, bu cür sözlərin ancaq bir hissəsi məna barədə məlumat verir. Məsələn, *sl-* ilə başlayan bir çox sözləri çox hallarda *sürüşkən* "slippery" mənaları ifadə edən sözlər kimi qəbul etmək olar: slide (sürüşmək), slip (sürüşmək), slither (sürüşmək), slush (palçıq), sluice (sudaşıyan), sludge (xılt) və s. Yaxud *sl-* ilə başlayan digər qrup sözlər *alçaldıcı (təhqiredici)* mənalarını da ifadə edə bilər: slattern (pinti), slut (pinti), sly (hiyləgər), slovenly (pinti) və s. *Sk* – birləşməsi ilə başlayan sözlərin *səth, səthilik* kimi mənalar ifadə etdiyini görə bilərik: skate (səliqəsiz şəkildə sürüşmək; konki sürmək), skimp (səliqəsiz etmək), skid (maşının sürüşməsi), skim (səthlə yüngül və cəld sürüşmək), skin (səliqəsiz şəkildə soymaq) və s. Daha sonra *sn-, str-, sw-, tw-* və s. kimi sözlərin də mənalarını lüğətdən araşdıra bilərik. Eyni oxşar mənzərə ilə qarşılaşacağımızdan əminik. İndi isə *-ump* sonluğu ilə bitən sözlər siyahısını nəzərdən keçirək: plump (koppuş), chump (kötük), rump (bud əti), kump (kump), lump (iri daş parçası), bump (şiş-zərbədən sonra əmələ gələn), stump (kötük) və hətta bura dump (zibil yığını) və mumps (xanazır) sözlərini də əlavə

edə bilərik. Gördüyünüz kimi, sözlərin demək olar ki, hamısı eyni *dəyirmitəhər kütlə* (roundish mass) mənasını ifadə edir. Təbii ki, ingilis dilinin lüğət tərkibində bütün sözlər əks etdirdikləri mənaları belə fonoloji xüsusiyyətlə göstərmirlər. Söz daxilində tanıya biləcəyimiz semantik birləşmələrdə ardıcıllıq deyilən bir şey yoxdur. Bu araşdırma bizi eyni sözün mənasının fərqli elementlərlə əks olunmasına aparıb çıxardır (3, s.38). Bu fərqliliyi S.Ulman şəffaf sözlər (transparent words) və şəffaf olamayan (tutqun, aydın olmayan) (opaque words) kimi ayırır (3, s.80). Şəffaf sözlər dilimizdə aydın ifadə olunur, yəni sözü təşkil edən hissələrdən, yaxud elementlərdən onun mənasını müəyyən etmək olur; şəffaf olmayan sözlər isə o sözlər hesab edilir ki, onların hissələrindən, onları təşkil edən elementlərdən onların mənalarını anlamaq olmur.

Bir çox dil-danışıq qarşılaşdırılması yazılı, yaxud şifahi izahından asılı olaraq işlədilir. Daha dəqiq onlar işlədildikləri kontekstdən asılı olaraq az və ya çox dərəcədə kulturoloji əlamətləri əks etdirərək istifadə olunur. Mənaların ifadəsi zamanı ontolojik ehtimallar, yəni bizim dünya haqqındakı ehtimallarımız da verdiyimiz məlumatda aparıcı rol oynayır.

Ədəbiyyat

1. Bloomfield L. Language. New York:Holt, and (1935) London: Allen and Unwin, 1933.
2. Brook G.L. Varieties of English. London: Macmillan, 2007.
3. Crystal D. English as a Global Language. Cambridge: Cambridge University Press, 2007.
4. Krapp G.P. The English Language in America. Vol.1. New York: York press,1925.
5. Veysalli F.Y. The bases of Linguistics. Studia Philologica. VI, Baku, Mutarcim, 2013.
6. Клоков В.Т. Спецкурсы по романской филологии: Сборник трудовю. Саратов: Изд-во Сарат. ун-та, Вып.2, 2003.

Mammadli M.

On the variation of words

Summary

The article deals with the variation of words. Traditionally, semantics is defined as the study of meaning. This is the definition adopted by linguists. It is well known that the term linguoculturological is often used. Words have always been on the agenda and the linguists have always been concerned with the use of cultured species or differences in the use of natural language. Determining the variants of words used in our language is one of these topics. The paradigmatic and probiotic relation between words is more pronounced than words that form phrases. It is well known that the word is not a clearly defined linguistic association, nor is it a concept used in written text. In particular, words used in the phraseological unit are considered to be meaningful concepts. One of the ma-

in signals that convey the word in spoken language is the accent. In one word, there can be one main accent. Many language-speaking gestures are used either in writing or in verbal explanation. It is used more accurately, reflecting more or less culturological signs, depending on the context in which they are used. It should be noted that ontological assumptions, that is, our assumptions about the world, play a leading role in the expression of meanings. Most of these ontological probabilities are culturally determined. In general, most natural-language conversations are expressed in a broader context.

Key words: variation, word, meaning, form, semantics, pragmatics

М.Мамедли

О вариации слов

Резюме

В статье рассматриваются варианты слов. Традиционно семантика определяется как изучение значения. Это определение принято лингвистами. Хорошо известно, что часто используется термин лингвокультурологический. Слова всегда были в повестке дня, и лингвисты всегда были обеспокоены использованием культивируемых видов или различий в использовании естественного языка. Определение вариантов слов, используемых в нашем языке, является одной из этих тем. Парадигматическая и пробиотическая связь между словами более выражена, чем слова, которые образуют фразы. Хорошо известно, что это слово не является четко определенной лингвистической ассоциацией и не используется в письменном тексте. В частности, слова, используемые в фразеологизме, считаются значимыми понятиями. Одним из основных сигналов, которые передают слово в разговорной речи, является акцент. Одним словом, может быть один главный акцент. Многие языковые жесты используются либо в письменной форме, либо в устном объяснении. Он используется более точно, отражая более или менее культурологические признаки, в зависимости от контекста, в котором они используются. Следует отметить, что онтологические предположения, то есть наши предположения о мире, играют ведущую роль в выражении значений. Большинство из этих онтологических вероятностей определяются культурой. В целом, большинство разговоров на естественном языке выражаются в более широком контексте.

Ключевые слова: вариация, слово, значение, форма, семантика, прагматика

Redaksiyaya daxil olma tarixi: 20.04.2019
Çapa qəbul olunma tarixi: 01.12.2019
Filologiya üzrə fəlsəfə doktoru Xəyalə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

NAİLƏ QULİYEVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
naila.quliyeva@asoiu.edu.az

SOMATİK FRAZEOLOGIZMLƏRİN LEKSİK –QRAMMATİK SƏCİYYƏSİ

Xülasə

Məqalədə qeyd edilir ki, dilcilərin bir qismi yalniz məhdud mənada frazeologizm anlayişindan çixiş edərək idiomlar, digər qismi həm də frzeoloji birləşmələri, ücüncü qismi isə frazeologizm anlayişini geniş mənada götürərək, somatik frazeologizmləri də frazeologiyanin obyekti hesab edirlər. Frazeologiya ilə əlaqədar meydana gələn fikir ayrılığı baxımından yanaşmaları, frazeologiya terminini geniş və ya dar mənada işlədilməsi ilə baglıdır. Frazeoloji vahidlərə iki və daha artıq sözün birləşməsindən əmələ gələn hər hansı birləşmə yox, mənaca bütöv, sabit leksik tərkibli və sintaktik strukturlu ifadələr kimi yanaşmaq lazım olduğu bildirilir.Azərbaycan və ingilis dillərində somatik frazeoloji vahidlərin strukturu müxtəlif olması vurğulanır. Hər iki dilin somatik frazeologizmləri iki və daha çox sözlərin birləşməsi əsasında yaranir. Komponentlərin sintaktik əlaqəsinin səciyyəsinə görə bunların bir qismi söz birləşməsi şəkilində, bir qismi isə qrammatik cəhətdən formalaşmış cümlə quruluşunda işlədilir. Quruluş və mənaca söz birləşməsi səciyyəsi daşiyan somatik vahid somatik frazeoloji birləşmə; məzmunca bitmiş, tamamlanmış fikri ifadə edən, intonasiya, predikativlik və modallıq baxımından cümlə strukturunu xatırladan somatik frazeoloji vahidi isə somatik frazeoloji cümlə adlamdirmaq olar. Azərbaycan dilində də belə faktlara az təsadüf edilmir. Somatik frazeologizmin tərkibinə söz artirmaq hallarına ancaq atalar sözü və məsəllərdə deyil, həm də başqa somatik frazeologizmlərdə də rast gəlmək olur. Somatik frazeologizmin tərkibinə söz əlavə edilərək yeni sözün hesabına quruluşda müəyyən dəyişiklik edilməsi nəzərə çatdırılır.

Açar sözlər: *frazeologizm, sintaktik, leksik- qrammatik, somatik frazeoloji vahidlər, sabit leksik tərkib.*

Dilcilərin bir qismi yalniz məhdud mənada frazeologizm anlayişindan çixiş edərək idiomlar və frzeoloji birləşmələri, bir qismi isə frazeologizm anlayişini geniş mənada götürərək, somatik frazeologizmləri də frazeologiyanin obyekti hesab edirlər. [1, 248]. Somatik frazeologizmin ilkin çagında onun sərbəst söz birləşməsi kimi mövcudlugunu qəbul ediriksə, onda həmin dövrdə onun tərkibindəki sözlərin müstəqil olduğunu dildə fəal işləndiyini də nəzərdən qaçirmamalıyıq. Bu mənada somatik frazeoloji vahidlərin müxtəlif inkişaf mərhələlərində komponentin başqa bir sözlə əvəz edilməsi təbii hesab olunmalıdır. Somatik frazeologizmlərin leksik və qrammatik mənaları onlarda forma və məzmun vəhdəti yaradır. İfadələri mənasız və formasız təsəvvür etsək komponent hansı nitq

hissəsinə aid olursa, birləşmə də onun adı ilə əlaqələndirilir. Somatik frazeologizmlər, yuxarıda qeyd etdiyimiz kimi, qrammatik strukturuna görə söz birləşməsi və cümlə formasında olur. Söz birləşməsi şəklində olan somatik frazeologizmlərin qrammatik tərkibi eyni və ya müxtəlif nitq hissələrindən ibarət olur. Bunlarda bir söz qrammatik cəhətdən əsas, aparıcı olur. Həmin əsas komponent hansı nitq hissəsinə aid olursa, birləşmə də onun adı ilə əlaqələndirilir.

Hidden hand (gizli təsir); light hand (bacariqlı//səriştəli); single eye (aydin məqsədli); free hand (tərcübəsiz); fishy eyes (donuq baxış); steady hand (agır əl); cool head (soyqqanlı) və s. not right in one's head – başdan səfəh; light hand – ehtiyatlı; steady hand – əli agır; an old hand (at smth) - təcrubəli əl; a fresh hand – təcrubəsiz; the last hand – axırıncı ştrix; a blind hand – cızma qara yazı; a long nose – "burun"; the hidden hand – gizli təsir; a helping hand – kömək; a blck eye – gözünün altı qara; painted (up) to the eyes – cox kirşanlı göz; a private eye – şəxsi cəsus; wet behind the ears – agzından süd iyi gələn; grey hairs – qocalıq; cold arm – soyuq silah; sauser eyes – nəlbəki boyda gözləri; with open eyes – şüurlu surətdə; fishy eyes – ölü qoyun gözləri. Dilçilik ədəbiyyatında tarixən geniş şəkildə istifadə olumuş bu tip frazemlər "sabit epitetlər" adlandırılaraq qeyd olunur ki, belə ifadələrin mənası və emosionallıgı onların yalnız komponentlərindən biri – epitetləri ilə yox, bütün ifadə ilə birlikdə meydana cıxır [3,230-231].

b) isim + isim (N+ N) modeli əsasında formalaşan somatik frazeologizmlər;

könül aşinası, göz şivəsi, müjgan oxu (müjgan fars sözüdür, "kiprik" deməkdir). Belə poetik somatik frazeologizmlər Azərbaycan dilində əsasən, klassik mənbələrdə işlənmişdir. "Könül aşinası " hayif ki, yoxdur "(Vaqif), "Qaş əyib göz şivəsi dil şərhinə xəndan kimi "(Şəhriyar)," Qəmzə xəncərindən, müjgan oxundan, cigər parə - parə, dil şanələnmiş "(Vidadi) və.s. Soucer eyes (iri gözlər); neck and crop (tez – tələsik); head and front (hər şeydən əvvəl); cock one "s nose (burnu yuxarı); dog"s nose (pivə); nose to nose (burun buruna); parson"s (pope "s) nose (qizardılmış quş); face to face (üz- üzə); pudding face (ətli // mənasiz üz); from mouth to mouth (agızdan agıza); from hand to mouth (əldən agıza) və s.

Göründüyü kimi N +N modeli əsasında formalaşan somatik frazeologizmlər bəzən ya bağlayıcı ilə bir-birinə bağlanır (neck and crop), ya da sözönü vasitəsilə düzəlir (from mouth to mouth) və s. A sight for sore eyes – həmişə arzu olunan adam; hand to hand – yan –yana; the iron hand in the velvet glove – maskada mələk sima; cheek by jowl – yanbayan // göz-gozə; all eyes are turned to sm.- bütün diqqət kiməsə yönəlmək; camera eye – yaxşı görmə qabiliyyəti; the eye of Grece –Yunan baxışı; one"s eyes stand out of one"s hand – gözü kəlləsinə cıxır (qorxudan, təəccübdən); her face in her fortune – onun bütün var dövləti onun gözəlliyidir; a finger in the pie – bir işdə əli olmaq; one"s fingers itch - əli gicişir" hair about the heels – tərbiyəsiz; a hair in one"s soup – narazılığın səbəbi; head and shoulders above smb.- kimdənsə bir barmaq yuxarı; a show of hands – səsvermədə əl qaldirmaq; need has (knows) no law – ehtiyac ücün qanun yoxdur; neck and crop – cəld; one's hair stands on end – tükləri biz- biz durdu; hand and (in) glove with smb? - kiminləsə çox yaxın olmaq; the hand of fellow ship – dost əli.

“ oglum, sən iki uşaq atasısan, çalış balalarının gözü yolda qalmasın “(S.qadirzadə); “Ay girdi buluda, üzündə kədər, Qorxdu, bir də onu şahid çəkərlər “ (N. Xəxri); “ Tək – təhna oturmuşam qulağı səsdə, deyirəm, bəlkə bir adam qapını açdı “ (S.Qədirzadə); Bu ifadələr bir daha sübüt edir ki, bədii əsərlərin dilində belə somatik vahidlər nə qədər çox olduqca, o qədər emosionallıq qazanır, çünki, ... yazılı dil daim adi danişiqda yaşayan ifadələrlə cana gəlir [4, 117].

a) isim + zərf (N+ Adv) və yaxud əksinə (Adv + N) modeli əsasında formalaşan somatik frazeologizmlər;

hands up! (əllər yuxarı); pour one”s eyes out (gözünün suyunu tökmək); put smb“s nose out (ürəyini sıxmaq); hands down (asanlıqla); up to the eyes (in debt) – gözünə qədər borc içində olmaq; outward eye – həyati baxış; mind”s eye – xəyalı baxış; up to the eyebrows (in debt) - boğaza qədər; never batted an eyelash – gözünü də yummamaq; shout on one”s ear –smb”s hair – kimisə əsəbiləşdirməyin.

“Yenə də gəlmisən, əli aşagı, elə bilirsən, üzünə güləklər“ (İ. Əfəndiyev).” Əvəz Əvəzov yaxşı oglandı, başı aşagı, saçı yuxarı “ (Anar). “Bizim ayrı yolumuz yoxdur, həmişə üzü irəli getməliyik “ (V.Babanlı) və s.

ç) tərkibində say olan somantik frazeologizmlər ;

bear (carry or have) two faces under one hood (iki üzlü olmaq); two heads are better than one (agıl agıldan üstündür); first hand (birinci əldən); at second hand (ikinci əldən); on one hand (bir tərəfdən); have two left hand (agır taxtalı); (gec tərpənən adam haqqinda) və s.

Verilmiş misallar mövqeyinə və qrammatik əlamatlərinə görə cümlədə təyin və ya zərflik kimi işlənsələr də, ismi somatik frazeologizmlər olaraq qalır, onlarda aparıcı sözlər isimdir. Bu somatik frazeologizmlər qoşmalı ismi birləşmə şəklində də olur; dəvənin boynu kimi, ayagı topal kimi, gözü kor kimi və s.

Azərbaycan dilində ismi somatik frazeologizmlərin aşağidakı formalarına rast gəlirik;

- isimlə ismin birləşməsindən; gözləri qan çanağı, ölüm ayağı, gözü qan, daş ürək;
- isimlə sifətin birləşməsindən; agzı dadsız, qarnı qurdlu, agızdan boş, başı boş, üzü yola, ayagı ağır, ayagı yüngül, ürəyi dağlı, gözü küllü. Məsələn; “ Bir əndamlı nəsrin, dodagı qöncə, bir qaməti gülbun yarə aşiqəm “ (Vaqif). Ləbi (farsca dodaq deməkdir) şəkkər, dili baldan, mən dönərəm, könül dönməz (Şikəstə Xatir). “ Niyə olmur ki, elə yaxşı olar ...bir dodagı büzməli alıb gətirərsən, hamı rahatlaşar “(Elcin).
- İsimlə feli sifətin birləşməsindən; gözü qan aglayan.

Feli somatik frazeologizmlər. Dünya dillərinin əksəriyyatində oldugu kimi, Azərbaycan və ingilis dillərində də feli somatik frazeologizmlər ismi somatik frazeologizmlərə nisbətən çoxdur. Onlar iş, hal-vəziyyət mənasinda olub, əsasən cümlənin xəbəri vəzifəsində çıxış edir. Feli somatik frazeologizmlərin birinci tərəfi həmişə fel, ikinci tərəfi isə, əsasən isimlə ifadə olunur. Feli somatik birləşmələrdə ümumi məna, komponentlərin bütövlükdə mənasından və sintaktik quruluşundan asılı olur, predikativ səciyyə daşıyır. Bu əlamətlər içərisində bizi predikativlik daha çox maraqlandırır, çünki tərkibində fellə-

rin iştirak etdiyi somatik frazeologizmlərin predikativliklə əlaqəsi onların structur–semantik səciyyəsi sayılır. Predikativlik əlamətindən çıxış etdikdə həm də frazeoloji vahid anlayışını geniş başa düşürük, belə ki, buraya frazeoloji birləşmə və frazeoloji qovuşma ilə yanaşı, həm də paramioloji vahidləri, qanadlı sözləri aforizmləri də qəbul etməli oluruq [5,98]

Ədəbiyyat:

1. Axundov A.A. Dil və Ədəbiyyat, 1c., Bakı, 2003, 657 səh.
2. Qurbanov A. M. Ümumi dilçilik, 1 – II cildlər, Bakı, 2014
3. Ефремов А.И. язык сатиры Салтыкова-Щедрина, Москва, 1959
4. Пушкин А.С. Русские писатели о языке – Хрестоматия, Ленинград, 1955
5. Тагиев Х. Крылатые слова в азербайджанском языке, АКД, Баку, 1992, 22 стр.
6. Ф. де Соссюр. Курс общей лингвистики (перевод на русском языке), М, 1993

Н.А. Кулиева

Лексико-граммические особенности соматической фразеологии на английском и азербайджанском языках

резюме

В статье отмечается, что некоторые из лингвистов происходят от понятия фразеологии в ограниченном смысле, вторая часть рассматривает их как сочетание фраз, другие основаны на понятии фразеологии, выражении фразеологических выражений, выразительно-эмоциональной терминологии и так далее. также называют объектами фразеологии. Спорные подходы к фразеологии связаны с широким или узким использованием термина фразеология. Говорят, что фразы следует трактовать как выражения полной, устойчивой лексической и синтактические структуры, а не как комбинацию двух или более слов.Подчеркивается, что соматическая фразеология обоих языков основана на сочетании двух или более слов. Из-за характера синтаксической взаимосвязи компонентов некоторые из них используются в форме слов, а некоторые - в грамматически сформированной структуре предложения. Соматическая фразеологическая унификация соматической единицы с характеристикой структуры и значения словосочетаний. Соматическая фразеологическая единица, выражающая конечную законченную идею, напоминающую структуру предложения с точки зрения интонации, предсказуемости и модальности, может быть названа соматическим фразеологическим предложением. Такие факты не редкость в азербайджанском языке. Случаи обращения к соматической фразеологии можно найти не только в пословицах и притчах, но и в других соматических фразеологиях. При добавлении слова в состав соматической фразеологии вносятся определенные изменения в структуру нового слова.

Ключевые слова: фразеологические, синтаксические, лексико-грамматические, соматические фразеологизмы, фиксированное лексическое содержание.

N. A. Guliyeva

Lexical and grammatical features of somatic phraseology in
english and azerbaijan languages

Summary

The article states that some of the linguists investigate the notion of phraseology in a limited sense, the second part consider them as a combination of phrases, the others based on the concept of phraseology, expressing phraseological expressions and expressions, expressive-emotional terminology and so on. are also called objects of phraseology. Controversial approaches to phraseology are related to the broad or narrow use of the term phraseology. It is said that phrases should be treated as expressions of a complete, stable lexical and syntactical structure, rather than any combination of two or more words. It is emphasized that the structure of somatic phraseological units in the Azerbaijani and English languages is different. The somatic phraseology of both languages is based on the combination of two or more words. Due to the nature of the components' syntactic relationship, some of them are used in the form of words and some of them are in grammatically formed sentence structure. Somatic phraseological unification of the somatic unit with the characteristic of the structure and the meaning of word combinations. The somatic phraseological unit, which expresses a finite, completed idea, reminiscent of sentence structure in terms of intonation, predicativity and modality, can be called a somatic phraseological sentence. Such facts are not uncommon in the Azerbaijani language. Cases of referring to somatic phraseology can be found not only in proverbs and parables, but also in other somatic phraseologies. By adding a word to the composition of somatic phraseology, certain changes are made in the structure of the new word.

Keywords: phraseological, syntactic, lexical-grammatical, somatic phraseological units, fixed lexical content.

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 01.11.2019
Filologiya üzrə fəlsəfə doktoru Sevil Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

HÜZURƏ AĞAYEVA
ADU
Rəşid Behbudov 134
huzura@mail.ru

ORTA MƏKTƏBLƏRİN İBTİDAİ SİNİFLƏRİNDƏ ŞİFAHİ NİTQİN İNKİİŞAF ETDİRİLMƏSİNİN LİNQVISTİK ƏSASLARI (İNGİLİS DİLİ MATERİALLARI ƏSASINDA)

Xülasə

Xarici dillərin tədrisi metodikası dilçiliklə də sıx bağlıdır. İlk növbədə qeyd etmək lazımdır ki, xarici dilin tədrisində istifadə olunan dil materiallarını metodika məhz dilçilikdən alır.Metodika linqvistik araşdırmaların nəticələrindən tədris üçün dil materiallarının seçilməsində və təşkil olunmasında uğurla istifadə edir.

Məlumdur ki, struktur dilçilik dil tədrisinə böyük təsir etmişdir. Struktur dilçiliyin ən mühüm doktrinasına görə, dilin ilkin mühiti şifahidir. Bir sıra görkəmli dilçilər tərəfindən irəli sürülən fikirlər və yaradılan nəzəriyyələr dil tədrisinin metodikasında geniş tətbiq olunur. Bunlardan V.Humboldt, H.Şteyntal, İ.Seçenov, L.Blumfild, M.Morris, N.Xomski, A.A.Leontyev və başqalarının fikirləri xüsusilə əhəmiyyətlidir.Beləliklə, xarici dillərin tədrisi metodikası və metodologiyası bir elm sahəsi kimi yuxarıda adı çəkilən elm sahələri ilə sıx bağlıdır. Dili tədris edən mütəxəssis sadəcə tədrisin metodikasını deyil, həm də bu metodların əsasında hansı fikirlərin dayandığını psixoloji, linqvistik, fizioloji və pedaqoji cəhətdən təhlil etməyi bacarmalıdır. Dilöyrənənlərin ilkin funksiyası kommunikasiya tapşırıqlarının icrasıdır. Onlar kommunikasiyaya girməklə ünsiyyəti öyrənirlər. Bu metodda müəllimin üstünlüyü nisbətən az olduğundan, şagird və tələbələr öz öyrənmələrinin daha məsuliyyətli idarəçiləri olurlar. Kommunikativ Yanaşma dil tədrisində bir sıra müasir metodların yaranmasına rəvac vermişdir. Buraya Məzmun Əsaslı Təlimat, Tapşırıq Əsaslı Təlimat, Mətn Əsaslı Təlimat, Sərişta Əsaslı Təlimat və s. kimi müasir metodlar daxildir.

Hər hansı dilə yiyələnmək həmin dilin linqvistik baxımdan savadlı dil daşıyıcısına xas olan dərketmə qabiliyyəti və səlislik, leksik, qrammatik və üslubi baxımdan düzgün olan cümlələri və danışıq mətnlərini qurmaq qabiliyyəti, fikir və ideyalarını yazılı şəkildə ifadə etmək bacarığını nəzərdə tutur.

Açar sözlər: kommunikasiya, innovasiya, metod, texnologiya, nitq

Son illərdə xarici dilin tədrisi metodlarına maraq artmış və bu sahədə bir çox araşdırmalar aparılmışdır. Araşdırmalardan çıxan maraqlı nəticələr dilin tədrisində yeni materialların və üsulların səmərəli istifadəsi yollarını inkişaf etdirir.

Yeri gəlmişkən, qeyd edək ki, kommunikativ yanaşma 1960-cı illərdə Britaniyada mövcud olan ənənəvi dil təlimi metodlarının dəyişməsi ilə meydana çıxmışdır.

Bu dövrə qədər geniş istifadədə olan Situasiyalı Dil Tədrisi və Audio-Linqual Metodun əsasında duran nəzəriyyələr artıq şübhə ilə qarşılanırdı ki, bu da onlardan istifadənin aradan qalxmasına və tezliklə kommunikativ yanaşmanın məhşurlaşmağına şərait yaratdı.

Litlvud Kommunikativ yanaşmanı belə təsvir edir : "Kommunikativ dil tədrisinin əsas xarakterik xüsusiyyəti odur ki, o dilin funksional və struktur aspektlərinə də sistemli yanaşır və bunları vahid kommumikativ baxışda birləşdirir". [2, s.23].

Bu yanaşmanın əsas məqsədi kommunikativ cəhətdən səriştəli dilöyrənənlər hazırlamaq idi. Əslində, biz digər metodları da müzakirə edərkən onların əksəriyyətinin məqsədinin şagird və tələbələrdən kommunikasiya bacarıqları formalaşdırmaq olduğunu görürük. Lakin, kommunikativ yanaşmada kommunikativ səriştə anlayışının boyutları daha geniş qeyd olunur.

Kommunikativ səriştə dil biliyinin aşağıdakı aspektlərini özünə daxil edir:

- Dildən bir sıra müxtəlif məqsədlər və funksiyalar üçün necə istifadə etməyi bilmək;
- İstifadə etdiyimiz dili yerinə və iştirakçılara görə necə dəyişdirməyi bilmək (məsələn, rəsmi və qeyri-rəsmi nitqdən nə vaxt istifadə etməyi və yaxud yazılı və şifahi kommunikasiyaya uyğun dildən istifadə etməyi bacarmaq;
- Müxtəlif mətnləri necə hasil etməyi və başa düşməyi bacarmaq;
- Dil biliklərində məhdudiyyətlər olmasına baxmayaraq kommunikasiyanı necə qoruyub saxlamağı bacarmaq (məsələn, müxtəlif növ kommunikasiya strategiyalarından istifadə vasitəsilə) [2, s.4].

Kommunikativ yanaşmanın xüsusiyyətlərindən biri də dilöyrənənlərin əksər sinif fəaliyyətlərini kiçik qruplarda işləyərək həyata keçirməsidir. Bu şagirdlərin kommunikasiyasını maksimum səviyyəyə qaldırır və onlara məna üzərində işləməyə kifayət qədər imkan verir. Onların optimal rəvanlıqlı kommunikasiyası daha vacib hesab olunur. Qiymətləndirmə kommunikativ fəaliyyətlər vasitəsilə həyata keçirilir. Dilöyrənənlər öz fikirlərini çatdırmaq qabiliyyətlərinə əsasən qiymətləndirilir. Bu yanaşmada müəllimin ilkin rolu şagirdlərin öyrənməsinə kömək etməkdir. Müəllim sinif fəaliyyətlərini idarə edir, məsləhətlər verir, şagirdləri onlara lazım olan dillə təmin edir və digər bir halda Littlewoodun göstərdiyi kimi "ko-kommunikasiyaçı" kimi çıxış edərək, dilöyrənənləri kommunikasiya fəaliyyətlərinə cəlb edir[3, s.19].Bu mövqeyə əsaslanaraq, ünsiyyət qurmaq bacarığı yalnız qismən qrammatik qaydaların mənimsənilməsi dərəcəsindən asılıdır. Mənimsənilmiş qrammatik qaydaları ümumi praqmatik kompetensiyaya onu təşkil edən komponentlərdən biri qismində daxil etmək qabiliyyətinə yiyələnmək kommunikativ təlimi şərtləndirən əsas amillərdəndir.

İngilis dilində şifahi nitq vərdişlərini şagirdlərə aşılayarkən müəllim bu sahədə dillərarası interferensiyanı nəzərə almalıdır. Şagirdlər ingilis dilində danışarkən ana dili olan Azərbaycan dilinin təsiri özünü göstərir. Bəzən ingilis dilini öyrənən şagird-

lər Azərbaycan dilinə xas olan nitq modellərini heç bir dəyişiklik etmədən ingilis dilinə keçirirlər. Məhz buna görə şagirdlərin diqqətini ana dili və tədris edilən xarici dil arasında danışıq dili səviyyəsində mövcud olan fərqlərə və məhz ingilis dilinə xas olan nitq modellərinin xüsusiyyətlərinə cəlb etmək olduqca vacibdir. Şagird səhv etdiyi halda, müəllim onun diqqətini törətdiyi səhvlərə yönəltməli və beləliklə buraxılan səhvlərin şagirdlərin özü tərəfindən düzəldilməsi üçün lazımi şəraitin yaradılmasını təmin etməlidir. Xarici dil mütəxəssisi hazırlayarkən, əsas fəaliyyət növləri olan eşidib-anlama, danışma, yazı və oxunun öyrədilməsi üsullarına ciddi diqqət yetirilməlidir. Eyni zamanda dilin aspektləri olan leksika, qrammatika və fonetikanın öyrədilməsinə xüsusi diqqət yetirilməlidir. Başqa sözlə desək, dil mütəxəssisi, ilk növbədə xarici dil müəllimi kommunikativ cəhətdən səriştəli olmalıdır. Kommunikativ cəhətdən səriştəli olmayan müəllim heç vaxt şagirdlərdə şifahi nitq vərdişlərinin formalaşdırılmasını təmin edə bilməz. Məhz bu səbəbdən orta məktəblərdə şagirdlərə şifahi nitq vərdişlərinin aşılanmasına xüsusi diqqət yetirilməsi olduqca vacibdir. Əgər şagirdlər ingilis dilindən fikir, ideya və informasiya mübadiləsi məqsədilə istifadə edə bilmirlərsə, linqvistik biliklərin əldə edilməsi tamamilə mənasız və nəticəsiz olur. Məlum olduğu kimi, bu gün xarici dil tədrisində irəli sürülən ən önəmli vəzifələrdən biri təlim prosesində interaktivliyin təmin edilməsidir.

İnteraktivlik isə yalnız şagird-müəllim, şagird-şagird arasında münasibətlər deyil, həm də dil aspektləri və nitq vərdişlərinin əlaqəli şəkildə mənimsənilməsi deməkdir. Şagirdlərin ana dilində mövcud olan nitq modelləri və danışıq dili xüsusiyyətləri müqayisəli şəkildə təhlil edilməli və tədris edilən dildə şifahi nitqin formalaşdırılması zamanı şagirdlər üçün potensial problem olan danışıq dili normalarına xüsusi diqqət yetirilməlidir.

Orta məktəblərdə şagirdlərə şifahi nitq vərişlərinin inteqrativ şəkildə aşılanması, müasir dövrdə orta məktəblər qarşısında qoyulan əsas məqsədlərdən biridir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı amillər nəzərə alınmalıdır:

- Orta məktəblərdə şagirdlərin şifahi nitq vərdişlərinə qloballaşma dövrünün tələblərinə uyğun olan səviyyədə yiyələnmələri olduqca əhəmiyyətli məsələlərdən biridir.
- İngilis dilində şifahi nitq vərdişlərinin formalaşması prosesinin əsasını təşkil edən pedaqoji, linqvistik və psixolinqvistik amillərin təhlili ingilis dilində şagirdlərdə şifahi nitq vərdişlərinin səmərəli şəkildə formalaşdırılmasını şərtləndirən əsas prinsipləri müəyyənləşdirməyə imkan verir.
- Şifahi nitq vərdişlərinin formalaşdırılması prosesinin qloballaşma dövründə dil mütəxəssisləri qarşısında qoyulan tələblərə cavab verən tərzdə təşkil edilməsi, təlim prosesinin şagird-yönümlülük prinsipləri üzərində qurulması, şagirdlərin ehtiyac, maraq və tələbatlarını nəzərə almaqla təmin edilə bilər.
- Şifahi nitq vərdişlərinin interaktiv şəkildə formalaşdırılması təlim prosesinin daha səmərəli şəkildə təşkilini təmin edir.

• Tədris edilən ingilis dili və şagirdlərin ana dilləri olan Azərbaycan dili arasında olan qarşılıqlı əlaqə hallarının araşdırılması, potensial interferensiya mənbələrinin müəyyənləşdirilməsi interferensiya hallarının aradan qaldırılması və qarşısının alınmasını mümkün edir.

Dillərin təliminə kommunikativ yanaşmadan danışarkən birinci növbədə onun şagird-yönümlü olduğunu, eləcə də şagirdlərdə tədris edilən xarici dili öyrənməyə həvəs və marağı yaratmağa yönəldiyini qeyd etmək lazımdır.Onu da qeyd etmək lazımdır ki, şagirdlərin bilavasitə və potensial kommunikativ ehtiyacları ola bilər. Belə ki, siniflərdə biliklərini nümayiş etdirmək, təcrübələrini bölüşmək, maraq və mövqeləri haqqında iştirakçıları məlumatlandırmaq bacarığının inkişaf etdirilməsinə ehtiyac duyula bilər.Orta məktəblərdə ingilis dilinin tədrisinin əsas məqsədlərindən biri də şagirdlərdə dialoji və monoloji nitq bacarıqlarının formalaşdırılmasıdır. Bu da linqvistik materialların kompleks şəkildə təşkil edilməsi və tədris edilən ingilis dilinin kommunikativ-yönümlü öyrədilməsini nəzərdə tutur. Şifahi nitq vərdişlərinin səmərəli şəkildə inkişaf etdirilməsində xüsusi çalışmalar kompleksinin hazırlanması əsas şərtlərdən biridir. Ingilis dilinin öyrədib-öyrənilməsinin əsas kommunikativ məqsədlərindən biri həmin dildə leksik, fonetik, qrammatik və həmçinin üslubi cəhətdən düzgün olan kommunikasiya bacarıqlarına yiyələnməkdir. Şagirdlərdə şifahi nitq bacarıqlarının formalaşdırılması üçün kommunikativ situasiyaların yaradılması olduqca vacib amillərdən hesab edilə bilər. Həmin situasiyalar elə tərtib edilməlidir ki, şagirdlər tərəfindən mənimsənilmiş dil materiallarının yeni kommunikativ kontekstlərdə işlədilməsi təmin edilsin. Beləliklə, kommunikativ situasiyaların yaradılması məsələsi orta məktəb şagirdlərinə şifahi nitq vərdişlərinin aşılanmasında xüsusi aktuallığa malikdir.

Kommunikativ-situativ yanaşmanın mahiyyəti ondan ibarətdir ki, ingilis dilində danışıq dilinin öyrədilməsi xüsusi şəkildə seçilmiş real situasiyaların analoqlarına və həmin situasiyalara verbal ünsiyyəti təmin edən leksik-qrammatik vasitələrə əsaslanır [5, s.38]. Xarici dildə şifahi nitqin inkişaf etdirilməsi yalnız kommunikativ situasiyaların olması zamanı mümkündür. Tədris olunan linqvistik materialların hər hansı konkret situasiya ilə əlaqəli şəkildə istifadə etmək bacarığının formalaşmasına dair tələblər şifahi nitqin tədrisində situativ-modelləşdirməyə istiqamətləndirilməsi prinsipi ilə tam şəkildə üst-üstə düşür [6,s.89]. Məhz buna görə nitq ünsiyyətinin baş verməsi üçün müvafiq situasiyanın olması zəruridir [3, s.38]. Dilin tədrisində çalışmalardan və tapşırıqlardan istifadə xüsusi əhəmiyyət daşıyır. Buna səbəb onların dilin istifadəsinə imkan verməsi və həmçinin dil öyrənənlərin dili daha yaxşı qavramasına və yadda saxlamasına imkan vermələridir. Xarici dillərin tədrisi üçün təklif olunan müxtəlif metodlarda fərqli çalışmalar sistemindən istifadə olunmuşdur. Müasir təlimdə xarici dilin tədrisinə eklektik yanaşma da kommunikativ çalışmalar sisteminin formalaşmasına öz təsirini göstərməkdədir. Əsasən istifadə olunan çalışmaları iki qrupa bölə bilərik:

1) rəvanlığa diqqət yetirən çalışmalar,
2) dəqiqliyə diqqət yetirən çalışmalar.

Rəvanlıq və dəqiqliyə diqqət yetirən çalışmalar arasındakı əsas fərqləri aşağıdakı şəkildə ümumiləşdirmək mümkündür:

Rəvanlığa diqqət yetirən çalışmalar

- Dilin təbii istifadəsini özündə əks etdirir
- Kommunikasiyaya nail olmağa diqqət yetirir
- Dilin mənalı şəkildə istifadəsini tələb edir
- Əvvəlcədən müəyyənləşdirilə bilməyən dildən istifadəni tələb edir
- Dilin konteksdə istifadəsinə keçid axtarır

Dəqiqliyə diqqət yetirən çalışmalar

- Sinifdəki dilin istifadəsini özündə əks etdirir
- Dilin düzgün nümunələrinin formalaşmasına diqqət yetirir
- Konteksdən çıxarılmış dil üzərində işlənilir
- Dilin kiçik nümunələri üzərində işlənilir
- Mənalı kommunikasiya tələb etmir
- Dil seçiminə nəzarət olunur [2, s.13]

Bu çalışmalar dilin müxtəlif iki aspektinə diqqət yetirməklə dilin həm düzgün, həm də rəvan şəkildə kommunikasiyada istifadə olunmasına imkan verir.

Müasir dövrdə xarici dilin tədrisində çalışmalar sistemini seçərkən onların əsas bacarıqlar olan eşidib-anlama, yazı, oxu və danışıq bacarıqlarını yüksək səviyyədə inkişaf etdirmək potensialının olması nəzərə alınmalıdır. Dərsliklərin təhlilləri nəticəsində müəyyən edilmişdir ki, müasir dil materiallarının əksəriyyətində kommunikativ səriştənin inkişafına təkan verən çalışmalar xüsusi yer tutur.

Ədəbiyyat

5. Harmer J. The Practice of English Language Teaching, 4th ed. Longman, 2007, 448 p.
6. Prabhu N.S. Second Language Pedagogy. Oxford: Oxford University Press, 1987, 153 p.
7. Stephen D. Krashen. Principles and Practice in Second Language Acquisition. Pergamon Press Inc. 1982, 202 p.
8. Ur P. A course in English Language Teaching. Cambridge University Press, 2012, 325 p.
9. Jack C. Richards. Communicative Language Teaching Today. Cambridge University Press, 2006, 47 p.
10. William Littlewood. Communicative Language Teaching. Cambridge: Cambridge University Press, 1981, 108 p.

H. Agayeva

Linguistic basis of developing oral speech in junior stages at schools
(on the basis of English materials)

Summary

dilinə yalnız <<üzüm növü >> kimi, bu məna variantında da həmin sözün semantikasında alman dili mühitində yenə qismən məhdudlaşma baş vermişdir ki,

Türk dillərində (əasan, osmanlı türkçəsində) <<sulatanın arvad, qızı və ya bacısı, sultanın sevgilisi, üzüm növü>> mənalarında işlənən <<Sultanine>> sözü alman dilinə yalnız <<üzüm növü>> kimi, bu məna variantında da həmin sözün semantikasında alman dili mühitində yenə qismən məhdudlaşma baş vermişdir ki, mənbə dildə, ümumiyyətlə, hər hansı üzüm növü anlayışını ifadə edən bu söz alman dilində həmin üzümdən qurudulmuş kişmiş növünü bildirir.

Istifadə olunan ədəbiyyat:

1. V.V.Radlov "Sravnitelğnıy slovarğ törskix nareçiy".səh:23-32.
2. L.Budaqov "Sravnitelğnıy slovarğ tureüko – tatrskix nareçiy".səh:141-154.
3. K.N.Dmitriev "O törskix elementax russkoqo slovarə".səh:69-87.
4. R.A.Budaqov " Vvedenie v nauku o əzıkax".səh:22-36.

KH.Gurbanova

Lexical-semantic and phonetic features of the Azeri-turkish words in German

Summary

The article deals with use of the Azerbaijanian and the other Turkish words in the contemporary German language and their roles and meanings in modern phase of linguistics. The article deals with the effective ways of using audio and video devices in FLT and working out effective ways of listening skills.Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. The article is devoted to the audio and video materials in modern methodology. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of literature. The author emphasizes its role in methodology. Since its emergence this notion caught the attention. New researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. The main aim of State program is to form a unique national education by means of ICT and provide qualitative educative opportunity in order to integrate into worldwide education system. One of the main goals of language learning is to acquire the ability to communicate effectively. It will make the process of teaching oral speech more effective.

Key words: German, Azeri and Turkish words, multilingual language, word of origin, semantika,equivalent

Х.Курбанова

Лексико-семантические и фонетические особенности и Азербайджано-Турецких слов в немецком языке

Резюме

В статье рассмойриваются уиотребление азербайджанские и другие тюркские слова в современном немецком языке их ралъ и значение в совремеыном етапе лингивистики. В данной статье рассматриваются вопросы использования туркских слов материалов на преподавании нем языка. немецкого языкаговорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранном языке. Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть роль упражнении. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Основной целью Государственной программы является формирование единой обшенациональной среды образования путём внедрения и использование современных информационно-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образовании. Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке.

Ключевые слова: Лексико-семантические и фонетические особенности азербайджано-турецких слов в немецком языке.

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 21.11.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Adilə Zeynalova tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

PƏRİXANIM SOLTANQIZI (HÜSEYNOVA)
ADPU
filologiya üzrə fəlsəfə doktoru, dosent
Üzeyir Hacıbəyli 63
perixanim @mail.ru

Ə. XAQANİNİN YARADICILIĞINDA TƏBİƏTİN TƏSVİRİ

Xülasə

Tədqiqatın obyekti XII əsrin Azərbaycan ədəbiyyatıının nəhəng simalarından olan Xaqani Şirvaninin yaradıcılığında təbiətin tərənnümüdür.

Şairin "Şirvanın tərifi", "Savalan dağının tərifi", "Quşların söhbəti" və rübailəri elmi araşdırmaya cəlb olunur. Vətənin təbii sərvətləri, səfalı bərəkətli torpağı, təbiətin füsünkarlığı, Savalan dağının gözəlliyi, müxtəlif güllərin, çiçəklərin xüsusiyyətləri ədəbiyyatşünaslıq baxımından tədqiq edilir.Rübailərdə təsvir olunan gözəllərin xüsusiyyətləri təbiət gözəllikləri ilə müqayisə edilir. Elmi polemika aparılır. Tədqiqatçı belə nəticəyə gəlir ki, bu əsərlər klassik Azərbaycan ədəbiyyatının təbiət mövzusunda yazılmış ən maraqlı və məzmunlu poetik nümunələrindəndir. İnsanlarda vətənə, torpağa, təbiətə məhəbbətlə yanaşı, onları qorumaq, müdafiə etmək hisslərini də aşılayır. Müəllif təbiətin gözəlliklərini təhlil edərkən Vətən obrazınıda elmi-nəəzəri cəhətdən tədqiq edir. Şirvan əhlinin obrazını səciyyələndirir. Savalan dağını Azərbaycanın simvolu kimi araşdırır. Quşların simasında ("Quşların deyişməsi") ədaləti, düzlüyü yaxşılığı, ikiüzlülüyü, təkəbbürlülüyü pis əəməl kimi təhlilə çəkir. Şairin qəsidə və mədhiyyələrində verilmiş peysajdan söz açaraq onu elmi təhlilə cəlb edir.

Açar sözlər: Klassik, dövr, ədəbiyyat, poetika, şeir, bədiilik, obraz, vətən, ana, əmək

Xaqaninin yaradıcılığında təbiət təsviri mühüm yer tutur. "Şuşanın tərifi", "Savalan dağının tərifi" şeirlərində təbiətin gözəlliklərini, ürək açan mənzərələrini poetik vəsf etmişdi. Bu poetikada oxucu sübhün açılmasını, ruh oxşayan çəmənlərin mənzərəsini seyr edir. Güllərin, çiçəklərin hər birinin özünəməxsus ətri, xüsusiyyətləri, müxtəlif adda quşlar haqqında bilgi məlumat əldə edir. Şair "Məntiqüt-teyr" qəsidəsində təbiətin gözəl mənzərəsini-bir bahar səhərini "Quşların söhbəti"ni təsvir edir. Qəsidə də səs-səsə verən quşların hərəsi bir çiçəyi tərifləyir. Birinci sözə Göyər-

çin başlayır. O, ağ çiçəyi tərifləyir. "Acı yarpaqda şəkər yığır bizimçin". Ağ çiçəyin acı yarpaqlarını şirinliklərin acı mayası olduğunu söyləyən Göyərçinin fikrinə Bülbül etiraz edir. O, "Gül şahıdır, bağdakı çiçəklərin" deyib qızılgülə üstünlük verir. Bülbülün qızılgülün ali rütbədən olması fikri Qumruya xoş gəlmir. O sərv ağacının qızılgüldən üstün olduğunu deyir. Səbəb gətirir ki, xəfif bir külək əsəndə gülün tacı tökülür. Sarıköynək etirazını bildirərək sərv ağacının hərəkətsiz olduğunu deyib laləni tərifləyir. "Lalə öz qırmızılığı ilə dağları, düzləri bəzəyir" Səlsəl quşu deyir: "lalə əslində ikiüzlüdür, buna görə də düz ürəkli olanlar kimi bir sifətli süsən ondan qiymətlidir". Çöl quşu (Teyhu) deyir: "Süsəndən göy otlar xoşdur mənə. Bağa gələnin öncə otlar gülür üzünə" Tutu quşu Yasəməni tərif edir: "Rəngi kafudan alıb, ətrini isə ənbərdən", ona qarşı çıxan Bubbu –Şanəbubu quşu Nərgiz gülünü tərif edir: "Nərgiz gülü taxtda oturub başına tac qoymuşdu o, yasəməndən də gözəldir" Beləliklə getdukcə quşların mübahisəsi qızışır. Buna son vermək qərarına gələn quşlar münsiflər heyəti yaradır, ədalətli olduğuna görə Ənqa quşunu münsif seçirlər. Quşlar Ənqa quşunu vəziyyətdən agah edirər. Ənqa quşu ədalətli qərar verərək Bülbülün qərarının düzgün olduğunu söyləyir: "İstəyirəm güllərdən qızılgülün xətrini. Peyğəmbərin tərindən alıbdır öz ətrini" (1, s162)
Qızılgülün məhəbbət rəmzi olduğunu deyir. Bununla da quşlar mübahisələrini yekunlaşdırırlar.

Şair quşların deyişməsini bədii təsvir vasitələrindən istifadə etməklə oxucunun gözü qarşısında canlandırır. Sanki oxucu kənardan bu mənzərini seyr edir, mübahisənin sonunun nə ilə nəticələnəcəyini maraqla gözləyir. Xaqani burada alleqoriyadan istifadə yolu ilə Ənqa quşunun simasında ədalətin, düzlüyün qələbəsini göstərirsə, digər tərəfdən də göyərçin obrazında insan xislətində olan təkəbbürlüyü, paxıllığı, pisləyir. Göyərçinin Ənqa quşunun yerinə münsiflər heyətinin başına keçməsi istəyini bilən quşlar onun üstünə düşür. Göyərçini pis vəziyyətə salırlar.

Xaqani Müvəffəqəddin Əbdül əffara həsr etdiyi mədhiyədə də hər tərəfi al-əlvan rəngə boyayan Baharın gəlməsini xoş əhval-ruhiyyə, bayram sevinci ilə vəsf etmişdir.

Gülün indi geyindiyi atlas dona fikir ver,
Ətəyinə haşiyələr vurulmuşdur qızıldan
Göyərtiyə, bənövşəyə bir də gülə nəzər sal,
Onlar da göy qurşağı tək boyanmışdır al-əlvan. (1, s147)

"Şirvanın tərifi" şeirində (1, s. 384) şair doğma vətəninin hər bir dərdin dərmanı olan təbiətindən söhbət açır. Şirvanın bütün fəsillərdə gözəl olduğunu, bura qonaq gələn hər bir kəsin onun təbiətinin gözəlliyinə heyran qaldığını, səhər mehindən şəfa tapdığını poetik dillə tərənnüm edir. Xaqani bu ədəbi nümunədə Şirvan əhlini də yaddan çıxartmır. Şirvanlıların qonaqpərvər, mərd, alicənab, ədəb-mərifət sahibi, sədaqətli, el-obalarını sevmələrini poetik ifadələrlə vəsf edir.

Şirvanın bərəkətli bol ruzili torpağından, elinin səxavətli olmasından, ondan kasıb yaşayan Bağdadla öz sərvətini paylaşmasından söhbət açır. Şair Bağdadla Şir-

vanı müqayisə edir. Bağdad əlillər yuvasıdı, nə vaxt bu məkana qədəm qoyarsan camaatın ahı-nalə sədasını hər tərəfdən eşidərsən. Şirvan camaatı, Şirvan belə deyil. Şirvan əhli ac da, tox da olsa, ona qane olar, var-dövləti başından aşsa onunla qürurlanmaz. Çünki, onlar bilirlər ki, var-dövlət nisbidir, daimi deyil. Şeirin son misralarında Xaqani qürbətdə olmasını vətəni üçün və vətəninin də ondan yana intizarda qaldığını bildirir. Niyə görə Şirvan torpağı onun intizarını çəkir? Çünki Şirvan ədəbli, cəsur şirlər ölkəsidir. Ədəbli, cəsur şirlərdən biri də Xaqanidir. Xaqani öz simasında Şirvanın ədəb-mərifət sahibi olan ərənlər ölkəsi adlandırır. Özünün ilham pərisinin Şirvan olduğunu söyləyir. "Xaqaniyə həyat verən doğma yurdun havasıdır".

"Şirvanın vəsfi" şeirində oxucu qədim Şirvanın bol ruzili təbiəti, torpağı, xeyirxah, ehtiyacı olanlara kömək edən, alicənab, əhalisinin ədəb-ərkanlı kimi digər nəcib, insani keyfiyyətlərə malik olması ilə tanış olmaqla yanaşı bu amillər yeniyetmə və gənclərin yetişməsində, formalaşmasında onlara milli mənəvi-əxlaqi dəyərlərin aşılanması istiqamətində də böyük rol oynayır. Xaqaninin Şirvanı Bağdadla müqayisə etməkdə məqsədi xalqının ucalığını mötəbər ali bir mərtəbədə olduğunu göstərməsi onunla, özünün də bu torpaqdan olması ilə fəxr etməsi hissləri gənclər də vətənə, torpağa onun əsrarəngiz təbiətinə məhəbbət hissləri aşılayır.

"Savalan dağının tərifi" şeirində başı qarlı, adı dillər əzbəri olan Savalan dağının gözəlliyindən bəhs edir. Savalanı yaraşıqlı, füsünkar bir afətə bənzədir.

Xaqani qarlı Savalan dağını, sübhün açılmasını, qürubun gözəlliyini, əlvan şəfəqlərin, cazibədarlığını, onların yaratdığı füsunkar mənzərəni mahir bir rəssam fırçası ilə təsvir edir.

Xaqani rübailərində də təbiətin gözəlliyini vəsf edir. Məsələn "Nurlandı bu qızılgül bağ. Lalə məşəlilə qızardı çöl, dağ" (1, s. 549)

Bu Rrübaisində qızılgüllə, lalənin xüsusiyyətlərini sadalayır. Baharın gəlişilə qızılgülün tağlarını şama bənzədir. Şam hər tərəfə işıq salan kimi qızılgül də öz tağları ilə bağa xsüsusi bəzək, al-əlvanlıq gətirir. Çöldə-dağda bitən lalələr çölü, dağı bir məşələ döndərmişdi. Burada şair qızılgülün tikanlı, lalənin bağrının qara rəngdə olmasından, qızılgülün başının taclı, lalənin isə qırmızı rəngdə olmasını göstərməklə onların bitdiyi məkanlara xüsusi gözəllik verməsini əks etdirir. Oxucu qızılgülün başında tacı, lalənin isə qırmırzı rəngdə olması və onların çölə, çəmənə dağa-düzə gözəllik verməsi kimi xüsusiyyətlərilə tanış olur. Digər rübaisində bənzətmədən istifadə etməklə güllərdə olan xüsusiyyətlərin bir neçə qismini gözəlin üzərinə köçürür. Məsələn "Dodağın qönçəsi ülkərə misal, Lalənin bağrıdır üzündəki xal".Burada nigarının dodağını qızılgülün tacına, üzündəki qara xalı isə lalənin bağrına bənzədir və yaxud " Hicrində qönçətək ürəyim qandır, Barı nərgizinlə məni yada sal. (1, s.540). Burada hicrandan aşiqin ürəyinin qanını qönçənin-qızılgülün tacının rənginə bənzədir. İkinci misrada nərgizinlə yəni gözlərinlə məni yada sal deməklə sevgilisini görüşə çağırır.

Yuxarıda nümunə gətirdiyimiz rübailərində sənətkar məşuqənin gözlərini nərgizə bənzədirdisə, dodaqların, yanağındakı xalını, hicrandan ürəyinin qanını qızılgü-

lün qönçəsinə, bağrı qara laləyə, diğər rübailərində nigarını quşlarla müqayisə edir: "Sənə gül aşiqi bülbül tay olmaz, Kəklikdən, turacdan daha xoş avaz. Oynaqsan qumrudan, sarıköynəkdən, Hüsndə Tovuzdan oldun sərəvnaz". Məşuqənin səsi, xoş avazı, gözəlliyi, məlahətliliyi qızılgül aşiqi Bülbülə tay olmadığı kimi onda olan bu xüsusiyyətlər nə Turacda, nə də kəklikdə var. Qumrudan da, Sarıköynəkdən də şəndir, şuxdur, onu görən sevinir. O qədər gözəldir ki, hüsnünün gözəlliyinə Tovuz quşu da çatmaz. Göründüyü kimi bu poetik nümunələrdə şair quşlarla məşuqəni müqayisə edərək onların gözəllikləri arasında bir təzad yaradır. Bütün gözəlliklərin qadına məxsus olmasını poetik boyalarla ifadə edir. Xaqani hər bir quşun adını çəkməklə ona xas olan xüsusiyyətləri canlandırır. Bununla da şair, metaforadan istifadə etməklə oxucularını təbiətin daha başqa bir füsünkar gözəllikləri ilə tanış edir.

Ədəbiyyat

1.Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı, "Lider", 2004.

2.Ə.Şərəfli, X.Yusifli. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. "Ozan", Bakı, 1998.

3.Z.Xəlil, F. Əsgərli. Uşaq ədəbiyyatı. Bakı, ADPU, 2007.

4.B.Həsənli Azərbaycan uşaq ədəbiyyatı Müəllim, Bakı, 2005. 5.Q.Namazov Azərbaycan uşaq ədəbiyyatı, BDU, Bakı, 2007.

P.Soltanqiz

A Description of natura in Shirvani's creation

Summary

Object of reseach XII centry giant image of Azerbaijan literature Kh. Shirvani. It's a song of nature in its creativity. The poet's "Shirvan is proise", "The birds talk" and quatrain are involved in scientific reseach. Natural resources of the motherland vibrant, fertile soil, nature's charm. The beauty of the mountain Savalan, the characteristic of different roses and flowers are studied in terms of literature. The characteristic of the beauties are descried in quartain are compared with those of the natural beauty. Scientific polemics are conducted. The resercher conludes, that these works are the most interesting and meaningful poetic examples of classical Azerbaijan literature on the nature. It instills to people a felling of being protected and defend to love for the moterland, the land and nature. While analyzing the beauty of nature, the author explores in detail the image of the Motherland. Shirvan characterizes the image of the people. He studies the Savalan mountain as a symbol of Azerbaijan. In the face of birds ("Birds Speech"), justice, fairness, hypocrisy and arrogance are treated as bad. It draws on scientific analysis by talking about the landscape presented in the poet's poems and creeds.

Key words: classical, period, literature, poetics, poem, artisity, homeland, mather, labor.

П.Солтангизи

Описание природы в творчестве Хагани Ширвани

Резюме

Объектом исследования является прославление природы в творчестве великого поэта Азербайджанской Литературы Хагани Ширвани.

Стихи «Şirvanın tərifi», “Savalan dağının tərifi”, “Quşların söhbəti” и рубаи поэта привлечены в научное исследование. Природные богатства родины, плодородная почва, очарование природы, красота горы Савалан, разнообразность цветков все эти особенности исследуются литературной точки зрения. Красавицы описанные в рубаи Хагани Ширвани сравниваются с красотой природы. Проводится научное полемика. Исследователь приходить к такому выводу, что эти произведения являются самыми интересными и содержательными образцами поэтики на тему природы в Азербайджанской классической литературы. Эти произведения придают людям кроме любви к родине, к земле, к природе также чувства защиты к ним. Анализируя красоту природы, автор детально исследует образ Родины. Ширван характеризует образ людей. Он изучает гору Савалан как символ Азербайджана. В «Речи птиц» справедливость, справедливость, лицемерие и высокомерие рассматриваются как плохие. Он опирается на научный анализ, говоря о ландшафте, представленном в стихах и вероучениях.

Ключевые слова: классика, периоды, литература, поэтика, стихотворение, художество, образ, родина, мама труд

Redaksiyaya daxil olma tarixi: 20.06.2019
Çapa qəbul olunma tarixi: 16,112019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Əhmədova tərəfindən çapa tövsiyə olunmuşdur

AYGÜN ƏHMƏDOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
aygun_434@hotmail.com

TƏMSİLLƏRİN UŞAQ ƏDƏBİYYATINDA ROLU

Xülasə

Azərbaycan ədəbiyyatında təmsil janrının qədimiliyi klassik ədəbiyyatımıza maraqlı təmsilləri ilə irs qoyub gedən şairlərimizdən A.Bakıxanov, Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, M.Seyidzadə və başqa sənətkarların təmsillərilə bağlıdır**.**

Təmsil janrı əsasən nəzmlə yazılır. Dünya ədəbiyyatında nəsrlə yazılmış təmsillər də vardır. Bir fikri də qeyd etmək istərdim ki, təmsillərdəki qəhrəmanlar, (heyvan və bitkilər) insanların xüsusiyyətlərinə bənzədilmişdir. Təmsildə təbiət cisimləri və heyvanlar şəxsləndirilir – insan kimi danışdırılır. Ədəbiyyatşünaslıqda buna təxşis deyilir.

Azərbaycan uşaq ədəbiyyatında ən maraqlı janr, balacaların fikirincə, təmsil janrıdır. Müxtəlif xalq əfsanələrindən yeni deyimlərlə balaca oxucularımıza çatdıran prof. Sədnik Paşa Pirsultanlı 1985-ci ildə çap etdirdiyi "Azərbaycan xalq əfsanəsi" kitabında verilmiş "İlan məhəbbəti" və "Qu quşu" əfsanələri daha çox təmsillə bağlıdır. Bu tədqiqatın bir məsələni də üzə çıxarması diqqətdən yayınmır. Quşlarla, ilanlarla və başqa canlılarla bağlı olan əfsanələrin təmsillərlə bağlılığı çox maraqlıdır.

Açar sözlər: epik növ, təmsil, alleqoriya, "Tutinamə", milli kolorit

Təmsil-epik növün ən qədim janrlarından biridir. Epik növün ibtidai formalarından biri olan təmsil hələ qədim yunan ədəbiyyatında mövcud idi. Qədim Romada Fadr (I əsr) və qədim Yunanıstanda Ezopun (e.ə. V-VI əsrlər) nəsrlə yazdıqları təmsillər dərin məna ifadə edirdi. Fransız şairi Jan Lafonten (XVII əsr) təmsilləri "Dünya uşaq ədəbiyyatı seriyasında hər zaman oxucuların maraq dairəsində olmuşdur.

Azərbaycan ədəbiyyatında təmsil janrının qədimiliyi klassik ədəbiyyatımıza maraqlı təmsilləri ilə irs qoyub gedən şairlərimizdən A.Bakıxanov, Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, M.Seyidzadə və başqa sənətkarların təmsillərilə bağlıdır**.**

Təmsil janrı əsasən nəzmlə yazılır. Dünya ədəbiyyatında nəsrlə yazılmış təmsillər də vardır. Bir fikri də qeyd etmək istərdim ki, təmsillərdəki qəhrəmanlar, (heyvan və bitkilər) insanların xüsusiyyətlərinə bənzədilmişdir. Təmsildə təbiət cisimləri və heyvanlar şəxsləndirilir – insan kimi danışdırılır. Ədəbiyyatşünaslıqda buna təxşis deyilir.

Azərbaycan uşaq ədəbiyyatının ən maraqlı bölümü sayılan təmsil janrı uzun bir yol keçmiş və hələ də maraqlı bir şəkildə yolunu davam etdirməkdədir. Lakin bir məsələyə də toxunmaq istərdim ki, müasir şairlərimiz tərəfindən qələmə alınan təmsillərin movzu dairəsi xeyli kiçilmiş, bir qədər də xalq deyimlərindən uzaqlaşaraq şəxsi subyektdə çevrilmişdir.

Müəlliflərin fikrincə, təmsillər təkcə nəzmlə yazılır, lakin folklor janrına müraciət etdiyimizdə folklor daxilində təmsil, epik növün daxilində nəsrlə yazıldığını görürük. Demək ki, "Dünya ədəbiyyatı"nda olduğu kimi "Azərbaycan ədəbiyyatı"nda da təmsilin bəzi hallarda nəsrlə yazıldılığının sübutunu görürük. Hər bir təmsil yazan şair sonunda öz qənaətlərini və nəticələrini oxucularına göstərir, bu da əsərin əxlaqi-tərbiyəvi təsir gücünü ifadə edir.

Xalq təmsillərini xalqdan alıb yenidən nəzmə çəkmiş Q.Zakir hər məsələni olduğu kimi açıqlayır. O, "Xain yoldaşlar haqqında" təmsilinin sonunda yazır:

Müşküldü nəzm etmək hər belə nəsri,
Əhf eyləsin arif gər olsa kəsri.

Hətta, Q.Zakir "Dəvə və eşşək", "Aslan, qurd və caqqal" təmsillərini başqa bir nüsxədən, yəni yazıya alınmış nümunələrdən götürdüyünü qeyd edir.

A.Bakıxanov Krılovun təmsillərindən birini – "Eşşək və bülbül"ü tərcümə etməsəydi, bəlkə də təmsil janrına müraciət etməzdi. Onun tərcümələrindən ancaq "Eşşək və bülbül" təmsili bizə gəlib çatmışdır. Mütərcim, Krılovun təmsilini Azərbaycan dilinə sərbəst tərcümə etmişdir. O, bu tərcüməsi ilə Azərbaycan ədəbiyyatı tarixində, rus və Azərbaycan ədəbiyyatı arasında qarışıqlı əlaqəni inkişaf etdirmişdir.

Xalq ədəbiyyatı ilə yaxından tanış olan, rus xalqının zəngin danışıq dilini dərindən bilən Krılov öz təmsillərini hər kəs üçün anlaşılan canlı bir dildə yazmışdır. O, rus xalqının atalar sözlərindən, məsələlərindən, nağıllarından istifadə edərək öz təmsillərini xalq ruhuna yaxınlaşdırmışdır. Bunun nəticəsində də Krılovun bir çox mənalı, hakimanə cümlə və fikirləri artıq atalar sözü kimi rus dilinə daxil olmuşdur.

Krılovun təmsillərində iki xüsusiyyət vardır: tənqid və nəsihət. Onun təmsillərinin bir çoxu öz dövrünün ictimai nöqsanlarını, ayrı-ayrı hadisələri və tək-tək adamları tənqid edir. Məsələn, "Sazandalar" təmsilində şair, çar I Aleksandr dövründəki dövlət şurasının bacarıqsızlığını tənqid etmişdir.

Rus xalqının böyük simaları A.S.Puşkin, məşhur tənqidçi Belinski, yazıçı Qoqol və başqaları İ.Krılovun "həqiqi bir xalq sənətkarı" olduğunu qeyd ediblər. Qoqol Krılovun təmsillərini "rus xalqının hikmət kitabı" adlandırmışdır.

İvan Krılov çox çətin tərcümə olunan şairlərdəndir. Onun tərcümələri ilə məşqul olan yazarlardan biri yazırdı ki: "Krılov orjinal bir şair olduğu üçün o, rus şairlərinin hamısından daha çətin tərcümə edilir. Onun təzadlarında, kəskin və qısa satirasında, duzlu-məzəli sözlərində, şeiriyyətində elə gözəlliklər var ki, onları nəsrlə belə

eynən vermək mümkün deyildir". Bu çətinliyin əsil səbəbini Abbas Səhhət Krılovun təmsillərinin milli koloritə malik olması ilə izzah edirdi.

Təmsil janrı, Abbas Səhhət yaradıcılığının bir qismini təşkil edir. Dövrünə görə geniş miqyaslı beynəlxalq münasibətlərin inkişafı tərcümə ədəbiyyatının mühüm xüsusiyyətlərindən biridir. Abbas Səhhət milli məhdudlardan uzaq olub, daima başqa xalqların ədəbi-estetik dünyasına bağlı olan, xüsusilə bədii sözün gücünə dəyər verən yazıçı olmuşdur.

Abbas Səhhətin, İvan Krılovdan etdiyi tərcümələr balaca oxucuların maraq dairəsində hər zaman olmuşdur. "Zəhmətkeş ayı", "Qazlar", "Balıq, ördək və xərçəng", "Cütçü və ilan", "Fil və alabaş", "Qurd və quzu", "Sazandalar", "Qaraquş və arı", "Göl və çay". Müəlllifin, İvan Krılovdan etdiyi bu tərcümələrdə, balaca oxucularda heyvanlar aləminə qarşı zəngin bir mənzərənin tablosunu yaradır. İstər Abbas Səhhətin əsərlərində, istərsə də tərcümə ədəbiyyatında əsasən bir məqsəd qarşıya qoyulur: düz olmaq, doğru olmaq, adam aldatmamaq, zülüm etməmək, yoxsula əl tutmaq.

Abbas Səhhətin Krılovdan tərcümə etdiyi "Sazandalar", ("Kvartet") təmsilinin ruhu Azərbaycan həyatına və uşaqlarımızın zövqünə uyğun olduğu üçün, hələ də ədəbiyyatımızda öz marağını və yerini qorumaqdadır.

İvan Krılovdan tərcümə etdiyi "Kvartet" təmsilini Abbas Səhhət balaca oxucularının zövqünə müvafiq bir şəkildə uyğunlaşdırmışdı. Və bu uyğunluğun nəticəsində də sələflərindən nə qədər irəli getdiyini görürük. Lakin, R.Əfəndiyevin İ.Krılovun bu təmsilini Abbas Səhhətdən on bir il əvvəl tərcümə etməsinə baxmayaraq, əsəri bədii yüksəkliyə qaldıra bilməmişdir.

A.Bakıxanov və Q.Zakirlə başlayan yeni təmsil janrını S.Ə.Şirvani davam etdirmiş, yaşadığı mühitin qanunsuzluqlarını və tərbiyə ilə bağlı 12-dən çox təmsil müəllifi olmuşdur.

Eləcə də, M.Ə.Sabirin, A.Səhhətin təmsilləri və tərcüməsi uşaq ədəbiyyatının danılmaz nümunəsi sayılır.

Azərbaycan uşaq ədəbiyyatında ən maraqlı janr, balacaların fikrincə, təmsil janrıdı. Müxtəlif xalq əfsanələrindən yeni deyimlərlə balaca oxucularımıza çatdıran prof. Sədnik Paşa Pirsultanlı 1985-ci ildə çap etdirdiyi "Azərbaycan xalq əfsanəsi" kitabında verilmiş "İlan məhəbbəti" və "Qu quşu" əfsanələri daha çox təmsillə bağlıdır. Bu tədqiqatın bir məsələni də üzə çıxarması diqqətdən yayınmır. Quşlarla, ilanlarla və başqa canlılarla bağlı olan əfsanələrin təmsillərlə bağlılığı çox maraqlıdır.

Uşaq ədəbiyyatı mütəxəssisləri təmsil janrında apardıqları tədqiqat işlərində müxtəlif mövzulara toxunsalar da, bir şeyi unudurlar ki, hər bir təmsildə insan idrakından doğan tərbiyəvi cəhət bütün mövzuları əhatə edir və öz yerini tapır. Bu janrın mühüm xüsusiyyətlərindən biri şəxsləndirilmədir. Təbii ki, bu heyvanlara, bitkilərə, əşyalara istinad olunur. İnsanlarda bəzi hallarda təmsillərdə rol alır.

Təmsildə alleqoriya üstündür və dili sadə, konkret olmaqla bərabər, dərin satirik məzmun ifadə edir. Alleqoriya təmsilin əsasını təşkil edir, lakin alleqoriyanın ol-

duğu bütün əsərlər təmsil hesab edilmir. Əsərdə bədii gülüşdən istifadə edilir və nəsihətamiz fikirlər ifadə olunur. Təmsilin ya əvvəl, ya da sonu kiçik əxlaqi-didaktik fikir ifadə edən hissədən ibarət olur.

Təmsil, əsasən, nəzmlə olur. Bəzən nəsrlə də yazılır. Nəzimlə olan təmsillər, adətən, məsnəvi şəkildə qafiyələnir.

Ədəbiyyat nəzəriyyəçilərinə görə təmsil müstəqil, saf janr deyil, lirik, epik, dramatik növlərin ünsürlərindən yaranan bir janrdır. Ona görə də təmsili hekayəyə bənzədirlər. Təbii ki, əfsanələrində burada rolu çox böyükdür. Əslində isə təmsilin folklordan gəldiyinə, rişəsini əfsanələrdən aldığına görə daha çox nəqil formasındadır.

Bu ədəbi forma, bir janr kimi üslubu, tələbləri, spesifik tematikası və surətlər aləmi ilə ictimai məfkurənin dünyaca rəğbətini qazanmışdır.

Cəmiyyətin mənəvi kasadlığının, naqisliyinin aradan götürülməsi üçün təmsil fəlsəfi-bədii düşüncə sahiblərinin əlində eyham və heyvanların şəxsləndirilməsi yolu ilə insani keyfiyyətləri, bəşəri ideyaları təbliğ silahı olmuşdur.

Təmsil janrının ayrıca janr kimi formalaşıb, xüsusi mövqe qazanmasında şifahi təmsil təcrübəsi, yazılı ədəbiyyatla müştərək əlaqəsi əsas rol oynamışdır. Öz ədəbi-bədii, əxlaqi-mənəvi dəyərlərini Şərq ədəbiyyatında "Kəlilə və Diminə", Z.Nəxşəbinin "Tutinamə", S.Nəsəfinin "Heyvanatnamə" kimi əsərlərində təzahür etdirən təmsil, Qədim Şərqin müdrik fəlsəfi düşüncə tərzini özündə ehtiva etmişdir.

Azərbaycan ədəbiyyatı tarixinin izlənməsi göstərir ki, XX əsrin 60-cı illərində umumi Azərbaycan ədəbiyyatında o cümlədən ədəbi mühitdə bir dəyişikliklər baş verdi. Yeni ruhlu fikirlər, balaca oxucularını özünə cəlb etməyə başladı.

Uzun zaman oldu ki, təmsil janrında bir durğunluq vardı. Klassik ədəbiyyata müraciət, klassik ədəbiyyatdan bəhrələnmək, müasir uşaq ədəbiyyatı üçün bir böhran idi. Hikmət Ziya yaradıcılığında təmsil janrına müraciət, bu böhrandan yaxa qurtarmaq demək idi.

Hikmıt Ziya yaradıcılığı Azərbaycan uşaq ədəbiyyatında müasir təmsil janrını zirvəyə qaldıran bir yaradıcılıqdır. Maraqlı təmsilləri ilə müasir uşaq ədəbiyyatında yerini bəlli edən Hikmət Ziyanın 400-dən çox təmsili var. Onun təmsillərində əliəyrilər, yaltaq və ikiüzlülər satira atəşinə tutulur. Qısa təmsillərinin əksəriyyəti öz ədəbi taleyi olan, həyat və insan haqqında yazılmış əsərləridir. Bu təmsillər fəlsəfi ümumiləşdirmələr yolu ilə nəticələnəndə daha maraqlı olur.

Xalq yazıçısı Mirzə İbrahimovun, Hikmət Ziyanın təmsillərinə yüksək dəyər verməsi onun bu sahədə fəallığını daha da artırmışdır. Böyük rus təmsilçisi İvan Krılovun təmsillərini dilimizə ustalıqla tərcümə edən Hikmət Ziya bu janrın sirlərinə yaxından bələd olduqca daha gözəl təmsillər yazmağa başlamışdır. Təsadüfi deyil ki, görkəmli alim, şair Sergey Mixalkov şairə vurduğu teleqramda onu "əla təmsilçi" adlandırmışdır. Şairin təmsillərini təhlil edən, onlara yüksək dəyər verən ədəbiyyatşünaslar onu "müasir Azərbaycan təmsilinin Krılovu" adlandırmışdır.

Azərbaycan uşaq ədəbiyyatında müasir dövr təmsil janrı tək Hikmət Ziya ilə bitmir. Bir-birinin ardınca maraqlı təmsilləri ilə ədəbiyyata daxil olan şairlərdən Manaf Manafov, Vaqif Hüseynov, Şəkər Aslan, Əlisa Nicat, Həbib Səfərov, İltifat Saleh, Hücətulla Məmmədov, Camal Yusifzadə kimi şairlərin müasir təmsil janrında rolunu görürük. Hörmətli müəliflərin çox maraqlı dinamik dəsti- xətləri var.

Azərbaycan uşaq ədəbiyyatına yeni ədəbi mühitin gəlməsi təmsil janrının canlanmasına və geniş oxucu kütləsi qazanmasına səbəb oldu. Bu orjinal üslublu yaradıcı qələm sahibləri arasında və ədəbi mühitində nəzərə çarpan, təmsil janrında maraqlı mövzulara toxunan istedadlı qələm sahibi Manaf Manafovdur.

Müəllifin təmsilləri "Mərmərin göz yaşı" adlanan kitabında toplanmışdır. Çox təəsüflər olsun ki, müəllifin ölümündən sonra bu kitab ərsəyə gəlmişdir. Onun qəhrəmanları sələflərində olduğu kimi normal cəmiyyətə yad ünsürlərdir. Şöhrət arzusuna tutulanlar, vəzifə düşgünləri, əliəyrilik, sərvətə hərislik, özünə müştəbehlik, gerilik, nadanlıq şairin tənqid hədəfi idi.

Ədəbiyyat nəzəriyyəçilərinə görə təmsil müstəqil, saf janr deyil, lirik, epik, dramatik növlərin ümumi xırdalıqlarından yaranan bir janrdı. Təmsillərin yaranmasında mövzunun aktuallığı çox mühümdür. Çox vaxt təmsilin mahiyyətini başa düşməyən və ya başa düşmək istəməyən hər hansı bir oxucu (yaş fərqi yoxdur) təmsili əfsanəyə və nağıla bənzədirlər. Lakin bu belə deyil. Əslində isə təmsil folklordan gəldiyinə, məqsədini əfsanələrdən aldığına görə daha çox nəqli formadadır. Məsələn, folklorşünas alim Sədnik Paşa Pirsultanlının uzun illərdən bəri apardığı, (təmsil mövzusunda) tədqiqat işində maraqlı təmsil janrlarını ədəbiyyata gətirmiş və 1992-ci ildə nəşr edilmiş və "Azərbaycan xalq söyləmələri" kitabına daxil edilmişdir. Kitaba daxil edilmiş təmsillərin üzərində hörmətli professorumuz zamanın tədqiqat möhrünü vurmuşdur.

"Azərbaycan xalq söyləmələri" kitabına daxil olan yeni təmsillər də cəmiyyətdə yaramaz insanların eyiblərini heyvanların və bitkilərin timsalında müxtəlif hərəkət və danışıqlar vasitəsi ilə ədəbiyyata yeni tərzdə əlavə etmişdir.

Təmsillərdə səxsləndirmək klassik təmsilçilərdən qalmış bir forma roludur. Bu rolda iştirak edən hər bir obraz çox nadir hallarda mənfi və ya müsbət obraza çevrilə bilir. Məsələn, Ayı xarakter cəhətdən eynidir, tülkü hiyləgər, çaqqal və canavar ac-yalavac, qoyun axmaq, it sadiq, at və dəvə isə müdrik şəkildə şəxsiyyətləndirilmişdir.

Müasir təmsil ustadlarının qələmə aldıqları yeni təmsil mövzuları, xeyli kiçilmiş, bir qədər xalq deyimlərindən məsələn "atalar sözləri"ndən, uzaqlaşdırılmış və şəxsi subyektə çevrilmişdir. Lakin burada əhəmiyyətli cəhət odur ki, hər bir təmsil yazan şair sonda öz qənaətlərini və nəticələrini ifadə edir ki, bunlar da təmsilin əxlaqi-tərbiyəvi təsr mövzusunu gücləndirir.

Manaf Manafovun yaratdığı təmsillər ictimai-əxlaqi təsirə malik olması ilə diqqət çəkir. Təmsil janrının maraqlı mövzularını müasir ədəbiyyata gətirən şair, Manaf Manafov təsadüfi hadisələri qələmə almamışdır. Butün əsərlərində fikrini maraqlı

şəkildə ifadə edən şair artıq açıqlamalardan istifadə etmir. Ən maraqlı düşüncəni və fantaziyanı oxucu qarşısına çıxarır. Şair yaradıcılığında təmsilin həcminin böyük və ya xırda olmasına diqqət yetirmir, onu yalnız kompazisiya maraqlandırır. Oxucusunun qarşısına yeni bir mövzu səhnəsi açır və onun fikirlərini dinləmək istəyir. Kompazisiya yaradaraq, yumora, yumşaq təbəssümə, rişxənd və satiraya nail olur.

Təmsilçiliyin mürəkkəbliyi müəllifdən vətəndaş cəsarəti ilə yanaşı, incə düşüncə tərzi tələb edir. Obrazların təmsildə düzgün seçilməsi və oxucu kütləsinin zövqünü oxşaması üçün cəmiyyət şairdən böyük istedad tələb edir.

Vətənini sevən, onun dərdlərinə sahib çıxan Manaf Manafov "Sapı özümüzdən olan baltalar"ın varlığı şairi düşündürməyə bilməzdi. Narahatlığını gizlətməyən şair, yaşadığı dövrünə qarşı düşüncə tərzini, ədəbiyyata gəldiyi və dünyasını dəyişdiyi günə qədər heç dəyişmədi.

Xatirələrinin birində maraqlı bir söhpət məqamına toxunaraq yazırdı: - "Yüksək iş adamlarından biri məclislərin birində mənə sual verdi: - Bu təmsillərini yazmaqla nə demək istəyirsən?

Mən ona belə cavab verdim: "Məndən qabaq yazan sələflərimin yarımçıq qalan mövzularını tamamlayıram". Vaxtsız ölüm onun qələmini susdursa da, oxucu kütləsini və onun təmsillərinə olan marağını azalda bilmədi.

Folklor motivlərinə müraciət etməsi Manaf Manafovun yaradıcılığının məhsuldar hissəsidir. Məhsuldarlıq təkcə əsər yazmaqla sayılmır, bu bütün ədəbiyyatlarda belədir. Ən əsası odur ki, mənəvi və mədəni təfəkkürü əsərlərdə qoruyub saxlaya biləsən. Xalq təfəkkürlərini hər zaman əsərlərində qoruyub saxlayan müəllifin, ağız ədəbiyyatına müraciəti danılmaz və yadda qalandı. "Ot bitər kökü üstə", "Cidanı çuvalda gizlətmək olmaz" kimi xalq deyimləri, Manafov yaradıcılığının maraqlı hissəsidir.

Bir çox əsərlərdə məzmun və mənzərə motivləri çox zəyif yazılır. Bunu dərk edən oxucu kütləsi yavaş-yavaş müəllifdən uzaqlaşır. Təmsil janrında maraqlı hissə mövzunun aktual, məzmunun isə yadda qalan və mənalı olmasıdır. N.A.Nekrasov yazırdı:-"Az sözlə, musiqili və dinamik ifadələrlə düşünmək, insana təsir edə bilmək istedadın səciyyəvi əlamətlərindəndir". Bu konteksden yanaşanda Manaf Manafovun təmsillərində istedadın, belə səciyyəvi əlamətlərini görməmək mümkün deyil. "Mərmərin göz yaşı" adlanan təmsil də müəllif ideyası bu baxımdan çox güclüdür.

Qara mərmərdən idi
Bir cahilin baş daşı.
Gecə-gündüz mərmərin
Hey axırdı göz yaşı.

Bu bənd dərin məna, forma və məzmunu, bədii portret qurluşunu əks etdirməsi ilə yanaşı, əxlaqi-mənəvi dəyəri ilə də seçilir. Müəllif bu təmsilində nadanlığı və cahilliyi örtülü şəkildə deyil, açıq tərzdə tənqid edərək, ətrafımızda olan dəyərsiz insanları mərmərin dilindən tənqid etmişdir. Təbii ki, bu əsərdə rəmzilik, simvolika var. Qiymətli daşın öz qiymətini ala bilməməsi və gücsüzlüyünə ağlaması çox ibrətamizdir.

Obrazları, həyatdan, real faktlardan alan ölməz şairimiz, əxlaqi və mənəvi dəyərləri qiymətləndirərək, dördlük təmsili zənginləşdirmişdir. Bəllidir ki, Azərbaycan uşaq ədəbiyyatında qısa təmsil anlayışı Hikmət Ziyanın, dördlüklə təmsil yaratmaq ənənəsi isə Çərkəs Quliyevin (Qacar) adı ilə bağlıdır.

Manaf Manafovun təmsil janrında ədəbiyyata bəxş etdiyi müxtəlif tənqidi əsərləri Azərbaycan uşaq ədəbiyyatının tərbiyəvi əhəmiyyət daşıyan, danılmaz və yadda qalan müasir nümunələridir.

İstifadə olunmuş ədəbiyyat

1. Abbas Səmədov. “Professor Sədnik Paşa Pirsultanlının elmi-nəzəri ideyası”. Bakı, “Azərnəşr”, 2012, s.770
2. S.P.Pirsultanlı. “XXI əsrdə Azərbaycan folklorundan incələmələr”. Gəncə-2011, s.125

Ахмедова А.Ш.

Роль басен в детской литературе

Резюме

Древность басенного жанра в азербайджанской литературе связана с баснями наших поэтов А.Бакиханова, Г.Закира, С.А.Ширвани, М.А.Сабира, А.Саххата, А.Шаига, М.Сеидзаде и других мастеров, оставивших своими интереснымии баснями след в нашейклассическойлитературе.

Жанр басни излагается преимущественно поэзией. В мировой литературе встречаются также образцы, написанные прозой. Хотелось бы отметить, герои в баснях (животные и растения) по своим особенностям похожина людей. В баснях явления природы и животные становятся личностью – они говорят как люди. В литературоведении это называется «техшис».

Наиболее интересным жанром в азербайджанской детской литературе, по мнению детей, является жанр басни. Легенды «Змеиная любовь» и «Лебедь», опубликованные в 1985 году в книге профессора Седник Паша Пирсултанлы «Народная легенда Азербайджана», доводящей до наших маленьких читателей новые мысли из разных народных легенд, более всего связяны с баснями. Данное исследование выявляет еще одну особенность. Представляется очень интересной связь легенд о птицах, змеях и другой живности с баснями.

Ключевые слова: эпическийтип, басня, аллегория, «Тутинаме», национальный колорит

Ahmadova A.Sh.

The role of fables in children's literature

Summary

The antiquity of the genre of fables in Azerbaijani literature is related to the fables of our poets - A.Bakikhanov, G.Zakir, S.A Shirvani, M.A Sabir,A.Sahhat, A.Shaik, M.Seyidzade, who inherited interesting examples in our classical literature.

The genre of the fables is written primarily in the poetry. There are also prose – related fables in world literature. I would like to point out that the characters in the fables (animals and plants) are similar to the characteristics of humans. In the fables natural objects and animals are personalized - they are spoken as human beings. In literary criticism it is called deduction.

The most interesting genre in the Azerbaijan children's literature, as children think is the genre of fables. The legends of "Love of the Snake" and "the Swan", published in 1985 in the book "Azerbaijani Folk Legend" by Prof. Sadnik Pasha Pirsultanli who conveys from various folk legends with new sayings to our little readers, are more closely related to the fables.This research also reveals an issue. The legends associated with birds, snakes and other creatures related to the fables are very interesting.

Key words: epic type, fable, allegory, "Tutinama", national coloring

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 12,11.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Pərixanım Soltanqızı Hacıyeva tərəfindən çapa tövsiyə olunmuşdur

ZƏRİFƏ AVİLOVA
Filolofgiya üzrə fəlsəfə doktoru, dosent
ZƏRİFƏ MƏMMƏDOVA
Filolofgiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Tibb Universiteti
Səməd Vurğun küçəsi
zarifa@mail.ru

İSLAMDA ELM, BILIK, ƏXLAQ VƏ MƏNƏVIYYAT

Dinin əsas məqsədi əxlaqdır
M.F.Axundov

Xülasə

"Əxlaq" və "mənəviyyat", demək olar ki, bir-birinə yaxın mənalı sözlərdir, sinonimdir. Əxlaq - ərəb sözüdür, lüğəti mənası insanın mənəvi keyfiyyətini , əhvali-ruhiyyəsini müəyyən edən etik normalardır.

Əxlaq eyni zamanda ictimai şüur formalarından biridir, ictimai həyatın bütün sahələrində məişət, ailə, əmək, elm, siyasət və s. sahələrdə insanların davranışını tənzim edən etik normalardır, Deməli, əxlaq insanların öz davranışlarında rəhbər tutduqları prinsip, norma və qaydalardır, və onların həyatda bir-birinə - ailəyə, əmək kollektivinə, millətə, bütövlükdə cəmiyyətə olan münasibətinin ifadəsidir.

Mənəviyyat da ərəb sözüdür, insanın mənəvi keyfiyyətləri, normaları, yüksək əxlaqı deməkdir.

Bu bir danılmaz faktdır ki, dünyanı yaradan o, tək olan bir Allahdır. Mənəviyyat (əxlaq) isə Allah tərəfindən insana bəxş edilən əzəli xüsusiyyətlərdəndir. Xaliq bizi insan təbiətinə xas olan bəzi cəhətləri qəbul etməyə, bəzilərini isə rədd etməyə sövq edir. Müxtəlif adamların mənəviyyat cəhətdən bir-birindən fərqlənmələrinə baxmayaraq, insanlar bütün dövrlərdə onlara xas olan bəzi cəhətləri müsbət, bəzi cəhətləri isə mənfi qiymətləndiriblər. Bu da danılmaz bir faktdır ki, bəşər tarixinin bütün mərhələlərində doğruluq, sədaqət, ədalət, əhdə vəfa və bu kimi əxlaqi keyfiyyətlər mədh olunub. İnsanlar lap qədim zamanlardan yalanı, namərdliyi, satqınlığı pisləmişlər. Bir sözlə, yalnız səmimi,sözlərinə sadiq adamlar həmişə bəşəriyyətin dayağı hesab edilmişlər. Məlum olur ki, mənəvi-əxlaqi həqiqətlər dəyişməzdir və bəşəridir. Xeyir, şər anlayışları insanlara əzəldən məlumdur.

Allah insana bu hissləri anadangəlmə bəxş edib. Buna görə də Qurani Kərimdə xeyir, "məlum", şər isə "naməlum" adlandırılır. Bu o deməkdir ki, "məlum" insanların bildikləri və arzuladıqları bir şeydir Bundan fərqli olaraq, "naməlum" insanlar tərəfindən rədd edilir, onlara nifrətlə yanaşılır.

Allaha və Qiyamət Gününə sidq ürəkdən inam sayəsində İslam adamların qəlbində halal zəhmətə qatlaşmağa vadar edən bir qüvvə yarada bilir.

İslam əxlaqı hamını xeyirxahlığa, yaxşı işər görməyə və insanların nifrətinə səbəb olan, onlar tərəfindən rədd edilən pis işlərdən əl çəkməyə dəvət edir.

İslam yer üzünün bütün millətlərini buna çağırır. Bu dəvəti qəbul edənləri İslam öz bayrağı altında birləşdirib, müsəlman cəmiyyəti yaradıb. Bu cəmiyyətin yaradılmasında məqsəd insanların birgə gücünü, imkanlarını yaxşılığa yönəltmək, xeyirxahlığı mühafizə edib, onu yaymaq, eyni zamanda, hər hansı bir pis əməlin qarşısını almaqdır.

Açar sözlər: Allah Qurani-Kərim, ictimai şüur, davranış, cəmiyyət, mənəviyyat, bəşər tarixi

"Əxlaq" və "mənəviyyat", demək olar ki, bir-birinə yaxın mənalı sözlərdir, sinonimdir. Əxlaq - ərəb sözüdür, lüğəti mənası insanın mənəvi keyfiyyətini , əhvali-ruhiyyəsini müəyyən edən etik normalardır. Məsələn: Nizaminin nəzmə çəkdiyi siyasətnaməsi bir əxlaq dərsidir (M.S.Ordubadi)

Əxlaq eyni zamanda ictimai şüur formalarından biridir, ictimai həyatın bütün sahələrində məişət, ailə, əmək, elm, siyasət və s. sahələrdə insanların davranışını tənzim edən etik normalardır, Deməli, əxlaq insanların öz davranışlarında rəhbər tutduqları prinsip, norma və qaydalardır, və onların həyatda bir-birinə - ailəyə, əmək kollektivinə, millətə, bütövlükdə cəmiyyətə olan münasibətinin ifadəsidir. Əxlaqın ilk rüşeymləri ibtidai icma quruluşunda yaranmışdır. Sonralar əxlaq fəlsəfi bilik sahəsində etikanın predmetinə çevrilmişdir.

Mənəviyyat da ərəb sözüdür, insanın mənəvi keyfiyyətləri, normaları, yüksək əxlaqı deməkdir. Məsələn:

... O kəslər ki, müəllimlik kimi şərəfli bir xidməti tərk edib, qeyri peşə dalisinca gediblər, mənəviyyat cəhətincə öz əhdü – peymanlarını şikəst ediblər... (F.Köçərli).

İndi isə İslam dinində əxlaq və mənəviyyatın necə təhlil edilməsi və yaxud necə yer tutması haqqında fikirlərimizi izah edək.

Bu bir danılmaz faktdır ki, dünyanı yaradan o, tək olan bir Allahdır. Mənəviyyat (əxlaq) isə Allah tərəfindən insana bəxş edilən əzəli xüsusiyyətlərdəndir. Xaliq bizi insan təbiətinə xas olan bəzi cəhətləri qəbul etməyə, bəzilərini isə rədd etməyə sövq edir. Müxtəlif adamların mənəviyyat cəhətdən bir-birindən fərqlənmələrinə baxmayaraq, insanlar bütün dövrlərdə onlara xas olan bəzi cəhətləri müsbət, bəzi cəhətləri isə mənfi qiymətləndiriblər. Bu da danılmaz bir faktdır ki, bəşər tarixinin bütün mərhələlərində doğruluq, sədaqət, ədalət, əhdə vəfa və bu kimi əxlaqi keyfiyyətlər mədh olunub. İnsanlar lap qədim zamanlardan yalanı, namərdliyi, satqınlığı pisləmişlər. Bir sözlə, yalnız səmimi,sözlərinə sadiq adamlar həmişə bəşəriyyətin da-

yağı hesab edilmişlər. Məlum olur ki, mənəvi-əxlaqi həqiqətlər dəyişməzdir və bəşəridir. Xeyir, şər anlayışları insanlara əzəldən məlumdur.

Allah insana bu hissləri anadangəlmə bəxş edib. Buna görə də Qurani Kərimdə xeyir, "məlum", şər isə "naməlum" adlandırılır. Bu o deməkdir ki, "məlum" insanların bildikləri və arzuladıqları bir şeydir Bundan fərqli olaraq, "naməlum" insanlar tərəfindən rədd edilir, onlara nifrətlə yanaşılır.

İslam elə bir bilik mənbəyidir ki, hər bir şəxs onun sayəsində insan mənəviyyatı üçün ən vacib olan təmkinlilik, mətinlik,ədalətlilik, səxavətlilik kimi yüksək keyfiyyətləri özündə əxz edir.

İslam mənəviyyatı çərçivəsində Allah xofu elə bir təsir qüvvəsinə çevrilir ki, bütün kənar təsirlərdən azad edir, əxlaq normalarına uyğun yaşamağa vadar edir (1, 3-20).

Allaha və Qiyamət Gününə sidq ürəkdən inam sayəsində İslam adamların qəlbində halal zəhmətə qatlaşmağa vadar edən bir qüvvə yarada bilir.

İslam hər hansı bir naməlum mənəviyyat və ya əxlaq təbliğ etmir. İslam hər hansı bir əxlaq qaydasını həyata uyğunlaşdıraraq, bu qaydanı harada və necə həyata keçirməyi öyrədir.

İslam əxlaqı hamını xeyirxahlığa, yaxşı işər görməyə və insanların nifrətinə səbəb olan, onlar tərəfindən rədd edilən pis işlərdən əl çəkməyə dəvət edir.

İslam yer üzünün bütün millətlərini buna çağırır. Bu dəvəti qəbul edənləri İslam öz bayrağı altında birləşdirib, müsəlman cəmiyyəti yaradıb. Bu cəmiyyətin yaradılmasında məqsəd insanların birgə gücünü, imkanlarını yaxşılığa yönəltmək, xeyirxahlığı mühafizə edib, onu yaymaq, eyni zamanda, hər hansı bir pis əməlin qarşısını almaqdır(2 səh 3-37).

İndi isə dediklərimizi əsaslandırmaq üçün "Qurani-Kərim"dən, hədislərdən və başqa mənbələrdən seçdiyimiz nümunələrə nəzər salaq:

Biz yeri, göyü və onlar arasında nə varsa, hamısını əyləncə üçün yaratmadıq, onları biz hikmətlə yaratdıq.

Birinin suyu çox şirin, digərininki isə olduqca şor olan iki dənizi qovuşduran, aralarına keçilməz pərdə-sədd qoyan Odur – Allahdır.

"Qurani-Kərim"dən

Allahı sevmək Allahın əmrinə əməl etməkdir. *"İncil"dən*

Oyat bizi, ey Yaradan, sənin ləyəm,
Ya bilmərrə yatırt bizi,
Ya bilmərrə oyat bizi,
Ya yenidən yarat bizi. *(M.Araz)*

Kainatdakı ən kiçik zərrədə də Allahın varlığını görə bilərik. Bizim varlığımız da onun sayəsindədir. *(İbn Sina)*

Hətta yarpaqlar arasında oxuyan bir quşcığaz da Tanrının varlığını sübut edir və özünəməxsus bir şəkildə Ona ibadət edir. (*Viktor Hüqo)*

Din Tanrının buyurduqlarını həyata keçirmək üçün bir vasitədir. (*İ.Kant)*

Qılıncla canı bədəndən ayırmaq olar, amma imanı beyindən silmək olmaz. (*İ.Kant)*

İnsanda ən müqəddəs hiss imandır. (*F.Hart)*

Əbədi möcüzə:

İlahi sifətlərin bu aləmdə üç təcəlligahı – zahir olan, görünən tərəfi vardır:

Quran, Kainat və İnsan.

Quran ilahi sifətlərin kəlmadakı, **kainat** isə feldəki təzahürüdür. Digər bir ifadə ilə Qurani-Kərim kəlam şəklinə bürünmüş bir kainat deməkdir. **İnsan** isə kainatın özü və xülasəsi mahiyyətindədir.

Qurani-Kərim qiyamətə qədər davam edəcək inkişaf səviyyəsini, həqiqətləri, sirr və hikmətləri özündə əhatə edir. Bu baxımdan bəlağəti və digər bütün xüsusiyyətləri ilə bir bənzərinin gətirilməsi bəşər gücünün fövqündə misilsiz bir möcüzədir.

Özünü ilahi pəncərədən seyr etmək istəyən bir insan Quranı qəlb gözü ilə və təqva dərinliyi ilə oxumağa oxumağa səy göstərməlidir. Çünki yaradılış hikmətini idrak edib insanlıq, şərəf və heysiyyətinə layiq bir həyat yaşamaq ancaq Quranın bəyanlarına tabe olmaqla mümkündür.

Peyğəmbərimiz (s.ə.s) cahil və ümmi bir cəmiyyətdə dünyaya gəldi. Fəqət ilahi tərbiyə altında yetişib **Qurani-Kərimin** canlı bir təfsiri olaraq yaşadı. Bir qan gölü halına gəlmiş olan bədəvilik çöllərini bunun sayəsində fəzilətlər mədəniyyətinə çevirdi. Nəfsani – şəhvəti hislərə, ehtirasa aid olan bataqlıqları üxrəvi – axirətə mənsub olan həyəcanlarla bir məna gülüstanına çevirdi. Ümmətinə ən uca əxlaqı təlim etdi. Verdiyi hikmət və həqiqət dərsləri ilə insanlığa göndəriliş məqsədilə də bütün varlıq aləminə rəhmət oldu…

“Biz Qurandan möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil edirik. O, zalımların (kafirlərin) **ancaq ziyanını artırır”** (İsra, 82).

“Bu, (Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə) **heç bir şəkk-şübhə olmayan, müttəqilərə** (Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə) **doğru yol göstərən Kitabdır”** (Bəqərə, 2).

Mərhəmət təsəllisi

Qurani-Kərim Rəbbimizin axırzaman insanına ən böyük hədiyyəsidir. İlahi imtahanlarla dolu cahan məktəbinin dərs kitabıdır. Haqq dərgahından insanlığa son mesaj və son çağırışdır…

Allah-Təala bizlərə Qurani-Kərimi yaradılış məqsədimizi idrak etməmiz, insanlıq şərəfi və heysiyyətinə görə yaşamağımız, zəvilətdə zirvələçməyimiz, kainatdakı ilahi qüdrət və əzəmət təcəllilərinə aşina ola bilməyimiz və nəhayət, iki cahan səadətinə qovuşmağımız üşün bəxş etdi. Yəni Qurani-Kərim Allah-Təalanın biz qullarına bəxş etdiyi nemət, şərəf və izzətin ən alisidir(3 səh 3-8).

Ayeyi-kərimədə buyurulur:

"(Ey insanlar!) Sizə Rəbbimizdən bir öyüd nəsihət, ürəklərdə olana (cəhalətə, şəkk-şübhəyə, nifaqa) bir şəfa, möminlərə hidayət və mərhəmət (Quran) gəlmişdir!" (Yunus, 57).

İlahi fərman

-Qurani-Kərim bütün insanlığa göndərilən ilahi hidayət və səadət məktubudur.

1. O, ruha hüzur verən sonsuz feyz mənbəyidir.

2. O, qiyamətə qədər davam edəcək bəyan möcüzəsidir.

3. Yenə o, ölüm ürpətisini sonsuz bir üslət həyəcanına çevirən bənzərsiz ilahi fərmandır.

Hər hərfi min möcüzə

Quran muradi-ilahini ifadə edir. Onun hər hərfində min bir möcüzə

cizlidir. Kim Qurana dahya yaxındırsa, Allaha daha yaxındır. Allaha yaxın olan da Quranın hikmətinə və sirlərinə nail olur, təfəkkürü dərinləşir, təqva üzrə yaşayır. Təqva üzrə yaşayana da Allah sətirlərdə olmayanı öyrədir. Ayeyi-kərimədə belə buyurulmuşdur:

"…**Allahdan qorxun! Allah** (ehtiyacınız olan şeyləri) **sizə öyrədir…**" (Bəqərə, 282).

Sirr və hikmət xəzinəsi

Qurani-Kərim təfəkkür dünyasının dərinliklərinə açılan möhtəşəm bir qapıdır. Yerin-göyün dilidir. Qanayan ruhlara şəfa, yorğun qəlblərə səfa bəxş edən ilahi sirr və hikmətlər xəzinəsidir.

Quran ilə məşğul olma bəxtiyarlığı

Rəsulullah bir gün məscidə girəndə halqa halında oturmuş iki qrupla qarşılaşdı. Qruplardan biri Qurani-Kərim oxuyur və Allah Təalaya dua edirdi. Digəri isə elm öyrənir və öyrədirdi. Bunu görən Nəbiyyi-Möhtərəm:

"Bunların hamısı xeyir üzrədirlər. Bunlar Qurani-Kərimi oxuyur və Allah-Təalaya dua edirlər. Allah istəsə, onlara (uistədiklərini) verər, istəsə verməz. Digərləri də eln öyrənib öyrədirlər. Mən ancaq də bir müəllim olaraq göndərildim" – deyə buyurdu və dərhal elmlə məşğul olanların yanında oturdu" (İbn Macə, Müqəddimə, 17).

Hər Ayə təfəkkürə dəvətdir

Bənzərsiz bir hidayət və səadət rəhbəri olan Qurani-Kərim ilk ayəsindən son ayəsinə qədər insanı davamlı təfəkkürə dəvət edərək yaradılışındakı hikmətləri, kainatdakı möcüzəvi nizamı və Qurani-Kərimin bir bəyan möcüzəsi olduğunu düşünmə-

sini istəyir. Yenə Qurani-Kərim "**Dərk etmirsinizmi, təfəkkür etməzsinizmi, ibrət almazsınızmı**" kimi ifadələrlə insanları xəbərdar edər. Xüsusilə, insanlıq heysiyyətinə layiq bir şəkildə yaşamaq, ruhən dərinlik qazanmaq istəyən hər kəs Qurani-Kərimin istiqamətləndirdiyi bu təfəkkür dünyasına girmək məcburiyyətindədir (4 səh 3-80).

Ən bərəkətli torpaq

İnsanın mənəvi quruluşuna qüdrət əli ilə səpilmiş qüdsi istedad toumları vardır ki, o toxumlar baharınm əlvan rənglərini və gözəlliklərini meydana çıxarmaq üçün iman və Quran feyzlərini gözləyər.

Zərrə qədər bir toxumun münbit bir torpaq vasitəsilə qocaman çinar ağacı halına gəlməsi necə böyük bir möhtəşəmlik sərgiləyirsə, insan oğlundakı təfəkkür və hissiyyatın Qurandan feyz alması nəticəsində çatıla biləcək qəlbi duyuş və həqiqətlər də o qədər, hətta daha da möhtəşəmdir.

İki mühüm əmanət

Allah Rəsulu buyurur:

"Sizə möhkəm yapışdığımız müddətcə məndən sonar zəlalətə düşməyəcəyiniz iki əhəmiyyətli əmanət qoyub gedirəm. Biri digərindən daha böyükdür. O da Allahın Kitabıdır. Quran səmadan yer üzünə uzadılmış sağlam bi rip kimidir. Digər əmanət ailəm, Əhlibeytimdir…" (Tirmizi, Mənaqib, 31/3788).

Resept Qurandadır

Allah-Təala insan oğlunun insanlıq şərəf və heysiyyətinə layiq yaşamasının reseptini təşkil edən Qurani-Kərimdə bəyan etmişdir. Beləliklə:

1. İnsan oğlunu cənginə alan nəfsani və şəhvani ehtirasların dərmanı Qurandadır.
2. İnsanı heyvanlardan daha aşağı səviyyəyə endirən iffətsizliyi çarəsi Qurandadır.
3. Ədalət hisslərinin zülmə çevrilməsinə mane olan həssas tarazlıq Qurandadır.

Nəticə olaraq, ən alt mərtəbələrdən ən üst mərtəbəyə qədər bütün insanlığın hər zaman və hər məkanda ehtiyaclarına ən yaxşı və düzgün cavablar yenə Qurandadır.

Ədəbiyyat siyahısı

1.İslamiyyatda həyat tərzi Əbu -Əla -Əl-Maudsudi (səh 3-20)
2. Məhəmməd Peyğəmbər Kəlamlar Bakı Gənclik 1990. (səh 3-37)
3. 101 hədis (Həzrəti Məhəmməd Əlehissalmın söylədkiləri) Bakı Gənclik 1990. "Dan yeri".(səh 3-8)
4. İslam İşığında Şəfaqət İsmayılqızı Bakı 2019. (səh 3-80)

Z.Avilova
Z.Mammadova

Science, Education, Activity And Culture In Islam

Sammary

“Ethics” and “morality” are words that are close to each other . Morality is an Arabic word, the meaning of the dictionary is the spiritual identity of the believer, the spiritual and the spiritual It is ethical rules that define love.

Social morality is more than consciousness, the whole sphere of social life They include love, family, labor, science, politics and so on. Ethics that regulate the behavior of human beings in their fields, with ethics and ethics The principles, and rules that govern the conduct of their place in life, and their lives, and to one another - family, work, community, nationality, and society It is the performance of the government.

Literature is also the Arabic word, the spiritual qualities of the faith, the charms, and the need to load, to call it.

This is a staggering fact: He is the only One who has the world around you. Spiritualism is one of the virtues of Allah's gift of virtue. Some of the humanities that are inherent in human health are supposed to be accepted, and some are rejected. pushes the meaning. Take a look at how different people are from the labor force. Some of the aspects that are inherent in them are positive, and some aspects are negative. This is also an indisputable fact that authenticity, fidelity, and ethics are common in all aspects of human history. The nation, the commitment to the covenant, and these great moral qualities are praised. Human beings have been worse than the old ones, and have condemned corruption. In a word, only good and healthy people are counting on the scale Learned. It is well known that the moral and spiritual rights are unchanged and dedicated. Well, evil concepts are known from the muscles of humanity.

These feelings have been given to the gift of Allah. That is why it is also known in the Peninsula as "the well-known" and the "evil". This is something that

"well-known" human beings know and dream about. Instead, "ignorant" people are rejected by them, and they are treated with hatred.

May Allah and the World Make a Difference in the Heart of Islamic People in Confidence in the Heart of Allah There is a force behind the promise of reconciliation.

Promoting the goodness of Islamic moral values, good work and the hatred of human beings who urges them to refrain from the evil deeds that they reject.

Islam calls all nations of the world to this day. Those who accept this time are united under the banner of Islam. rush. The purpose of this campaign is to promote better human rights and empowerment. To direct the mass, protect the goodness and spread it, as well as hurt, and do all the bad things Get the opposite of in.

З.Авилова
З Маммадова

Наука, образование, деятельность и культура в исламе

Резюме

«Мораль» и «духовность» – это почти синонимы, означающие слова, близкие друг к другу. Ахлаг (этика) – это арабское слово, смысл которого - этические нормы, определяющие нравственные качества и духовность человека.

Этика также является одной из форм общественного сознания во всех сферах общественной жизни, таких как домашнее хозяйство, семья, труд, наука, политика и так далее. Этика, которая управляет поведением людей в полевых условиях. Итак, моральные принципы - это принципы, нормы и правила, которыми руководствуются люди в их поведении, и они выражают их отношение друг к другу - семье, трудовому коллективу, нации и обществу в целом.

Меневийят (духовность) – это также арабское слово, которое означает моральные качества, нормы и высокие морали.

Это бесспорный факт, что тот, кто создал мир это Аллах. Мораль – это одно из присущих человеку качеств Бога. Люди заставляют нас принимать определенные аспекты человеческой природы, а некоторые – отвергать их. Несмотря на различия в моральных ценностях разных людей, люди всегда считали некоторые аспекты своего характера положительными, а некоторые – отрицательными. Это также бесспорный факт, что на всех этапах человеческой истории такие качества, как честность, верность, справедливость, приверженность и такие моральные ценности, хвалят. Одним словом, только искренние и верные люди всегда считались опорой человечества. Понятно, что

моральные и этические истины неизменны и являются человеческими. Нет, понятие зла известно человечеству давно.

Бог дал человеку эти чувства. Вот почему это называется добром в Коране известно, а зло неизвестно. Это означает, что «общеизвестный» - это то, что люди знают и хотят, напротив, «невежественные» люди отвергаются и относятся с презрением.

Благодаря искренней вере в Бога и Судный день Ислам способен создать в сердцах людей силу для честной работы.

Исламская мораль призывает всех воздерживаться от плохих поступков, которые ненавидят и отвергают те, кто делают добро и кто их ненавидит.

Ислам призывает всех людей земли к этому. Ислам объединил тех, кто принимает это приглашение под своим знаменем, и создал мусульманскую общину. Цель этого общества - объединить людей с хорошей силой и способностями, защищать и распространять доброту, и в то же время предотвращать любое зло.

Ключевые слова: Коран Аллаха, общественная осведомленность, поведение, общество, духовность, история человечества.

Redaksiyaya daxil olma tarixi: 02.07.2019
Çapa qəbul olunma tarixi: 16.12.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Pərvinə Əzizova tərəfindən çapa tövsiyə olunmuşdur

AYNUR BƏDƏLOVA
Azərbaycan Dövlət Pedaqoji
ADPU
Üzeyir Hacıbəyli 63

LEV TOLSTOY NƏSRİNDƏ PSİXOLOGİZM

Xülasə

Məqalə Lev Tolstoy yaradıcılığı və yazıçının yaradıcılığında psixologizm və psixoloji analiz məsələlərini araşdırır.L. Tolstoyun əsərləri dünya ədəbiyyatında ən çox oxunan, dünyanı dərk etməyə çalışan, insanın daxili aləmini aşkarlamağa yönəlmiş qiymətlibədii əsərlərdir. L.Tolstoyun vasitəsilə insan dünyanı, şəxsiyyəti və həyatı dərk edir. Müxtəlif situasiyaların insan həyatına təsirini, insanın daxili aləmində yaratdığı dəyişiklikləri görür. Yazıçının əsas yaradıcılıq metodu psixologizmdir. Tənqidçi və yazarlar Tolstoyun şəxsiyyəti psixoloji analiz üsullarının orijinallığını xüsusilə qeyd edirlər. Yazıçının personajı psixoloji təsvir etməsi oxucunu heyran etməyi bacarmışdır. Tolstoy qəhrəmanlarının dərin psixoloji analizini vermiş, xarakterlərinin hadisələrin gedişindən asılı olaraq dəyişməsini göstərməyi bacarmışdır. Yazıçının qəhrəmanları daxilən mürəkkəb və çoxşaxəli proseslərdən keçir. Oxucu qəhrəmanların mənəvi cəhətdən böyüməsini, mühit və cəmiyyətdə baş verənlərin təsirindən dəyişməsinin şahidi olur. Tolstoy psixologizminin unikallığı qəhrəmanların daxili aləminin davranış və hərəkətlərini idarə etməyi bacarmadığı vəziyyətlərdə üzə çıxmasıdır. Yazıçı qəhrəmanların daxili aləmini, hiss və həyacanlarını nümayiş etdirməklə şəxsiyyətə qarşı olan şəxsi fikirlərini ifadə etmiş və şəxsiyyətin necə olmaq gərəkdiyini göstərməyə çalışmışdır. Tolstoyun qəhrəmanları mürəkkəb və davamlı axtarışdadırlar. Onlar nəinki ətrafla həm də öz daxili aləmləri ilə mübarizə aparırlar. Beləliklə, Tolstoy insanın ruhən formalaşması prosesini göstərmiş olur. Məqalədə Tolstoy psixologizmi haqqında Çernişevskinin fikri diqqətəlayiq hesab edilmişdir. O, Tolstoy psixologizmini "dialektikanın ruhu"adlandırmışdır. Tolstoyun ilkin əsərlərini dərindən analiz edən Çernişevski yazıçının yaradıcılığında bir çox məsələlərə toxunmuş, bu barədə onun maraqlı müşahidələri, nəzəri ümumiləşdirmələri vardır. Hər yeni gələn nəsil onun yaradıcılığında yeni cəhətlər ortaya çıxarır, və çap olunan və ərsəyə gələn yazılarda yeni gizli məqamlar aşkarlayır. Məqalədə yazıçının "Uşaqlıq", "Yeniyetməlik", "Gənclik", "Anna Karenina" və "Dirilmə" povest və romanlarında psixologizm və onun təzahür üsulları araşdırılmışdır. Yazıçının obrazları ayrılıqda təhlil edilərək, onların daxili aləminin açılmasının müxtəlif yolları ortaya çıxmışdır. Nəticədə yazıçının sənətkarlığı və oxucunu inandırmaq bacarığı, psixologizmi ifadə etməkdə unikal üsullardan istifadə etmək ustalığı diqqətəlayiq görülmüş və yüksək qiymətləndirilmişdir.

Açar sözlər: psixologizm, yazıçı, qəhrəman, sənətkarlıq

Bildiyimiz kimi Tolstoy dünya ədəbiyyatına yüzlərlə müxtəlif xarakterli gözəl personajlar daxil etmiş nadir sənətkarlardandır. (4, s. 11, 39, 335) Dünya ədəbiyyatşünaslıq sahəsində L.Tolstoy qədər diqqət cəlb edən yazıçılar çox deyildir.

L.Tolstoy əsərlərində yüzlərlə rus cəmiyyətinə xas xarakteristikaya malik obrazları canlandırmağa müvəffəq olmuş dahi yazıçıdır. Tolstoyun qəhrəmanlarının özünəməxsus xarakterləri, fərdi düşüncələri, mühit və cəmiyyətin təsirilə dəyişmiş yeni fikirləri hər zaman ədəbiyyatşünaslıq sahəsində diqqət mərkəzində olmuş, müxtəlif yönlərdən tədqiqata cəlb olunmuşdur. Yazıçının yaradıcılığını yüksək qiymətləndirmiş ədəbiyyatşünaslardan N. Çernişevski, B. Xrapçenko, K. Lomunov, V. Paliyevskiy, D. S.Merejkovskiy,V.Xalizev, E. Babayev və b. adını çəkmək olar. Bu və digər ədəbiyyatşünasları Tolstoy təkcə dahi adamın düşüncələrinin rəngarəngliyi və genişliyi ilə deyil, həm də qeyri-adi parlaq şəxsiyyət kimi təsirləndirmişdi.Lakin demək olmaz ki, Tolstoy haqqında hər şey deyilmiş və onun yaradıcılığı istənilən səviyyədə tədqiq edilmişdir. Yazıçının yaradıcılığı haqqında nə qədər araşdırılsa belə yenə danışılacaq məsələlər çoxdur. Çünki Tolstoy tükənməzdir. Hər yeni gələn nəsil onun yaradıcılığında yeni cəhətlər ortaya çıxarır və çap olunan və ərsəyə gələn yazılarda yeni gizli məqamlar aşkarlanır. Tənqidçi və yazarlar Tolstoyun şəxsiyyəti psixoloji analiz üsullarının orijinallığını xüsusilə qeyd edirlər. Yazıçının personajı psixoloji təsvir etməsi oxucunu heyran etməyi bacarmışdır. Tolstoy qəhrəmanlarının dərin psixoloji analizini vermiş, xarakterlərinin hadisələrin gedişindən asılı olaraq dəyişməsini göstərməyi bacarmışdır. Yazıçının qəhrəmanları daxilən mürəkkəb və çoxşaxəli proseslərdən keçir. Oxucu qəhrəmanların mənəvi cəhətdən böyüməsini, mühit və cəmiyyətdə baş verənlərin təsirindən dəyişməsinin şahidi olur. Tolstoy psixologizminin unikallığı qəhrəmanların daxili aləminin davranış və hərəkətlərini idarə etməyi bacarmadığı vəziyyətlərdə üzə çıxmasıdır. Nataşa Rostova, Anna Karenina obrazlarını bu baxımdan nümunə gətirə bilərik.

Qəhrəmanların daxili aləmini, hiss və həyacanlarını nümayiş etdirməklə Tolstoy şəxsiyyətə qarşı olan şəxsi fikirlərini ifadə etmiş və şəxsiyyətin necə olmaq gərəkdiyini göstərməyə çalışmışdır. Tolstoyun qəhrəmanları mürəkkəb və davamlı axtarışdadırlar. Onlar nəinki ətrafla həm də öz daxili aləmləri ilə mübarizə aparırlar. Beləliklə, Tolstoy insanın ruhən formalaşması prosesini göstərmiş olur. Bu cəhətdən Çernişevskinin fikri diqqətəlayiqdir. O, Tolstoy psixologizmini "dialektikanın ruhu" adlandırmışdır.Tolstoy insan ruhunun dərinliyini, sonsuzluğunu, insanın xarakterindəki ikiliyi yaxşı və pisin, sevgi və kədərin bir-birilə mübarizə aparmasını bədii şəkildə ifadə etməyi bacarmışdır.Tolstoy psixologizminin əsas xüsusiyyətlərindən biri eyni qəhrəmanı iki fərqli obraz kimi ifadə etməyi bacarmaq ustalığıdır. Yazıçının "Uşaqlıq", "Yeniyetməlik","Gənclik" adlı avtobioqrafik trilogiyasında da əsərin iki qəhrəmanı vardır. Bir Nikolenka İrtenyev, digəri isə öz uşaqlığını, gəncliyini və yeniyetməlik həyatını xatırlayan yetkin Nikolay. Uşağın və yetkin insanın fikirlərini müqayisə müstəvisində vermək sanki Tolstoy üçün hər zaman maraqlı olmuşdur.

Şəxsin formalaşması prosesi mühit və cəmiyyət kontekstində baş verir. Tolstoy qəhrəmanları da mühitdə formalaşmış, cəmiyyət içərisində inkişaf etmişlər.

Yazıçı qəhrəmanının (Nikolay) uşaqlıq dövründən başlayaraq həyatını təsvir edir. Mühit və cəmiyyət kontekstində insanın bir şəxs kimi formalaşmasını göstərir. Başqalarına qarşı olan hissləri və münasibəti Nikolenkanın həyatında önəmli yer tuturdu. Katenkaya qarşı olan mehriban münasibəti, Moskvada olarkən Soneçka Valaxinaya qarşı uşaqlıq sevgisi ilə bağlı hissələri o, xüsusi bir maraqla danışırdı. O, yeni uşaqlarla tanış olmağı xoşlayırdı, İvinlər onlara qonaq gələrkən çox sevinirdi. Nikolenka İrtenyev mehriban, özünəməxsus bir uşaq idi. O, erkən yaşlardan yalanı doğrudan ayırd etməyi bilir və yalan danışmağı xoşlamırdı. Nənəsinin ad günündə yazdığı şeiri ucadan oxuyarkən həyəcanlanması onun həssas bir uşaq olduğunu ifadə edirdi. Tolstoy qəhrəmanının xarakterindəki bütün incəlikləri ustalıqla nümayiş etdirmiş və hadisələrin onun həyatına hansı şəkildə təsir göstərməsini təsvir etmişdir.

Nikolay uşaqlıqdan ardıcıl olaraq psixoloji sarsıntılar keçirməkdədir. Əvvəl anasının ölümü ilə ailə birlikləri pozulur, daha sonra jeromenin tərbiyəsinə keçir, dəcəl uşaq olduğundan dəfələrlə cəzalandırılması onun uşaqlıq xatirələrinə həkk olunur, nənəsi ölür və özü ilə böyük mənəvi gücünü aparır, atası isə yenidən evlənərkən elə bir qadınla ailə həyatı qurur ki, qadının hətta gülüşü belə hər zaman dəyişməzdir. Beləliklə, əvvəlki ailə xoşbəxtliyini geri qaytarmaq heç cür mümkün olmur. Mühitdə baş verənlər təkcə onun həyatını deyil, daxili aləmini, cəmiyyətə yanaşmasını, həyat haqqında düşüncələrini dəyişir.

Və yaxud "Anna Karenina" romanına nəzər salaq.Annanın arzularında, fikirlərində dolaşan həyəcanının ifadəsində xarakterindəki ikiləşməni görürük. Bir tərəfdən həyalı qadın, ərinə sadiq, gözəl ana kimi artıq özünü ifadə etmiş Anna, digər tərəfdən isə özündən uzaqlaşdırmağa çalışdığı çılğın, gənc, sevgi və həyəcan dolu Anna birbirinə qarşı ziddiyyət təşkil etməklə bir ruhun içərisinə sığmışdır. Balda Kitinin gözlərilə yazıçı Annanı oxucunun gözləri önünə çıxarır. Kiti gözəlliyinə heyran olduğu Annanın olduqca gözəl və cazibədar olduğunu inkar etmir, amma bu gözəlliyin içərisində nə isə daha qəddar, yad, şeytani bir şey olduğunu hiss edir və bu Kitini dəhşətə gətirir. Romanda Annanı qınayan kübar mühit də görürük. Anna həmin mühitdən uzaq durmağa məcbur olur. Mühit və cəmiyyətin qınağı Annanın əzabını daha da artırır. Artıq onun danışacaq, dərdini söyləyə biləcək bir adamı da qalmır. Anna bu mühitdə yaşaya bilməzdi, onun ölümü labüd idi.

İnsanın daxili aləminin açılması, hiss və həyacanının ifadəsi təbiət mühitilə qarşılıqlı əlaqədə baş verir. Təbiət mühitinin insan psixologiyasına olduqca böyük təsiri vardır. Tolstoy psixologizminin əsas xüsusiyyətlərindən biri də qəhrəmanlarının daxili aləmini təbiət mühiti ilə qarşılıqlı təsirdə verməsidir.

Anna Karenina romanından bir parçaya nəzər yetirək "Külək sanki qarşısındakı müqaviməti qıraraq vaqonların üstündən qarı sovurub yerə tökdü, qopmuş bir dəmir təbəqəsini haraya isə çırpıb danqıldatdı və qabaqda parovoz fiti ağlar və tutqun bir səslə fəğan etdi. Çovğunun bütün dəhşəti Annaya indi daha gözəl görünürdü. Vrons-

ki onun ürəyi ilə arzuladığı, lakin ağlı ilə qorxduğu bir şeyi demişdi".(1, səh.139)Yazıçı bu hissədə gözəl bir qış gününü təsvir edir. Bu təsvirin qəhrəmanında doğurduğu hissləri, dəhşətli çovğunun Annanın daxilindəki sevinc və həyəcana qarışaraq ona tamamilə əks, gözəl təsir bağışladığını sənətkarlıqla nümayiş etdirmişdir.Tolstoy qəhrəmanlarının daxili aləmini psixoloji təsvir prredmetinə çevirmiş və sənətkarlıqla nümayiş etdirmişdir.Vronski də məhz belə qəhrəmanlardandır. O, varlı və yaraşıqlı qrafdır. Onun üçün səmimi hisslər, ailə qayğıları, sevgi və sədaqət köhnə və geridə qalmış mənəvi dəyərlər idi. Tolstoy qəhrəmanının bu xüsusiyyətlərini Kiti Şerbatskiylə olan münasibətlərində üzə çıxarır. Vronski öz nüfuzunu artırmaq üçün, zövq almaq üçün ciddi fikiri olmadan Kitiyə yaxınlaşır və onun hissləri ilə oynayır. Anna ilə təsadüfən görüşdükdən sonra ona olan məhəbbətin təsiri altında Vronski dəyişir. Onda güclü sevgi, səmimiyyət və mərhəmət hissi baş qaldırır.Vronskinin Anna ilə ilk tanışlığı, Peterburqa Annanın dalınca getməsi və tədricən hisslərinin əsl sevgiyə çevrilməsini Tolstoy sənətkarlıqla nümayiş etdirmişdir. Yazıçı Vronski və Annanın ilk tanışlıqları zamanı dəmiryol işçisinin faciəvi ölümü, Sankt Peterburqa gedişləri zamanı dəhşətli çovğun, qar fırtınası hissələrini romana daxil etməklə sanki əsərin faciəvi sonluğunu gətirirdi. Xarakterindəki tamlığa, cəsarət və möhkəmliyə baxmayaraq Vronski Annanı başa düşə bilmir. Annaya qarşı güclü sevgi, mərhəmət və diqqət göstərmiş olsa da onun iztirab və əzablarını anlaya bilmir və bu da onların münasibətlərində soyuqluq əmələ gətirir, onlar tez-tez mübahisə edirlər və nəticədə Anna özünü öldürür. Annanın ölümü Vronskini məhv edir. O, mənəvi cəhətdən böyük sarsıntı keçirir, tanınmaz hala gəlir. Qəhrəmanın psixoloji yaşantılarını oxucu da obrazla birlikdə yaşayır.

"Dirilmə" romanı Tolstoyun sonuncu romanıdır. Roman Katyuşa Maslovanın həyat taleyi və Nexlyudovun roman boyunca peşmançılıqdan doğan ruhi əziyyətləri ilə bağlıdır. Yazıçı psixologizmi romanda hər səhifədə, hər sətirdə ifadə edilir. 16 yaşlı qızcığazın saf qəlbi, gözəl duyğuları, təmiz həyatı məhv edilir. İnsan həyatının hadisələrdən və vəziyyətlərdən asılı olaraq məhv olub getməsi sarsıntısını oxucu da yaşayır. İlk baxışdan Maslova daxili dünyası boş, özünü ifadə etməyi bacarmayan, zəif qadın təsiri bağışlamış olsa da əksinə o, həyatın hər üzünü görmüş, çox şey yaşamış güclü bir qadındır. Katyuşanın daxili aləmi, keçirdiyi hiss-həyəcanı dialoqlarla, monoloqlarla ifadə edilmir, fərqli bir formada yazıçı dilindən danışılır.

Maslovanı məhv edən ilk öncə Nexlyudovdursa sonra isə ətraf mühit və cəmiyyətdir. Mühit və cəmiyyətin yanaşmasından şəxsiyyətin mənəvi aləminin dəyişməsi, getdikcə əzilərək məhv olan daxili dünyası, şəxsiyyətə yanaşması məsələləri Maslovanın simasında romanda aydın göstərilmişdir. Tolstoy psixologizminin xüsusiyyətlərindən biri də məhv olmuş insanın yenidən həyata dönüşünü əks etdirməkdir. Cəmiyyətin haqsız quruluş və qanunlarının qurbanına çevrilən Maslova törətmədiyi bir cinayətə görə məhbus həyatı yaşayır. Lakin Maslova düşdüyü mühitdə tanış olduğu yeni insanlardan çox şey öyrənir, daxilən yenidən formalaşır, artıq keçmiş pozğun həyatından tamamilə uzaqlaşır, sevməyi, sevilməyi, xoşbəxt olmağı öyrənir. Roma-

nın bütün mahiyyəti cəmiyyətin haqsız quruluşuna qarşı yönəlmiş olsa da Tolstoy burada insan taleyindən və müxtəlif psixoloji vəziyyətlərdə qəhrəmanının keçirdiyi hiss və həyəcanlardan, ruhi vəziyyətlərdən və mühitin insan taleyində oynadığı roldan danışmışdır. Maslova gəncliyində mühit və cəmiyyət tərəfindən xoş rəftar, qayğı və diqqət görmüş olsaydı taleyi tamam başqa cür ola bilərdi. Amma Tolstoyun sənətkarlığından irəli gəlir ki, o, romanda mühitin təsirindən dəyişmiş qəhrəmanın taleyinin, psixoloji vəziyyətinin mühit kontekstində yenidən formalaşmasını göstərmişdir. Maslova romanın sonunda xoşbəxt, azad bir qəhrəman kimi oxucu yaddaşına həkk olunur. Yazıçı təhkiyəsindən oxucu qəhrəmanının mənəvi dirçəlişini, hiss və həyəcanının, sevinc və xoşbəxtliyininin qəlbində hansı şəkildə ifadə edilməsini hiss edir.

Nexlyudov da cəmiyyətin yetişdirdiyi, mühitin tərbiyəsini görmüş və götürmüş gənc zabitdir. Maslovaya qarşı etdiyi qəddarlığı qızcığazın həyatını məhv edir. Roman boyunca biz Nexlyudovun keçirdiyi peşmançılıq hissini, daxilən çəkdiyi əzabı, günahını təmizləməyə çalışmasının şahidi oluruq. O, Maslovayla birlikdə bir çox məhbuslara kömək edir, onların məhbus həyatlarını yüngülləşdirir, Maslovanın siyasi məhbuslarla bir yerə salınmasına nail olur. Maslovanı məhv edən Nexlyudov onun yenidən həyata qayıtmasına, mənəvi dirçəlişinə, daxilən dəyişməsinə kömək edir. Romanın sonunda Nexlyudovun mənəvi iztirablardan qurtuluşunu, həyata baxışının dəyişdiyini görürük. O artıq həyatın insana zövq almaq üçün deyil, sevinc üçün yaşamağa görə deyil daha böyük nailiyyətlər əldə etmək üçün, insanlara kömək etmək, faydalı olmaq üçün verildiyini dərk edir. Bundan sonra yeni və tamamilə fərqli bir həyatın onu gözlədiyinə inanır. Tolstoy qəhrəmanının keçirdiyi daxili hiss və həyəcanı, gələcəklə bağlı ümidlərini ustalıqla nümayiş etdirir. "Bu gecədən etibarən Nexlyudov üçün tamamilə yeni bir həyat başladı, ona görə yox ki, o yeni həyat şəraitinə qədəm qoyurdu, ona görə ki, bu andan etibarən başına gələnlərin hamısı onun üçün əvvəllər olduğundan tamamilə başqa bir məna kəsb edirdi. Onun həyatındakı bu yeni dövrün nə ilə qurtaracağını gələcək göstərəcək." (2, s. 294)

L.Tolstoyun öz dəsti xətti, psixologizmi təzahür etmək üsulu vardır. Yazıçının sənətkarlığı oxucunu inandırmağı bacarmasıdır. Bədii əsəri oxuyarkən oxucu personajın hiss və həyəcanını, qorxusunu, kədər və sevincini duyur, daxili dünyasına nüfuz edir. Personajın daxili aləmi isə psixoloji təsvir müstəvisində yazıçının təxəyyülündən asılı olaraq istənilən şəkildə özünü ifadə edə bilir.

Ədəbiyyatlar

1. L. N. Tolstoy.AnnaKarenina.8-ci cild Bakı: Yazıçı nəşriyyatı, 1980
2. L. N. Tolstoy. Dirilmə. 13-cü cild Bakı: Yazıçı nəşriyyatı, 1983.
3. L. N. Tolstoy. Seçilmiş əsərləri. Bakı: Öndər nəşriyyatı. 2004
4. http://osutivremeni.ru/chernyshevskij-o-dialektike-dushi-tolstogo/
5. В мире Толстого.Сборник статей.Москва: Советский писатель,1978

Бадалова Айнур

Психологизм в прозе Льва Толстого

Резюме

В статье рассматриваются вопросы психологизма и психологического анализа в творчестве Льва Толстого. Произведения Л. Толстого являются наиболее читаемыми в мировой литературе. В них автор стремится понять мир и раскрыть внутренний мир человека. С помощью Толстого человек воспринимает мир, личность и жизнь, а также влияние различных ситуаций на жизнь человека, изменение его внутреннего мира. Основным творческим методом писателя является психологизм. Критики и писатели особенно подчеркивают оригинальность методов психологического анализа Толстого. Психологическое описание персонажа завораживает читателя. Толстой дал глубокий психологический анализ героев и смог показать, как меняются характеры в зависимости от хода событий. Герои писателя проходят через сложные и многогранные процессы. Читатель становится свидетелем духовного роста героев и их перемен под влиянием окружающей среды и общества. Уникальность психологизма Толстого в том, что внутренний мир героев проявляются в ситуациях, когда они перестают контролировать своё поведение. Писатель, описывая внутренний мир и чувства героев, выражает свои личные мысли и отношение к личности и пытается показать, какой она должна быть. Герои Толстого в сложном и бесконечном поиске. Они борются не только с окружающей средой, но и со своими внутренними мирами. Таким образом, Толстой показывает процесс духовного становления человека. В научной литературе заслуживает внимания подход Чернышевского к психологизму Толстого. Он назвал психологизм Толстого «диалектикой души». Глубоко анализируя ранние произведения Толстого, Чернышевский затрагивает многие вопросы в творчестве писателя, высказывает интересные наблюдения и теоретические обобщения по этому вопросу. Каждое новое поколение критиков и литературоведов раскрывает новые аспекты в творчестве писателя. В статьях и монографиях раскрываются новые, скрытые моменты. В нашей статье были исследованы повести и романы Л.Толстого «Детство», «Юность», «Отрочество», «Анна Каренина» и «Воскресение» с точки зрения использования психологизма. Были проанализированы образы писателя и указаны разные пути раскрытия внутреннего мира героев.

Ключевое слова: психологизм, писатель, герой, ремесло

Badalova Aynur

Psychologism in Lev Tolstoy's prose

Summary:

The article discusses the issues of psychologism and psychological analysis in the creativity

Lev Tolstoy. The creativitie's L. Tolstoy are the most readable and valuable in world literature, which seek to understand the world and reveal the inner world of man. With the Tolstoy's help a person perceives the world, personality and life, as well as the influence of various situations on a person's life, crushing of his inner world. The leading writer's method in his creativity is psychologism. Critics and writers especially emphasize the originality of the methods psychological's analysis of Tolstoy. The psychological description of the character fascinates the reader. Tolstoy gave a deep psychological analysis of the characters and was able to show how the characters change depending on the course of events. The writer's heroes go through complex and multifaceted processes. The reader witnesses the spiritual growth of heroes and their changes under the influence of the environment and society. The uniqueness of Tolstoy's psychologism lies in the fact that the inner world of heroes is manifested in situations when they cease to control their behavior. The writer describing the inner world and the feelings of the heroes, expresses his personal thoughts and attitude towards the personality and tries to show what it should be like. Tolstoy's heroes in a complex and endless search. They fight not only with the environment, but also with their inner worlds. In the scientific literaturedeserves attention Chernyshevsky's thoughts about Tolstoy's psychologism. He called Tolstoy's psychologism "the dialectic of the soul." Deeply analyzing the early Tolstoy's creativities, Cherishevsky addresses many issues in the writer's creativity and he has interesting observations and theoretical generalizations on this issue.Each new generation reveals new aspects about the writer's creativity andpublished, emerging articles reveal new, hidden points. The article was investigatedthe ways of Tolstoy's psychologism,in the author'sstories and novels "Childhood" "Youth" "Adolescence", "Anna Karenina" and "Resurrection". The writer's characters were analyzed separately and various ways were discovered to reveal the inner world of the heroes.

Key words: psychologism, writer, hero, craft

Redaksiyaya daxil olma tarixi: 20.08.2019
Çapa qəbul olunma tarixi: 01.11.2019
Filologiya elmləri doktoru, professor Fikrət Rzayev tərəfindən çapa tövsiyə olunmuşdur

AYNURƏ QURBAN
BDU
qurban-anar@mail.ru
Zahid Xəlilov

«FƏRHAD VƏ ŞİRİN» FOLKLOR MÜSTƏVİSİNDƏ

Xülasə

Dillər əzbəri olan "Fərhad və Şirin" dastanı məhəbbət dastanları içərisində mühüm yer tutur. Bu dastanın tarixi qədim olmaqla yanaşı silinməz izlər qoymuşdur. Dastanda Fərhad və Şirin bir-birini sevən, qovuşmaq üçün can atan obrazlardır. Fərhad əsl sevgi simvoludur. Şirin isə ona olan məhəbbətinə daima sadiq olur. Bu sevgi xətti üzərində bir sıra əfsanələr, rəvayətlər, dastanlar, poemalar, dramlar və s. yazılmışdır. S.Paşayevin kitabında qeyd olunmuş hər bir əfsanədə Fərhadın Şirinə qovuşmasına maneə olan müxtəlif qüvvələr vardır. Eyni adlı dastanların müxtəlif versiya və variantları mövcuddur. Əsas və geniş yayılmış sujet xətti belədir: "Fərhad Məhinbanunun bacısı Şirinə aşiq olur. Lakin bu sevgiyə maneə olmaq üçün Fərhadın qarşısına şərt qoyulur. O dağ çapmalı, şirin suyu şəhərə çatdırmalıdır. Fərhad sevgilisinə qovuşmaq üçün əlindən gələni edir. Sonda sevən aşiqlər hiyləyə qurban gedirlər. Qoca bir qarı Şirinin ölüm xəbərini Fərhada çatdırmasından sonra Fərhad özünə qəsd edir. Fərhadın ölüm xəbərinə dözə bilməyən Şirin də özünü həlak edir". Dastanda əksər folklor motivlərinə rast gələ bilərik. Məsələn : yuxu yozmalar, inanclar, sehr, cadugərlər, ağ saqqallı qoca, heyvanlarla dostluq, eşq şərabı və s. Bu məhəbbət sujeti tamaşalara, oyunlara, opera və baletlərə, teatr və kinoya qədər gedib çıxmışdır. Dastan bütün türk xalqları ədəbiyyatını lərzəyə gətirmişdir.

Açar sözlər: Fərhad, Şirin, dastan, əfsanə, məhəbbət, folklor, ədəbiyyat, versiya, variant.

Fərhad qayaya çarpanda
Yadına Şirin düşər...

Dillər əzbəri olan bu mahnı çox qədim tarixə malikdir. Əksər mahnılar, bayatılar, əfsanə, rəvayətlər və dastanların əsas obrazlarına çevrilmiş olan Fərhad və Şirin kimdir?

XII əsrin mötəbər tarixi sənədi olan "Kitabi-mücmələt-təvarix əl qisəs"də Fərhad haqqında bəhsə rast gəlirik. Fərhadın tarixi bir şəxsiyyət olduğuna işarə edən müəllif (adı məlum deyil) burada onu həm mühəndis-memar, həm də "sepənhod" adlandırır. Təsadüfi deyildir ki, məhəbbət dastanları silsiləsində özünə yer tutan "Fərhad və Şirin" dastanında da Fərhad "kuhkən" yəni "dağçapan" deyə adı dillərdə dolanmışdır. Bu obraz bir sıra əsərlərin proobrazına çevrilmişdir. Vəhşinin, Nəvainin, Urfikin,

Bəzku Fevkinin, Hilalının, İsmayıl bəy Nakamın və başqa müəlliflərin "Fərhad və Şirin" poemaları, Kövsərinin "Şirin və Fərhad" poeması, S.Vurğunun "Fərhad və Şirin" dramı, A.Ərdəbilinin "Fərhadnamə" poeması və s. kimi əsərlər yazılı mənbələrdə əks olunmuşdur (6).

Şirin haqqında ilk məlumatı Bizans tarixçisi Feofilikt Simokatta verir. O, Şirini Bizansda anadan olmuş, dini xristian, milliyəti isə rumlu olaraq vermişdir. Erməni mənbələrində Şirinin adı ilk dəfə (VII əsr) Sebeosun tarixi əsərində çəkilir. Sebeos onun hansı millətə mənsub olduğunu göstərməsə də lakin xristian olduğunu təsdiq etmişdir (6). Şərq dünyasının dahi sənətkarı Nizami isə Şirini gah Qafqaz gözəli, Bərdə şəhzadəsi, gah da ərmən hökmdarı kimi qələmə alaraq onun mənşə və milliyətcə hansı xalqa, ölkəyə mənsub olduğu barədə açıq və qəti fikir söyləyir. Fərhad və Şirin obrazlarının müxtəlif əsərlərdəki mövqeləri barədə oxşar və fərqlilikləri sonrakı məqalələrimizdə əks etdirəcəyik. Xalq dastanı olan "Fərhad və Şirin" dastanında bu iki sevən aşiqin cəmiyyətdə necə təqdim olunmasına nəzər yetirək.

Fərhadam, Ərzən vətənim
Eşq ilə yanır bu tənim.
Bir pərinin vurğunuyam
"Dağçapan"dır adım mənim.(1,80)

-deyə Fərhad özünü bəzirganbaşına təqdim edərkən əsaslı məlumatı əldə edirik.

Şirin ki, bir eşqin dərdinə düşdü
Ah ilə zarı da Şirinə düşdü,
Qismət günlərində pay ayrılarkən,
Fərhadın eşqi də Şirinə düşdü.(1,67)

Qəlbinin ən incə telləri həzin-həzin məhəbbət nəğməsi oxuyan Şirinin bu sözləri isə bizə bu məhəbbətin ününün dastana çevriləcəyindən xəbər verir.

Folklor aspektindən məsələyə yanaşsaq, "Fərhad və Şirin" adlı müxtəlif əfsanələrə, rəvayətlərə rast gələ bilərik. Sədnik Paşayevin "Azərbaycan Türklərinin xalq əfsanələri"(Bakı 2009) adlı kitabında "Fərhad və Şirin" , "Fərhadın səsi", "Nəğməkar Fərhad", "Fərhadın əjdaha ilə vuruşu", "Sən Şirini ərdə bil" adlı əfsanələr yer almışdır (4,7). İlk olaraq "Fərhad və Şirin" əfsanəsində nəql olunur ki, Calud kəndinə Fərhad adlı cavan daşyonan usta gəlir. O, kəndin varlılarının birinin qızına aşiq olur. Həmin qız -Şirin də oğlanı sevir. Ata bu sevgiyə maneə olmaq üçün şərt kəsir ki, Daşağıl mağarasının yanından axan Ulu çayın bir qolu olan Qoşabulağın suyunu Calud kəndinə gətirsin. Nəticədə Şirin sənin olacaqdır. Fərhadın şərtə əməl etdiyini görən qoca hiyləyə əl atır. Belə ki, o, Əndəruş qarını işə salır ki, bu sevgiyə maneə olsun. Qarı yalandan Fərhada Şirinin xalça toxuyarkən həvənin başına dəyərək öldüyünü deyir. Fərhad isə qarıya inanaraq külüngünü başına çırpır və ölür. Bu xəbəri eşidən

Şirin əlindəki qəmə darağı ilə özünü həlak edir. Onları Əndərən qobusu deyilən yerdə dəfn edirlər.

"Fərhadın səsi" adlanan digər əfsanədə isə məşuqə obrazında Şirin yox Pəri –ilham pərisi təqdim edilir. Bu səfər isə onların məhəbbətinə qarşı çıxan Mahmud Qəznəvi olur. Fərhadın məhəbbətindən doğan ah-naləsini eşitməmək üçün onu zindana belə atsa da bu sevgiyə maneə ola bilmir. Xalqının matəmə qərq olmasından dərs çıxarmayan zalım hökmdar Pərini özünə məcburi zövcə edir. Lakin sonda məhəbbətin qüdrətinin qızıldan da, hökmdardan da, qoşundan da, qılıncdan da güclü olması qənaətinə gəlir.

"Nəğməkar Fərhad" əfsanəsində eşq şərabından içən Fərhadın qarşısına şah tərəfindən yenə eyni şərt qoyulur. "Dağı dəlib suyu gətirsən Şirin-şərbət sənindir".Bu dəfə xalq da Fərhadın arxasındadır. Onlar əlləri belli, külünglü Fərhada kömək edirlər. Lakin yuxusunda sevən aşiq onun butasına haram əl toxunduğunu görür, ayılan kimi külüngü başına çırpıb özünü məhv edir.

"Fərhadın əjdaha ilə vuruşu" adlı başqa bir əfsanədə belə göstərilir ki, Fərhadın qarşısına eyni tələbi bu dəfə Şirin qoyur : "Arpaçaydan Sədərək düzlərinə su arxı çəkilməli, əkinlər korluq çəkməməlidir". Amma onların murada çatmasına mane olan burada əjdaha olur. O hər dəfə burnu ilə suyu sovurub öz kamına çəkirmiş ki, Fərhad arusuna çatmasın. Vəziyyətdən xəbərdar olan Fərhad əjdaha ilə döyüşdə həlak olur. Arxdan qanlı su gəldiyini görən Şirin isə ahu-zar ilə nakam qalır.

"Sən Şirini ərdə bil" adlı növbəti əfsanədə isə maneə olan qütbdə Xosrovun adı çəkilir. Eyni şərt burada da hökm sürür. "Şirinin sarayına süd arxı çəkilməlidir. Çəkə bilməsən sən Şirini ərdə bil". Xosrov hiyləyə əl atır, Fərhadın isə ağlı başından uçur, külüng ilə özünü məhv edir. Bəzi mənbələrdə qeyd olunur ki, Ərdəbil şəhərinin adı bu hadisədən sonra yaranmışdır: "Ərdəbil – Ərdə-bil".

Bu eşq hekayəsi klassik məsnəvilərdə qalmamış, dastan şəklini alaraq daha da geniş yayılmışdır. Divan ədəbiyyatından xalq ədəbiyyatına keçərkən dəyişikliklərə məruz qalıb bir çox variantı meydana gələn bu sujetin tarixi Anadoluya keçmiş, Xorasanda başlayıb Amasyada davam etmişdir. Klassik məsnəvilərdə Məhin Banunun qardaşı qızı olan Şirin dastanın ən geniş yayılmış versiyasında onun kiçik bacısı kimi təqdim edilir. Belə ki, həmin versiyanın qısa məzmununa nəzər salaq: " Məhin Banu on beş yaşlarında olan bacısı Şirinə saray tikdirdikdən sonra sarayın bəzənməsi işini nəqqaş Behzadla oğlu Fərhada verir. Bir gün sarayı gəzməyə çıxan Şirin Fərhada aşiq olur. Eyni zamanda Fərhad da onun eşqindən dəli-divanə olur. İş bitəndə Şirin bacısına sarayının qarşısındakı hovuza suyun axmasını istədiyini bildirir. Bu işi qırx gün müddətində həll edə biləcəyini Fərhad söyləyir. Fərhad otuz doqquzuncu gündə bulağın suyunu gətirib çıxarır. Fərhada sarayda otaq ayrılır, tərifənir. Bir müddət sonra Məhin Banu Fərhad ilə Şirin arasındakı eşqi öyrənir. Fərhadı Dəmirqalada zəncirə vurdurur. Ancaq yuxusunda nur üzlü pir onu təhdid edir ki, Fərhadı çıxartmasan özün məhv olacaqsan. Nəticədə qorxuya düşən Məhin Banu Fərhada min qızıl verib onu sərbəst buraxır. Fərhad qızılları kasıblara dağıdıb özü dağlara çəkilir, canavarlar-

la birgə dostluq edir. Qaldığı mağaraya isə Şirinin şəkillərini çəkib təsəlli tapmağa çalışır. Fərhadın bu vəziyyətini öyrənən Amasya hökmdarı Hürmüz şah Məhin Banuya müharibə elan edərək ona qalib gəlir. Fərhad və Şirini gətirib yanında saxlayır. Bu vaxt Şirini görən Hürmüz şahın oğlu Xosrov ona aşiq olur. Atasının bütün vədlərinə baxmayaraq sevgisindən dönmür. Çox çətin vəziyyətdə qalan şah dayədən bu işə bir çarə tapmasını istəyir. Nəticədə Fərhadın Şirinlə evlənməsi üçün qarşıdakı bir dağdan axan suyu qırx gün ərzində şəhərə gətirməsi şərtini qoyur. Fərhad bu şərti qəbul edir və dağı dəlib suyu şəhərə çatdıranda qoca qarı qılığına girən dayə özü ilə bərabər götürdüyü halvanı ağlayaraq Fərhada göstərib Şirinin öldüyünü deyir. Bu xəbəri eşidən Fərhad "O öldükdən sonra mən necə yaşayaram?!"-deyərək külüngünü havaya atıb intihar edir. Fərhadın öldüyünü eşidən Şirin oraya gedir, özü ilə apardığı xəncərlə özünü öldürür. Vəziyyəti görmək istəyən dayə şah ilə ora gələrkən dayəni dağdan enən bir aslan parçalayır. Hədsiz dərəcədə məhzun olan Hürmüz şah onları eyni məzarda dəfn etdirir. Rəvayətə görə, hər il yazda onların qəbirlərinin üzərində iki – qırmızı və ağ gülün arasında bitən qara kol birləşmələrinə mane olarmış.

Dastanın son vaxtlar "Azərbaycan dastanları" (V cild) kitabına əlavə olunmuş variantında isə həmin sujet hakim olsa da obrazlarının adları bir qədər fərqli verilmişdir. Dastan ənənəvi məhəbbət dastanlarda olduğu kimi ustadnamə ilə başlayır. Burada Şirin varlı bir padşahın – Şəmistan şahın qızı kimi təqdim edilir. Qızı üçün imarəti tikdirib, naxışını vurdurmaq işini bənna Bilal ilə oğlu Fərhada tapşırır. Gənclərin sevgi macərası öz axarında davam edir. Fərhadın anası Reyhan xanımla, qızın anası Mehriban xanım övladlarını bu sevdadan çəkindirməyə çalışsalar da heç bir faydası olmur. Dastandakı sevən aşiqlərin bir-birinə sevgi hisslərini ifadə etməkdə istifadə olunan qoşma və gəraylılar əsərin dilini daha da sadələşdirir. "Ölsəm torpaqnan, qalsam Fərhadnanam!" - deyən Şirinə paxıllıq edənlərdən biri də xalası qızı Badamın ürəyi kin-küdurətlə doludur. Bu sevgini bədbin sonluqla bitirən isə yenə də eyni hiyləyə əl atan Beyman qarı olur. Fərhad ilə Şirin qara kol vasitəsi ilə məzarda yenə də qovuşa bilmir (3,172).

Bu sujet xalq ədəbiyyatından oyunlara – Qaragöz tamaşasına, opera, balet, teatr və kinoya qədər gedib çıxırmışdır. Bu onu göstərir ki, aşiqlərin sevgisi xalq tərəfindən çox sevilmişdir. Dastanda Fərhad haqqında yazılan "On dörd gecəlik ay kimi gözəl üzünü görən bir könüldən min könülə aşiq olurdu" (1,64) cümləsi onun şöhrətinin böyük səs salacağından xəbər verir. Dastanda bəzi motivlər var ki, biz folklorda onlara tez-tez rast gəlirik. Məsələn: dağdəlmə, alma, yuxuyozmalar, inanclar, heyvanlarla dostluqetmə, şərtkəsmə, qoca qarı, qurban kəsmək , nəzir paylamaq, eşq şərabı, müqəddəs pir, ağ saqqalı qoca, sultan Süleyman möcüzəsi, saz, başqa qiyafədə təqdimetmə, sehr, cadugərlər, İsmi-Əzəm duası, qırx gün, məzarda qara kolun bitməsi, heyrətamiz qol gücü və s.

Əvvəlcə, biz folklorda rast gəldiyimiz dağəlmə, dağçapma motivinə nəzər salaq. Fərhadın Şirinə qovuşmaq üçün imkansızı bacarması, hekayənin ən origianl və vacib xəttidir. Fərhad dağı dələrkən əlindəki külüngü qayalara elə sərt şəkildə vurur

ki, yüz batman ağırlığındakı qayaları toz halına gətirir. Bu səhnə eyni zamanda Fərhadın Şirinə qovuşması üçün sahib olduğu gücün ifadəsidir. O qədər mükəmməl dillə izah olunmuşdur ki, cəmiyyət bir gəncin nəhəng dağı çaparaq suyu gətirməsini gerçək kimi qəbul etmişdir.

Yuxu motivi dastanda bir neçə yerdə qarşımıza çıxır. İlk öncə, Şirin ilə Fərhad arasındakı eşqi öyrənən Məhin Banu Fərhadı həbs etdirdikdən sonra, qorxulu yuxu görür. Yuxuda bir pir hiddətlə ona deyir : "Ey Banu! Fərhadı sabah zindandan çıxartmasan, həlak olacaqsan". Yuxudan təşviş içərisində oyanan Məhin Banu tez Fərhadı sərbəst buraxdırır.

Bu qədər axtarıram sevgili Fərhadı mən
Ya onu tapmalıyam, ya da candan keçməliyəm.(1,82)

-beytini oxuyaraq yuxuya gedən isə Şirin olur. Yuxusunda ağ saqqallı, uzun boylu bir adam ona belə deyir. "Qalx qızım! Yatmaq vaxtı deyildir". Oyanıb pəncərəyə tərəf qaçan Şirin canavarların arasında Fərhadın gəldiyini görəndə bu sirri anlayır.

Savaş zamanı Şirindən gələn məktubu oxuyub gözlərinə sürtən Fərhad da yuxu görənlər sırasındadır. Yuxusunda müqəddəs bir qocanın onun yanına gəlib vuruşmağın üsullarını ona öyrətdiyini görür. Fərhad bu təlim nəticəsində qarşılaşdığı bütün məşhur savaşçıları məğlub etməyi bacarır. Növbəti dəfə Fərhad Hürmüz şahın istədiyi dağı parçalayarkən yuxuya gedir. Ona bir pir gələrək yuxusundan oyanmasını, Şirinin onu görməyə gəldiyini deyir. Yuxudan ayılan Fərhad Şirinin gəldiyini görür.

Bu dünyada murad almaq görən kimlərə qalmışdır,
Bizim də halımız artıq cənabi-haqqa qalmışdır.(1,107)

-deyən Fərhadın bu sözlərindən sonra iki sevgili vidalaşıb ayrılırlar. Şirin saraya gedib yuxuya gedər. Bu zaman quduz bir itin Fərhadın üstünə atılıb onu qapdığını görər. Bu yuxu xeyirə yozulmaz. Narahat olan Şirin Fərhadın başına pis bir şey gəldiyindən şübhələnir. Yuxusu çin olur, qısa zaman sonra Fərhadın ölüm xəbərini eşidir. (5, 1002)

Yuxuyozmalardan başqa dastanda inanclar da özünü göstərir. Belə ki, Şirin Fərhadın yanına gələrək atının büdrəyib yıxıldığını və ayağı qırıldığını söyləyir. "Bu bədbəxtlik əlamətidir"-deyərək kədərinin səbəbini izah edir.

Dastanda qurban kəsib, sədəqə vermək səhnələri var ki, hansı ki nağıllarda tez-tez rast gəlirik. Məhin Banu iki imarətin arasındakı baxçada ağ mərmərdən gözəl bir hovuz düzəltdirmişdir. Suyun hovuza axıdıldığı gün dualar oxutdurub, yzqlərlə qurban kəsdirib, fəqir-füqəraya paylayaraq onları sevindirmişdir. Başqa bir səhnədə Fərhad da həbsdən çıxdıqdan sonra kasıblara qızıl sədəqəsi verməkləri onları şad etmişdi.

Təmiz və saf məhəbbətin əzabları müqabilində Allahın mərhəməti ilə Fərhada Sultan Süleymanın sirr və möcüzəsi əta olunmuş bütün heyvanlar və quşlar onun əmrinə tabe edilmiş , ünsiyyət qurmuşlar. Heyvanlarla dostluq edib, onlarla birgə çöllük, biyabanlıqla yaşamağı bizə Məcnunu (Qeysi) xatırladır. Dastanın sonunda hiyləgər

qarını aslanın parçalaması bəlkə də heyvanların məhəbbətinin, dostluğunun sübutudur.

Əsərdə zidd obrazlarla yanaşı bəzən kəskin qarşıdurmalar da ön plana çıxır. Belə ki, meydanda savaş zamanı caduya qarşı çıxmaq üçün oxunan İsmi-Əzəm duası öz qüvvəsini sübuta yetirir. Hürmüz şahın cəngavəri qalib gəlir. Həmin səhnələr yəni, pəhləvanların qarşılaşması qədim adət-ənənələrimizdən olan meydan tamaşalarını bizə xatırladır. Fərhad-Qarun, Fərhad-Kəhrab, Xosrov-Simurq və digər qəhrəmanların mübarizəsi dastandakı həyəcanı pik nöqtəyə daşıyır.

Dastanda sevgililərin qovuşmaq həsrəti, ümidi, görüşərkən alma verməkləri, eşq şərabından birgə içmələri, bir-birilərini görərkən huşdan getmələri sevgilərinin sehrindən, gücündən xəbər verir. Fərhada öz hisslərini ifadə etməkdəŞ qəlbinin həzin duyğularını dilə gətirməkdə saz həmişə ona yoldaş olmuşdur. O, bəziganbaşı və Hürmüz şahla söhbətində sazını sinəsinə basıb dərin kədərini ifadə edir.

Ayrılıq dərdi yamandır, ah neynim?
Nazlı yarı mənə çox gördü fələk.
O gül idi, mən də onun bülbülü,
Ayırdı yanından bu çərxi fələk (1, 90).

Bu əfsanələşdirilmiş obrazların xalq tərəfindən müxtəlif etnoqrafik coğrafi abidələrə verilmiş adlar vasitəsi ilə əbədiləşdirilməsi, bu barədə yaranıb-yaşamış söhbətlərin bu günədək saxlanması, tarixi məlumatlarla səsləşməsi bir daha təsdiq edir ki, "Fərhad və Şirin" sujeti həm yazılı, həm də şifahi xalq ədəbiyyatında dərin iz qoymuşdur.

Ədəbiyyat:

1) Aydın Abi Aydın (Abıyev Aydın Müstəcəboğlu) "İki dastan", Bakı, 2002, 110 səh.
2) Abbaslı İ. "Folklorşünaslıq axtarışları", Bakı, "Elm", 2009, 344 səh.
3) "Azərbaycan dastanları" V cild, Bakı, "Lider", 2005, 343 səh.
4) Paşayev S. "Azərbaycan Türklərinin xalq əfsanələri", Bakı, "Azərnəşr", 2009,486 səh.
5) Mehmet Emin B. "Ferhat ile Şirin hikayesindde büyülü gerçeklik" Türkiye-Ankara, 2002, 1004 səh.
6) www.vikimənbə.az

А Гурбан

«Фархад и Ширин» на уровне фольклора

Резюме

Известная в устах дастан «Фархад и Ширин» занимает важное место среди любовных дастанов.Древняя история дастана наряду с этим оставила глубокий след.Фархад и Ширин в дастане образы,которые любят друг друга и стремятся к воссоединению.Фархад настоящий символ любви.Ширин остается всегда верной к его любви.На основе линии сюжета этой любви были написаны ряд легенд, повествований,дастанов,поэм,драм и т.д.В книге С.Пашаева в каждом отмеченном повествовании были преграды к воссоединению Фархада с Ширин.Существуют разные версии и варианты одноименного дастана.Основная и широко распространенная линия сюжета следующая.: «Фардах влюбляется в сестру Мехинбану,Ширин.Но чтобы помешать этой любви перед Фархадом ставиться преграда.Он должен был расколоть гору и донести сладкую воду до города.Фархад делал все возможное для воссоединения со своей любимой.Затем влюблённые становятся жертвами обмана.После того как старушка доносит Фархаду весть о смерти Ширин,Фархад убивает себя. И не стерпев весть о смерти Фархада,Ширин совершает самоубийство.В дастане мы можем встретить большинство образцов фольклора.Например:Сновидения,верования,колдовство,ясновидящие,старик с белой бородой,дружба со зверями,вино любви и т,д.Этот любовный сюжет дошёл до спектаклей,игр,оперы и балета,театра и кино.Дастан встряхнул всю литературу Тюрских народов.

Ключевые слова: Фархад, Ширин, эпос, легенда, любовь, фольклор, литература,версия, вариант.

AGurban

“Farhad and Shirin” in the sphere of folklore

Summary

“Farhad and Shirin” epic which is known by heart by people has great importance among love epics. Besides the epic has an ancient history, it has left an indelible trace. Farhad and Shirin are two characters, who love each other and make big efforts to come together. Farhad is a real symbol of love. Shirin is always loyal to Farhad’s love. Many epics, legends, poems, dramas are written on this love plot. Different for-

ces which were obstacles for coming together of Farhad and Shirin are mentioned in S.Pashayevs book. Epics with the same name has various variants and versions. The main and wide plot line is as follows: "Farhad falls love with Mehinbanu's sister-Shirin. But some conditions are set to hinder this love. Farhad had to chop the mountain and bring drinking water to the town. Farhad does his best to come together Shirin. At the end of the epic lovers became the victim of the trick. An old woman took news about Shirin's death to Farhad and Farhad commited suicide. Shirin could not endure Farhad's death news and killed herself. We can see the majority of folklore motives in the epic. For instance, dream interpretations, beliefs, magic, witchcraft, an old man with white beard, friendship with animals, love wine and so on. This love plot has reached different plays, operas, balets, theatres and cinemas. The epic has trempled the literature of all Turkish nations.

Key words: Farhad, Shirin, epic, legend, love, folklore, literature, version, variant.

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 14.11.2019
Filologiya elmləri doktoru, professor Səhər Orucova tərəfindən çapa tövsiyə olunmuşdur

DADAŞ ƏLİYEV
AMEA Folklor İnstitutu
Kiçik qala küçəsi İçəri Şəhər
dadashaliyev@yahoo.com

FOLKLORDA XALQ SƏNƏTKARLIQ ƏNƏNƏLƏRININ YERİ

Xülasə

Məqalədə əvvəlcə foklorun xalqın maddi və mənəvi mədəniyyətinin vəhdətindən yarandığı qeyd olunmuşdur. Sonra İsmayıllı bölgəsinin Lahıc qəsəbəsində yaşayan tatdilli lahıcların xalq sənətkarlığı ənənələrindən və hər bir sənətin yerli əhalinin məişətində mövqeyindən danışılmışdır.

Araşdırma zamanı xalq sənətlərinin XVIII-XIX əsrlərdə yüksək inkişaf səviyyəsinə çatması və 2015-ci ildə Lahıc misgərlik sənətinin UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi məsələlərinə toxunulmuşdur. Burada həmçinin Lahıcda 40-dan artıq sənət növünün inkişaf etdiyi vurğulanır. Daha sonra bu xalq sənətkarlığı ənənələrinin folklor nümunələrində yeri haqqında fikirlər söylənmişdir. Belə bir mühitdə yaranmış folklorun spesifikasını göstərən xüsusiyyətlər kimi əhalinin etnik mənsubiyyəti, məişəti, dili və məşğuliyyəti sadalanmışdır. Yerli əhalinin həyatında misgərlik sənətinin rolu xüsusi olaraq qeyd edilmişdir.

Məqalədə həm də lahıcların folklorunda ənənəvi və qeyri-ənənəvi janrlar haqqında söz açılmışdır. Qeyri-ənənəvi janrların yaranmasında Lahıc folklor mühitində xalq sənətkarlığı amilinin rolu qeyd olunmuşdur. Bunu "Sənətkarın gücü" adlı ailə-məişət nağılında, Lahıcda misgərlərin vaxtilə oxuduqları əmək nəğməsində, "Babo Sədi" adlanan qədim misgər mərasimində, sənət , alət və məmulat adları ilə bağlı tapmacalarda və bəzi bayatılarda əyani şəkildə görmək mümkündür. Metalişləmə sənətlərinə olan hörmət metal, su, od və alətlərin kultlarının əmələ gəlməsinə səbəb olmuşdur. Lahıclar mis və dəmir kimi metallara xüsusi hörmət bəsləyər və onlara hörmətsizliyə dözməzdilər.

Sonda isə araşdırmanın nəticəsi olaraq folklor mühitinin hər bir folklor örnəyinin yaranmasında rolu bir daha təsdiqlənmiş və bunun bariz nümunəsi kimi Lahıc folklorunda xalq sənətkarlığı ənənələrinin yaşadılması göstərilmişdir.

Açar sözlər: folklor, xalq sənətləri, misgərlik, ənənələr, lahıclar

Dünya xalqlarının heç birinin folkloru boş yerdə yaranmır. Foklor hər bir xalqın tarixi, mədəniyyəti, təsərrüfüt fəaliyyəti və məişəti, bir sözlə, etnoqrafik ənənələri ilə sıx şəkildə bağlı olur. "*Xalq sənət nümunələrində xalqın əmək bacarıqları və müxtəlif nəsillərin yaradıcılıq prinsipləri öz əksini tapır"* [12].

"Folkor geniю mənada xalqən maddi və mənəvi mirasənən vəhdəti kimi qəbul edilir". [10. c. 9] Maddi mədəniyyətə məişətdə istifadə üçün tələb olunan əşyalar, mənəvi mədəniyyətə isə xalq hikmətləri, əmək bacarıq və vərdişləri, adət-ənənələr, dini və elmi biliklər, nəsildən nəslə ötürülən məlumatlar, bir sözlə, təbiətə və cəmiyyətə baxışları və s. aid edilir. *"Xalqın mədəniyyəti onun mənəviyyatını əks etdirməklə yanaşı, onun bədii zövqünü formalaşdırır və əldə olunmuş maddi və mənəvi dəyərlərin gələcək nəsillərə çatdırılması vəzifəsini icra edir*"[11, s 29].

Hər bir bölgənin özünəməxsus etnoqrafik cizgiləri həmin regionun folklor ənənələrində öz əksini tapır. Folklorda regionallıq onun spesifikasında özünü göstərir. *"Folkor mühiti folkorun yaranması üçün tələb olunan bütün şərtləri (etnik mənsubiyyəti, dini baxışları,əmək məşğuliyyəti və s.) özündə birləşdirir"*[13].

Azərbaycanın təbii-coğrafi zənginliyi və etnik rəngərəngliyi ilə fərqlənən rayonlarından biri olan İsmayıllı bölgəsinin əhəmiyyətli yaşayış məntəqələrindən biri olan Lahıc qəsəbəsi xalq sənətlərinin 40-dan artıq növünün güclü şəkildə inkişaf etdiyi bir məkan olmuşdur. Bu sənətlər arasında misgərlik sənətinin yeri xüsusi olaraq qeyd edilməlidir.

Burada yaşayan yerli xalq –lahıcların bir etnos kimi formalaşmasında, mədəni həyatının quruluşunda, mərasimlərin, adət-ənənələrin məzmun və tərtibatında, yaratdıqları şifahi xalq ədəbi nümunələrində bu xalq sənətlərinin təsiri çoxdur. Yaşlı misgərlərin dediyinə görə, misgərlərin keçmişdə "Babo Sədi" adlanan xüsusi bir bayramı vardı. [8] Rəvayətə görə, Lahıca misgərlik sənətini gətirən ilk sənətkarın adı Baba Sədi olub. Həmin bayram günü misgərlər işləməz və ocaqlarını yandırmazlarmış. Kimsə bu qaydanı pozsaydı, qalan misgərlər yığışar, "Babo Sədi, Babo Sədi" deyə-deyə onun üstünə su tökərdilər. Sonra isə misgərlər ayaqları dizdən bükülmüş vəziyyətdə ən böyük zindanın (lahıcca "kələ noy") ətrafında fırlanır, bir növ, halaya oxşayan rəqs edər və gur səslə də oxuyardılar. Misgərlik sənəti dekorativ-tətbiqi sənət olmaq etibarilə məişətimiz üçün qazan, kəfgir, abgərdən, aşsüzən, aftafa, kasa, məcməyi, sərnic, sərpuş və s kimi mis qablar yüksək ustalıqla hazırlanaraq nəfis bədii nümunələr kimi nəbati və həndəsi naxışlarla bərabər, müxtəlif şeir parçaları ilə süsləndirilirdi. Məsələn, "Azərbaycan Tarixi Muzeyi"ndə saxlanılan Lahıc istehsalı olan bir mis nimçənin üzərində 2 misralıq bir şeir sənətin əbədiyaşarlığını belə ifadə edirdi:

Haqqında yazıram bunu, ey ruzgar,
Mən ölərsəm , xəttim qalsın yadigar" (2, 27).

Azərbaycan xalq sənətkarlığını, o cümlədən misgərlik sənətini araşdırmış R.Əfəndiyev yazırdı: *"...Azərbaycanda XVIII-XIX əsrlərdə ən çox misgərlik sənəti inkişaf etmişdi....Bu əsrlərdə Azərbaycanda elə yerlər vardı ki, nəinki bir-iki küçə,*

hətta əhalinin əksəriyyəti misgərlik sənəti ilə məşğul olurdu. Belə mərkəzlərdən biri o vaxtlar Şamaxı xanlığına daxil olan Lahıc idi" [3, s.102]. Lahıcda sənətkarlığın inkişafı yüksək səviyyəyə çatmışdı. İstehsal olunmuş müxtəlif mallar, əsasən də mis və dəmir məmulatları, aşılanmış hazır gön-dəri və ondan hazırlanmış məhsullar Lahıca yaxın olan ərazilərə, o cümlədən, Kürdəmir, Şamaxı, Zaqatala və Quba rayonlarına, oradan da Rusiya və Gürcüstana daşınırdı. Bu daşınmanı çarvadarlar (atla yük daşıyanlar) və səhragərdlər (səyyar satıcılar) heç də rahat olmayan və təhlükəli dağ cığırları vasitəsilə həyata keçirirdilər. Səhragərdlər satdıqları mis məmulatlarının əvəzində qayıdarkən ya mis xammalı, ya da satış üçün nəzərdə tutulmuş gündəlik tələbat malları daşıyırdılar. Lahıca mis və dəmir gətirən səhragərd və çarvadarların belə bir mahnısı da vardı:

Biz gedirik ikimiz,
Dəmir, misdir yükümüz.
Girdimanla gedə-gedə
Yorğun düşür atımız [6, s.111].

Tarixçi A.Əlizadə XVIII əsrdə Lahıcda mis qabların istehsalının və metalişləmə sənətinin silahsazlıq və tökmə sahələrinin yüksək inkişaf səviyyəsini qeyd edərək yazırdı: *"Laiç (Şamaxı xanlığı) mis qabların istehsalı ilə məşhurdur... ustalar burada həm də toplar da daxil olmaqla müxtəlif silahlar da hazırlayırdılar"* [8, s.94]. Əsl usta misgər o adam sayılırdı ki, o, mis əritməkdən başlayaraq, misin döyülüb yarımfabrikat şəklinə salınması, misdöyülmə zamanı 5-9 nəfər çəkicvuranın idarə olunması, hər bir məmulatın bütün hissələrinin bir-bir hazırlanması, onların bir-birinə qaynaq edilməsi, qaynaq materialının hazırlanması, axırıncı çəkicləmə (lahıcca "traqqa") və sonda isə hazır qabın üstünə müəyyən naxışların vurulması əməliyyatlarını yüksək məharətlə yerinə yetirsin [14]. Araşdırıcı H.Quliyev *"XIX əsrdə Lahıcda 180-190 misgər karxanasının*" olduğunu qeyd etmişdir [5, s.38].

XİX əsrin axırlarında Lahıcda 7 minə yaxın əhali yaşayırdı, amma hər dəfə ictimai bir tələtüm onun əhalisini "çörəkpulu" qazanmaq və daha yaxşı yaşamaq arzusu ilə daimi yaşayış yerlərini tərk etməyə vadar edirdi. Köçüb gedənlərin əksəriyyəti sənətkarlar idi, onların köç etməsinin yuxarıda göstərilən səbəblərinə bir neçəsini də əlavə etmək olar: sənətkarlar daha az rəqabət, daha böyük bazar olan, mis xammalı daha asan əldə olunan və mis qablara daha çox tələbat olan yerlərdə yaşamaq istəyirdilər. Lahıc misgərliyi bir neçə dəfə tərəqqi və tənəzzül dövrlərini yaşadı. Lahıc misgərlik sənətinin 2015-ci ildə UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi bu qədim xalq sənətinin dünya mədəniyyəti üçün nə dərəcədə əhəmiyyətli olduğunu bir daha təsdiqləmiş oldu. Lahıcda misgərlik sənəti ilə bərabər, ənənələri hələ də yaşadılan dəmirçilik, sərraclıq, dabbağlıq və s. sənətlər lahıcların həyatında əhəmiyyətli yer tutmuşdur.

Lahıcdakı xalq sənətlərindən və bu sıradan misgərlik sənətindən belə geniş bəhs olunması səbəbsiz deyil, çünki lahıcların bir etnos kimi formalaşmasında, mə-

dəni həyatının quruluşunda, mərasimlərin, adət-ənənələrin məzmun və tərtibatında, yaratdıqları şifahi xalq ədəbi nümunələrində xalq sənətlərinin təsiri çoxdur.

"Bu sənətdə metal, su, od və s. kimi kultların izlərinə bu gün də rast gəlmək mümkündür: Lahıclarda həmişə misə və dəmirə hörmət və onların kultu mövcud olmuşdur". [15]. Hər bir lahıc ayaq altına düşmüş metal parçasının növündən asılı olmadan yerdə qalmasına dözməz, onu qaldırıb əl-ayaqdan uzaq bir yerə qoyar, "bir gün lazım olar" deyərdi. Sənətkarlar "çörək ağacı" hesab etdikləri çəkic və zindanlara xüsusi hörmət bəsləyər, hətta müqəddəs bir əşya kimi zindana and içərdilər. Misgərlər məlumat verirlər ki, ən məsuliyyətli proses sayılan misəritmə işinə başlamazdan əvvəl ustalar qüsl alar, dualar oxuyar və bədnəzərdən qorunmaq üçün bu prosesi payız və qış gecələrində həyata keçirərdilər

Misgərliyin inkişafı dəmirçilik, nalbəndlik, zərgərlik, həkkaklıq, silahsazlıq və qalayçılıqla bərabər, məişətimizdə əhəmiyyətli yer tutan dabbağlıq, sərraclıq, bənnalıq, dülgərlik, kömürçülük, dulusçuluq, aynasazlıq, sandıqsazlıq, çarvadarlıq, səhragərdlik kimi sənətlərin inkişafına da təkan vermişdi. Silahsazlıq o dərəcədə inkişaf etmişdi ki, XVIII-XIX əsrlərdə Qafqazda çaxmaqlı Lahıc tüfəngləri böyük şöhrət qazanmışdı, lahıc usta Məhəmməd Rza isə öz eskizi əsasında top düzəltmiş və 1918-ci ildə Lahıca soxulmaq istəyən silahlı erməni daşnaklarına doğru atəş açaraq qəsəbəyə girmələrinə mane olmuşdu.

Bir məsələni qeyd etmək yerinə düşərdi: misgərlik sənəti o dərəcədə inkişaf etmişdi ki, bu sənətin özünəməxsus çox zəngin terminologiyası yaranmışdı. Misgərlik həm də Lahıc mətbəxinin zənginləşməsinə təsir göstərmişdir. Hər bir mis qabın mətbəxdə öz təyinatı vardı. Məsələn, dadlı olsun deyə plovu mütləq mis qazanda, qiyməni isə mis tavada bişirirlər, su təmizlik və sərinlik üçün onu mis güyümlərdə saxlayırlar.

Yazıçı Məhbubə Hacıyevanın "Lahıc nağıllı dünyam" kitabı Lahıc haqqında maraqlı əsərlərdən biridir. Çoxillik müşahidələri, etnoqrafik məlumatları və təəssüratlarını oxucularla bölüşən müəllif füsunkar təbiətə və unikal memarlıq üslubuna malik qəsəbəni *"misgərlik sənətinin vətəni"* adlandırmış və səmimi, qonaqpərvər və baməzə lahıcların məişəti, məşğuliyyəti və mədəniyyəti ilə bağlı maraqlı məqamları qələmə almışdır [4].

Misgərlik və digər sənətlərdən belə geniş söz açmağımızın əsas səbəbi göz önündədir: lahıcların istər maddi, istər mədəni həyatındakı hər bir məsələdə misgərlik sənəti və digər onunla bağlı sənətlərin yeri və təsiri şübhəsizdir. Folklor sadəcə asudə vaxtın məhsulu olmayıb, rus yazıçısı A.Tolstoyun sözləri ilə desək, *"xalqın ləyaqəti və ağlı olub. Bu ədəbiyyat xalqın mənəvi simasını yaradaraq onu möhkəmləndirirdi, o tarixi yaddaş, onun qəlbinin bayram libasları idi, onun əməyi və ata-babalarına hörməti ilə bağlı müəyyən adət-ənənələrlə və mərasimlərlə keçən ölçüb-biçilmiş həyatını dərindən mənalandırır"* [9, s.3].

Azərbaycan folklorunun tərkib hissəsi olan Lahıc folklorunda həm ənənəvi (nağıl, əfsanə, rəvayət, sınamalar, tapmaca, bayatı, mahnı, düzgü, vücudnamə, şəbeh,

mövsüm nəğməsi), həm də qeyri-ənənəvi (şəbədə, misgər nəğməsi, nəsr formasında olan layla) janrlardan istifadə edilmişdir. Xalq sənətkarlığının geniş yayılması, məişətdə lokal dilin- tat dilinin lahıc ləhcəsinin işlənməsi, özünəməxsus məişət və mədəni həyat tərzi folklor nümunələrində özünü göstərir.

Məhəlli folklor mühitindən irəli gələn xüsusiyyətin- sənətkarlıqla, xüsusən də misgərliklə bağlılığın hiss olunduğı "Sənətkarın gücü" adlı ailə-məişət nağılının süjet xətti belədir: *bir gün qoca bir misgər öz ölümünü hiss edərək oğullarını çağırır və deyir: "Mənim balalarım, hiss edirəm ki, mən tezliklə öləcəyəm. Mən bütün həyatım boyu işləmişəm, az-çox qazancım da olub. Sənə- ən böyük oğluma qızılla dolu bir küpə verirəm". Ortancıl oğluna isə atını verir. Kiçik oğluna da öz dükanını verərək, analarının onlarla birgə yaşayacağını deyir və tapşırır ki, onu qorusunlar. Misgər bunu deyən kimi də ölür. Böyük oğul pulu götürüb Lahıcın Ərəgit məhəlləsində özünə ev tikir, evlənir və səhragərdliklə məşğul olmağa başlayır. Qoca anası da onunla yaşayır. Amma onun gəlini xəsis olduğuna görə ana ortancıl oğlunun yanına gedir. Ortancıl oğul atı götürdü, Girdimançaydan daş gətirdi və Bədöyün məhəlləsində özünə ev tikdi və mis qab satmaqla məşğul olmağa başladı. Ana ortancıl oğulun böyük evində tənha yaşamaqla çox darıxır və kiçik oğlunun dükanına gedir. Görür ki, oğlu gecə-gündüz işləyir. Oğlunun gözəl əşyalar düzəldə bildiyini görən ana soruşur:*

– Sən atanın düzəltdiyi bu köhnə mis lampanın üzərində naxışlar çəkə bilərsənmi?

– Bacararam, –deyə oğlu cavab verir və soruşur: – Amma hansı şəkilləri istəyirsən ki, çəkim?

– Sən lampanın üstündə mənim hər üç oğlumu elə canlı çəkməlisən ki, onların haqqında istədiyim hər şeyi bilim, –deyə ana bildirir.

Kiçik oğul razılaşdı və gecə anası yatarkən lampanın üstündə ananın dediyi rəsmləri çəkdi. Səhər o anasına deyir:

– Bu rəsmlər və bu lampa artıq sehrli oldu. İstədiyin vaxt onu qumla sürtsən, oğullarının taleyini öyrənə bilərsən

Ana əvvəlcə lampaya baxdı, görür ki, böyük oğlu varlı bir tacir sifətindədir, öz bağında oturub, qarşısında süfrədə plov var. Ana rəsmi qumla sürtür və bu dəfə görür ki, düz oğlunun yanında qadın paltarında bir şeytan peyda oldu, bıçaq kimi dişlərini qıcadı, plovu tamam yedi, bunun ardınca bağ, daha sonra ev gözdən itdi. İkinci dəfə ana lampanı sürtdükdə ortancıl oğlunun mis qab satmaqla məşğul olduğunu görür. Rəsmi qumla sürtən ana atın və papağının yoxa çıxmasının, oğlunun isə qocalıb tək-tənha qalmasının şahidi olur. Ana bunları görüb çox məyus olur, oğullarının halına acıyır və düşünür ki, bəlkə, kiçik oğlunun taleyi üzünə güləcək. Lampanı sürtür və görür ki, onun dükanı indi olduğu kimi qalıb, kiçik oğul da öz işi ilə məşğuldur, qabların üstündə həkkaklıq edir. Ana rəsmi sürtəndə onun ətrafında uşaqların peyda olduğunu və həmin uşaqların atalarından sənətkarlığı öyrəndiklərini müşahidə edir. Təzədən sürtür, bu dəfə də heç nə dəyişmir.

–Heç nə başa düşə bilmirəm, – ana oğluna deyir, – məni başa sal.

– Sənə nəyi başa salım, – deyə oğlu izah edir, – zaman sənətkarı və onun övladlarını dəyişə bilmir, onu alçalda bilmir. Sənət ona sığınacaq, övlad və sakit həyat bəxş edib. Digər qardaşlarım isə daha çox sərvət qazanmağa çalışdıqlarına görə həyatları tələtümlü keçəcək və ömürlərini tənha başa vuracaqlar [1, s.19-20].

Nağıldan çıxan nəticəni asanlıqla hiss etmək mümkündür, əsl sənətkar həmişə yaşayır, amma var-dövlət hərisliyi insanı sonda məhv edir. Nağılın əsas özəlliyi odur ki, o, məhz Lahıcda yaranıb. Buradakı hadisələr də misgər ailəsində Lahıcda baş verir.

Lahıcda yaşayan insanlarda həmişə belə bir inam olmuşdur: sən kim olursan-ol, mütləq bir sənətin olmalıdır. S.Ə. Şirvani bu barədə şeirlərinin birində yazır:

Bunu bizdən deyibdilər əqdəm:
Sənəti olmayan deyil adəm.
Puç olub getsə dövlətin zayə,
Yenə sənətdir əldə sərmayə [7, s.168].

Bu cəhətdən "Sənətin gücü" [14]. nağılı da maraq doğurur. Nağılın süjeti " Baftaçı Şah Abbas" nağılına çox yaxındır: burada gözəl və ağıllı bir qıza vurulmuş şahzadəyə belə cavab verilir: o zaman razı olacaqlar ki, onların bir sənətləri olsun. Şahzadə razılaşır və xalçaçılıq sənətini öyrənir. Təsadüf nəticəsində başqa bir ölkədə əsir düşən şahzadə toxuduqları xalçanın naxışları vasitəsilə ailələrinə saxlandıqları yer haqqında məlumat verir. Beləliklə, bir şahzadə kimi önəm vermədikləri sənət onları ölümdən xilas edir Bu nağıllar gənclərdə əməksevərlik, düzlük və doğma yurda bağlılıq hislərini tərbiyə edir.

Lahıcların folklorunda lirik növün qədim janrı sayılan əmək nəğmələrinə aid edilə biləcək misgər nəğməsində misgər bacarıqlı bir usta olduğu barəsində danışır, düzəltdiyi müxtəlif qabların adlarını (tava, qazan, kəfkir, güyüm və s.) çəkir. Sonda ruzisinə görə Allaha razılığını ifadə edir:

Man misgərum,dırıst minum çı güyi
Tava, gajqun, kəfgir, bəsdı, ye söyi
A xudoman rozi birom man doim,
Ruzimənə vorde bı dər ü doim. (1, s.131)
Mən misgərəm, düzəldərəm, nə desən
Tava, qazan, kəfkir, güyüm, aşsüzən.
Mən Allahımdan razı oldum daim,
Çünki ruzimi qapıma gətirib daim.

Lahıcca yaranmış bir bayatıda misgərliyə yaxın olan bir sənət növünün nümayəndəsi olan qalayçının adı çəkilir:

Qələi ti qobtıra,
Bə rutı gülob tıra.
Mənə güzət qe soxti,
Unca dirum tobtıra (1, s.122).

Qalayla sən qabını,
Səp üzünə gülabını,
Sən məni çox gözlədin,
Onda bildim tabını.

Hər bir xalqın folklorunda olduğu kimi lahıcların maraqlı tapmacaları var. Bəzi tapmacalarda sənətkarlıqla bağlı detallar öz əksini tapır: məsələn, cavabı çarıq olan Duto vini, çılto çım (Tirox) – İki burnu var, qırx gözü (Çarıq) [1, s.88]. Və yaxud Lahıc üçün səciyyəvi sənət sayılan misgərlikdə işlədilən alətlə bağlı Havoyi hıstı, cuni na (Dam) – Nəfəsi var, canı yox (Körük) [1, s.88-98] tapmacalarında bunu görmək olur.

Məqalədə aparılmış araşdırma və nümunələrin təhlili göstərdi ki, doğrudan da xalq sənətlərinin güclü inkişaf mərkəzlərindən biri olmuş və bu gün də həmin sənətlərin müəyyən qisminin yaşadıldığı Lahıc qəsəbəsində yaranmış folklor nümunələrində xalq sənətkarlığı ənənələri öz əksini tapmış və folklor örnəklərinin forma və janr xüsusiyyətlərinə təsir göstərmişdir.

Ədəbiyyat:

Azərbaycan dilində
1.Azsaylı xalqların folkloru, II cild, Bakı: Elm və təhsil, 2017 ,196 s
2.Əfəndi Rasim, Azərbaycan dekorativ-tətbiqi sənətləri(orta əsrlər) . Bakı: İşıq, 1976. 190 s
3.Əfəndiyev R.Azərbaycan bədii sənətkarığı (metal məmulatları və zərgərlik) Bakı: 1961, 66 s.
4.Hacıyeva M. “Lahıc nağıllı dünyam .Bakı: Kövsər, 2013,224 s
5.Quliyev H. Lahıc qəsəbəsində mis qab istehsalı// Azərbəycan SSR Elmlər Akademiyasının xəbərləri. №2, Bakı 1962, s.38
6.Süleymanov M. Azərbaycan diyarı Lahıc. Bakı: Vətən, 1994, 272 s
7.Şirvani Seyid Əzim. Seç. əs. 3 cilddə. III cild. Bakı: AVRASİYA PRESS, 2005, 288 səh.
Rus dilində:
8. Ализаде А. Лагич. Ист.-этнографическое исследование.Баку:Чашыоглы-,2010, 524 с
9. Аникин, В. П. Русский фольклор: учеб. пособие для вузов /-М.: Высш. шк., 1987, 285 с.
10. Гусев В.Е. Жив ли фольклор?// Живая старина.– 1995.– № 2.– С. 9
11. Фиденко Ю.Л. Специфика фольклора как особого типа культуры: Учебное пособие. – 2-е изд., доп. – Владивосток, 2014. – 29 с.
Vebresurslar:
12. http://elbib.nbchr.ru/lib_files/0/ichk_0_0000029.pdf
13. http://www.infoliolib.info/philol/putilov/9.html
Ənformatorlar:

14. Dağlaroğlu Şahməmməd, 1956, jurnalist, İsmayıllı ş.
15. Əliyev Kəbləmi, 1965, misgər, Lahıc qəs.

Д.Алиев

Место традиций народного ремесленничества в фольклоре

Резюме

В настоящей статье сначала отмечено, что фольклор –это образование от единства материальной и духовной культур. Затем рассказано о народно-ремесленнических традициях татоязычных лахыджей, живущих в поселке Лахыдже Исмаиллинского региона , а также указано на место каждого из этих ремесел в быте местного населения .

Во время исследования были затронуты вопросы, касающиеся развития и подъема народных ремесел. Здесь также отмечено о существовании около 40 видов разных ремесел. В XVIII-XX веках эти ремесла достигли самого высокого уровня и в 2015-ом году Лахыджское медное искусство вошло в список нематериального культурного наследия UNESCO.

Дальше высказаны мысли о месте этих народо-ремесленнисческих традиций в фольклорных образцах. Перечислены такие специфические особенности лахыджской фольклорной среды как этническая принадлежность населения, их быт, язык и род занятий . Особо выделено место медничества в жизни лахыджей. В статье отмечены о разделении жанров лахыджского фольклора на традиционные и нетрадиционные. Это наглядно можно увидеть в семейно-бытовой сказке «Сила мастера» , в трудовой песне, исполняемой медниками Лахыджа, в старинном обряде медников «Бабо Сади», в некоторых загадках и баяты, связанных с названиями ремесел, инструментов и изделий. Уважение к ремеслам по металлообработке стало причиной возникновения культов металлов, воды, огня и инструментов. Лахыджи особо почитали медь и железо, не терпели пренебрежения.

В конце статьи как результат исследования подтверждена роль фольклорной среды при создании каждого образца и как реальное отражение этого можно считать проявление традиций народного ремесленничества в Лахыджском фольклоре.

Ключевые слова: фольклор, народные ремесла, традиции, медничество, лахыджи,

D. Aliev

The Role of Traditional Craftsmanship in Folklore

Abstract

The following article argues first that folklore originates from the interaction of material and spiritual culture. Further it explores the traditional craftsmanship of the Lahij settlement, which speaks the Tat language, in the region of Ismaily, while highlighting the place of each trade in daily life. The questions of origin and the rise of different national trades and crafts are researched and forty kinds of trades are noted. They blossomed and reached their highest potential from the XVIII to the XX centuries. In the year 2015, the trade of the Lahij coppersmiths was listed as an Intangible Cultural Heritage of Humanity by UNESCO.

The role of traditional craftsmanship is looked into as exemplified through Lahij folklore. The particular character of ethnicity, language and way of life is described underlining the central role of the trade of coppersmithing in the settlement of Lahij. The genre of folklore is divided into traditional and non-traditional. This is shown through narrative examples like a family fairy tale "The Power of a Master," a work song of Lahij coppersmiths, the ancient rite of "Babo Sadi," through several riddles, and *bayat,* specific rhymes about the names of particular trades and their tools and artifacts. The Lahij people highly value metalworking and thus began to develop a particular worship of metals, fire, water and tools tied to their traditional trades. The Lahijans especially highly esteemed copper and bronze and scorned disrespect toward these precious metals. The conclusions of research prove the direct influence of the specific environment of craftsmanship on each quoted sample of Lahij folklore.

Key words: folklore, traditional craftsmanship, trade of coppersmith, Lahij people.

Redaksiyaya daxil olma tarixi: 20.06.2019
Çapa qəbul olunma tarixi: 15.11.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Ağaverdi Xəlil tərəfindən çapa tövsiyə olunmuşdur

FİDAN ƏLİZADƏ
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
piriyeva.fidan@inbox.ru
Hüsey Cavid prospekti

YAZILI ŞEİRDƏ AŞIQ ŞEIRI JANRLARI

Xülasə

XVIII əsr Azərbaycan lirikasında aşıq şeir şəklillərinə yazılı ədəbiyyat nümayəndələri tərəfindən geniş müraciət olunurdu. Qoşma və gəraylı janrlarının ədəbiyyatda bərqərarlaşması XV əsrdən başlayaraq Şah İsmayıl Xətainin yaradıcılığı ilə öz təsdiqini tapmışdır. XV əsr lirikasında aparıcı olan qəzəl janrı XVIII əsrdə qoşma janrı ilə əvəzləndi. XVIII əsr lirikasında əruz ilə heca vəznlərinin kəmiyyət və keyfiyyətcə dəyişmə prosesi getdi. Heca vəznində qoşma, gəraylı və bayatı yazan şairlər əruz vəznində yazılan şeirin bir sıra şəkli xüsusiyyətlərini heca vəzninə gətirdilər. Heca vəznində yazılan əsərlərdə bir sıra yeniliklər meydana çıxdı.Aşıq şeir şəkillərindən istifadə etməklə yeni və maraqlı qoşma növləri meydana gəldi. (hacayarpaq, zəncirlənmə, müstəzad qoşma). XVIII əsr lirikasında folklor üslubunun ən yaxüı yaradıcıları Molla Pənah Vaqif və Molla Vəli Vidadi olmuşdur. Onların yaradıcılığında qoşma,gəraylı janrlarına müraciət etmələri həm aşıq şeirinin yüksək inkişafı, həm də aşıqların sayının artmasına və dastan yaradıcılığının geniş hal almasına səbəb olmuşdur. Beləliklə, XVIII əsrdə klassik üslubla folklor üslubu sintez olunsada, üstünlük aşıq şeirində daha qüvvətli şəkildə təzahür edirdi.

Açar sözlər: folklor, qoşma, üslub, lirika, aşıq şeiri

XVIII əsr Azərbaycan lirikasının səciyyəvi cəhətlərindən biri də aşıq şeir şəkillərinə yazılı ədəbiyyat nümayəndələri tərəfindən geniş şəkildə müraciət olunması, xüsusilə qoşma və gəraylı janrlarının yazılı ədəbiyyatda bərqərarlaşmasıdır. Təbii ki, bu proses birdən-birə olmamış, XV əsrdən başlayaraq, Şah İsmayıl Xətayi yaradıcılığı ilə özünün təsdiqini tapmağa başlamışdır. Şah İsmayıl Xətayinin divanında heca vəzni ilə şeirlərin yer alması klassik şeirin milliləşməsi (forma, vəzn, dil və üslub cəhətdən) baxımından böyük bir addım olmuşdur.

Qələmə alınmış lirik nümunələrdən çıxış edən tədqiqatçıların araşdırmalarında bununla bağlı təhlillər yer almaqdadır: *"Ədəbi-bədii dilin milliləşməsi ədəbiyyatın janr tipologiyasının dəyişməsi iləmüşayiət olunur: bunun konkret əlaməti odur ki, XVI əsrdə aparıcı olan qəzəl janrı XVIII əsrdə qoşma ilə əvəzlənir… Lakin həmin əvəzlənmə mexaniki bir hal deyildir, çünki qəzəlin hakimiyyəti dövründə qoşma yazıldığı kimi (Ş.İ.Xətaidən M.Əmaniyə qədər), qoşmanın hakimiyyəti dövründə də qəzəl yazılır (M.V.Vidadidən S.Ə.Şirvaniyə qədər, eləcə də sonra), eyni bir sənətkarın este-*

tik təfəkküründə qəzəllə qoşma eyni zamanda mövcud olur (Ş.İ.Xətaidən M.P.Vaqifə, hətta Q.Zakirə qədər). Tədqiqatçıların müşahidəsinə görə, məhz XVII-XVIII əsrlərdə qəzəl standartları (söhbət dil-ifadə tərzindən gedir) qoşma strukturu tərəfindən mənimsənilir ki, bu da, prinsip etibarilə, ədəbi-bədii dildə klassik üslubla folklor üslubunun dialektikasının təzahüründən başqa bir şey deyil". (7, s. 399) Göründüyü kimi, N.Xudiyev tərəfindən XVIII əsr "qoşmanın hakimiyyəti" dövrü adlandırılmışdır.

Yazılı ədəbiyyat nümayəndələrinin yaradıcılığında aşıq şeir şəkillərinin getdikcə bərqərar və hakim olması, həqiqətən də,qeyd olunan fikri təsdiq edən amillərdən biridir. XVIII əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Molla Pənah Vaqif və Molla Vəli Vidadi yaradıcılığında xüsusilə qoşma və gəraylı janrlarına müraciət edilməsi onların lirikasının məzmun mündəricəsindən irəli gəldiyi kimi, aşıq şeirinin həmin yüzillikdə yüksək inkişafı, aşıqların sayının artması, dastan yaradıcılığının daha geniş hal alması bağlı idi. *"Bu illərdə yaşayıb-yaradan şairlər əsasən Füzuli ədəbi məktəbini davam etdirir, Füzulinin mütərəqqi cəhətlərini inkişafa çalışırdılar. Lakin həmin əsrdə şifahi xalq ədəbiyyatının təsiri qüvvətlənməyə başlayır. Azərbaycan şairləri heca vəznində qoşmalar yaratmağa, Abbas və Aşığın ədəbiyyata gətirmiş olduqları xüsusiyyətləri davam etdirməyə çalışırlar.... Cavan yazıçıların çoxusu Abbas və Sarı Aşıq kimi qoşmalar yaradır, xüsusən bayatılar yazmağa cəhd edirdilər. Vidadi və Vaqif bu illərdə yaradıcılığa başlayıb, şifahi xalq şeri təsirində əsərlər yaradırdılar. Xalq ədəbiyyatına olan bu meyl getdikcə qüvvətlənir, dil sadələşir, şifahi xalq şerinin şəkli xüsusiyyətləri ədəbiyyatda vətəndaşlıq hüququ qazanmağa başlayırdı".* (2, s. 181-182)

Beləliklə, aşıq şeirinin təsiri altında XVIII əsrdə yazılı ədəbiyyat forma cəhətdən dəyişikliyə uğrayır. Artıq Molla Vəli Vidadi, Molla Pənah Vaqif kimi yazılı ədəbiyyat nümayəndələrinin də yaradıcılığında aşıq şeirinin şəkillərindən geniş şəkildə istifadə edilir. XVIII əsrdə diqqəti cəlb edən janrlardan biri də vücudnamələrdir. Bu baxımdan şair Salehin vücudnaməsi həmin əsrdə insan ömrünün təsvirinə həsr olunmuş bir şeir nümunəsi kimi seçilir.

XVIII əsr lirikasında qoşma, gəraylı və bayatıları ilə yadda qalan, folklor üslubunun ən yaxşı yaradıcılarından biri Molla Vəli Vidadidir. Vidadi qoşmalarında qəzəli "qəmgin şeir" olaraq dəyərləndirir və kədərli günlərində dərdinə mərhəm olduğunu qeyd edir, lakin bunu qoşma janrında ifadə edir:

Oxuduqca qəmgin şeiri-qəzəli,
Köhnə yaraların bir-bir təzəli,
Yada düşər keçən günün əzəli,
Bir gün olur vətən deyib ağlarsan.

Yada düşər bağçaların, bağların,
Ala qarlı, boz dumanlı dağların,
Qocalırsan keçər cavan çağların,
Bir gün olur vətən deyib ağlarsan. (5, s. 15)

Vidadi XVIII əsr lirikasında həm klassik, həm də folklor üslubunun davamçısı kimi çıxış edir. O, xüsusilə qoşma janrında qələmə aldığı şeirlərində fərdi üslubdan qaynaqlanan kədərini həzin bir dillə ifadə edir:

Ta ki, xəbər gəldi xublar şuxundan,
Əl çəkdim cahanın varü yoxundan.
Qəmzə xəncərindən, müjgan oxundan
Cigər parə-parə, dil şanələnmiş.

Vidadi xəstəyəm, ey gözüm sağı,
Artıbdır sinəmin düyünü, dağı,
Bir qəmzəsi qanlı, hərami, yağı
Çapdı könlüm şəhrin, viranələnmiş. (5, s. 29)

Vidadi təcnis janrında yazdığı dördlüklərdə də cinas qafiyələrlə, eyni və ya oxşar sözlərlə müxtəlif fikirlər bildirir:

Ey dəhanı şəkər, ləbləri badə,
Gün camalın eşq əhlinə ***ayinə.***
Üzün gördü şeyda könül məst oldu,
Nə hacət ki, həşr olunca ***ayinə.***

Səni məndən, məni səndən ***sanaram,***
Tanrı üçün uzaq tutma ***sən aram****.*
Vüsalından ayrılalı ***sanaram****,*
Yetə bilməm həftəsinə, ayına.

Sənsiz mənə dolandıqca ***sal, sənə,***
Əşkim dərya, cismim oldu ***sal sənə****.*
Nolur niqabını üzdən ***salsənə***
Günəş göydə səcdə qıla, ay enə.

Neçin kəsdin sinəm üstən ***ayaqlar,***
Üzün göstər, sərməst olsun ***ayıqlar.***
Həsrət çeşmim, qan-yaş tökər, ***ay ağlar****,*
Gördüm ola bir də üzün, ayə, nə?

Vidadiyi-xəstə ***oxu miyandır****.*
Qur sən tər sadağın ***oxumu yandır****,*
Kim hüsnün kitabın ***oxumayandır****,*
Nə bilir ki, hədis nədir, ayə nə? (5, s. 32-33)

Beş bənddən ibarət təcnisin hər bəndinin ilk üç misrasında cinas qafiyələr diqqəti cəlb edir. İlk bənddə işlənən "ayinə" sözü isə sonrakı dördlüklərdə "ayına", "ayə nə", "ayə, nə" ""ayə nə" kimi sözlərlə verilir.

Vidadi gəraylı janrında da folklor üslubunun təmsilçisi kimi çıxış etmiş, səkkiz hecalı şeirlə də vəfalı bir yar axtarışında olmuşdur:

Könül səbrü qərar etməz
Gedər yar olmayan yerdə,
Məhəbbət payidar olmaz
Vəfadar olmayan yerdə.

Vəfa qıl bir vəfadarə,
Ulaşma hər biiqrarə,
Mətain atma bazarə
Xiridar olmayan yerdə. (5, s. 35)

Vidadinin yaradıcılığında aşıq şeir şəkillərindən bayatı da diqqəti cəlb edir. Vəli təxəllüsü ilə yazdığı bayatılarda şair dörd misralıq mənzum parçalarla qəriblik və aşiqlik duyğularını dilə gətirmişdir:

Vəliyəm qanad ilə,
Üz tutdum qan adilə,
Xəyalım gedən yerə.
Quş getməz qanadilə.

Göründüyü kimi, Vidadi cinas bayatılar yazmış və həmin dördlüklərdə ellilərinə üz tutaraq dərdlərini izhar etmişdir:

Vəliyəm, ay Qazağlar,
Dərd sızlar, ay göz ağlar,
Tülək tərlan yurduna
Qonmasın ay qaz, ağlar.

Qoşma və qəzəllərində olduğu kimi, bayatı janrında qələmə aldığı şeirlərdə də Vidadi şikayət dolu ifadələr işlətmişdir:

Vəliyəm, səna dilə,
Üz dutdum sən adilə,
Dövran mənə zülm etdi,
Gəlmişəm sana dilə. (5, s. 40)

Beləliklə, Vidadi gəraylı, qoşma və bayatı şəkillərində, folklor üslubunda əsərlər yazmışdır.

Molla Pənah Vaqif də Qarabağ elində şifahi xalq yaradıcılığına məxsus olan bayatı janrının işləkliyini vurğulamış, hətta onu Musa peyğəmbərin yədi-beyzasına bənzətmişdir:

Qarabağ içrə bir şair kəlimullah Musadır,
Cavanşir içrə bir mövzun bayatı dəsti-beyzadır. (6, s. 84)

Həmid Araslı aşıq şeirinin yazılı ədəbiyyata təsirini açıqlayarkən cəmiyyətdə onların nüfuzunun artması ilə bağlayır. Azərbaycan ədəbiyyatında aşıq şeirinin nüfuzunun artması yüksək dairələrdə aşıqlara olan diqqət və qayğıdan qaynaqlanırdı. Xan saraylarında aşıqların hörmətli şəxslər olması, məclislərdə onların xüsusi yer alması bunu şərtləndirirdi: *"Xüsusən Azərbaycan xanlıqlarının çoxu mənşə etibarilə köçəri tayfalara mənsub olduqlarından aşıq şeri əyan-əşrəf məclislərinə də yol tapmışdı. Qarabağ, Qaradağ xanlıqlarında, hətta II İraklinin sarayında da sənətkar aşıqlar və aşıq tərzində şeir yazan şairlər yaşayır, yaratdıqları qoşmaları məclislərdə sazla, kamança ilə icra edirdilər. Məclislərdə aşıq şeirləri daha artıq qiymətləndirilirdi. Klassik üslubda şeir yazan şairlər də aşıq şeri tərzində qoşmalar yazmağa meyl edirdilər. Azərbaycan dastanları sırasına yeni, məişətlə əlaqədar temalar gəlir, məhəbbət mövzusu ilə yanaşı, məişət məsələlərinə həsr edilmiş dastanlar da yaradılırdı. Şairlərin çoxu heca vəznində yazmağa çalışdıqları kimi, saz çalmaları ilə də aşıqları təqlid edirdilər. Məşhur Azərbaycan şairi Vaqif ,Vidadi, Xəstə Qasım, Saleh Şirvani və başqaları eyni zamanda gözəl saz çala bilirdilər. Bütün bunlar aşıq şeirinin kütləviləşməsinə və geniş surətdə yayılmasına, yazılı ədəbiyyata qüvvətli təsir göstərməsinə səbəb olurdu".* (2, s. 212-213)

Vaqifin də yaradıcılığında aşıq şeirinin təsiri güclüdür, onun poeziyası qoşma və təcnislərlə səciyyəvidir. Onun qoşmaları əsasən məhəbbət və gözəllik mövzusundadır. Vaqif qoşmanı öz poeziyasında "qafiyə" adlandırmışdır:

Özgə ilən hərgiz olmaya işi,
***Qafiyə**, qəzəldən həm çıxa başı,*
Bulaq tək qaynaya həm gözü qaşı,
Artıq ola həm kəmalı gözəlin! (4, s. 77)

Qəzəl və qafiyəni (qoşmanı) yarın vəsfində iki əsas janr kimi qəbul edən Vaqif əslində öz sevgisini ikincidə daha yaxşı ifadə etdiyini də vurğulamışdır:

Vaqif, canan ilə tər oldu ara,
İmdad sənə qaldı, eylə bir çara,
*Bir **qafiyə** qayır, göndər ol yara,*
Bəlkə, dərdimizə dəvalar olsun. (4, s. 91)

Vaqifin qoşma yaradıcılığı XVIII əsrdə folklor üslubunun özünütəsdiqi və klassik üslubun tənəzzülü ilə bağlı idi: *"XVIII əsrdə klassik üslubun tənəzzülü, ardıcıl olaraq, folklor üslubunun özünütəsdiqi ilə tamamlanır; Vidadinin, Vaqifin, "Şəhriyar"ın dili həmin özünütəsdiq prosesinin məntiqini (və nəticəsini) əks etdirir".* (3, s. 154) Qarabağ sarayında yaşayan Vaqif dilinin sadəliyi ilə əsrdaşları üçün bir örnək olur. Vaqifin poeziyasında təcnislərin də yer alması və aşıq şeirinin yazılı ədəbiyyatda özünə yer tapması və təsdiqlənməsi ilə əlaqədar idi. Vaqif təcnislərində də gözəllik aşiqi kimi çıxış edir.

Qamətin, gərdənin, ***boyun*** *gözəldir,*
Müşkin, ireyhanın, ***buyun*** *gözəldir,*
Səni sevən deyir ***bu ən*** *gözəldir,*
Hərgiz olmaz bu dünyada belə qız. (4, s. 140)

Təcnisdə Vaqif gözəlliyi bütün zahiri əlamətləri ilə vəsf etməyə çalışır, öz sevgisini günəş camallı gözələ cinas qafiyələrlə izhar edir:

Götür günəş camalından ***ol ağ yar****,*
Sən bəri bax, qoy söylənsin ***ol əğyar****,*
Rəqib ölsün, biz ikimiz ***olaq yar,***
Nə var ondan qeyri canan dağına.

O cavanın ömrü nurdur, ***yaşı nur****,*
Səg rəqibin tök gözündən ***yaşü nur****,*
Məni görcək bilməm nöşün ***yaşınır****,*
Salır camalını canan dağına. (4, s. 142)

Vaqif klassik ədəbiyyat nümayəndələrinin adlarını çəkərək onlardan daha artıq bir şəkildə gözəlliyi vəsf etdiyini bildirməkdədir:

Mən sənin vəsfini, ey mahi-kərəm,
Hafizdən, Camidən artıq söylərəm,
Haqq bilir ki, səni necə istərəm,
Ay biməfa, qədirbilməz, bəri bax!(4, s. 127)

Vaqif sənətinin böyüklüyü ondadır ki, xələflərinin müraciət etdikləri obrazları, hadisələri o aşıq şeiri şəkillərində ifadə edirdi. Klassik ədəbiyyatda dillər əzbəri olan aşiqlər – Fərhad, Şirin, Məcnun və digərləri onun da məhəbbət lirikasında xatırlatdığı obrazlardır:

Mən Fərhadam, sən bir Şirin dəhansan,
Dərdin zahir, amma özün nəhansan,
Gözəllik babında şahi-cəhansan,
Eşiyində yüz min qullar dolanır.

....Ləblərin bağrımı pürxun eyləmiş,
Axıtmış göz yaşım Ceyhun eyləmiş,
Həsrətin Vaqifi Məcnun eyləmiş,
Onun üçün gəzir çöllər dolanır. (4, s. 112)

Təbii ki, Vaqif realizminin qüdrəti ilə qələmə alınmış qoşmalarda folklor üslubunun təsiri ilə gözəlin canlı obrazları sadə bir dillə yaradılmağa çalışılır. Vaqifin qoşmalarındakı məşuq obrazları təxəyyüli bir aləmdə deyil, doğulub-böyüdüyü, boya-başa çatdığı Qazax mahalındakı gözəllərdir:

Bir bölük yaşılbaş sonalar kimi,
Yığılıb gəlibdir Qazağa qızlar,
Ayna qabağında qara qaş ucun
Endirib gətirmiş qulağa qızlar. (4, s. 97)

Beləliklə, Vaqif həmin gözəllərin sadəcə camalını deyil, sığalını, etnoqrafik görkəmini də məhz qoşma janrında yazdığı şeirlərdə təqdim edir. Xələflərindən fərqli olaraq Vaqif sadə bir kənd gözəlinin anlayacağı bir üslubla ona müraciət edir və arzusunu dilə gətirir:

Arzum budur, gözüm tikəm gözünə,
Danışasan, qulaq verəm sözünə,
Ta ölüncə baxım günəş üzünə,
Arzum canda qalıb, doyan deyiləm. (4, s. 55)

Başqa bir halda isə Füzulinin ərəb və fars tərkibləri ilə qəzəl janrında ifadə etdiklərini Vaqif realist üslubda öz oxucularına təqdim edir:

Ey Kəbəm, Kərbəlam, Məkkəm, Mədinəm,
Bir zaman kuyində ziyarətimdir.
Qiblə deyib, qaşlarına baş əymək –
Gecə-gündüz mənim ibadətimdir. (4, s. 108)

Nizami Cəfərov Molla Pənah Vaqiflə bağlı araşdırmasında Füzuli-Vaqif təsirini xüsusilə qeyd edir və yuxarıda verdiyimiz nümunələrə bənzər örnəklərlə fikrini əsaslandırır.

Beləliklə, XVIII əsr lirikasında əruz və heca vəznlərinin kəmiyyət və keyfiyyətcə dəyişməsi prosesi gedir: *"Heca vəznində qoşma, gəraylı və bayatı yazan şairlər əruz vəznində yazılan şerin bir sıra şəkli xüsusiyyətlərini heca vəzninə gətirirlər. Beləliklə, əruz vəznində olduğu kimi heca vəznində yazan şairlərin əsərlərində də bir sıra yeniliklər meydana gəlir. Bir tərəfdən əruz vəzninin şəkli xüsusiyyətlərindən, o biri tərəfdən də aşıq şeirinin şəkli cəhətlərindən istifadə edən sənətkarlar yeni və maraqlı qoşma növləri yaradır, haçayarpaq (çarpa), zəncirləmə (rəddüləcəz), müstəzad qoşma və s. Yeni və maraqlı şeir şəkilləri meydana çıxır. Aşıqların müxəmməs adlandır-*

dıqları, lakin hər bəndi on misra olan şeirlər heca ilə əruzun şəkli bir sintezi olaraq meydana çıxır".(1, s. 210-211) XVIII əsrdə, ümumiyyətlə, klassik üslubla folklor üslubu sintez olunur. Vidadi və Vaqifin qəzəl və qoşma yaradıcılığı bunu sübut edir. Lakin üstünlük ikincidə olur, aşıq şeirinin təsir gücü daha qüvvətli bir şəkildə diqqəti cəlb edir.

Beləliklə, yazılı ədəbiyyat nümayəndələrinin də aşıq yaradıcılığına maraq və meyli artır, həqiqətən də Vaqif və Vidadi yaradıcılığında aşıq şeirinin təsirilə qoşma və gəraylıların ən yaxşı nümunələri yaradılırdı.

Təbii ki, XVIII əsrdə yazılı ədəbiyyatda baş verən xəlqiləşmə şifahi xalq ədəbiyyatından qaynaqlanan bir proses idi: *"XVIII əsrdə Azərbaycan şerində görünən realist meyllər bu əsrin ikinci yarısında xeyli genişlənib qüvvətlənir. Füzuli davamçılarından fərqli olaraq realizmə meyl göstərən sənətkarlar əsas qüvvəni xalqdan, xalq məişətindən, onun şifahi ədəbiyyatından alırlar. Onlar eyni zamanda xalq şerinin şəkli xüsusiyyətlərini daha üstün tutur, heca vəznində şeir yazır və öz obrazlı ifadələrini xalq məişətindən alırdılar".* (2, s. 226)

XVIII əsr müəlliflərindən Aşıq Əli də heca vəznli şeirləri ilə ədəbiyyat tarixindən yer alan şəxsiyyətlərdəndir. Onun Mirzə Yusif Qarabaği tərəfindən mürəbbe adlandırılab aşağıdakı qoşması müəllifin yaradıcılıq imkanlarını göstərən qaynaqlardandır:

Nə saətdə gəldim dünya evinə,
Şum sitrarə, baxtı bağlı olmuşam.
Taleyim bəd, günüm qara, cəfakeş,
Hicran evli, dərd otaqlı olmuşam.

...Əliyəm, çox çəkdim dərdü bəladan,
Qəm əl götürmədi məni-mübtəladan,
Aləmi-ərvahda qalü bəladan,
Xun cigərli, qara dağlı olmuşam. (6, s. 106)

On bir hecalıq vəzndə yazılmış şeirdə Vidadi poeziyasının ruhuna uyğun bir dillə taledən şikayət edilir. Aşıq Əli müstəzad janrında da qələmini sınamış şairlərdəndir. Həmin müstəzadı isə Qarabaği tərəfindən qəzəli-müstəzad adlandırılmışdır:

Ey sərvi-səhi, sən gələli seyr eylə bağə,
Baş çəkmədi ər-ər,
Çox ali nəsəblər özünü saldı ayağə,
Qul oldu sənubər.
...Dünyada əgər Əli özü ağlaya, getsə,
Zülfün həvəsindən,
Rəhmət yağışı torpağının üstünə yağə,
Qəbri ola ənvər. (6, s. 107-108)

Mirzə Yusif Qarabağı mürəbbe dedikdə, ümumiyyətlə, dörd misradan ibarət mənzumələri nəzərdə tutur. Çünki Mirzəcan bəy Mədətovun gəraylısını da mürəbbe adı altında təqdim etməkdədir:

Necə dözsün bu dərdlərə,
Bənim bu biçarə canım!
Vətənindən, yar yanından,
Olubdur avarə canım.

Mirzəcan, etmə həvəs,
Bu dünyadan təmən kəs,
Qoymazlar çəkəsən nəfəs,
Dönübsən divarə canım. (6, s. 116)

Əvvəlki əsrlərdə aşıq şeirinə müraciət intensiv xarakter daşımasa da, XVIII yüzillikdən şeirin axarı fərqli istiqamətə yönəlir. Göründüyü Vaqif başda olmaqla, Azərbaycan poeziyasında xəlqiləşmə qüvvətlənir, artıq "əruzun hegemonluğu" dövrü geridə qalır. XVIII əsr Azərbaycan lirikası xalq şeiri janrlarından istifadə ilə səciyyələnir.

Ədəbiyyat siyahısı

1. Araslı Həmid. XVIII əsrdə tarixi mənzumələr. Azərbaycan SSR Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri. Ədəbiyyat Məcmuəsi, Bakı, Azərbaycan SSR EA Nəşriyyatı, 1948.
2. Araslı Həmid. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi (ali məktəblər üçün dərslik). Bakı, Azərbaycan Universiteti Nəşriyyatı, 1956.
3. Cəfərov Nizami. Molla Pənah Vaqif. Bakı, Renessans-A nəşr evi, 2017.
4. Molla Pənah Vaqif. Əsərləri. Bakı, Şərq-Qərb, 2004.
5. Molla Vəli Vidadi. Əsərləri. Bakı, "Öndər nəşriyyat", 2004.
6. Qarabağı Mirzə Yusif. Məcmueyi-Vaqif və müasirini-digər. Bakı, Şuşa nəşriyyatı, 1999.
7. Xudiyev Nizami. Azərbaycan ədəbi dili tarixi. Ali məktəblər üçün dərslik. Bakı, "Elm və təhsil", 2012.

F.Alizade

Genres of ashug poetry in written poetry

Summary

In the eighteenth century Azerbaijani lyricism, ashug poetry was widely used by literary representatives. The establishment of goshma and garayly genres in literature has been confirmed by the works of Shah Ismail Khatai since the fifteenth century. In the XV century poetry the leading genre – ghazal genre was replaced by a goshma genre in the XVIII century. In the eighteenth century, the process of quantitative and qualitative

change of syllabic and aruz metres was underway. The poets who write goshma, garayly and bayaty in syllabic metre have brought some of form specialities of poems what have written in aruz metre to syllabic metre. A number of innovations have appeared in the works written in syllabic metre. Using ashug poetry appeared new and readable goshma types (hacayarpaq, zancirlanma, mustazad goshma). Molla Panah Vagif and Molla Vali Vidadi were considered the best creators of folklore in XVIII century poetry. Their use goshma and garayly genres in their creativities have contributed to the development of ashug poetry, as well as increasing number of ashug and outspread of saga creativity. Thus, although the classical style was synthesized with folklore style in XVIII century, the dominance of the ashug poetry was more appeared.

Keywords: folklore, goshma, style, lyrics, ashug poetry.

Ф.Ализаде

Жанры ашугской поэзии в письменной поэзии

Резюме

В Азербайджанской лирике XVIII века представители письменной литературы часто обращались к традиционным формам ашугской поэзии. Установление жанров «гошма» и «гарайлы» в письменной литературе началось еще в XV в. и нашло подтверждение в творчестве Шах Исмайила Хатайи. Ведущий жанр лирики XV в «газель», уже в XVIII в. был заменен жанром «гошма». Одновременно в лирике XVIII в. идет процесс количественного и качественного изменение в классическом аруде и обычной слоговой метрике. Поэты, написавшие «гошма», «гарайлы» и «байаты» в обычном размере, привели некоторые формы стихов арудской метрики в стихи слоговой метрики. В произведениях слоговой метрики появились новые элементы. На основе традиционной форме ашугской поэзии «гошма» появились ее новые и интересные виды (хаджайарпаг, цепочка-занджирлама, мустазад-гошма). Самые яркие представители фольклорного стиля в лирике XVIII в. Мулла Панах Вагиф и Мулла Вели Видади. Они в своем творчестве часто обратились к формам «гошма» и «гарайлы» и в последствии ашугская поэзия и народный дастан получили большое развитие.Таким образом, в Азербайджанской лирике XVIII века происходит своеобразное сочетание классического и фольклорного стиля, но здесь преобладает ашугская поэзия.

Ключевые слова: фольклор, гошма, стиль, лирика, ашугская поэзия

Redaksiyaya daxil olma tarixi: 20.09.2019
Çapa qəbul olunma tarixi 14.12.2019
Filologiya elmləri doktoru Mahirə Quliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

MÜNDƏRİCAT

DİLÇİLİK

AFAQ AĞAYEVA
GÖRÜŞMƏ ETİKETLƏRİ 3
НАРГИЗ СЕИДОВА
ЛЕКСИЧЕСКИЕ ОСОБЕННОСТИ РЕЧЕВЫХ АКТОВ
БЛАГОПОЖЕЛАНИЙ И ПРОКЛЯТИЙ ВО ФРАНЦУЗСКОМ ЯЗЫКЕ 10
RƏHİLƏ HÜMMƏTOVA
TOVUZUN DİALEKT LEKSIKASINDA ALINMA SÖZLƏR 17
MƏFKURƏ HÜSEYNOVA
MÜASİR AZƏRBAYCAN DİLİNİN ÜSLUBLARI 24
FIZULİ MUSTAFAYEV
KİNOSSENARİ VƏ EKRAN DİLİNDƏ MƏNANIN İZAHI 30
ALLAHVERDI HACIYEV
AZƏRBAYCAN HİDRONİMLƏRİİNİN
LEKSİK-QRAMMATİK XÜSUSİYYƏTLƏRİ 38
VAFA MAHARRAMOVA
METOD OF USING TEACHING MATERIALS İN THE PLANNING
FORMAT OF THE ENGLISH LESSONS 48
TAMAM MEHRABOVA
TÜRK DASTANLARINDA FITONIM
MƏNŞƏLI ONOMASTIK VAHIDLƏR 53
LƏTAFƏT ƏLİYEVA
NİTQ AREALI VƏ PLEONAZM HADİSƏSİ 60
GÜLNARƏ CABBAROVA
SƏHRAYƏ NƏBİYEVA
AZƏRBAYCAN DİLİNDƏ SİNTAKTİK BİRLƏŞMƏLƏRDƏ
İNGİLİS DİLİ MƏNŞƏLİ SÖZLƏRİN LEKSİK-SEMANTİK
VƏ MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ 69
AFAQ MƏMMƏDOVA
XARƏZMİN TÜRKCƏLƏŞMƏSİ VƏ XARƏZM TÜRKCƏSİNDƏ
YAZILAN ƏSƏRLƏR 74
MƏHƏRRƏM ORUCOV
LE ROLE IMPORTANT DES MOYENS AUDIO-VISUEL S DANS
L' ENSEIGNEMENT DU FRANÇAIS 89
TÜNZALƏ ƏKBƏROVA
MÜASİR İNGİLİS DİLİNDƏ TOPONİM SÖZLƏRİN
LEKSİK- SEMANTİK VƏ STRUKTUR XÜSUSİYYƏTLƏRİ 96
KÖNÜL FƏRƏCBƏYLİ
DİL FAKÜLTƏLƏRİNDƏ ŞİFAHİ NİTQ VƏRDİŞLƏRİNİN
İNKİŞAF ETDİRİLMƏSİNİN SƏMƏRƏLİ YOLLARI 101
ИЛАХА ГУРБАНОВА
СРАВНЕНИЕ ТЕРМИНОВ РОДСТВА В НЕКОТОРЫХ
ДИАЛЕКТАХ ТЮРКСКИХ ЯЗЫКАХ 106

AMALİYA PAŞAYEVA
HİND-İRAN DİLLƏRİNDƏ SONQOŞMA SİSTEMİ 112
MAYA ŞÜKÜROVA
ÜMUMİ DİLÇİLİKDƏ EKSPRESSİVLİK KATEQORİYASI VƏ
ONUN ÖYRƏNİLMƏSİ TARİXİNDƏN 119
İRADƏ SULTANOVA
AZƏRBAYCAN VƏ FARS DILLƏRININ TIMSALINDA DILLƏRIN
QARŞILIQLI ƏLAQƏSI HAQQINDA 124
KÖNÜL NƏCƏFOVA
BEYNƏLXALQ İŞGÜZAR YAZIŞMALARIN
DİL XÜSUSİYYƏTLƏRİ 137
AYGÜN İBRAHİMOVA
ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ XARİCİ DİLİN TƏDRİSİ
PROSESİNDƏ TEXNİKİ VASİTƏLƏRDƏN İSTİFADƏ
EDİLMƏSİ METODİKASI (İngilis dili materialları əsasında) 142
FİRƏNGİZ PƏNAHOVA
İNGİLİS DİLİNDƏN AZƏRBAYCAN DİLİNƏ YENİ SÖZLƏRİN
TƏRCÜMƏSİ PROSESİNDƏ NƏZƏRƏ ÇARPAN
UYĞUNLUQLAR VƏ ÇƏTİNLİKLƏR..... 147
NURİYYƏ RZAYEVA
İNGİLİS DİLİNİN KANADA VARİANTI İLƏ BRİTANİYA VARİANTI
ARASINDA FƏRQLİ FONOLOJİ XÜSUSİYYƏTLƏR 152
ZEMFİRA MƏMMƏDOVA
INGILIS DİLİNIN TƏDRİSİ PROSESİNDƏ TEXNİKİ
VASİTƏLƏRDƏN İSTİFADƏ EDİLMƏSİNİN METOD VƏ ÜSULLARI . 157
GÜLXANIM İMRANOVA
İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNDƏ AMERİKANİZMLƏR VƏ
ONLARIN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ 162
MİRANƏ ƏFƏNDİYEVA
BEYNƏLMİLƏL DİL KİMİ İNGİLİS DİLİNİN DÜNYA DİLLƏRİ
TƏSNİFATINDA TUTDUĞU MÖVQE,ROLU VƏ AZƏRBAYCANDA
ONUN ÖYRƏNİLMƏSİ 167
XAVƏR HACIYEVA
İNGİLİS DİLİNİN ƏNƏNƏVİ TARİXİ ASPEKTDƏN DİALEKTLƏRƏ
BÖLÜNMƏSİ VƏ QLABOLLAŞAN DÜNYADA ONUN ROLU 172
ŞƏFİQƏ HEYDƏROVA
SEVİNC HACIYEVA
ORTA ƏSRLƏR İNGİLİS ƏDƏBİ DİLİNİN TƏŞƏKKÜLÜ,İNKİŞAFI
VƏ İNGİLİS DİLİ YENİ DÖVRÜNÜN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ..... 177
MÜŞFİQƏ ABBASOVA
İNGILIS DILINDƏ LEKSİK VƏ QRAMMATIK MATERİALIN
İNTERAKTİV METOD ILƏ TƏDRIS OLUNMASI 182

ELFİRA BAĞIRZADƏ
ƏDƏBİ DİL NORMALARININ FORMALAŞMASINDA ŞİRVAN
DIALEKT FAKTORUNUN ROLU VƏ ƏHƏMİYYƏTİ 187
FƏRİDƏ SƏFƏRƏLIYEVA
İBTİDAİ SİNİFLƏRDƏ ORFOQRAFIYA-ORFOEPİYA
MƏSƏLƏLƏRİNİN ÖYRƏDİLMƏSİ 192
GÜLXAR HÜSEYNOVA
LAYİHƏ METODU VƏ ONUN XARİCİ DİLLƏRİN
TƏDRİSİ PROSESİNƏ TƏTBİQİ 200
TƏRANƏ ZEYNALOVA
AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNİN ZƏNGİNLƏŞMƏSİNƏ
TƏSİR EDƏN SİYASİ- İQTİSADİ AMİLLƏR 205
LEYLAXANIM NƏCƏFOVA
İNGİİLİS-AZƏRBAYCAN DILLƏRİNDƏ ELLİPTİSİZMLƏR VƏ
ONLARIN QARIŞILIQLI MÜNASİBƏTLƏRİ 210
KƏMALƏ MEHDİXANLI
İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESİNDƏ FONETİK,LEKSİK VƏ
QRAMMATİK SƏHVLƏRİN ARADAN QALDIRILMASININ METOD
VƏ ÜSULLARI 215
MƏHBUBƏ MƏMMƏDLİ
SÖZLƏRİN VARİATİVLİYİ HAQQINDA 220
NAİLƏ QULİYEVA
SOMATİK FRAZEOLOGIZMLƏRİN
LEKSİK –QRAMMATİK SƏCİYYƏSİ 225
HÜZURƏ AĞAYEVA
ORTA MƏKTƏBLƏRİN İBTİDAİ SİNİFLƏRİNDƏ ŞİFAHİ NİTQİN
İNKİİŞAF ETDİRİLMƏSİNİN LİNQVISTİK ƏSASLARI
(İNGİLİS DİLİ MATERİALLARI ƏSASINDA) 230
ARZU ƏMİRASLANOVA
ВЛИЯНИЕ БИБЛИИ НА ФОРМИРОВАНИЕ
АНГЛИЙСКИХ ФРАЗЕОЛОГИЗМОВ 237
AYŞƏN ZEYNALOVA
SİYASİ DİSKURS LİNQVİSTİK FENOMEN KİMİ 242
SƏDAQƏT QASIMOVA
NİTQ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASINDA
SOSİAL ŞƏBƏKƏLƏRİN ROLU 250
SEVINC HÜMBƏTƏLIYEVA
AZƏRBAYCAN DİLİNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ
VƏ MÜASİR DÖVRDƏ ONUN TUTDUĞU MÖVQE 255
NİGAR HƏSƏNOVA
ŞƏFƏQ MƏHƏRRƏMOVA
İNGİLİS DİLİ FRAZEOLOGİZMLƏRİNƏ AİD
DİLÇİ ALİM- TƏDQİQATÇILARIN RƏY VƏ MÜLAHİZƏLƏRİ 260

PAKİZƏ MƏMMƏDZADƏ
DİLİNDƏ CADƏ CÜMLƏNİN LEKSİK-SEMANTİK
VƏ STRUKTUR XÜSUSIYYƏTLƏRİ (Azərbaycan dili ilə müqayisəli şəkildə) ...265
XURAMAN QURBANOVA
TÜRK MƏNŞƏLI SÖZLƏRIN ALMAN DILINDƏ LEKSIK SEMANTIK
VƏ FONETIK XÜSUSIYYƏTLƏRI 270

ƏDƏBİYYATŞÜNASLIQ

PƏRİXANIM SOLTANQIZI (HÜSEYNOVA)
Ə. XAQANİNİN YARADICILIĞINDA TƏBİƏTİN TƏSVİRİ 275
AYGÜN ƏHMƏDOVA
TƏMSİLLƏRİN UŞAQ ƏDƏBİYYATINDA ROLU 280
ZƏRİFƏ AVİLOVA
ZƏRİFƏ MƏMMƏDOVA
İSLAMDA ELM, BILIK, ƏXLAQ VƏ MƏNƏVIYYAT 288
AYNUR BƏDƏLOVA
LEV TOLSTOY NƏSRİNDƏ PSİXOLOGİZM 297
AYNURƏ QURBAN
«FƏRHAD VƏ ŞİRİN» FOLKLOR MÜSTƏVİSİNDƏ 304
DADAŞ ƏLİYEV
FOLKLORDA XALQ SƏNƏTKARLIQ ƏNƏNƏLƏRININ YERİ 312
FİDAN ƏLİZADƏ
YAZILI ŞEİRDƏ AŞIQ ŞEIRI JANRLARI 321

«Elm və təhsil» nəşriyyatının direktoru:
Filologiya elmləri doktoru, professor Nadir MƏMMƏDLİ

Dizayn: Kamran İbrahimov
Texniki redaktor: Yadigar Mirbagırzadə

Çapa imzalanmış 15. 01. 2020
Şərti çap vərəqi 41,5 Sifariş № 1
Kağız formatı 60x84 1/8. Tiraj 300·

Jurnal "Elm və təhsil nəşriyyat-poliqrafiya" müəssisəsində
hazır elektron nüsxə əsasında çap olunmuşdur.
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 055 426 -72-27
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.